



downloaded from KitabYurdu.org

**DANIEL KEYES FLOWERS FOR ALGERNON**
**DENIEL KEYES**

ELCERNON ÜÇÜN ÇİÇƏKLƏR Bakı, Qanun Nəşriyyatı, 2015 Tərcümə: Nadir Qocabəyli Korrektor: Flora Əliyeva Qanun Nəşriyyatı Bakı, AZ 1102, Tbilisi pros., 76 Tel: (+99412) 431-16-62; 431-38-18 Mobil: (+994 55) 212 42 37 e-mail: info@qanun.az www.qanun.az www.fb.com/Qanunpublishing www.instagram.com/ Qanunpublishing ISBN 9789952362084 © Qanun Nəşriyyatı, 2015 Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları Qanun Nəşriyyatına məxsusdur.
Kitabın təkrar və hissə-hissə nəşri «Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında Azərbaycan Respublikasının Qanunu »na ziddir.

ELCERNON ÜÇÜN ÇİÇƏKLƏR

Müasir fantastikanın qızıl fonduna daxil olan romanda hər şeydən öncə son dərəcə maraqlı bir əhvalatla qarşılaşan oxucu qəhrəmanla, onun yaşantılanyla çox yaxından tanış olur. Ağıldankəm Çarlinin cərrahiyyə əməliyyatı nəticəsində dahiyə çevrilməsi, ondan imtina edən valideynləri, bacısı ilə görüşü, yaşadığı eşq macərası əsərdə olduqca maraqlı və orijinal tərzdə təsvir olunub. Yazıçı adi, bir az da kəmağıl Çarlinin səmimi, kövrək duyğularını, dahi Çarlinin iti ağlı, yüksək intellekti, dəmir


downloaded from KitabYurdu.org

məntiqi və soyuq mühakimələriylə üz-üzə qoyur, cəmiyyətin kəmağıl və dahi insana fərqli münasibətinin psixoloji məqamlarını açır.

ELCERNON UÇUN ÇİÇƏKLƏR

Anama və atamın xatirəsinə

1

3 mart ı hesabat

Doxdur Ştraus dedi ki nə düşünürəmsə və xatırlıyıramsa həmdə bugünnən sora baş verənnərin hamsını yazmalıyam. Niyəsini bilmirəm amma o deyir ki olar mənim özlərinə uyğun gəldiyimi bilməlidilər. Məncə mən olara uyğun gəlirəm ona görə ki mis Kinnian dedi ki olar məni ağıllandıra bilərlər. Mən ağıllı olmaq istiyirəm. Mənim adım Çarli Qordondu mən Donnerin çörəkxanasında işdiyirəm orda cənab Donner mənə həftədə ıı dollar ödiyir və ürəyim istiyəndə çörək ya da piroq verir. Mənim 32 yaşım var bi aydan sora da ad günümdü. Doxdur Ştrausa və prafessır Nemura demişəm ki yaxşı yaza bilmirəm ancaq o dedi ki eybi yoxdu necə danışıramsa elə də yaza bilərəm hətda həfdədə 3 dəfə axşamlar getdiyim Bekmanın ağılı zəyif olanlar kolecində mis Kinnianın dərsində yazdığım inşalar kimi də yaza bilərəm. Doxdur Ştraus deyir ki ürəyin nə istiyir başına nə gəlirsə hamsın yaz ancaq mənim ağlıma tay heşnə gəlmir ona görə də yazmağa bi şey yoxdu və mən bugünnük qutarıram... Səmimiyətlə sizin Çarli Qordon.


downloaded from KitabYurdu.org

4 mart 2 hesabat

Bugün məni yoxladılar. Mənə elə gəlir ki olara uyğun gəlmirəm. Məndə fasilə vaxtıydı və olar deyən kimi prafessır Nemurun yanma getdim onun katibəsi salam verib məni pisxalogiya şöbəsi yazılan qapının ağzına gətirdi burda böyük bir zal və ustol ustul düzülmüş çoxlu balaca otağlar vardı. Otağların birində çox mehriban bir adam vardı və əlində çernil ləkəsi olan ağ kağızlar. Dedi ki otur Çarli. Rahat və sakit ol. Onun əynində doxdurdakı kimi ağ xalat vardı ancaq mənə elə gəldi ki o doxdur deyil çünkü mənə demədi ki ağzını aç və a de. Onda təkcə o ağ vərəqlər vardı. Onun adı Bartdı familyası yadımda deyil çünkü yaddaşım pisdi. Mən onun nə etmək istədiyini bilmirdim və ustuldan bərk yapışmışdım elə bil diş həkiminin qəbulundaydım ancaq Bart diş həkimi deyil ancaq mənə dedi ki sakit olum. Mən də qorxdum ona görə ki belə deyənnən sora həmişə adamı ağrıdan nəsə edirlər.

Bart dedi ki Çarli bu kağızda nə görürsən. Mən çernil ləkəsin görüb çox qorxdum halbuki dooşan pəncəsi cibimdəydi çünkü balaca olanda mən pis oxuyurdum və həmişə çernili dağıdırdım. Barta dedim ki mən ağ vərəqə dağılmış çernil görürəm. Bart dedi hə və gülümsədi və mən özümü yaxşı his etdim. O ptün vərəqləri çevirdi və mən ona dedim ki kimsə olann üstünə qara və qırmızı çernil töküb. Mən fikirrəşdim ki bu hasantdı ancaq qalxıb getmək istiyəndə Bart dedi ki otur Çarli biz hələm


downloaded from KitabYurdu.org

qutarmamışıq. Biz hələm vərəqlərlə qutarmamışıq. Mən başa düşmədim ancaq yadıma düşdü ki doxdur Ştraus mənə demişdi ki sənə nə desələr onu da edərsən hətda başa düşməsən də çünkü bu tesdi.

Mən Bartın nə dediyini çox da yaxşı xatırlamıram ancaq yadımdadır ki o istiyirdi mən deyim ki çemillərin içində nə var. Mən orda heşnə görmədim ancaq Bart dedi ki şəkillər var. Mən heş bir şəkil zad görmədim. Mən çox çalışdım. Vərəqə əvvəl yaxınnan sora uzaqdan baxdım. Sora dedim ki əyər eynək taxsam yəqin ki tay da yaxşı görərəm mən kinoda və tilivizirə baxanda eynəyimi taxıram ona görə də fikirrəşdim ki eynəknən

çernilli şəkilləri tay da yaxşı görərəm. Mən eynəyimi taxdım və dedim ki qoy baxım mərc gəlirəm ki bu dəyqə oları tapacam. Mən çox çalışsam da şəkilləri tapa bilmədim ancaq çemili gördüm. Mən Barta dedim ki mənə təzə eynək lazımdı. O kağıza nəsə yazdı və mən qorxdum ki tesdən keçə bilmiyəcəm. Mən ona dedim ki çox gözəl şəkildi kənarlarında da qəşəng nöqtələri var ancaq o başını buladı və mən başa düşdüm ki yenə nəsə düz deyil. Mən soruşdum ki başkaları çemilin içində nəsə görə bilirlər və o dedi ki olar şəkilləri çernil ləkəsinin içində təsəvür edirlər. O dedi ki şəkillərdəki çernilə çernil ləkəsi deyirlər.

Bart çox mehriban adamdı və mis Kinnian kəmağıl böyüklərə dərsdə oxumağı öyrətdiyi kimi yavaş danışır.



downloaded from KitabYurdu.org

O mənə bu testi başa saldı. O dedi ki adamlar çernilin içində müxtəlif şeylər görürlər. Ona dedim ki mənə görsətsin. O görsətmədi ancaq dedi ki burda nə olduğunu təsəvür elə. Bunun sənin yadına nəyi saldığını və bir şey düşün. Mən gözdərimi yumdum və düşünüb dedim ki elə bil ağ vərəqin üstünə çernil köpükləri tökülür.

Mənə elə gəlir ki bu testən keçə bilmədim.

5 mart 3 hesabat

Doxdur Ştraus və prafessır Nemur deyirlər ki bunun vərəqlərdəki çernilə heş bir dəxli yoxdu. Mən də dedim ki əyər çernili mən tökməmişəmsə olann altında nə olduğunu hardan bilə bilərəm. Olar dedilər ki bəlkə də mən olara uyğun gəlirəm. Mən doxdur Ştrausa dedim ki mis Kinnian mənə heş vaxt tes verməyib ancaq yazmaq və oxumaq verib. O da dedi ki mis Kinnian ona deyib ki mən onun Bekmanın ağıldankəmlər kolecində ən yaxşı şagirdi olmuşam və hamıdan çox çalışmışam ona görə ki hətda mənnən ağıllı olannardan da çox öyrənmək istəmişəm.

Doxdur Ştraus soruşdu ki necə olub ki sən Bekmanın məktəbinə gəlmisən Çarli. Onnan necə xəbər tutmusan. Dedim ki yadımda deyil. Prafessır Nemur soruşdu ki niyə oxumağı və yazmağı öyrənmək istiyirsən. Mən ona dedim ki çünkü ptün ömrüm boyu axmaq yox ağıllı olmaq istəmişəm və anam həmişə deyirdi ki çalış və öyrən və mis Kinnian deyir ağıllı olmaq çox çətindi və


downloaded from KitabYurdu.org

hətda mən sinifdə nəsə öyrənəndə də çox şey yadımnan çıxır.

Doxdur Ştraus kağızda nəsə yazdı prafessır Nemur isə məynən çox ciddi danışdı. O dedi ki bilirsən Çarli biz bu ekisprimentin adamlara necə təsir edəcəyini bilmirük çünkü onu ancaq heyvannarın üstündə sınamışuğ. Mən dedim mis Kinnian mənə deyib ancaq məni ağrıtsa da vecimə olmıyacaq ona görə ki mən gücliyəm və çalışacam.

Mən ağıllı olmaq istiyirəm əyər olar icazə versələr. Olar dedilər ki mənim ayləmnən icazə almalıdılar ancaq məni saxlayan German əmi ölüb və ayləm də yadımda deyil. Mən öz anamı və atamı balaca bacım Normanı çoxdan lap çoxdannan görmürəm. Bəlkə olar da ölüblər. Doxdur Ştraus oların harda yaşadığın soruşdu. Mənə elə gəlir ki bruklində. O mənə dedi ki olan tapacaqlar.

Yaxşı olardı ki bu hesabatdan az yazım ona görə ki çox vaxtımı alır və gecə gec yatdığıma görə səhər yorğun oluram. Cimpi mənim üstümə bağırdı çünkü peçin yanma apardığım bir sini bulkini əlimdən saldım. Olar hamsı bulaşdılar və o oları silənnən sora peçə qoymalı oldu. Cimpi həmişə mənim üstümə
bağnr ancaq əslində mən onun xoşuna gəlirəm çünkü o mənim dosdumdu. Əyər mən ağıllansam bu ona süpriz olacaq.

4 hesabat


downloaded from KitabYurdu.org

Bugün olara uyğun olmağımla bağlı başka bir axmaq test verdilər. Elə həmin yerdə amma başka bir otaqda. Ordakı xanım mənə onun adını dedi və mən də soruşdum ki onu hesabatta necə yazmaq olar. Tematik apparseptik test. Mən ilk iki sözü bilmirəm, ancaq testi bilirəm. Onu eləmək lazımdı yoxsa pis qiymət alarsan.

Mən əvvəlcə düşündüm ki test hasatdı ona görə ki şəkillərin görmüşdüm. Ancaq bu dəfə o istəmədi mən deyim ki görürəm mən tamam karıxdım. Dünən mən ona dedim Bart deyib ki mən çernilin içində nə gördüyümü deməliyəm. O dedi bu başka tesdi. Sən şəkillərdə gördüyün adamlar hakkında əhvalatlar fikirrəşməlisən.

Mən dedim ki tanımadığım adamlar hakda necə danışa bilərəm. O dedi ki sən uydur mən də dedim ki bu yalan olacaq. Mən bi də heş vaxt yalan danışmıyacam çünkü balaca olanda yalan danışdığıma görə məni döyürdülər. Kaşlyokumda mənim
və Normanın bi də ölməmişdən qabaq məni çörəkxanaya işə düzəldən German əminin şəkli var.

Mən dedim ki olar hakda əhvalat danışa bilərəm, çünkü olarnan uzun müddət bi yerdə yaşamışam ancaq xanım olar hakda eşitmək də istəmədi. O dedi ki bu test də o biri də mənim şəxsiyətimi öyrənmək üçündü. Mən dedim ki üstünə çemil tökülən vərəqlərin içində adamların şəkli olanı mənə verə bilərsiz hansıları ki mən tanımıram. O hirsdəndi və şəkilləri apardı. Mənim heş



downloaded from KitabYurdu.org

vejimə deyil.

Mənə elə gəlir ki bu testi də eləmədim.

Sora mən ona şəkilləri çəkdim amma mən pis şəkil çəkirəm. Sora Bart ağ xalatda gəldi onu Bart Seldon çağırırlar.

O məni başka bi yerə apardı Bekman unversitetinin həmənki dördüncü mərtəbəsində labaratoriya deyilən yerə. Bart dedi ki pisxalogiya beyin deməkdi labaratoriya isə o deməkdi ki olar orda ekispirment aparırlar. Mən elə bildim ki bu sakqızdı ancaq indi mənə elə gəlir ki bular oyun və tappacadı çünkü biz buları etmişük.

Mən tappacanı tapa bilmədim çünkü onu qırıq qırıq eləmişdilər və dəliklərə girmirdi. Bir oyunda kağızın üstünə cür bə cür xəttər çəkmişdilər bir tərəfdə START bir tərəfdə də FİNİŞ yazılmışdı. Bart dedi ki bu oyuna LABRİNT deyirlər və mən karandaşı götürüb START olan yerdən FİNİŞ olan yerəcən elə çəkməliyəm ki xəttəri kəsməyim.

Mən başa düşmədim və biz bi topa kağız zay ettik. Onda Bart dedi ki gedək sənnən ekispirmental labaratoriyaya sənə bi şey görsədəcəm onda bəlkə başa düşdün. Biz beşinci mərtəbəyə qalxıb başka bi otağa girdik burada çoxlu qəfəslər və heyvanlar vardı. Orda meymunlar və siçoollar vardı. Orda köhnə zibillikdən gələn dəhşət qoxu vardı və ağ xalat geymiş adam olarnan oynayırdı və mənə elə gəldi ki ora mağazadı ancaq olar



downloaded from KitabYurdu.org

alıcılara oxşamırdılar. Bart qəfəsdən yekə bi siçool çıxardıb mənə görsətdi. Bart dedi ki bu Elcernondu və labrintdə əla hərəkət edir. Mən dedim görsət görüm.

O Elcemonu divarları və çoxlu əyriləri və döngələri START və FİNİŞ olan böyük yeşiyə buraxdı üstünü də şüşəylə bağladı. Bart saadını çaxardıb qapını qaldırdı və dedi getdik Elcernon

siçool da iki üç dəfə iyimsilənib qaşdı. Əvvəlcə o düz qaşdı amma sora görəndə ki gedə bilmir geri qayıdıb oturdu bığlarını tərpədib o biri tərəfə qaşdı. Bu ona oxşuyurdı ki hansı ki Bart mənim kağızın üstündəki xətlərlə etməyimi istiyirdi. Mən güldüm çünkü elə bilirdim siçool bunu eliyə bilmiyəcək. Ancaq Elcernon necə lazımdı qaçırdı ona görə ki FİNİŞ yazılan yerə gəlib ciyillədi. Bart dedi o sevinir ki hər şeyi necə lazımdı etdiyinə görə.

Ay səni bic siçool mən dedim.

Bart dedi Elcernonla yarışmaq istiyirsən. Dedim əlbəttə və o dedi ki onda taxtanın üstünə çəkilmiş başka labrint var karandaşa oxşayan elektrik çubuğu da var Elcernonun labrintin isə elə düzəldəcək ki mənimki olacaq və biz eyni şeyi edəcök.

O stolun üstündəki ptün divarların yerini dəyişdi Elcernonunkular seçmə idi ona görə də oları başka cür etti.

Sora şüşəni qaytarıb yerinə qoydu ki o divarların



downloaded from KitabYurdu.org

üstündən birbaşa FİNİŞƏ tullana bilməsin. Sora o elektrik çubuğun mənə verdi və onu xəttərin arasıyla necə gəzdirməyi görsətdi və mənə
onu taxtanın üstündən qaldırmaq olmazdı ta ki onu heşyerə tərpədə bilməyənəcən ya da məni azmaz silkələmiyənəcən. Mən ona baxmamağa çalışırdım və çox həycannanırdım.

O get deyəndə mən getmədim çünkü bilmədim hara gedəm. Sora eşitdim ki Elcernon yeşiyin içində ciyillədi elə tappatap saldı ki guya qaçır. Mən çubuğu tərpəttim ancaq yaxşı gəzdirə bilmədim çünkü ilişdim və məni titrətti. Bu ağrıtmadı sadəcə biaz tullandırdı Bart isə dedi bu onu görsədir ki mən düz getməmişəm. Mən taxtanın yarsmacan getdim və Elcernonun ciyillədiyini eşitdim elə bil məni udduğuna görə sevinirdi.

O məni 10 dəfə uddu çünkü mən FİNİŞİN düzgün yolunu tapammırdım. Mən özümü pis his etmədim çünkü Elcernona baxıb başa düşdüm FİNİŞƏ necə getmək lazımdı hətda bu çox uzun çəksə də.

Mən bilmirdim siçoollar belə ağıllıdı.

5 hesabat 6 mart

Olar mənim bacım Normanı axtarıb tapıblar o anamla bruklində yaşayır və əməlyata icazə verib. Mən elə həycanmyam ki bulann hamsın gücnən yazıram. Ancaq əvvəlcə prafessır
Nemur və doxdur Ştraus biaz spor elədilər. Doxdur Ştraus


downloaded from KitabYurdu.org

və Bart Seldon gələndə mən prafessır Nemurun otağına oturmuşdum. Prafessır Nemur mənə görə nəsə narahat oldu amma doxdur Ştraus dedi ki mən olann gördüyü hərkəsdən yaxşı görünürəm. Bart dedi ki mis Kinnian ağıldankəmləri öyrəttiyi məktəbdən məs məni məsləət görüb.

Doxdur Ştraus dedi ki məndə yaxşı nəsə var. O dedi ki məndə mativasiya var. Onun məndə olmağınnan ömrüm boyu xəbərim olmayıb. O deyəndə ki bu ay kyü 68 lərin hamsmda olmur bu mənim xoşuma gəldi. Mən bilmirəm bu nədi və hardan gəlir ancaq o dedi ki bu Elcernonda da var onda mativasiya yeşiyinə pendir qoyanda əmələ gəlir. Ancaq bu ona görə ola bilməzdi çünkü bu həftə mən pendir yeməmişdim.

Prafessır Nemur narahat oldu ki mənim ay kyüm çox yüksələcək ancaq o məndə çox aşağıdı elə ona görə də xəstələnirəm. Doxdur Ştraus isə prafessır Nemura mənim başa düşmədiyim nəsə dedi olar danışdığı vaxt mən kitabçaya bəzi sözdər yazdım sora da hesabata köçürtdüm.

O dedi ki Harold prafessır Nemuru belə çağırırlar mən bilirəm ki Çarli qətiyən sizin birinci böyük intel*** üçün istədiyiniz deyil. Ancaq belə aşağı ment*** bir çox insan düşman'*** və əməkdaş*** istəmir olar küt və apat*** adamlardır və olarnan iş görmək çətindi. Çarlinin xəsyəti yaxşıdı o marağlanır və həmişə xidmət etməyə şaddı.



downloaded from KitabYurdu.org

Onda prafessır Nemur dedi ki o birinci adam olacaq hansı ki ağlı cərrahi yolnan yaxşılaşacaq. Doxdur Ştraus dedi tamamilə düzdü. Belə böyük öyrənmək mativasiyası olan ağıldankəmi biz hardan tapacoğ. Görün o öz inkişaf səvyəsinə uyğun necə yaxşı yazmağı və oxumağı öyrənib.

Mən oların nə danışdığını elə də tez başa düşmədim ancaq diyəsən doxdur Ştraus mənim leyhimə prafessır Nemur isə əleyhiməydi. Bart dedi Alisa Kinnian deyib ki onda oxumağa həvəs var. O bizə yalvardı. Və bu doğrudu çünkü mən ağıllı olmaq istiyirəm. Doxdur Ştraus qalxıb gəzişdi və dedi ki bizə məs Çarli lazımdı. Bart başın tərpətdi. Prafessır Nemur boynunun ardını qaşıdı bumunu ovuşdurdu və dedi ki bəlkə də
siz haqlısız. Ancaq onu başa salmaq lazımdı ki hər şey hamar getmiyə bilər.

O bunu deyəndə mən elə sevindim və həycannandım ki tez qalxıb onun əlin sıxdım çünkü mənə qarşı çox rəhimliydi. Diyəsən mən bunu edəndə o biaz qorxdu.

O dedi ki Çarli biz bunun üstündə uzun müddət işdəmişük ancaq heyvanlarla məsələn Elcernonla. Biz əminik ki sən başa düşdün nə alınmıyacaq və onda ümumyətlə heşnə olmıyacaq. Ya da müvəkqəti alınacaq sorası tay da pis olacaq. Sən bilirsən bu nə deməkdi. Bəlkə də biz səni Uorrenin evinə göndərməli olacoğ.

Mən dedim mənimçün tafotu yoxdu. Mən çox güclüyəm və həmişə yaxşı şeylər edirəm və bundan başka



downloaded from KitabYurdu.org

xoşbaxdıqdan dooşan pəncəsi var məndə və ömrümdə heş bir güzgünü sındırmamışam. Bir dəfə boşqabı əlimnən saldım amma bu sayılmır.

Doxdur Ştraus dedi ki Çarli əyər heşnə alınmasa da sən elim üçün böyük töhvə verirsən. Bu ekispirment heyvanların üstündə çox aparılıb amma sən ilk insan olacaqsan. Mən ona
sağ ol doxdur dedim və mis Kinnian dediyi kimi siz mənə 2 ci şans verməyə görə peşman olmıyacağsız. And içirəm əməlyattan sora mən ağıllı olmağa çalışacam. Mən çox çalışacam.

Hesabat 6 mart 8

Mən qorxuram. Kolecdə və tib məktəbində oxuyan çoxlu adam mənə xoşbaxdıq arzulamağa gəlmişdilər. Bart mənə güllər gətirmişdi və dedi ki buları pisixi şöbədən göndəriblər. O mənə uğurlar arzuladı. İnanıram ki baxtım gətirəcək. Məndə dooşan pəncəsi xoşbaxt penni və nal var. Doxdur Ştraus dedi ki bu qədər möhumatçı olma Çarli. Bu elimdi. Mən bilmirəm elim nədi ancaq olar hamısı belə deyir. Ona görə də bəlkə də bu mənə uğur gətirər. Ancaq mən yenə də dooşan pəncəsini bir əlimdə ortası deşik xoşbaxt pennini də o biri əlimdə tuturam. Mən nalı da özümnən götürmək istədim amma o çox ağır oldu deyən onu gödəhçəmin cibində saxladım.

Çörəkxanada işləyən Co Karp şakaladlı piroq gətirmişdi onu cənab Donner göndərib və olar inanırlar ki



downloaded from KitabYurdu.org

mən tezliknən kökələcəm. Çörəkxanada elə bilirlər ki mən xəstəyəm çünkü
prafessır Nemur istiyir ki mən belə deyim əməlyat hakda heşnə demiyim. Bu sirdi çünkü birdən əməlyat alınmaz. Sora mənim yanıma mis Kinnian gəldi və mənə jurnallar gətirdi o əsəbiydi və qorxmuşdu. O stolun üstündəki çiçəkləri düzəltti və hamsmı səliqəyə saldı. O mənim yastığımı da başımın altında düzəltti. Mən onun xoşuna gəlirəm çünkü hər şeyi öyrənməyə çalışıram böyüklər üçün mərkəzdəki başkalan kimi etmirəm hər şeyə tüpürmürəm. O istiyir ki mən ağıllı olum. Mən bilirəm.

Sora prafessır Nemur dedi ki mənə dəyməyə tay heş kəs gəlmiyəcək və mənə dincəlmək lazımdı. Mən soruşdum ki əməlyattan sora Elcernonu uda biləcəm və o dedi ki ola bilər. Əyər əməlyat necə lazımdı keçsə mən o siçoola görsədəcəm ki mən də onun kimi ağıllı hətda onnan da ağıllı ola bilərəm. Mən tay da yaxşı oxuyanda və sözdəri düzgün deyəndə lap çox biləcəm və başkalanna oxşuyacam. Onda hamı təcüblənəcək. Əyər əməlyat necə lazımdı keçsə və mən ağıllansam bəlkə də öz atamı anamı və bacımı tapacam və olara görsədəcəm. Olar necə də təcüblənəcəklər görəndə ki mən də bacım kimi ağıllıyam.

Prafessır Nemur deyir ki əyər hər şey yaxşı qutarsa olar başka adamları da ağıllandıracaqlar. Bəlkə də ptün dünyada. Və o dedi ki mən elim üçün böyük iş görəcəm


downloaded from KitabYurdu.org

və məhşur olacam adımı kitaplarda yazacaqlar. Məhşur olmaq mənim heş vejimə də deyil. Mən ancaq ağıllı olmaq istiyirəm başkaları kimi və istiyirəm ki mənim də çoxlu dostdarım olsun və məni çox isdəsinnər. Bugün mənə yeməyə heşnə vermədilər. Mən bilmirəm ağıllı olmaq üçün bu lazımdımı və mən yemək istiyirəm. Prafessır Nemur şakaladlı piroqumu aldı. Bu yaxşı iş deyil. Doxdur Ştraus dedi ki əməlyattan sora qaytaracaq. Əməlyattan qabaq heşnə yemək olmaz. Hətda pendir də.

Hesabat 711 mart

Əməlyat qəti ağrıtmadı. Doxdur Ştraus onu eliyəndə mən yatmışdım. Heş bilmirəm necə oldu gözdərimdə və başımda 3 gün sarğı gəzdim və indiyənəcən də hesabat yazammıram. Arıq medsesdıra hansı ki mənim necə yazmağıma göz qoyurdu dedi ki mən HESABATI səf yazıram və mənə görsətdi necə yazmaq lazımdı. Bunu yadda saxlamaq lazımdı. Necə yazmaq lazım olduğun mən çox pis xatırlıyıram. Bugün sarğını gözümnən aşdılar və mən hesabat yaza bildim. Ancaq başımda hələm sarğı var.

Mənə çox qorxdum olar gəlib deyəndə ki əməlyata getmək lazımdı. Məni qravatdan düşürdüb başka bir təkərli qravata uzanmağa məcbur etdilər və otaqdan çıxardıb kalidorla üstünə əməlyatxana yazılmış qapıya qədər apardılar. Mən təcübləndim bura yaşıl divarları olan yekə bir otaq idi və ətrafda çoxlu başka doxdurlar



downloaded from KitabYurdu.org

oturmuşdular olar əməlyatı izliyəcəkdilər. Mancə bu şou kimi bi şey olacaq.

Ağappaq geyinmiş və tilivizirdə görsədilən filimlərdəki kimi üzündə ağ sarğı əllərində irzin əlcəklər olan bi adam dedi ki sakit ol Çarli bu mənəm doxdur Ştraus. Mən dedim salam doxdur mən qorxuram. O dedi qorxma Çarli sən indi yatacaqsan. Mən dedim ki elə bunnan qorxuram da. O mənim başımı tumarladı sora ağ maskalı 2 adam yaxınnaşıb əllərimi və ayaqlarımı elə bağladılar ki tərpənə bilmədim və çox qorxdum ağlamaq istədim ancaq olar mənim üzümə nəfəs almaq üçün irzin bi şey keçirtdilər onnan qəribə iy gəlirdi. Mən daim eşidirdim ki doxdur Ştraus hamıya əməlyat hakda danışır və nə
etmək istədiyin deyir. Ancaq mən heşnə başa düşmürdüm və fikirrəşirdim ki bəlkə də ağıllanannan sora onun nə danışdığını başa düşəcəm. Mən dərinnən nəfəs aldım və çox yorulub o dəyqə yuxuya getdim.

Ayılanda gördüm ki yenə öz qravatımdıyam və qarannıqdı. Mən heşnə görmədim ancaq danışıqları eşitdim. Bular medsesdıra ilə Bart idi və mən dedim ki noolub işıqlan yandmn və məni haçan əməlyat edəcəksiz. Olar güldülər və Bart dedi ki Çarli artıq hər şey edilib. Ona görə qarannıqdı ki sənin gözdərində sarğı var.

Nə yaxşı. Olar bunu mən yatanda ediblər.

Bart hər gün gəlib qızdırmamı ölçür və başka şeyləri



downloaded from KitabYurdu.org

yazır. O dedi ki bu elimi metoddu. Hər şeyi yazmaq lazımdı ki şoradan istiyəndə bunu yenə edə bilsinnər. Mənə yox başkalarma yəni o biri ağılsızlara.

Ona görə də mən bu hesabatdan yazmalıyam. Bart dedi ki bu ekispirmentin bi hissəsidi və olar hesabatdann şəklin çəkib öyrənəcəklər və mənim beynimdə nə baş verdiyin biləcəklər.
Bilmirəm necə öyrənəcəklər çünkü mən olan milyon dəfə oxusam da beynimdə nə olduğun bilmirəm olar necə biləcəklər.

Nə etmək olar bu elimdi və mən də çalışıram ki başkalan kimi ağıllı olum. Onda olar mənnən danışacaqlar və mən də olarnan oturub Co Karpın Frenkin və Cimpinin hər cür ciddi işlərdən danışmasına qulaq asacam. Olar işdiyəndə tanrıdan ya da prizdentin xəcdədiyi pullardan ya da respublikaçılardan və demokratdardan danışmağa başdıyırlar. Elə kışqırırlar ki elə bil dalaşmaq istiyirlər ancaq cənab Donner gəlib kışqınr ki bəsdi çərənlədiz işüzi görün. Mən də bu hakda danışmaq istiyirəm.

Əyər sən ağıllısansa onda dostdarın çox olur olarnan danışa bilərsən və heş vaxt tək qalmassan.

Prafessır Nemur dedi ki bunnan sora hesabatdarda ancaq olannarı yazmayım his etdiklərimi və keçmişim hakda da yazım. Mən dedim ki yadıma sala və fikirrəşə bilmirəm amma o dedi ki sən çalış.



downloaded from KitabYurdu.org

Gözdərimin bağlı olduğu müddətdə mən fikirrəşdim və yadıma saldım ancaq heşnə olmadı. Mən bilmirəm nə hakda fikirrəşim. Bəlkə onnan soruşsam mənə deyər ağıllananan
sora necə düşünüm. Ağıllılar nə hakda düşünürlər və nə xatırlayırlar. Marağlıdı.

12 mart

Sən demə prafessır Nemur hər dəfə köhnə hesabatı mənnən alannan sora təzə vərəqdə yenidən HESABAT sözü yazmalı deyiləmmiş. Ancaq aym tarixin yazmaq lazımdı. Bu əla fikirdi və vaxta ekanomiyadı. Mən qravatda dikəlib pəncərədən otdara və ağajdara baxa bilirəm. Arıq medsesdıranın adı Hildadı və o çox mehribandı. O mənə yemək gətirir yatağımı düzəldir və deyir ki başımda əməlyata icazə verdiyim üçün mən çox qoçağam. O deyir ki çinin ptün çaylarını ona versəydilər də buna razı olmazdı. Mən dedim ki bu çaya görə yox ağıllı olmağa görədi. O isə dedi ki oların səni ağıllandırmağa hakkı yoxdu çünkü tanrı istəsəydi sən ağıllı olasan elə edərdi ki dünyaya ağıllı gələrdin. Hələm Adəm və Həvva günah ağacı alma və olann qovulması hakda nələr deyir. Və bəlkə də prafessır Nemur və doxdur Ştraus elə şeylərnən oynuyurlar ki oları rahat buraxmaq yaxşı olardı.

O çox arığdı və danışanda üzü qıpqırmızı qızarır. O mənə dedi ki tannya dua elə və onnan sənə ettiklərinə


downloaded from KitabYurdu.org

görə səni bağışlamasını xaiş et. Ancaq mən alma yeməmişəm və günahım yoxdu ancaq qorxuram. Bəlkə olara beynimi əməlyat eləməyə nahak razılıq verdim çünkü o deyir ki bu tanrıya qarşı çıxmaqdı. Mən onu hirsdəndirmək istəmirəm.

13 mart

Bugün məndə başka medsesdıradı. O çox gözəldi adı Lyusildi və mənə hesabatdarda onun adm necə yazmağı görsətdi. Onun san saçdan və mavi gözdəri var. Mən soruşdum ki bə Hilda hanı o mənə dedi ki doğum addelindədi o dedi ki orda balaca uşaqlar doğulurlar mən soruşanda ki bə olar necə doğulur o da Hilda kimi qızardı və dedi ki kiminsə qızdırmasın ölçməlidi. Heşkəs mənə balaca uşaqlar hakda danışmadı. Bəlkə də ağıllansam öyrənəcəm. Bugün mis Kinninan mənim yanıma gəlmişdi və dedi ki Çarli sən əla görükürsən. Mən dedim ki özümü yaxşı his edirəm ancaq hələm ağıllanmamışam. Mən elə bilirdim ki əməlyattan sora gözümnən sarğını açanda ağıllanacam və çox şey biləcəm həm oxuya biləcəm həm də başkaları kimi çoxlu şeylər damşacam.

O mənə dedi ki bu belə deyil Çarli. Bu o dəyqə olmur və ağıllı olmaq üçün gərək çalışasan. Mən bunu bilmirəm. Əyər çalışmaq lazım idisə onda əməlyat nəyə gərəy idi. O dedi ki əməlyatm məni elə eləməsinə inanmır ki mən çalışım və ağıllı olum mən hər şeyi yadıma sala biləcəm amma əvvəllər heşnə yadıma düşmürdü.


downloaded from KitabYurdu.org

Mən ona dedim ki bu elə də yaxşı deyil çünkü mən elə bilirdim ki o dəyqə ağıllanacam və bəlkə də çörəkçinin köməyçisi olacam. Onnan sora anamı və atamı tapmaq istiyirəm. Olar mənim necə ağıllı olduğuma təcüblənəcəklər anam həmişə istiyirdi ki mən ağıllı olum. Mən mis Kinniana dedim ki mən çox çox çalışacam. O mənim başımı tumarladı və dedi ki sənə inanıram Çarli.

Hesabat 8

15 mart

Məni hospitaldan buraxdılar ancaq hələlik işə getmirəm. Heşnə olmadı. Mən bi yığın tesdən keçdim Elcernonnan miylon
dəfə yarışdım. O siçooldan zəhləm gedir o məni həmişə udur. Prafessır Nemur dedi ki mən yoxlanmalı və elə hey yarışmalıyam. Bu labrintdər də lap zəhlə tökəndi. Elə şəkillər də. Mənim kişilərin və qadınnarın olduğu şəkillərə baxmaqdan xoşum gəlir ancaq insannar hakkında yalan uydurmaq istəmirəm.

Mənim başım ağrıyır çünkü mən çox fikirrəşməyə və yadda saxlamağa çalışıram. Doxdur Ştraus söz verib ki mənə köməy edəcək ancaq eləmir. O mənə nə hakda fikirrəşməyi və haçan ağıllı olacam demir. O ancaq məni taxtda uzanmağa və danışmağa məcbur edir.

Mis Kinnian da kolecə mənə baş çəkməyə gəlir. Mən ona dedim ki heşnə baş vermir. Mən haçan ağıllı olacam. O dedi ki Çarli sən səbirri olmalısan buna vaxt lazımdı.



downloaded from KitabYurdu.org

Bu elə yavaş olacaq ki sən his etmiyəssən. O mənə dedi ki Bart ona deyib ki mənim işlərim yaxşı gedir. Mənim heş vejimə də deyil bu tesdər və axmaq yanşmalar və hesabatdar da elə axmaqdı.

16 mart

Mən Bartnan kolecin yeməkxanasında lenç yedim. Olarda yaxşı yeməklər olur və mən bi sent də ödəmirəm. Mənim oturub tələbə oğlannara və qızdara baxmaqdan xoşum gəlir. Bəzən olar gülürlər ancaq əsasən danışırlar elə Donnerin çörəkxanasmda danışılannardan. Bart dedi ki olar incəsənətdən siyasətdən və dinnən danışırlar. Mən bilmirəm bu nədi ancaq bilirəm ki din tanrı deməkdi. Anam mənə onun hakkmda danışıb onun dünyanı necə yaratmasmnan da. O deyib ki mən tannm həmişə sevməliyəm və ona dua eləməliyəm. Dualar mənim yadıma düşmür ancaq mən balaca olanda anam teztez məni tanrıya dua eləməyə məcbur edirdi ki o məni xəstə yox sağlam eləsin. Mənə elə gəlir ki bu elə o demək idi ki mən ağıllı deyiləm.

Bart dedi əyər ekispirment necə lazımdı keçsə mən tələbələrin nədən danışdıqlarm başa düşə bilərəm mən soruşdum ki yəni mən də belə ağıllı olacam o güldü və dedi ki bu uşağların elə də dərin ağlı yoxdu sən oları elə ötüb keçəssən ki sanki olar yerlərində dayanıblar.

O məni oların bəziləriylə tanış elədi və olar mənə elə qəribə baxdılar ki sanki yad adamam. Az qala


downloaded from KitabYurdu.org

unutmuşdum mən olara
danışdım ki tezliknən olar kimi ağıllı olacam ancaq Bart sözümü kəsib dedi ki mən labaratoriyada təmizlikçiyəm. Sora mənə başa saldı ki mənim əməlyatım sirdi. Mən bunun niyə sir olmasın elə də başa düşmürəm. Bart dedi ki bu hər ehtimala qarşıdı ki birdən heşnə alınmaz ona görə də prafessır Nemur istəmir ki ona gülsünlər xsusilədə Uelberq fondunnan olan adamlar hansı ki ona lahiyə üçün pul verirlər. Mən dedim ki adamların mənə gülməsi vejimə deyil. Mənə çox adam gülür ancaq olar mənim dostdanmdı və biz şənlənirik. Bart əlini mənim çiynimə qoydu və dedi ki Nemur sənə görə narahat olmur.

Mənə elə gəlir ki adamlar prafessır Nemura gülmiyəcəklər çünkü o kolecdə alimdi ancaq Bart dedi ki başka alimlər və diplomçular üçün alim də adamdı. Bart özü diplomçudu və onun ixtisası labaratoriyanm qapısında yazıldığı kimi PİSXALOGİYADI.

Ağıllanmağa çox tələsirəm çünkü istiyirəm kolecin uşağları kimi biləm ki dünyada nələr var. İncəsənət siyasət və tann hakda.

17 mart

Səhər yuxudan oyananda mənə elə gəldi ki tay ağıllanmışam ancaq səf etmişəm. Hər səhər belə düşünürəm və həmişə də səf edirəm. Bəlkə ekispirment alınmayıb. Bəlkə mən heş vaxt ağıllanmıyacam və Uorrenin evində yaşıyacam.


downloaded from KitabYurdu.org

Tesdərə nifrət edirəm labrintə nifrət edirəm Elcernona nifrət edirəm. Heş vaxt ağlıma gəlməzdi ki mən siçooldan ağılsızam. Mən tay hesabat yazmaq istəmirəm. Mən hər şeyi unuduram və hət da dəfdərçəmə nəsə yazanda şoradan həmişə oxuya bilmirəm və özümü çox pis his edirəm. Mis Kinnian dedi Çarli səbirri ol ancaq mən yorulmuşam və mənə pisdir. Mənim daima başım ağrıyır. Mən çörəkxanıya qayıtmaq istiyirəm və heş bi hesabat zad yazmaq istəmirəm.

20 mart

Mən çörəkxanıya işdəməyə qayıdıram. Doxdur Ştraus prafessır Nemura dedi ki belə yaxşıdı ancaq mən yenə də əməlyat hakda heş kəsə danışa bimərəm o niyə olub və mən hər axşam işdən sora 2 saaddıq labaratoriyaya getməliyəm teslər etməliyəm və sarsaq hesabatdar yazmalıyam. Olar hər həftə
mənə zəhmət hakqı kimi pul verəcəklər çünkü Uelberq fondunnan olara pul verən adamlar belə demişdilər. Mən hələ də Uelberqin nə demək olduğunu bilmirəm. Mis Kinnian mənə izah elədi ancaq mən başa düşmədim. Əyər mən ağıllanmışamsa bə mənə niyə pul verillər. Əyər olar pul verəcəklərsə mən də gedəcəm. Çox çətindi yazmaq.

Mən geri qayıtmağıma şadam çünkü mən çörəkxanadakı işimi sevirəm dostdanmı da və bizə orda şən olur. Doxdur Ştraus dedi ki mən cibimdə qeyd dəftərçəsi gəzdirməliyəm hər ehtimala qarşı birdən



downloaded from KitabYurdu.org

yadıma nəsə düşər. Və mən hesabatdan hər gün yazmalı deyiləm ancaq əyər nəsə ağlıma gələndə ya da qeyri adi bi şey olanda. Mən dedim ki mənim başıma qeyri adi heşnə gəlmir və ekispirment də olmıyacaq. O dedi ki ruhdan düşmə Çarli bunun üçün vaxt lazımdı və sən özün o dəyqə biləcəksən. O izah etdi ki bu necə çox vaxt alır. Elcernonun yanında o hələlik 3 dəfə ağıllanıb.

Deməli Elcernon məni həmişə labrintdə ona görə ötür ki ona da bu əməlyatı ediblər. O xsusi siçooldu və ilk heyvandı ki əməlyattan sora belə uzun müddət ağıllı qalıb. Bilmirdim ki o

xsusi siçooldu. Bu başka söhbətdi. Yəqin ki mən labrintdə adi siçoolu ötə bilərdim. Bəlkə soralar Elcemonu da ötə biləcəm. Bax bu yaxşı olacaq. Doxdur Ştraus dedi ki diyəsən Elcernon həmişəlik ağıllı qalacaq və bu yaxşı əlamətdi çünkü ona da eyni əməlyatı ediblər.

21 mart

Bugün çörəkxanada yaman şənləndik. Co Karp dedi ki ey baxın görün Çarlini harda əməlyat ediblər olar sənə neyləyiblər Çarli beynini arxana keçiriblər. Mən istədim deyəm ki ağıllanacam ancaq yadıma düşdü ki prafessır Nemur deyib lazım deyil. Sora Frenk Reyli dedi ki Çarli sən qapını lazımi yerinlə açmadın. Mən güldüm. Olar hamsı mənim dostdanmdı və məni həqqi sevirlər.

İş çoxdu. Mənsiz çörəkxananı yığışdıran yoxdu çünkü bu mənim işimdi ancaq olar təzə oğlan da götürüblər Erni



downloaded from KitabYurdu.org

çörək paylayır əvvəllər isə bunu mən edirdim. Cənab Donner dedi ki hələlik onu qovmıyacaq ki mən biaz istirahət edim və çox işləmiyim. Mən ona dedim ki məndə hər şey qaydasmdadı və
mən çörək də paylaya bilərəm həmişəki kimi yığışdıra da bilərəm ancaq cənab Donner dedi oğlan qalsın.

Dedim ki bə mən neyniyəcəm. Cənab Donner isə kürəyimə şapılladıb soruşdu ki Çarli sənin neçə yaşın var. Mən dedim ki 32 doğum günümdə isə 33 olacaq. Sən çoxdan burdasan o soruşdu. Mən dedim ki bilmirəm. O dedi ki sən bura 17 il qabaq gəlmisən. Sənin əmin German tanri onun ruhunu şad eləsin mənim yaxın dosdum idi. O sənu bura gətirib mənnən xaiş elədi ki sənə burda işdəməyə icazə verim və sənnən muğayat olum. Ancaq o 2 ildən sora öləndə sənin anan səni Uorrenin evinə verdi və mən olan məcbur ettim ki sənə mənim yanımda işdəməyə icazə versinnər. Sən heş vaxt Uorrenin evinə qayıtmağa məcbur olmıyacaqsan.

Mən heş narahat da deyiləm ancaq bu Erni kimə lazımdı əyər mən çörək paylaya və yığışdıra bilirəmsə. Mən buları həmişə yaxşı eləmişəm. O dedi ki oğlana pul lazımdı Çarli və o əvvəlcə şagird olacaq onnan sora da çörək pşirən. Sən onun köməyçisi olacaqsan və lazım olanda onaköməy edəcəksən.

Mən heş vaxt köməyçi olmamışdım. Erni ağıllıdı ancaq başkaları nəsə onu elə də sevmirlər. Olar məni


downloaded from KitabYurdu.org

sevirlər, mənim dostdarımdılar və biz bi yerdə zarafatdaşıb gülürük.

Bəzən kimsə ona deyir ki ey baxsana Frenk ya da Co ya da hət da Cimpi o Çarli Qordona oxşuyur. Mən bilmirəm olar niyə belə danırlar ancaq olar həmişə gülürlər və mən də gülürəm. Səhər tezdən Cimpi o qocadı və axsaqdı mənim adımı çəkib Erninin üstünə kışqırdı çünkü Erni bayram piroqunu itirmişdi. O Erniyə dedi ki lənət şeytana sən özünü Çarli Qordon kimi apanrsan. Niyə o belə dedi bilmirəm. Mən heş vaxt göndərilən şeyləri itirməmişəm.

Mən cənab Donnerdən soruşdum ki Erni kimi şagirddik öyrənə bilərəm. Dedim ki əyər mənə şans versə öyrənə bilərəm.

Cənab Donner uzun uzadı və qəribə şəkildə mənə baxdı mənə elə gəlir ki bu ona görədi ki mən həmişə susuram. Frenk bunu eşitdi və qakqıllayıb güldü və ancaq cənab Donner ona acığlanıb peçin yanma qovanda səsin kəsdi. Sora o dedi ki buna çox vaxt lazımdı Çarli. Çörək pşirmək cox ciddi çətin işdi və hələlik bu hakda düşünmək lazım deyil Çarli.

Mən çox istiyirəm ki ona və başkalarına əsil əməlyat hakkında danışam. Mən istiyirəm ki hər şey alınsın və mən də başkaları kimi ağıllı olum.

24 mart

Prafessır Nemur və doxdur Ştraus mənim otağıma



downloaded from KitabYurdu.org

gəlmişdilər öyrənsinnər ki labaratoriyaya niyə gəlməmişəm. Mən dedim ki Elcernonla yarışa çıxmaq istəmirəm. Prafessır Nemur dedi ki istəmirsən lazım deyil ancaq gəlmək lazımdı. O mənə hədiyə gətirmişdi ancaq bu hədiyə deyildi müvəkqəti idi. O dedi ki bu öyrədən maşmdı və tilivizir kimi işdiyir. O danışır və şəkillər görsədir və mən onu yatmağa uzananda yandırmalıyam. Ancaq prafessır Nemur dedi ki əyər ağıllı olmaq istiyirəmsə o dediyi kimi etməliyəm. Mən isə ona dedim ki mənə elə gəlir ki mən heş vaxt ağıllanmıyacam.

Onda doxdur Ştraus yaxmnaşıb əlini çiynimə qoydu və dedi ki Çarli sən özün bunu bilmirsən ancaq getdikcə ağıllanırsan. Sən bunu his etmirsən necə ki saadm əqrəbinin hərəkətini his eləmirsən. Olar çox yavaş gedirlər. Səndə
dəyişiklik gedir. Olar çox yavaş gedir. Ancaq biz oları sənin tesdərindən və hesabatdarında necə danışmağınnan görürük. Biz bunun tam olmasına əmin deyilik ancaq əminik ki tezliknən sən tamamilə gənc bir ziyalı şəxis olacaqsan.

Mən dedim yaxşı və prafessır Nemur həmən tiliviziri necə yandırmağı görsətdi. Mən soruşdum ki bə o neyniyir və o yenə qaşqabağını salladı çünkü mən izah eləməyi xaiş ettim. Ancaq doxdur Ştraus dedi ki mənə danışmaq lazımdı çünkü mən tay deyilənlərə inanmıram. Prafessır Nemur elə görsənirdi ki elə bil dilini dişdəmək istiyir.



downloaded from KitabYurdu.org

Sora o yavaş yavaş izah elədi ki maşın mənim beynimi əvəz eliyir. O məni yatmaq istiyəndə öyrədəcək və biaz da demək olar yuxuya gedəndə. Mən danışığı eşidəcəm amma şəkilləri görmiyəcəm. Gecələr o mənə yuxu gördürəcək və lap balaca vaxtdarımı yadıma salmağa məcbur edəcək.

Qorxuludu.

Bi şey yadımnan çıxdı. Mən prafessır Nemurdan soruşdum ki mis Kinnianın yanma böyüklər üçün məktəbə haçan gedə bilərəm və o dedi ki tezliknən mis Kinnian özü kolecə gələcək

məni xsusi olaraq öyrətmək üçün. Bu yaxşıdı. Mən əməlyattan sora onu çox az görmüşəm amma o çox mehribandı.

Bu axmaq tilivizir ptün gecəni məni yatmağa qoymuyub. Axı necə yuxuya getmək olar kimsə qulağının dibində ptün gecəni bağırdığı vaxtda. Hələm bu axmaq şəkillər. Oh. Mən oyaq olanda o nə danışır bilmirəm yatanda nə danışdığını hardan bilim. Mən bu hakda Bartdan soruşdum o isə dedi ki hər şey normal gedir. O dedi ki mənim beynim yatanda öyrənir və mis Kinnian labaratoriyada mənnən məşğul olanda bu mənə köməy edəcək. Bu mənim fikirrəşdiyim kimi heyvannar üçün xəstəxana deyil. Bura elim labaratoriyasıdı. Mən elim nə demək olduğunu bilmirəm ancaq bilirəm ki olara bu ekispirmentləri etməyə köməy edirəm.


downloaded from KitabYurdu.org

Amma mənə yenə elə gəlir ki bu tilivizir axmaq bi şeydi. Əyər yatmağnan adam ağıllansaydı onda adamlar niyə məktəbə gedirlər. Bu şey mənə çətin ki köməy etsin. Mən əsil tilivizirdə gec vaxtda verilən verlişlərə çox baxmışam və bunnan ağıllı olmamışam. Bəlkə ptün verlişlər adamı ağıllandırmır.

26 mart

Əyər bu əşya məni gecələr yatmağa qoymursa gündüz necə işdiyəcəm. Mən gecə yarısı oyandım və yata bilmədim çünkü o dayanmadan təkrarlayırdı yada sal yada sal yada sal. Mənə elə gəlir ki nəsə yadıma düşdü. Dəqiq yadımda deyil ancaq mis Kinnian və oxuduğum məktəb hakdaydı. Bi də ora necə getməyim hakda.

Lap çoxdan Co Karpdan soruşmuşdum ki oxumağı necə öyrənib və mən də belə öyrənə bilərəm. O qakkıldayıb güldü o həmişə mən gülməli nəsə deyəndə belə edir və dedi ki Çarli boş yerə niyə vaxt itirirsən beyin olmayan yerə onu qoymaq olmaz. Ancaq Fanni Birden məni eşitdi və qardaşını soruşdu hansı ki kolecdə tələbədi və mənə Bekmanm kolecində olan geri qalmış böyüklər üçün olan məktəb hakda dedi. O bunu mənə kağızda yazdı Frenk isə güldü və dedi ki elə savadlı olma ki köhnə dostdarım görmək istəmiyəsən. Mən dedim qorxma mən köhnə dostdan atmaram hətda oxumağı və yazmağı öyrənsəm də. O güldü və Co Karp da ancaq Cimpi gəldi və dedi ki bulkaları düzməyin vaxtıdı. Olar hamsı məni



downloaded from KitabYurdu.org

sevirlər.

İşdən sora mən məktəbəcən 6 məhlə keşdim və biaz qorxdum. Mən çox istiyirdim oxumağı öyrənim və öyrənən kimi oxumaq üçün qəzet aldım.

Mən ora gəlib çatanda burda böyük bir zal gördüm və içərdə çoxlu adam vardı. Mən qorxdum ki kiməsə nəsə lazımsız bi söz deyərəm və ona görə getmək istədim ancaq sora qaldım. Mən gözdədim ki hamı getsin bəzilərindən başka və bi xammnan soruşdum ki mənə oxumağı öyrənmək olar çünkü mən qəzetin hamsını oxumaq istiyirəm və qəzeti ona görsətdim. Bu mis Kinnian idi ancaq onda mən onu tanımırdım. O dedi ki əyər sən sabah gəlsən və yazılsan mən sənə necə oxumağı öyrədərəm. Ancaq sən başa düşməlisən ki buna çox vaxt lazımdı bəlkə də illər lazım olacaq. Mən dedim ki bunu bilmirdim ancaq yenə də istiyirəm çünkü mən teztez özümü oxuyan kimi görsədirəm ancaq bu düz deyil və öyrənmək istiyirəm. O mənim əlimi sıxdı və dedi ki tanış olmağımıza şadam cənab Qordon. Mən sizin məliməniz olacam. Mənim adım mis Kinniandı. Bax belə mən məktəbə getdim və mis Kinniana bax belə rast gəldim.

Fikirrəşmək və yada salmaq çox çətindi və mən pis yatıram. Tilivizir çox bərkdən bağırır.

27 mart

İndi mən yuxular görməyə başdamışam və hər şeyi xatırlıyıram prafessır Nemur mənə dedi ki doxdur



downloaded from KitabYurdu.org

Ştrausnan terapeftik seanslara getmək lazımdı. O dedi ki terapeftik seanslar özünü pis his edəndə yaxşıdı və sən danışdıqca özünü yaxşı his edəcəksən. Mən ona dedim özümü pis his etmirəm və onsuz da ptün günü boş boş çərənniyirəm terapiya getmək nəyimə lazım ancaq o hirsdəndi və dedi ki fərqi yoxdu getməlisən. Terapiyada mən taxta uzandım doxdur Ştraus yanımda oturub dedi Çarli nə istiyirsən danış. Mən xeylağ susdum çünkü ağlıma heşnə gəlmirdi. Sora ona çörəkxana hakda danışdım və orda nə iş görürlər. Mənə elə gəlir ki onun otağına getmək və uzanmaq axmaqlıqdı axı mən hesabatdar yazıram və o onnan oxuya bilər. Ona görə də bugün hesabatı ona gətirib dedim ki bəlkə onu oxuyasan mən də taxtda biaz yatım. Mən çox yorulmuşdum bu nəhlətə gəlmiş tilivizir məni yatmağa qoymamışdı ancaq o dedi ki olmaz. Danışmaq
lazımdı. Mən danışmağa başdadım amma yanda məni yuxu aparıb.

28 mart

Mənim başım ağnyır. Amma bu dəfə tilivizirə görə deyil. Doxdur Ştraus yata bilmək üçün onun xodun almağı görsədib. Neçə dəfə səhər tezdən buların hamsm dinləmişəm ki yatdığım vaxt nə öyrəndiyimi bilim. Mən hət da ptün sözdəri də başa düşməmişəm. Bəlkə bu başka dildi ya da nədi. Ən çox amerka dilinə oxşuyur. Ancaq çox teztez danışır.



downloaded from KitabYurdu.org

Mən doxdur Ştrausdan soruşdum ki yuxuda ağıllanmağın nəyi yaxşıdı ki mən axı gündüzdər ağıllı olmaq istiyirəm. O dedi ki bu eyni şeydi və mənim iki beynim var. ŞÜUR var bi də ALT ŞÜUR var olar belə yazılır və biri o birinə demir ki nə edir. Olar birbiriynən danışmırlar. Ona görə də mən yuxu görürəm. Və ilahi mən necə də axmaq yuxular görürəm. Hamsı da bu tilivizirə görədi.

Doxdur Ştrausdan soruşmaq yadımnan çıxdı ki təkcə məndə iki dənə beyin var yoxsa hamıda. (Mən elə indicə doxdur Ştrausun verdiyi lüğətə baxdım. Alt şüur beynin fəaliyyətinə aid
olsa da, şüurda iştirak etmir, məsələn, səylərin alt şüuri konflikti.) Orda onun mənası hakda başka da nəsə vardı. Bu elə də yaxşı lüğət deyil mənim kimi axmaqlara yaramır.

Amma gecədən sora başım ağrıyır. Co Karp və Frenk Reyli işdən sora məni Hallorans barına içməyə dəvət etmişdilər. Mən viski içməyi xoşdamıram ancaq olar dedi ki yaxşıca şənlənəcök. Mənə çox yaxşı oldu. Biz oyun oynadıq mən bann piştaxtasının üstündə rəqs elədim başımda lampanın abajuru vardı hamı gülürdü. Sora Co Karp mənə dedi ki qızdara çörəkxanada ayaqyolun necə yuduğunu görsət və mənə əsgi verdi. Mən də görsətdim və hamı güldü mən dedim ki cənab Donner dedi ki mən onun ən yaxşı işçisiyəm çünkü öz işimi sevirəm və heş


downloaded from KitabYurdu.org

vaxt gecikmirəm əməlyattan başka heş vaxt işdən qalmamışam. Mən dedim mis Kinnian deyib ki Çarli fəxr elə çünkü sən yaxşı işdiyirsən. Hamı güldü. Frenk isə dedi ki Çarli ilə fırramrsa bu mis Kinnianm diyəsən başı xarab olub. Co isə dedi ki Çarli sən onu əzmisən. Mən dedim ki bilmirəm o nədən danışır. Mənə yenə içgi verdilər Co isə dedi ki ağıllananda çox gülməli olacaq. Mənə elə gəlir ki bu oların xoşuna gəlirəm deməkdi. Mən haçan ən yaxşı dostdarım Co Karp və Frenk Reyli kimi ağıllı olacam.

Yadımdadı gecə necə qutardı və olar mənnən xaiş etdilər ki tinə qaçıb baxım görüm yağış yağır ya yox. Mən qayıdanda heş kəs yox idi. Yəqin məni axtarmağa getmişdilər. Hava qaralmamış olan axtarmağa başdadım. Mən azdım və buna görə özümə acığım tutdu çünkü Elcernon burdan yüz dəfə keçərdi amma azmazdı.

Qalanı yadımda deyil ancaq mis Flini dedi ki məni nazakətli bi polis gətirib. Gecə yuxumda anamı və atamı gördüm ancaq anamın sifəti görükmürdü o ağ və dumannıydı. Mən ağladım çünkü böyük bi mağazadaydım və oları tapa bilmirdim və rəflərin arasıyla qaçırdım. Sora bi adam yaxınnaşıb məni böyük bi otağa gətirdi burda divarlann döşünə skameykalar qoyulmuşdu o mənə nabat verdi və dedi ki belə böyük oğlana ağlamaq olmaz çünkü anam və atam tezliknən gəlib məni tapacaqlar. Belə bi yuxuydu və başım ağrıyırdı



downloaded from KitabYurdu.org

o şişmiş və hər tərəfi göyərmişdi. Bi də viski içmiyəcəm. Heş vaxt.

29 mart

Mən Elcernonu uddum. Mən bunu bilmirdim Bart mənə dedi. Sora ikinci dəfə mən uduzdum çünkü həycannanmışdım. Sora mən onu 8 dəfə də uddum. Əyər belə ağıllı siçoolu uduramsa yəqin ağıllanıram ancaq özüm bunu his etmirəm. Mən yenə də yanşmaq istədim amma Bart dedi ki bugünnük bəsdi. O Elcernonu saxlamaq üçün mənə verdi. Əla siçooldu. Panbıq kimi yumuşaqdı. O gözdərini qırpır və açanda kənarlan qara və qırmızı olur. Onnan soruşdum ki onu yemləyə bilərəm çünkü özümü günahkar sayırdım və onnan dostdaşmaq istiyirdim. Bart dedi ki yox Elcemon xsusi siçooldu onu da mənim kimi əməlyat ediblər. O ptün heyvannar içində uzun müddət sağ qalan birincisidi və o dedi Elcernon elə ağıllıdı ki yemək üçün hər dəfə yeni kilidi aça bilir ona görə də o hər dəfə yeni şeyləri öyrənməlidi. Bu məni kədərrəndirdi əyər o öyrənə bilməsəydi yeyə bilmiyəcəkdi və ac qalacaqdı. Məncə bu düz deyil yeməyə görə tesdən keçirtmək. Bu diyəsən Bartın xoşuna gəldi. Mənə elə gəlir biz Elcernonnan dost olacoğ.

Burda yadıma düşdü ki doxdur Ştraus demişdi mən ptün yuxularımı yazmalıyam. Mən dedim hələm bilmirəm necə
fikirrəşim. O dedi ki sən məktəbə mis Kinnianın yanma



downloaded from KitabYurdu.org

gəlməyi anan və atan hakda əməlyata qədər nooldüğunu yazmısansa bu elə fikirrəşməkdi və sən bunu hesabatdannda yazmısan. Sən demə mən fikirrəşir və yada sala bilirmişəm. Bəlkə bu o deməkdi ki məndə nəsə olur. Mən özümü başka cür his etmirəm amma elə həycannandım ki yatammadım.

Doxdur Ştraus mənə çəhrayı həblər verdi ki yata bilim. O dedi ki mən çoxlu yatmalıyam çünkü yatanda beynimdə dəyişikliklər olur. Bəlkə də bu düzdü çünkü German əmi işləmiyəndə daim qonaq otağındakı köhnə divanda yatırdı. O gombul idi və iş tappağa çətinnik çəkirdi çünkü o evləri rəngliyirdi və nərdivana çıxmağa çətinnik çəkirdi. Mən anama deyəndə ki rəngsaz olmaq istiyirəm German əmi kimi bacım Norma dedi ki aha Çarli bizim aylənin rəssamı olacaq. Atamsa onun üzünə şillə vurub dedi ki həyasızlıq etmə o sənin qardaşındı. Mən bilmirəm rəssam nədi ancaq buna görə Normaya şillə vurdularsa deməli bu çox pis şeydi. Normanı mənnən zarafat elədiyinə görə vuranda mən özümü çox pis his edirəm. Ağıllananda ona dəyməyə gedəcəm.

30 mart

Bugün mis Kinnian işdən sora labaratoriyaya gəlmişdi. O məni görməyə şad oldu amma həycannandı. Diyəsən onu gördüyümnən bəri cavannaşıb.

Mən ona dedim ki çox istiyirəm ağıllanmağı. O dedi ki sənə inanıram Çarli mənim yadımdadı sən necə



downloaded from KitabYurdu.org

başkaları kimi oxuyub yazmaq istiyirdin. Mən bilirəm ki sən bunu bacaracaqsan. Sən bununla ptün geri qalmış insannar üçün böyük iş görürsən.

Biz dəhşət di çətin bi kitab oxumağa başdamışıq. Mən hələm heş vaxt belə çətin kitab oxumamışam. Onun adı Robinzon Kruzodu tənha adaya düşmüş adam hakdadı. O ağıllıdı çox iş bacanr onun evi və yeməyi var üzməyi bacanr. Ancaq təsüf ki tək tənhadı və heş bi dosdu zadı yoxdu. Ancaq mənə elə gəlir ki adada kimsə var çünkü kitabda şəkillər var və o əlində əla çətir qumun üstündəki izlərə baxır. İnanıram ki onun dosdu olacaq.

31 mart

Mis Kinnian mənə sözdəri necə deməyi və yazmağı öyrədir. O deyir sözə bax gözdərini yum və yadında qalanacan çoxlu təkrar elə. Sən demə mən çox sözü səf yazmışam. Bu çətindi amma mis Kinnian deyir qorxma öyrənəcəksən.

Hesabat N?9

ı aprel

Bugün ptün çörəkxana gəlmişdi baxsın ki mən xamırqanşdıranda necə işdiyirəm. Bilirsiz necə oldu. Xamırqanşdıranda işdiyən Oliver dünən işdən çıxdı. Mən əvvəllər ona un kisələrini daşımağa və tökməyə köməy edirdim. Buna baxmıyaraq bilmirdim ki onda işdəməyi bacarıram. Bu çox çətindi və Oliver ptün ili çörəkpşirənnər məktəbinə getdi ki köməyçi olmağı



downloaded from KitabYurdu.org

öyrənsin.

Ancaq Co Karp o mənim dosdumdu Çarliyə dedi ki bəlkə Oliveri əvəz edəsən. Hamı toplaşdı və gülməyə başdadı və Frenk Reyli dedi Çarli sən ki çoxdannan işdiyirsən. Tezol başda onsuz da Cimpi yoxdu və heşnə bilmiyəcək. Mən qorxdum çünkü Cimpi baş çörəkpşirəndi və o mənə deyib ki əyər sümüklərinin qırılmasını və xəstəxanıya düşməyi istəmirsənsə heş vaxt xamırqanşdırana yaxın durma. Hamı qışqırdı tezol başda ancaq Fanni Birden dedi bəsdi yazığı rahat buraxın.

Frenk Reyli dedi kəs səsini Fanni bugün aprelin biridi və əyər Çarli necə lazımdı işdəsə bizə istirahət verəcəklər. Mən dedim işdiyə bilərəm çünkü Oliver bunu necə edir görmüşəm ancaq xamırqarışdıran xarab olsa onu düzəldə bilmiyəcəm.

Mən xamırqarışdıranı qoşdum və hamı məhətdəl qaldı xsusilə də Frenk Reyli. Fanni Birden əməlli başdı həycannandı və dedi ki Oliver xamır qarışdırmağı iki ilə öyrənib amma o çörəkpşirənnər məktəbinə getmişdi. Berni Breyt hansı ki Oliverin köməyçisiydi dedi ki mən bunu Oliverdən tez və yaxşı edirəm. Heşkəs tay gülmədi ancaq Cimpi gələndə Fanni ona danışdı və o bərk hirsdəndi mənə.

Ancaq Fanni dedi ki özün bax gör onda necə alınır. Onlar onu allatmaq istiyirdilər çünkü bugün aprelin biriydi amma o özü hamını axmaq yerinə qoydu. Cimpi



downloaded from KitabYurdu.org

baxmağa başdadı və mən bilirdim ki o mənə hirsdənəcək çünkü başkaları prafessır Nemurun demədiklərini eliyəndə xoşuna gəlmirdi. O mənim necə işdədiyimə baxıb başın qaşıdı və dedi ki gözdərimə inana bilmirəm. Sora o cənab Donneri çağırdı və dedi ki yenə işdə qoy cənab Donner də baxsın. Mən qorxdum ki o hirsdənəcək və üstümə qışqıracaq ona görə də qutaran kimi dedim ki işim çoxdu. Qapının ağzın süpürmək piştaxtanın dalın yığışdırmaq lazımdı. Cənab Donner mənə baxdı baxdı sora da dedi ki uşaqlar bu bir aprel zarafatıdı. Cimpi dedi ki mən də siftə zarafat olduğun başa düşdüm. O axsıya axsıya maşının ətrafına dolandı və dedi ki cənab Donner mən də heşnə annamıram ancaq boynumuza almalıyıq ki Çarli xamırqanşdıranda işdiyə bilir və bunu Oliverdən yaxşı bacarır. Hamı ətrafa toplaşıb danışmağa başdadı. Mən qorxdum çünkü olar mənə elə baxırdılar və elə qəribə idilər. Frenk dedi ki mən sizə demişəm Çarli son vaxtlar əla olub. Co Karp isə dedi ki aha mən bilirəm sən nəyi deyirsən. Cənab Donner dedi hamı işdəməyə getsin və mənnən həyətə çıxdı.

O dedi ki Çarli mən işin nə yerdə olduğun bilmirəm ancaq diyəsən sən axır ki nəsə öyrənmisən. Mən istiyirəm ki sən ehtiyatdı olasan və səynən çalışasan. Artıq sənin yeni işin var və maaşı 5 dollar çoxdu.

Mən dedim ki yeni iş mənə lazım deyil mənim silib süpürmək daşımaq və dostdarım üçün nəsə eləmək



downloaded from KitabYurdu.org

xoşuma gəlir ancaq cənab Donner deyir ki dostdar boş şeydi sən mənə yalnız bu iş üçün lazımsan. Yüksəlmək istəmiyən adamlar mənim xoşuma gəlmir. Mən soruşdum yüksəlmək nədi. O qulağının dalını qaşıyıb eynəyinin üstünnən mənə baxdı. Qorxma Çarli bugünnən sən xamırqanşdıranda işdiyəcəksən. Bu elə
yüksəlməkdi.

Ona görə də artıq mən çörək daşımaq ayaqyolu yumaq və zibil yığışdırmaq əvəzinə çörəkpşirən olacam. Bu yüklělişdi. Sabah mis Kinniana deyəcəm. Mən bilirəm ki o sevinəcək ancaq heşcür başa düşmürəm ki niyə Frenk və Co mənə elə acığlanırlar ki. Bugün aprelin biridi onlar səni axmaq yerinə qoymaq istiyirdilər amma özləri axmaq vəzyətə düşdülər. Mən Codan soruşdum ki olar hansı zarafat eləmək istiyirdilər o isə dedi ki get özünü gölə at. Mənə elə gəlir ki olar ona görə hirsdənirlər ki mən xamırqanşdıranda
işdəmədim amma istirahət günü də alınmadı. Yəni mən ağıllanıram.

3 aprel

Robinzon Kruzonu qutardım. Mən ona sora da nə olduğun bilmək istədim amma mis Kinnian dedi ki bunnan da kitab qutarır. NİYƏ.

4 aprel

Mis Kinnian dedi ki mən tez oxuyuram. O mənim hesabatdanmı oxudu və xeylağ susub mənə baxdı. O dedi


downloaded from KitabYurdu.org

mən yaxşı adamam və oların hamsına görsədəcəm. Mən onnan soruşdum niyə. O dedi ki haçansa birdən başkalarmın əvvəlki kimi yaxşı olmadığın görəndə fikir vermə və kefini pozma. Sən elə adamsan ki Tann çox az şey verib ancaq beyinni insannardan çox şey edirsən çünkü olar beyinnərindən necə istifadə eləməyi bilmirlər. Mən dedim olar hamsı mənim dostdanmdı ağıllı və yaxşıdılar. Olar məni sevir və mənə ancaq yaxşlıq edirlər. Bu zaman onun gözünə nəsə düşdü və qadın otağına qaçmağa məcbur oldu.

Mən oturub onu gözlədim və fikirrəşdim ki mis Kinnian necə də yaxşı qadındı lap mənim anam kimi. Anam həmişə mənə deyirdi ki yaxşı və mehriban oğlan olum. O deyirdi həmişə ehtiyatlı ol yoxsa adamlar səni başa düşməzlər və elə bilərlər ki olara pislik etmək istiyirsən.

Sora mən anamın necə getdiyin xatırladım və məni bir neçə günnük qonşumuz missis Leruanın evinə verdilər. Anam xəstəxanada idi. Atam dedi ki o xəstələnib və heş bi şeyi yoxdu sadəcə gələndə mənə balaca bacı ya da qardaş gətirəcək. Mən dedim qardaş istiyirəm ki onnan oynuyum və bilmirəm bacı nəyimə lazımdı ancaq o kukla kimi qəşəy idi. Ancaq elə hey ağlıyırdı.

Mən onu heş vaxt incitmədim.

Onu yataq otağında balaca qravata qoydular və bi dəfə eşitdim ki atam deyir qorxma Çarli ona pis heşnə etməz.



downloaded from KitabYurdu.org

O qırmızı yumağa oxşuyurdu və elə çığırırdı ki yata bilmirdim. Bi dəfə olar mətbəxdə olanda mən qravatda uzanmışdım və o ağladı. Mən onu götürmək üçün qalxdım və sakitdəşdirmək üçün anam kimi yırğalamağa başdadım. Ancaq bu zaman anam
qaçaraq gəlib onu aldı və məni elə bərk vurdu ki qravata yıxıldım.

Sora o qışqırmağa başdadı. Ona toxunmağa cürət etmə. Onun bir yerin əzə bilərsən. O çox balacadı. Ona yaxın durma. Onda mən bilmirdim ki o mənim uşağa nəsə pis bi şey etməyimnən qorxur çünkü mən çox axmaq idim və nə etdiyimi bilmirdim.

Doxdur Ştrausun yanma gedəndə ona mütləq bu hakda danışacam.

5 aprel

Bugün, mən, öyrəndim ki, vergül, nədi, quyruqlu (,) və miss, Kinnian, deyir, çox, vacibdir, ona görə, ki, düzgün, yazılışı, yaxşılaşdırır, və əgər, vergülü, düz, qoymasan, çoxlu, pul, itirə, bilərsən, mən, işdən, biaz, pul, yığmışam, ki, fonda, ödəyim, və, bilmirəm, vergül, mənə, oları, yığmağa, necə, kömәy, edib,
Amma, o, deyir, hamı, vergüldən, istifadə, edir,,,

7 aprel

Mən vergülləri düz qoymamışdım. Bu punktuasiyadı. Mis Kinnian dedi ki mən lüğətdə uzun sözdərə baxım və oları düzgün yazmağı və deməyi öyrənim. Mən dedim


downloaded from KitabYurdu.org

əyər oxumaq mümkündüsə bunun nə fərqi var. O cavab verdi ki bu sənin savadlı olduğunu görsədir ona görə də bunnan sora mən bilmədiyim ptün sözdərin necə yazıldığına və deyildiyinə baxacam. Belə olanda hesabatdan yazmağa çox vaxt gedir ancaq mənə elə gəlir ki artıq daha çox yadda saxlaya bilirəm.

Punktuasiya sözün də lüğətdən tapdım. Mis Kinnian dedi ki nöqtə də punktuasiyadı ancaq onnan başka da çoxlu işarələr var. Yəqin ki o ptün nöqtələrin quyruqlu olmalı olduğun və vergül adlanmasın nəzərdə tutur.

O; dedi, sən! oları? uyğunlaşdırmalısan: O mənə görsətdi) necə! Uyğunlaşdırmağı; və, indi? mən? yaza - bilərəm, ptün bu! işarələri! Qaydaları (lap? çox; ancaq mən! olan yadda saxlıyacam'

Budur? bu mənim: xoşuma gəlir! əziz? Mis Kinnian: o? həmişə, mən soruşanda! cavab verir - o dahidi! Mən" istiyirəm, onun kimi! ağıllı: olum? Bu, punktuasiyadı? əladı!

8 aprel

Mən necə də qanmazam! Mən hətta onun nə haqqında danışdığını da anlamadım. Dünən axşam oxuduğum qrammatika kitabında hər şey izah olunub. Axı miss Kinnian da mənə eyni şeyi təlqin etməyə çalışırdı. Mən gecəyarısı oyandım və beynimdə hər şey aydınlaşdı. Miss Kinnian dedi ki, mən artıq yaylaya çıxmışam. Bu, təpənin zirvəsindəki yastı yerdi.


downloaded from KitabYurdu.org

Mən punktuasiyanın nə demək olduğunu anladıqdan sonra bütün hesabatlarımı ən başdan oxudum. Aman Tanrım! Nə qədər səhv vardı! Miss Kinniana dedim ki, səhvlərimi düzəltmək istəyirəm, ancaq o razı olmadı:

- Professor Nemur onları dəyişməni istəmir. Ona görə də onların səndə qalmasına icazə vermir ki, səndə baş verən irəliləyişi görəsən. Afərin sənə, Çarli.

Bu çox xoşdur. Dərsdən sonra Elcernonun yanma gedib onunla oynadım. Artıq biz yarışa çıxmırıq.

ıo aprel

Mən özümü pis hiss edirəm. Bu, həkimin müalicə edə biləcəyi bir xəstəlik deyil, o, içəridədir, mənim köksümdədir. Orada boşluq var, elə bil ürəyimi dartıb çıxarıblar. Çox ciddi bir şey baş verib və bu haqda susmaq mümkün deyil. Bu gün mən ilk dəfə işə getmək istəmədim və getmədim.

Dünən Co Karp və Frenk Reyli məni gecəyə dəvət etmişdilər. Orada çoxlu qızlar vardı, Cimpi və Erni də oradaydılar. Viski içərkən özümü pis hiss etdiyimi hələ unutmamışdım və Coya dedim ki, heç bir şey içməyəcəyəm. O da mənə qəribə dadı olan koka-kola verdi. Mən buna elə də əhəmiyyət vermədim.

Biz bir qədər şənləndik.

-Ellen ilə rəqs et, - Co dedi, - o səni öyrədəcək. - Və gözünə çöp düşübmüş kimi göz vurdu.

Ellen dedi:



downloaded from KitabYurdu.org

- Əl çək ondan.

Co əlini kürəyimə şappıldatdı.

-Bu, Çarli Qordondur, mənim dostum, ən yaxın sirdaşımdır. Çox kəlləli oğlandır, ona görə də vəzifəsini böyüdüblər və indi mürəkkəb bir maşında - xəmirqarışdıranda işləyir. Mən istəyirəm ki, o, bir az şənlənsin. Burada pis nə var ki?

O məni qıza tərəf itələdi. Musiqi çalındı və biz rəqs etməyə başladıq. Mən bir dəqiqə ərzində üç dəfə yıxıldım və səbəbini heç cür başa düşə bilmədim. Mən daim kiminsə irəli uzatdığı ayağına ilişib büdrəyirdim.

Bütün qonaqlar qəhqəhə çəkərək bizə baxırdılar. Mən yıxılanda onlar daha da ucadan gülür, mən də onlara qoşulurdum. Ancaq dördüncü dəfə yıxılanda gülmədim. Qalxmağa başladım, ancaq Co məni itələyərək yenidən yıxdı.

Başımı qaldıranda onun üzündə elə bir ifadə gördüm ki, içimdə hər şey sıxıldı.

- Sarsıdıcıdır, - gülməkdən uğunan qızlardan biri dedi.

-Ah, Frenk, sən haqlısan, o, misilsizdir, - Ellen boğula- boğula dedi. Sonra əlavə etdi: - Ey, Çarli, meyvə ye, - və mənə alma uzatdı. Mən onu dişlədim, amma, sən demə, alma həqiqi deyilmiş.

Bunu görən Frenk dedi:

-Sizə dedim axı, o bunu yeyəcək! Plastmas almam əsl meyvədən ancaq belə axmaq ayıra bilməz.



downloaded from KitabYurdu.org

Co əlavə etdi:

-Onu yağış yağıb-yağmadığını öyrənməsi üçün tinə göndərdiyimiz vaxtdan gülməmişdim.

Lap çoxdan, hələ uşaqkən qonşu uşaqların mənə onlarla gizlənqaç oynamağa icazə verdiklərini və məni aldatdıqlarını xatırladım. Mən barmaqlarımla onacan sayar və onları axtarmağa gedərdim. Qaranlıq və soyuq düşənə qədər onlan axtarar, sonra evə qayıdardım.

Heç kəsi tapmazdım.

Frenkin sözlərindən sonra hər şey mənə aydın oldu. Və orada Halloranın yanında da eyni şey baş verdi. Co və dostları məni ələ salırlarmış... O biri uşaqlar da.

Mən yerdə uzanmışdım, onlarsa yuxarıdan aşağı mənə baxaraq kişnəyirdilər...

- Baxsana, onun sifəti qızanb.
- O qızarıb. Çarli qızarıb!

-Sən ona neylədin, Ellen? Biz onu heç vaxt belə - görməmişik!

- Hə, Ellen, sən onu əməlli-başlı bişirmisən!

Mən nə edəcəyimi və hara baxacağımı bilmirdim. Qəfil özümü çılpaq hiss etdim. İstədim gizlənim və heç kəs məni heç vaxt tapa bilməsin. Mən mənzildən çıxıb qaçdım. Bura çoxlu dəhlizləri olan böyük bir ev idi. Mən lifti unutmuşdum və pilləkəni heç cür tapa bilmirdim. Sonra uzun müddət küçələri dolaşdım. Əvvəllər heç ağlıma da gəlmirdi ki, bunlar məni məhz əylənmək üçün



downloaded from KitabYurdu.org

arxalannca ora-bura sürüyürlər.

Artıq "özümdən Çarli Qordon düzəltməy"in nə demək olduğunu bilirəm.

Mən utanıram.

Gecə yuxuda Elleni gördüm, o rəqs edərək mənə qısılırdı, oyananda mələfəm yaş və bulaşmış halda idi.

13 aprel

Mən hələ də çörəkxanaya getmirəm. Ev sahibəm missis Flindən xahiş etdim ki, cənab Donnerə zəng vurub xəstələndiyimi xəbər versin. Missis Flin, deyəsən, məndən qorxmağa başlayıb.

Mənə niyə güldüklərini, axır ki, başa düşdüm və bu kəşfimin mənə kömək edəcəyini düşünürəm. Mən o dərəcədə axmaq olmuşam ki, hətta nə qədər axmaq olduğumu belə anlamamışam. Dəlilər nəyisə onlar kimi etməyəndə insanlar buna çox şənlənirlər.

Amma indi hər gün bir az da ağıllandığımı bilirəm. Punktuasiyanın nə demək olduğunu və sözləri düzgün yazmağı öyrənmişəm. Lüğətdə çətin sözləri axtarıb tapmaq xoşuma gəlir və onları asanlıqla yadda saxlayıram. Hesabatları mümkün qədər səliqəli yazmağa çalışıram, ancaq bu, xeyli vaxtımı alır. Çox oxuyuram və miss Kinnian çox sürətlə oxuduğumu deyir. Mən hətta oxuduqlanmm çoxunu başa düşürəm. Bəzən gözlərimi yumur və qarşımda bütöv bir səhifəni şəkil kimi görürəm.

Səhər oyananda gözlərim açıq halda yatağımda xeyli



downloaded from KitabYurdu.org

uzandım. Beynimi ətraf dünyadan ayıran divarda böyük bir dəlik əmələ gəlmişdi və mən oradan bayıra çıxdım.

...Bu, çoxdan olub, lap çoxdan, mən Donnerin yanında işləməyə yenicə başlamışdım. Mən çörəkxananın olduğu küçəni görürəm. Əvvəlcə hər şey elə bil duman içində idi. Sonra ayrı- ayrı detallar aşkarlanmağa başladı, onlar mənə elə real göründü ki, sanki, həqiqətən, orada dayanmışdım...

Əldən düşmüş bir qoca uşaq kolyaskasmdan düzəldilmiş arabada kömür manqalı aparır, qovrulmuş fındıq qoxusu, səkidə qar. Üzündə qorxu ifadəsi olan uzundraz gənc oğlan bərəlmiş gözlərini lövhəyə zilləyib. Orada nə yazılıb? İndi bilirəm: “DONNERİN ÇÖRƏKXANASI”, ancaq yaddaşımın dərinliklərini qurdalayanda lövhəni onun baxışlarıyla oxuya bilmirəm. O oxuya bilmir. Qorxaqsifət oğlan mənəm, Çarli Qordon.

Göz qamaşdıran neon işıqlar. Milad küknarları və yoldan keçənlər. İnsanlar paltolarının yaxalıqlarını qaldırıblar, boyunlarına isti şərflər dolayıblar. Onunsa əlcəkləri yoxdur. Əlləri donur və qəhvəyi rəngli ağır kisələri yerə qoyur. O, küçə alverçisinin tabağındakı balaca qurma oyuncaqlara: yanlarını basa-basa addımlayan ayıya, tullanan küçüyə, burnunda top oynadan suitinə daha yaxşı baxmaq üçün dayanıb. Onlar atılıb- düşür, ayaqlarını yerə döyür, fırlanırlar... Əgər bu oyuncaqlar onunku olsaydı, dünyanın ən xoşbəxt insanı



downloaded from KitabYurdu.org

olardı.

O, ucuz və cırıq əlcəklərindən barmaqları çıxmış qırmızısifət alverçidən ayı balasını bir dəqiqə, cəmi bircə dəqiqə tutmağa verməsini xahiş etmək istəyir, ancaq qorxur. O, yükünü qaldırıb çiyninə qoyur. O, anq olsa da, illərin ağır zəhməti nəticəsində bərkiyib.

- Çarli! Çarli! Bizim Çarli!..

Uşaqlar ətrafına toplaşdılar, şən-şən gülərək ona sataşmağa, itlər ayağının altında vəngildəməyə başladılar. Çarli onlara gülümsədi. O, paketlərini səkiyə qoyub onlarla oynamaq istəyir, ancaq bunu götür-qoy edərkən kimsə kürəyinə vurur. Bunlar böyük uşaqlardır və ona buz parçaları atırlar.

Çörəkxananın yaxınlığındakı alaqapının altına bir dəstə oğlan yığılıb.

- Bir baxın, Çarli!
- Ey, Çarli! Nə olub orada?
- Çarli, aşıq-aşıq oynayaq?
- Bura gəl, şənlənək!

Ancaq alaqapının altında onu qorxudan nəsə var - qaranlıq, gülüş... Kürəyinin ortası micildəşir. O nədən qorxduğunu anlamağa çalışır, ancaq yalnız paltarındakı çirki və ləkələri, o, başdan-ayağa çirkab içində evə gələndə əlində çəkic küçəyə cuman German əmini xatırlayır... Çarli qaqqıldayıb gülən oğlanlardan xeyli aralı keçərkən kisəni salır, yenidən qaldırır və var gücüylə



downloaded from KitabYurdu.org

çörəkxanaya sarı qaçır.

-Harada avaralamrdın, Çarli? - Cimmi binanın dərinliyindən bağırdı.

Çarli fırlanan qapının arasından sivişərək keçir və paket kiplərindən birini zirzəmiyə düşən novların birinin üzərinə aşırır. Sonra kürəyini divara söykəyərək, əllərini ciblərinə salır.

Bura onun xoşuna gəlir. Una bulaşmış döşəmə hisdən qaralmış divarlardan və tavandan daha ağdır. Çəkmələrinin qalın altlığının kənarları ağ təbəqəylə örtülüb, un bağ yerlərinin aralanna və deşiklərinə, dırnaqlarının arasına, qabarlı əllərinin çatlaqlarına dolub.

O çömbəlib oturaraq rahatlanır, üzərində böyük D hərfi olan beysbol papağı gözlərinin üstünə düşür. O, un, şirin xəmir qoxusunu, çörək və piroq ətrini çox sevir. Soba çırtıldayaraq onu yuxuladır.

Şirindir... istidir... o yatır...

Birdən o əyilir, qəfil yıxılaraq başı döşəməyə çırpılır. Yanından keçən kimsə onun, yatan adamın ayaqlanndan vurub.

...Vəssalam, yadımda qalanlar bunlardır. Mən bu səhnəni tam aydın təsəvvür edirəm və heç nə anlaya bilmirəm. Kinoda da eynilə belə oldu. Mən filmin nə haqda olduğunu ancaq üç- dörd dəfə baxandan sonra anlamağa başladım. Doktor Ştrausdan soruşmaq lazımdır.


downloaded from KitabYurdu.org

14 aprel

Doktor Ştraus dedi ki, belə xatirələr son dərəcə maraqlıdır və onları mütləq yazmaq lazımdır. Sonra isə birlikdə onlan müzakirə edəcəyik.

Doktor Ştraus psixiatr və neyrocərrahdır. Mən bunu bilmirdim. Elə bilirdim ki, sadəcə, həkimdir. Bu gün səhər onun
yanına gələndə mənə dedi ki, problemlərimi həll etmək üçün özümü dərk etməyim çox vacibdir. Cavab verdim ki, mənim heç bir problemim yoxdur.

O güldü və qalxıb pəncərəyə yaxınlaşdı.

- Ağlın artdıqca, Çarli, onlar da çoxalacaq. Sənin intellektual inkişafın emosional inkişafından çox irəlidir, mənə elə gəlir ki, sən getdikcə daha çox şeyi mənimlə müzakirə etməlisən. Mən, sadəcə, xatırlatmaq istəyirəm ki, əgər sənə kömək lazım olsa, mənim yanıma gəl.

Onun sözlərindən belə çıxır ki, gələcəkdə nə vaxtsa mənim bütün yuxularım və xatirələrim birləşəcək və mən özüm haqqında çox şey öyrənəcəyəm. O dedi ki, insanlann mənim haqqımda məhz nə danışdıqlarını xatırlamaq çox vacibdir.

Əvvəllər bunlann heç birindən xəbərim yox idi. Deməli, mən yetərincə ağıllansam, beynimdə fırlanan bütün sözləri anlayacağam, alaqapının altındakı oğlanlar haqqında, German əmi, anam və atam haqqında hər şeyi biləcəyəm. Və onda özümü çox pis hiss edəcəyəm və


downloaded from KitabYurdu.org

beynim zədələnə bilər.

Ona görə də həftədə iki dəfə onun kabinetinə gəlib məni narahat edən şeylərdən danışıram. Biz otururuq və doktor Ştraus dinləməyə başlayır. Bu, terapiya adlanır. Belə söhbətlərdən sonra mən özümü yaxşı hiss etməliyəm. Ona etiraf etdim ki, məni ən çox narahat edən qadınlar haqqında heç nə bilməməyimdir. Ellenlə necə rəqs etmişəm və sonra nə olub. Elə bu zaman özümü nəsə birtəhər hiss etdim, üşüdüm, tərlədim, başımda anlaşılmaz səs-küy yarandı, ürəyim ağzıma gəldi. Mən belə şeylər haqqında danışmağı həmişə ədəbsizlik saymışam. Ancaq doktor Ştraus təmkinlə izah etdi ki, gecədən sonra mənim başıma gələn şey pollyusiya adlanır. Qorxulu bir şey yoxdur. Hamının başına gələn şeydir.

Sən demə, mən ilk baxışda ağıllansam da, müəyyən məsələlərdə tamamilə uşağam. Bu məni utandırır, ancaq gec- tez özüm haqda mütləq hər şeyi öyrənəcəyəm.

15 aprel

Mən lap çox oxuyuram və demək olar ki, hamısını yadda saxlayıram. Miss Kinnian dedi ki, tarixdən, coğrafiyadan və hesabdan başqa, xarici dillərlə də məşğul olmalıyam. Professor
Nemur gecələr məşğul olmaq üçün mənə daha bir neçə kaset verdi. Mən hələ də şüurun və alt şüurun necə işlədiyini anlamıram. Doktor Ştraus deyir ki, bunun


downloaded from KitabYurdu.org

üzərində baş sındırmamalıyam. O məni söz verməyə məcbur etdi ki, iki həftədən sonra kollecə kursa getməyə başlayanda onun icazəsi olmadan psixologiya kitabları oxumayacağam. O hesab edir ki, bu kitablar məni karıxdırar, öz fikir və duyğularımı daha dərindən öyrənmək əvəzinə, ziddiyyətli psixoloji nəzəriyyələrin içində eşələnərəm. Ancaq romanlar oxumağı mənə heç kəs qadağan etmir. Keçən həftə ərzində mən “Möhtəşəm Qetsbi”, “Amerika faciəsi” və “Evinə bax, mələk” romanlarını oxumuşam. İnsanların özlərinə bu cür şeyləri rəva gördüyü heç vaxt ağlıma gəlməzdi.

16 aprel

Bu gün özümü xeyli dərəcədə yaxşı hiss edirəm, ancaq adamların bütün həyatım boyu mənə gülüb lağa qoyduqlarını düşünəndə hələ də əsəbiləşirəm. Tamamilə ağıllananda və İQ- im indiki yetmişlə müqayisədə iki dəfə artanda, bəlkə də,
ətrafdakıların xoşuna gəlməyə başlayacağam və mənim də dostlarım olacaq.

Bəs İQ, ya da İƏ, intellek əmsalı nədir? Professor Nemur deyir ki, bu, insanın nə dərəcədə ağıllı olduğunu ölçən bir şeydir, lap elə aptekdəki tərəzinin əqrəbi kimidir. Amma doktor Ştraus onunla mübahisə edərək dedi ki, İQ vasitəsilə ağılı ölçmək olmaz. Onun sözlərinə görə, İQ insanın nə dərəcədə ağıllı ola biləcəyini göstərir. Ölçülü stəkandakı ölçülər kimi. Amma bu stəkanı əvvəlcə



downloaded from KitabYurdu.org

bir şeylə doldurmaq lazımdır.

Bu barədə Bart Seldondan soruşanda cavab verdi ki, bəzi alimlər bu təyinatların heç biriylə razılaşmırlar. O haradansa oxuyub ki, İQ insanın artıq əxz etmiş olduğu biliklər də daxil olmaqla çox sayda ən müxtəlif göstəriciləri öyrənir və bu, əslində, əqli qabiliyyətin qiymətləndirilməsi üçün o qədər də ideal vasitə deyil.

Ona görə də mən İQ-nün nə demək olduğunu hələ də bilmirəm. Məndə indi o, yüzə yaxındır, amma tezliklə yüz əllidən çox olacaq, ancaq stəkanı hələ nəyləsə doldurmaq lazımdır. Mən pis heç nə demək istəmirəm, ancaq alimlər
BUNUN nə demək olduğunu bilmirlərsə, NƏ QƏDƏR olduğunu necə müəyyənləşdirirlər?

Professor Nemur dedi ki, sabah məni Rorşah testi gözləyir. Maraqlıdır, görəsən, bu nədir?

17 aprel

Gecə yuxumda kabus gördüm və səhər doktor Ştrausun məsləhətinə əməl edərək yenidən sərbəst assosiasiya üsulunu sınadım. Yuxumu xatırlayaraq və ağlıma sərbəstlik verərək ümid etdim ki, onda başqa fikirlər də əmələ gələcək. Nəticədə məndə çox zaman ümumiyyətlə heç bir fikir qalmır. Doktor Şrtausun fikrincə, bu o deməkdir ki, mən elə bir vəziyyətə nail olmuşam ki, alt şüur şüuru mühasirəyə alaraq onu xoşagəlməz xatirələrdən qoruyur. İndikiylə keçmiş


downloaded from KitabYurdu.org

arasında özünəməxsus bir divar. Bəzən o dağılır və mən onun arxasında gizlənən hadisələri xatırlaya bilirəm. Bu gün səhərki kimi.

Yuxuda miss Kinnian mənim hesabatlarımı oxuyurdu. Mən artıq qələm hazırlamışdım, ancaq gördüm ki, artıq nə oxuya, nə də yaza bilirəm. Hər şey uçub getdi. Mən çox qorxdum və Cimpidən xahiş etdim ki, mənim əvəzimə

hesabatlar yazsın. Ancaq miss Kinnian onu oxuyanda birdən hirslənib bütün vərəqləri cırdı, çünki orada ədəbsiz sözlər yazılmışdı. Mən evə qayıdanda professor Nemur və doktor Ştraus oradaydılar və hesabatlarımda söyüş yazdığıma görə məni döydülər. Onlar getdikdən sonra mən cırılmış vərəqləri topladım, ancaq onlar qanlı krujeva parçalanna çevrildi.

Bu, dəhşətli bir yuxu idi və mən yorğanın altından çıxıb onu yazanda fikirlərimi analiz etmək istədim.

Çörəkxana... gecə... uma... kimsə məni ayağı ilə vuru... yıxılıram... qan... yazmaq... böyük karandaş... balaca qızıl ürəkcik... medalyon... sap... hər şey qan içində... onlar mənə gülürlər... medalyonun ipi... o fırlanır... günəş şüaları gözlərimi qamaşdırır... onlann fırlanmasına baxmaq xoşuma gəlir... barmağıma dolanır... mənə bir qız baxır.

Onun adı miss Kin... - onun adı Harrietdir.

- Harriet, Harriet, biz hamımız Harrieti sevirik...



downloaded from KitabYurdu.org

Yenə də ənənəvi boşluq.

Miss Kinnian hesabatı oxuya-oxuya, arada başını döndərib çiyni üzərindən mənə baxır.

Sonra biz əqli cəhətdən zəiflər üçün məktəbdəyik. O mənim inşa yazmağıma baxır.

Mənim məktəbimin yerində birdən 13 saylı məktəb peyda olur. Mənim on bir yaşım var və miss Kinnianın da on bir yaşı var, ancaq o artıq miss Kinnian deyil, o, yanaqları batıq və uzun sarışın saçlı bir qızcığazdır. Onun adı Harrietdir. Biz hamımız Harrieti sevirik. Bu gün 14 fevraldır, müqəddəs Valentin günüdür. Mən xatırladım...

Mən 13 saylı məktəbdə nə baş verdiyini və məni niyə 222 saylı məktəbə keçirməyə məcbur olduqlarını xatırladım. Harrietə görə. Mən on bir yaşlı Çarlini görürəm. Onda qızıl medal var, onu küçədən tapıb. Zənciri yoxdur, ancaq ona ip keçirib və əlində fırlatmağı xoşlayır; ip əvvəlcə barmağına dolanır, sonra isə açılır. Medalyon günəş işığında çox gözəl parıldayır.

...Harriet gəlib keçəndə uşaqlar istənilən oyunu buraxıb ona baxırlar. Uşaqlar hamısı Harrietə vurulublar. O başını tərpədəndə saçları atılıb-düşür, yanaqlarında isə batıqlar var. Çarli onların hansısa qızdan ötrü belə əldən-ayaqdan

getdiklərini və niyə onunla söhbət etməyə can atdıqlarını anlamır (o özü futbol oynamağı xoşlayır), ancaq bütün uşaqlar Harrietdən örtü dəli-divanədir, Çarli də ondan



downloaded from KitabYurdu.org

ötrü dəli- divanədir.

O, heç vaxt Çarliyə sataşmır, odur ki, Çarli onun yolunda hər şeyə hazırdlr. Müəllim sinifdə olmayanda o, partaların arasıyla qaçır, silgiləri pəncərələrə tolazlayır, təbaşirlə divarlan yazır. Bu zaman Harriet həmişə ciyildəyərək gülür:

- Ox, Çarli! O necə də gülməlidir! Necə də axmaqdır!

Bu gün müqəddəs Valentin günüdür. Uşaqlar Harrietə nə hədiyyə edəcəklərini müzakirə edirlər və Çarli deyir:

- Mən də ona bir şey hədiyyə verəcəyəm.

Hamı gülür, Barri isə soruşur:

- Bəs hədiyyəni haradan alacaqsan?

- Mən ona qəşəng bir şey hədiyyə edəcəyəm. Görəcəksiniz.

Ancaq onun pulu yoxdur, odur ki, Harrietə öz medalyonunu hədiyyə etməyə qərar verir. Medalyon ürək formasındadır və bahalı mağazaların vitrinindəkilərə çox oxşayır. Axşam o, anasının stolundan sarğı kağızı götürüb,
medalyonu yaxşı-yaxşı bükür və qırmızı lentlə bağlayır. Ertəsi gün səhər yeməyi fasiləsi zamanı
Haymi Rotdan sarğının üstünü yazmağı xahiş edir. O diktə edir:

-Əziz Harriet! Mənə elə gəlir ki, sən bütün dünyada ən gözəl qızsan. Sən mənim çox xoşuma gəlirsən və mən səni sevirəm. Mənim sevgilim ol. Sənin dostun Çarli



downloaded from KitabYurdu.org

Qordon.

Haymi deyilənləri səliqəli çap hərfləriylə kağıza yazaraq, bir yandan da hırıldayaraq deyir:

- Onun gözləri lap kəlləsinə çıxacaq! Qoy hələ bir oxusun!

Çarli qorxur, ancaq medalyonu Harrietə hədiyyə etməyi çox istəyir və dərsdən sonra hiss etdirmədən qızın arxasınca gedir. Onun evlərinə girməsini gözləyib dəhlizə keçir və hədiyyəsini qapının dəstəyindən asır, zəngi iki dəfə basaraq küçəyə qaçır və ağacın dalında gizlənir.

Harriet çıxıb təəccüblə ətrafa boylanır, bağlamanı görüb götürür və evə qayıdır. Çarli evə tələsir, icazəsiz kağız və lent götürdüyünə görə cəzalanır. Ancaq onun vecinə deyil. Sabah
Harriet medalyonla məktəbə gələcək və hamıya deyəcək ki, bu, Çarlinin hədiyyəsidir.

Səhər hava açılan kimi məktəbə qaçır, ancaq hələ çox tezdir, Harriet gəlməyib və o, bərk həyəcanlanır.

Budur, Harriet peyda olur, ancaq onun üzünə belə baxmır. Onda medalyon-filan yoxdur, özü də acıqlı görünür. Miss Cekson üzünü döndərəndə o nələr etmir, ağız-burnunu əyir, bərkdən qaqqıldayıb gülür, stulun üstünə çıxıb arxasını burcudur. Hətta təbaşiri götürüb Harolda tullayır. Ancaq Harriet ona baxmır. Bəlkə, o unudub. Bəlkə, medalyonu sabah taxacaq. O, tənəffüsdə də susur və onun yanından sakitcə keçir.



downloaded from KitabYurdu.org

Məktəbin həyətində qızın iki böyük qardaşı Çarlini gözləyir.

Qes onu itələyir.

-Ey, sarsaq, o çirkin naməni bizim bacımıza sən - yazmısan?

Çarli cavab verir ki, o, heç vaxt heç bir çirkin namə yazmayıb.

- Mən ona ancaq medalyon bağışlamışam.

Əvvəllər məktəbin futbol komandasında oynayan Oskar Çarlinin yaxasından yapışıb, köynəyinin iki düyməsini qınr.

-Bacımızdan uzaq dur, degeneratın biri. Bu məktəb onsuz da sənin yerin deyil, - deyə o, Çarlini Qesə tərəf itələyir və Qes onun boynundan yapışır.

Çarli qorxur və ağlayır.

Onlar bunu görüb Çarlini döyməyə başlayırlar. Oskar burnuna zərbə vurur, Qes isə itələyib yıxır. Sonra hər ikisi təpikləməyə başlayır - əvvəlcə biri, sonra o biri. Həyətdəki uşaqlar - Çarlinin dostlan qaçıb gəlirlər və əllərini bir-birinə vuraraq qışqırışırlar:

- Dava! Dava! Çarlini döyürlər!

Onun paltarları cırılıb, burnundan qan axır, dişi sınıb. Oskarla Qes çıxıb getdikdən sonra o, səkidə oturub ağlayır. Uşaqlar gülür və qışqırırlar:

- Çarlini döydülər! Çarlini döydülər!

Sonra cənab Vaqner gəlib onları qovur. O, Çarlini



downloaded from KitabYurdu.org

tualetə apanb, əllərini və üzünü yumağa məcbur edir.

Mənə elə gəlir ki, deyilənlərə inanmaqla çox böyük axmaqlıq etmişəm. Gərək Haymiyə inanmayaydım. Ümumiyyətlə, heç kəsə.

Əvvəllər mən heç vaxt bu hal barədə düşünməmişdim, ancaq kabus haqqında fikirləşdikdən sonra onu xatırladım. Onunla miss Kinnian hesabatlarımı oxuyarkən keçirdiyim hisslər arasında nəsə ümumi bir şey var. Ancaq şadam ki, artıq heç kəsdən mənim üçün nəsə yazmasını xahiş etməyə ehtiyacım yoxdur. Artıq bunu özüm də edə bilirəm. Harriet mənim medalyonumu hələ də qaytarmayıb.

18 aprel

“Rorşah”m nə olduğunu, axır ki, başa düşdüm, bu, əməliyyatdan qabaq keçdiyim mürəkkəb ləkələriylə olan testdir. Tanış vərəqləri görəndə əməlli-başlı qorxdum. Bart məndən şəkildəki ləkələri tapmağı xahiş edir, mənsə bunu edə bilmirəm. Kaş ki onlarda nə gizləndiyini əvvəlcədən bilmək mümkün olaydı! Bəlkə də, orada heç bir şey yoxdur. Bəlkə, bütün bu oyun yalnız mənim kifayət qədər, yəni ləkələrdə şəkil axtaracaq dərəcədə axmaq olub-olmadığımı öyrənmək üçündür. Bu ağlıma gələn kimi Barta acığım tutdu.

-Çarli, - o dedi, - sən bu şəkilləri əvvəllər görmüsən. Yadındadır?

- Əlbəttə, yadımdadır.



downloaded from KitabYurdu.org

O, danışıq tonumdan hiss etdi ki, nəsə özümdə deyiləm və təəccüblə üzümə baxdı.

- Nə olub, Çarli?
- Heç nə. Sadəcə, bu ləkələr məni acıqlandırır.

O gülümsəyərək başını tərpətdi.

-Burada acıqlanmalı bir şey yoxdur. Bu, sadəcə, standart testlərdən biridir. Bu şəklə bir bax. Bu nə ola bilər? Bu ləkələrdə insanlar nələr görmürlər! Bəs SƏN nə görürsən? Onlara baxanda nə haqda düşünürsən?

Mən belə bir şey gözləmirdim və sarsılmışdım. Əvvəlcə şəklə, sonra ona baxdım.

-Sən demək istəyirsən ki, ləkələrdə heç bir təsvir gizlənməyib?

Bart qaşqabağını salladı və eynəyini çıxartdı.

-Nə?

-Ləkələrdə gizlənmiş təsvirlər! Keçən dəfə sən dedin ki, orada təsvirlər var və hər kəs onu görə bilər!

- Yox, Çarli. Mən sənə belə bir şey deyə bilməzdim.

-Doğru deyil! - mən ona qışqırdım. Bu boş şeydən nəyə görə qorxmalıyam! Bu məni daha da acıqlandırdı. - Sən mənə məhz belə dedin! Daha ağıllı olmağın və kollecdə oxumağın məni lağa qoymağına əsas vermir! Hər kəsin məni ələ salmasından artıq boğaza yığılmışam!

Heç vaxt belə şeylər hiss etməmişdim. İçimdə hər şey partlayırdı. Mən Rorşah şəkillərini stolun üstünə çırpıb, özümü otaqdan bayıra atdım. Professor Nemur elə bu



downloaded from KitabYurdu.org

vaxt oradan keçirdi və mənim koridorla çapdığımı görüb, nəyinsə qaydasında olmadığını dərhal anladı.

Bartla o məni liftin yanında yaxaladılar.

-Çarli, - Nemur əlimdən tutaraq dedi, - bir dəqiqə dayan. Nə olub sənə?

Mən əlimi çəkib Barta sarı döndüm.

-Mən bu lağlağılardan bezmişəm. Vəssalam. Bəlkə də, əvvəllər mən bunu hiss etmirdim, ancaq indi hiss edirəm və qətiyyən xoşuma gəlmir.

-Amma, Çarli, səni lağa qoymaq bizim ağlımıza da gəlmir, - Nemur dedi.

-Bəs mürəkkəbli ləkələr? Keçən dəfə Bart mənə dedi ki, orada mürəkkəbin içində hər kəsin görə biləcəyi şəkillər var və mən...

-Qulaq as, Çarli. Bartla söhbətini dinləmək istəyirsən? Bizdə maqnitofon yazılan var. Gəl birlikdə qulaq asaq.

Nemur kasetləri gətirməyə gedəndə Bart izahat verdi.

-Keçən dəfə mən də eyni şeyi deyirdim. Bu, istənilən testə qarşı standart tələbdir, onun aparılma proseduru dəyişməməlidir.

Bu zaman Nemur qayıdıb gəldi və mənim cavabımı eşitdi:

- Dinləyək, ondan sonra, bəlkə də, inanaram.

Onlar baxışdılar. Qan sifətimə vurdu. Onlar yenə mənə gülürdülər! Ancaq bu zaman öz sözlərimin mənası mənə çatdı və bu baxışların anlamını başa düşdüm. Onlar



downloaded from KitabYurdu.org

güləcək halda
deyildilər. Mən yeni inkişaf səviyyəsinə nail olmuşdum. Ancaq ətraf aləmə qarşı hiss etdiyim ilkin duyğular qəzəb və şübhə idi.

Səsgücləndiricidən Bartın səsi gəldi:

-İndisə, Çarli, mən istəyirəm ki, sən bu şəklə baxasan. Bu nədir? Burada sən nə görürsən? İnsanlar bu ləkələrdə ən müxtəlif şeylər görürlər. Mənə de görüm, sən nə düşünürsən...

Həminki sözlər, həminki ton. Sonra öz səsimi eşitdim... İnanılmazdır... Dizlərim büküldü və Nemurun stolunun yanındakı kresloya çökdüm.

- Yəni bu, doğrudan, mənəm?..

Biz Bartla birlikdə laboratoriyaya qayıtdıq və bütün testi keçdik. Asta-asta və zövq alaraq. Bu dəfə mənim cavablarım başqaydı, mən şəkilləri gördüm. İki dalaşan yarasanı. Qılmcoynadanlan. Ağlıma gələni xəyalıma gətirdim. Ancaq daha özümü Barta şəksiz inanmağa məcbur edə bilmirdim.

O yazırdı. Mən baxmaq istədim, ancaq yazdıqları şifrəyə oxşayırdı: VF+AddF-Ad oriq. VF-ASF+ob kimi. Bu mətn mənim üçün anlaşılmaz olaraq da qaldı. Hər kəs görmədiyi şeylər haqqında nə istəsə uydura bilər. Haradan bilə
bilərlər ki, mən özüm onlan lağa qoymamışam?

Doktor Ştraus mənə psixologiyaya aid kitabları


downloaded from KitabYurdu.org

oxumağa icazə verəndə bunu araşdırmağa çalışacağam. Getdikcə fikir və duyğularımı yazmaq daha da çətin olur, çünki hesabatlarımın mütləq oxunacağını bilirəm. Bu məni niyə belə narahat edir?

Hesabat N°ıo

21 aprel

Xəmirqanşdıranı necə daha səmərəli işlətmək haqqında düşündüm. Cənab Donner dedi ki, bu çox mənfəətlidir, işçi qüvvəsinə qənaət etmək olar. O mənə əlli dollar mükafat verdi və həftəlik məvacibimə on dollar artırdı. Mən bu hadisəni bayram etmək üçün Co Karpı və Frenk Reylini dəvət etmək istədim, ancaq Co arvadı üçün nəsə almalıydı, Frenkin isə qəfil əmisi oğlu qonaq gəlmişdi. Hə, yəqin ki, mənə öyrəşmələri üçün xeyli vaxt tələb olunacaq.

Hamı məndən qorxur. Mən nəsə soruşmaq üçün Cimpiyə yaxınlaşanda və onun çiyninə toxunanda diksinib tullandı, əlindəki qəhvə fincanını dağıdıb özünü başdan-ayağa islatdı.

Cimpi daim altdan-altdan mənə göz qoyur. Artıq heç kəs əwəlkitək mənimlə danışmır. Tək işləmək darıxdırıcıdır. Bu haqda düşünərkən ayaq üstə yatdığım zaman Frenkin məni ayaqlarımdan vuraraq yıxdığını xatırladım. İsti və şirin qoxu, ağ divarlar. Frenk sobanı açır və oradan alov gurultusunun səsi gəlir. Mən
yıxılıram... bükülürəm... döşəmə ayağımın altından


downloaded from KitabYurdu.org

qaçır... şiddətli ağrı...

Bu mənəm, ancaq, hər halda, döşəməyə sərilən başqasıdır, başqa Çarlidir. O özünü itirib... o əzilmiş yerini ovuşdurur... uzundraz və arıq Frenkə və yanında dayanan nəhəng tüklü Cimpiyə baxır. Onun uzun qaşlarının altındakı mavi gözləri, demək olar ki, görünmür.

-Oğlanı rahat burax, - Cimpi deyir. - İnsafın olsun, Frenk, niyə sən həmişə ona ilişirsən?

-Boş şeydir, - Frenk gülür, - mən ki onu öldürmürəm. Onsuz da onun dünya vecinə deyil. Elə deyil, Çarli?

Çarli büzüşür. O bu cəzanı nəylə haqq etdiyini başa düşmür, bunun sonuncu olmadığını anlamır.

-Sənin ki vecinədir, - Cimpi ortopedik çəkmələrini cırıldadaraq deyir. - Axı niyə ona əziyyət verirsən?

Onlar uzun stolun arxasında əyləşib axşama sifariş verilən bulkalar üçün kündələr yaymağa başlayırlar. Bir müddət sakit işləyirlər, sonra Frenk dayanır və ağ qalpağını ənsəsinə doğru itələyir.

- Eşidirsən, Cimp, gəl Çarliyə bulka bişirməyi öyrədək.

Cimpi dirsəklərini stola dayayır.

- Yaxşısı budur, gəl onu rahat buraxaq.

-Yox, Cimp, ciddi deyirəm. Mərc gəlirəm ki, ona nəsə sadə bir şey öyrətmək olar, məsələn, bulkalar düzəltməyi.

Deyəsən, bu fikir Cimpinin xoşuna gəlməyə başlayır


downloaded from KitabYurdu.org

və o başını döndərib diqqətlə Çarliyə baxır.

- Burada nəsə var. Ey, Çarli, bir dəqiqəlik bura gəlsənə.

Çarli dayanıb çəkmələrinin bağına baxır, başqalan onun haqqında danışanda həmişə belə edir. O, çəkmələrinin bağını necə salmağı və onlan necə bağlamağı bilir. O, bulka düzəltməyi də bilir. Xəmiri necə şişirtməyi, yaymağı, çevirməyi və ondan balaca yumru kökələr düzəltməyi ona öyrətmək olar.

Frenk ona şübhəylə baxır.

-Bəlkə, lazım deyil, Cimp? Bu axmaqla əlləşmək nəyimizə lazımdır?

-Bunu mənim ixtiyarıma burax, - Frenkin ideyası artıq ağlına batan Cimpi deyir. - Mənə elə gəlir ki, onda alınacaq. Çarli, sən də Frenklə mənim kimi bulka düzəltmək istəyirsən?

Çarli ona baxır və üzündəki təbəssüm yavaş-yavaş yox olur. Cimpinin ondan nə istədiyini bilir və küncə sıxışdırıldığım hiss edir. O, Cimpiyə qulluq etmək istəyir, ancaq ÖYRƏTMƏK və ÖYRƏNMƏK sözlərində xoşagəlməz nəsə var, onların arxasında yuxarı qaldırılaraq anlamadığı şeyi öyrənməsi üçün onu vuran nazik ağ əl görür.

Çarli bir addım geri çəkilir, ancaq Cimpi onun əlindən yapışır.

-Qorxma, oğlan, biz sənə pis heç nə etmərik. Baxsana,


downloaded from KitabYurdu.org

tir- tir əsirsən, elə bil parçalanıb tikə-tikə olacaqsan. Bax gör məndə nə var. - O, ovcunu açır, orada mis zəncir var və ona panldayan bir disk bərkidilib: "Star-brayt ulduz kimi panldayanacan cilalayır". Cimpi zənciri qaldırır və qızılı dairəcik lüminesset

lapmanın işığını əks etdirərərk asta-asta yırğalanmağa başlayır. Belə bir parıltını Çarli artıq görüb, ancaq haçan və harada, yadında deyil.

Çarli bilir ki, başqasına aid olanı götürsən, cəzalanacaqsan. Əgər nəyisə birbaşa ovcuna qoysalar, onda hər şey qaydasındadır. Ancaq belə. Amma Cimpi ona qotazlı bir şey vermək istəyir... Çarli başını tərpədərək gülümsəyir.

-O bunu anlayır, - Frenk gülür və eksperimentin aparılmasını tam olaraq Cimpinin əllərinə təslim edir,
- parıltını çox sevir. - O həyəcanlanaraq irəli əyilir. - Əgər bu oyuncaq onun xoşuna gəlirsə, onda kökə düzəltməyi də öyrənə bilər.

İki çörəkçi səylə Çarliyə girişir və bütün çörəkxana onların ətrafına toplaşır. Frenk stolun bir tərəfini təmizləyir, Cimpi isə orta ölçülü xəmir parçalarını şappıltıyla ona atır. Tamaşaçılar mərc gəlirlər.

-Diqqətlə bax, - Cimpi deyir və zəncirli diski stolun üstünə qoyur. - Bax və bizim etdiyimizi təkrarla. Kökə düzəltməyi öyrənsən, bunu sənə verəcəyəm. Halal xoşun olsun.


downloaded from KitabYurdu.org

Çarli stulda oturduğu yerdə əyilərək, Cipminin bıçağı götürüb bir parça xəmir kəsməsinə baxır. O hər bir hərəkəti görür, Cimpi xəmiri diyirlədərək uzun lülə halına gətirir və ondan parça kəsərək halqa formasına salır. Arabir xəmirə un səpir.

-İndisə bura bax, - eyni şeyi edən Frenk deyir. Çarli karıxır, çünki onlann hərəkətlərində fərq var. Cimpi xəmiri diyirlədərkən dirsəklərini quş qanadı kimi qaldırır, Fenk isə böyürlərinə sıxır. Cimpi barmaqlarını bir-birinə yapışdırır, amma Frenk baş barmağını yuxan qaldınr. Cimpi deyir:

- Hə, Çarli, bir sma görək.

Çarli tərəddüd edərək başını bulayır, xırdalıqlara əmin olmaması onu yerinə mıxlayır.

-Baxsana, Çarli, indi daha asta-asta edəcəyəm. Bax və mənim ardımca təkrarla. Danışdıq? Çalış yadında saxlayasan ki, sonra özün edə biləsən.

Çarli alnını qmşdıraraq, Cimpinin xəmirdən bir parça kəsib necə yumrulamasına baxır. O, bir az ləngiyir, sonra bıçağı götürüb bir parça xəmir kəsir və stolun ortasına qoyur.

Dirsəklərini yavaş-yavaş Cimpi kimi kənara açaraq dairə düzəldir. Gah öz, gah da Cimpinin əllərinə baxır və barmaqlarını eynilə onun kimi sıx tutmağa çalışır. Hər şeyi düzgün etmək lazımdır, çünki Cimpi belə istəyir. Beynində kimsə ona pıçıldayır: hər şeyi düzgün et, onda


downloaded from KitabYurdu.org

onlar səni sevəcəklər. Çarli Frenk və Cimpinin onu sevməsini çox istəyir.

Cimpi dikəlir, eyni şeyi Çarli də edir.

- Bax belə. Bir bax, Frenk, o, kündə düzəltdi.

Frenk başını tərpədərək gülümsəyir. Çarli dərindən nəfəs alır. O, gərginlikdən tir-tir titrəyir. O, uğura öyrəşməyib.

- Yaxşı, - Cimpi deyir, - indisə lülə düzəldəcəyik.

Çarli onun hər bir hərəkətini yöndəmsiz, ancaq diqqətlə təkrarlayır. Əlinin bir neçə dəfə titrəməsi onun səylərini nəticəsiz qoyur, ancaq, axır ki, xəmir parçasını halqa şəklinə salmağı bacanr. O, altı halqa düzəldib un səpilmiş böyük saca, Cimpinin düzəltdiklərinin yanma qoyur.

-Əla, Çarli, - Cimpinin sifəti ciddiləşir. - İndisə özün düzəlt, mənsiz. Başla.

Çarli nəhəng xəmir yumağına və əlinə verilən bıçağa baxır və dərhal qorxuya düşür. Ən əvvəl nə etmişdi? Əlini necə tutmuşdu? Bəs barmaqlarını? Xəmiri necə yumrulamışdı? Başında minlərlə sual yaranıb, o isə baxıb gülür. O, Frenkin və Cimpinin şad olmalarını, onu sevmələrini istəyir, o, vəd olunan zənciri qazanmaq və özünü xoşbəxt hiss etmək istəyir. O, xəmiri durmadan çevirir, ancaq heç cür başlaya bilmir. Ondan heç cür bir parça kəsə bilmir, çünki səhv edəcəyini bilir. O qorxur.

- O artıq unutdu, - Frenk deyir. - Başında heç nə qalmır.



downloaded from KitabYurdu.org

Çarli qaşqabağını sallayıb fikrini toplayır və yada salmağa
çalışır: əvvəlcə bir parça kəsirsən. Sonra onu yumrulayırsan.
Bəs sacdakı halqaya necə çevrilir? Ona vaxt verin və o xatırlayacaq. Budur, duman bir qədər dağılır və o, dərhal xatırlayır. O, öyrəndiklərini az da olsa, beynində saxlamaq üçün özüylə var qüwəsiylə mübarizə aparır. O, çox çalışır...

-Hə, nə oldu, Çarli, - Cimpi bıçağı onun əlindən alaraq deyir, - nahaq yerə özünə əziyyət vermə. Onsuz da bu iş sənlik deyil.

Bir dəqiqə də keçsə, o xatırlayacaq. Təki onu tələsdirməsinlər. Bunlar hara tələsir e?

-Get, Çarli. Get otur və komikslərə bax. Bizə işləmək lazımdır.

Çarli gülümsəyir və dal cibindən gülməli şəkilləri olan jurnal çıxanr. Onu düzəldib şlyapa kimi başına qoyur. Frenk qəhqəhə çəkir, nəhayət, Cimpinin də dodağı qaçır.

-Get, oğlum, - Cimpi fınxırır. - Cənab Donner çağıranacan otur.

Çarli ona gülümsəyir və ayaqlarını un kisələri qoyulmuş küncə doğru sürüyür. Onların üstündə bardaş qurub oturmaq və jurnaldakı şəkillərə baxmaq xoşuna gəlir. O, səhifələri çevirməyə başlayır və birdən ağlamaq istəyir. Səbəbini başa düşmür. Dərdi nədir? Duman


downloaded from KitabYurdu.org

qatılaşır, sonra yenidən dağılır. O artıq otuz-qırx dəfə gördüyü parlaq şəkillərdən ləzzət alır. O kimin adının nə olduğunu bilir və fiqurların başları üzərindəki ağ dairəciklərin içərisində yazılanlar onlann nə danışdığını bildirir. O haçansa bu hərfləri oxuya biləcəkmi? Ona vaxt verin,
tələsdirməyin, itələməyin onu və o bacaracaq. Ancaq hamı harasa tələsir...

Çarli dizlərini qarnına yığaraq jurnalın ilk səhifəsini açır, burada Batman və Robin bir binanın damından asılmış uzun kəndirdə yellənirlər. O haçansa mütləq oxumağı öyrənəcək, - Çarli düşünür, - və burada nə yazıldığını biləcək. O, çiynində əl hiss edir və başını
qaldırır. Bu, zənciri ona uzadan Cimpidir. Mis disk fırlanır, parıldayır...

- Götür, - o donquldanır və zənciri Çarlinin dizləri üstünə ataraq, axsaya-axsaya uzaqlaşır. Artıq mən bunun onun üçün tamamilə qeyri-adi hərəkət olduğunu anlayıram.

O bunu niyə etdi? O vaxtdan etibarən mən professor Nemurun, doktor Ştrausun və kollecdə işləyən başqalarının sayəsində uzun yol qət etdim. Bəs Frenklə Cimpi mənim haqqımda nə düşünürlər? Axı mən tamam başqa cür olmuşam...

22 aprel

Çörəkxanadakı adamlar əməlli-başlı dəyişiblər. Onlar



downloaded from KitabYurdu.org

nəinki məni saymır, hətta düşmənçilik edirlər. Donner mənim həmkarlar təşkilatına üzv olmağımı istəyir, maaşımı da artırıb. Ən pisi odur ki, mən bütün bunlardan heç bir ləzzət ala bilmirəm, çünki insanlar mənə qarşı incikdirlər. Amma mən onları suçlaya bilmərəm, çünki nə baş verdiyini bilmirlər, mənsə onlara izah edə bilmirəm. Əvvəllər mənə elə gəlirdi ki, onlar mənimlə fəxr edəcəklər. Ancaq belə deyilmiş.

Doğrudur, mənim dərdləşməyə kimsəm var. Sabah axşam miss Kinninanı kinoya dəvət edəcəyəm, inkişafı qeyd etmək üçün. Təbii ki, cəsarətim çatsa.

24 aprel

Axır ki, professor Nemur yazdıqlarımı başqalarının oxuyacağını bilə-bilə öz duyğularımı yazmağımın qətiyyən mümkün olmamasıyla bağlı doktor Ştrausla və mənimlə razılaşdı. Öz yazılarımda mən həmişə tam dürüst olmağa çalışmışam, ancaq elə şeylər var ki, onların hamının mah olmasını istəmirəm. Ən azı, indi.

Artıq ən gizli təəssüratlarında bağlı qeydlərimi özümdə saxlaya bilərəm, ancaq bir şərtlə ki, yekun məruzə Uelberq fonduna təqdim olunmazdan qabaq professor Nemur hər şeyi oxumalı və nəyin dərc olunmasına özü qərar verməlidir.

Bu gün yetərincə xoşagəlməz bir hadisə baş verdi. Mən Alisa Kinnianı kinoya dəvət etməyimin mümkün olub- olmamasını doktor Ştrausdan, yaxud professor



downloaded from KitabYurdu.org

Nemurdan soruşmaq üçün laboratoriyaya bir az erkən gəlmişdim. Elə qapını döymək istəyirdim ki, onlann bir-biriylə mübahisə etdiklərini eşitdim. Gizlicə qulaq asmaq vərdişinin öhdəsindən gəlmək çox çətindir, həm də insanların həmişə məndən zərrə qədər çəkinmədən danışdıqlarını və hərəkət etdiklərini görmüşəm, haqlarında nə düşünməyim onlann heç vaxt vecinə olmayıb.

Onlardan biri yumruğunu stola çırpdı və professor Nemur qışqırdı:

- Mən məruzəni Çikaqoya təqdim edəcəyimizi təşkilat komitəsinə xəbər vermişəm!

Sonra mən doktor Ştrausun səsini eşitdim:

-Sən haqsızsan, Harold. Altı həftə çox qısa bir müddətdir. O hələ dəyişir.

Sonra yenə Nemur davam etdi:

-Biz bu vaxtacan öncəgörmələrimizdə bircə dəfə də yanılmamışıq və bununla da nəticələrimizi açıqlamaq haqqı qazanmışıq. Təkrar edirəm, Cey, qətiyyən qorxmaq lazım deyil. Hər şey plan üzrə gedir.

Ştraus:

-Bu iş bizim hamımız üçün son dərəcə vacibdir, ona görə də vaxtından qabaq hay-küy salmaq olmaz. Sən cürət edib...

Nemur:

- Sənsə layihəyə mənim rəhbərlik etdiyimi unudursan!



downloaded from KitabYurdu.org

Ştraus:

-Amma sən də unudursan ki, burada söhbət təkcə sənin reputasiyandan getmir! Əgər nəticələr təsdiq olunmasa, bütün nəzəriyyə zərbə altına düşür!

Nemur:

-Mən hər şeyi dəfələrlə yoxlamışam və düşünürəm ki, artıq tənəzzül təhlükəsi yoxdur. Xırda bir məruzənin bizə ziyanı

olmaz. Mən hər şeyin qaydasında olacağına, sadəcə, əminəm!

Sonra Ştraus dedi ki, Nemur Hallstonda psixologiya kafedrasının müdiri olmağı hədəfləyib. Nemur cavab verdi ki, Ştraus da onun ətəyindən yapışıb şöhrətə doğru dartınır.

Ştraus:

-Mənim neyrocərrahiyyə texnikam və enzim inyeksiyam olmadan sənin nəzəriyyənin heç bir dəyəri yoxdur və tezliklə dünyada minlərlə cərrah mənim metodikamdan istifadə edəcək.

Nemur:

-Bütün bu yeni metodikalar ancaq mənim nəzəriyyəm əsasında yaranıb.

Onlar bir-birini opportunist, ədəbsiz, pessimist adlandıraraq söyüşməyə başladılar və mən nədənsə qorxdum. Birdən ağlıma gəldi ki, qapının arxasında dayanıb onları dinləməyə heç bir haqqım yoxdur.



downloaded from KitabYurdu.org

Əvvəllər bunun onlar üçün heç bir əhəmiyyəti yox idi, ancaq indi əqli qabiliyyətlərimi çox gözəl bildiklərindən mübahisələrindən xəbər tutduğumu, təbii ki, istəməzdilər. Mən söhbətin sonunu gözləməyib getdim.

Hava qaralırdı və mən uzun müddət avaralanaraq məni nəyin belə qorxutduğunu anlamağa çalışırdım. Onları ilk dəfə belə, olduqları kimi görürdüm - nə tannydılar, nə də qəhrəman, sadəcə, öz işlərindən nəsə əldə etmək istəyən iki yorğun kişidir. Bəlkə, Nemur həqiqətən haqlıdır və eksperiment alınıb? Onda mübahisəyə nə gərək var?

Yaxşı, miss Kinnianı kinoya dəvət edim, ya yox? Sabah soruşaram.

26 aprel

Mən, yəqin ki, kollecdə boş-boş gəzməməliyəm. Qoltuqlarında kitablar harasa tələsən gənc oğlanların, qızların görkəmi və səs-küyü məni həyəcanlandırır. Mən onlarla oturub qəhvə içə-içə söhbətləşmək, romanlar, siyasət, yeni ideyalar haqqında mübahisə etmək istəyirəm. Onların poeziya, elm və fəlsəfə - Şekspir və Milton, Nyuton, Eynşteyn, Freyd, Platon, Hegel və adları mənim beynimdə iri kilsə zəngi kimi danqıldayan digərləri haqqında mübahisələrini dinləmək maraqlı olardı.

Onlann söhbətlərinə qulaq asa-asa özümü elə göstərirəm ki, yaşım xeyli çox olsa da, guya mən də



downloaded from KitabYurdu.org

tələbəyəm. Mən özümlə dərsliklər gəzdirir, hətta qəlyan çəkməyə başlamışam. Əlbəttə, bu, axmaqlıqdır, ancaq nədənsə mənə elə gəlir ki, onlarla eyni dünyanın adamıyam. Öz evimə və tənha hücrəmə nifrət edirəm.

27 aprel

Kafedə bir neçə tələbəylə tanış olub dostlaşdım. Onlar Şekspirin pyeslərini özü yazıb-yazmadığı haqda mübahisə edirdilər. Onlardan biri - burnu tərli gonbul deyirdi ki, Şekspirin bütün pyeslərini Marlou yazıb. Ancaq qara eynək taxmış gödək Lenni dedi ki, Marlou-filan boş şeydir, hamı çox gözəl bilir ki, bütün bu pyesləri Frensis Bekon yazıb, ona görə ki Şekspir heç vaxt kollecdə oxumadığından yazdığı əsərlərdə rast gəlinən biliyə malik ola bilməzdi. Birinci kurs tələbəsi şapkası qoyan oğlansa dedi ki, uşaqlar ayaqyolunda Şekspirin bütün pyeslərini, əslində, guya bir xanımın yazdığı haqda - danışırmışlar.

Onlar siyasət, incəsənət və Tanrı haqqında danışırdılar. Heç vaxt ağlıma da gəlməzdi ki, Tann olmaya da bilərmiş. Mən

bir az qorxmağa başlamışam, axı Tanrının kim olması haqda ilk dəfə düşünməyə başlamışam.

Artıq başa düşürəm ki, kollecin əsas vəzifələrindən biri insanlara bütün həyatları boyu inandıqlarının, əslində, qətiyyən bu cür və heç nəyin göründüyü kimi olmadığını izah etməkdir.


downloaded from KitabYurdu.org

Onların mübahisə etdikləri bütün vaxt ərzində içimdə nəsə coşub-qaynayırdı. Deməli, dünyada ən çox istədiyim şey kollecə gedib insanların mühüm şeylər haqqında danışmasını dinləmək imiş.

Artıq bütün boş vaxtımı kitabxanada keçirir, kitabları udur və içimə çəkirəm. Mənim maraq dairəm yetərincə genişdir: Dostoyevski, Flober, Dikkens, Heminquey, Folkner - əlimə keçən istənilən roman. Mənim aclığım doymaq bilməyənlərdəndir.

28 aprel

Gecə yuxuda gördüm ki, anam atamla və 222 saylı məktəbə keçiriləne qədər oxuduğum 13 saylı məktəbin müəllimәsiylə dalaşır...

-...O, normaldır! O, normaldır! O böyüyüb hamı kimi olacaq! Hamıdan yaxşı olacaq! - O, müəllimənin üzünü cırmaq istəyir, ancaq atam onu bərk-bərk tutur. - O, kollecə gedəcək!

O, məşhur olacaq! - O, atamın əlindən çıxmağa çalışaraq durmadan qışqırır. - O, kollecə gedəcək!

Biz direktorun otağındayıq, burada bizdən başqa da xeyli adam var. Hamı pərt görkəmdədir, təkcə direktorun müavini xəfifcə gülümsəyir və heç kəs görməsin deyə üzünü çevirir. Mənim yuxumda direktorun uzun saqqalı var, o, otaqda üzərək məni barmağıyla göstərir:

-Onu xüsusi məktəbə keçirmək lazımdır. Uorrendəki xüsusi dövlət məktəbinə, siz bunu etməlisiniz! O, burada



downloaded from KitabYurdu.org

qala bilməz!

Atam anamı itələyib kabinetdən çıxarır, anam qışqırıb ağlamağa davam edir. Mən onun üzünü görmürəm, ancaq iri və qırmızı göz yaşlan durmadan üstümə damcılayır...

Səhər tezdən nəinki yuxumu xatırladım, hətta yaddaşımın dumanı arasından yenidən bütün bunlann baş verdiyi altı yaşıma boylandım. Norma hələ doğulmamışdı. Anam qara saçlı
balaca bir qadın idi. O, tez-tez danışır, əlləri isə daim hərəkətdəydi. Yadımdadır, o elə hey iri qayğıkeş quş kimi atamın ətrafında dövrə vururdu. Atam işdə çox yorulduğundan onu qovmağa gücü qalmırdı.

Mən Çarlini görürəm. O öz sevimli oyuncağı - muncuqlar və dairəciklər keçirilmiş ipiylə mətbəxin ortasında dayanıb. O, ipi hərlədir, ip barmağına dolanaraq ətrafa parıltılar saçır. O, beləcə saatlarla oynaya bilər. Onu kimin düzəltdiyi və sonradan hara yoxa çıxdığı mənim yadımda deyil, ancaq sayrışan parlaq halələrə necə heyranlıqla baxdığı yadımdadır...

Anam ona qışqırır... yox, anam atama qışqırır:

-Mən onu məktəbdən çıxarmaq istəmirəm! Onda hər şey qaydasındadır!

-Roza, bəsdir özünü aldatdın! O, normal uşaq deyil. Sən bir ona bax, Roza! Onun artıq altı yaşı var e...

- O, zırrama deyil! Bütün uşaqlar kimidir!

Ata kədərlə öz ipiylə oynayan oğluna baxır. Çarli



downloaded from KitabYurdu.org

gülümsəyir və atasının ipi necə yaxşı fırlatdığım görməsi üçün qolunu qaldırır.

-Bu zibili at getsin! - anam qışqırır və Çarlinin əlinə vurur. İp döşəməyə düşür. - Get kublarla oyna!

Çarli qəfil partlayan bu qəzəbdən qorxur. O daha sonra nə olacağını bilmir. Onu titrətmə tutur. Valideynləri mübahisəyə davam edirlər və onlann bir-birinə tuşlanmış səsləri onun sinirlərini gərir, ürəyini sıxır. O həyəcanlanır.

- Çarli, tez ayaqyoluna get! Ancaq tumanını batırma!

O, əlbəttə, anasının sözünə qulaq asardı, ancaq nədənsə ayaqları getmir. Başını zərbədən qorumaq üçün əllərini yuxarı qaldınr.

-Tanrı xatirinə, Roza, onu rahat burax! Gör sən onu necə qorxutdun. Sən beləsən də, yazıq uşaq...

-Bəs sən niyə mənə kömək etmirsən? Niyə hər şeyi mən təkbaşıma etməliyəm? Geri qalmaması üçün mən hər gün onunla məşğul olaram. O, sadəcə, çox astagəldir, vəssalam!

-Özünü aldatma, Roza, bu, düzgün deyil. Sən onu heyvan kimi əhliləşdirirsən. Onunla işin olmasın.

- Mən onun hamı kimi olmasını istəyirəm!

Onlar mübahisə edərkən Çarlinin qarnı lap dəhşətli ağrımağa başlayır, elə bil indi partlayacaq. O, yaxşı bilir ki, tualetə getməlidir. Ancaq, sadəcə, özünü buna məcbur edə bilmir. Burada mətbəxdə eləmək daha rahatdır, ancaq



downloaded from KitabYurdu.org

bu, düzgün deyil, anası onu döyəcək. O öz ipini geri istəyir. Əgər ip əlində olsa və onu fırlatsa, özünü saxlaya bilər və tumanını batırmaz. Ancaq oyuncaq yoxdur, dairəciklər və muncuqlar mətbəxə dağılıb, ip isə pilətənin yanındadır.

Qəribədir, səslər mənə çox aydın gəlib çatsa da, onların üzünü hələ də görmürəm, ancaq ümumi cizgilər görünür. Atam - nəhəng və ləng, anam balaca və cəld. Onların davasına qulaq asaraq var gücümlə bağırmaq istəyirəm: "Siz bir ona baxın! Aşağı, ona! Çarliyə! Ona tualetə getmək lazımdır!!!"

Onlar mübahisə edirlər, Çarli isə balaca əlləriylə qırmızı dama-dama köynəyindən yapışaraq dayanıb. Onların arasındakı söz atışmasında dəhşətli kin və öz günahlarının etirafı var.

- Sentyabrda o, yenə on üç saylı məktəbə gedəcək və bütün proqramı yenidən öyrənəcək!

-Özümüzü aldatmaq lazım deyil! Müəllimə dedi ki, o heç bir ciddi məşğələyə hazır deyil.

-O ləçəri deyirsən? Gələn dəfə ona nə deyəcəyimi yaxşı bilirəm! Bir də nəsə desə, ondan qəyyumluq şurasına şikayət edəcəyəm! Mən o idbar qəhbənin gözlərini oyacağam! Çarli, sən nə qıvrılırsan? Get tualetə. Özün get. Hara getməli olduğunu bilirsən.

-Məgər görmürsən ki, o sənin də getməyini istəyir. O qorxur!


downloaded from KitabYurdu.org

-Əl çək! O tək də çox gözəl gedə bilir. Kitabda yazılıb ki, bu ona əminlik verər və məqsədə çatma duyğusu yaradar.

Ancaq soyuq, ağ kaşılı ayaqyolu otağının Çarlidə yaratdığı qorxu hər şeyə üstün gəlir. Çarli ora tək getməyə qorxur. O, əllərini anasına uzadır və hıçqırır:

- Tu... tua...

Anası onun əllərinə vurur.

-Bəsdir, - o, ciddi tərzdə deyir. - Sən artıq böyük oğlansan. Tez tualetə get və sənə necə öyrətmişəm tumanını aşağı çək. Xəbərdar edirəm, əgər batırsan, cəzalandıracağam.

Mən, demək olar ki, onu qıvıran spazmaları hiss edirəm, bunlarsa onun başı üstündə dayanıb nə edəcəyini gözləyirlər. Onun hıçqırması getdikcə azalır və qəfil bədəni üzərində nəzarəti itirir. O, üzünü əlləriylə qapayaraq özünü batırır.

Yüngüllük və qorxu. İndi qadın onu döyəcək. Budur, o artıq uşağa sarı əyilir, qışqırır ki, o, pis oğlandır və Çarli xilası atasında axtarır.

...Birdən yadıma düşür ki, qadının adı Roza, kişininki isə Mattdır. Qəribədir, atamla anamın adlannı unutmuşam. Axı bacımın adını xatırlayıram. Onlar haqqında son dəfə düşündüyümü yadıma sala bilmirəm. Mən Mattı görmək, həmin an onun nə düşündüyünü anlamaq istəyirəm. Anam məni döyməyə başlayanda o,


downloaded from KitabYurdu.org

üzünü döndərib bayıra çıxdı.

Kaş ki onların üzlərinə baxa biləydim.

HESABAT N°ıı

ı may

Niyə indiyəcən Alisa Kinnianın belə qəşəng olduğuna diqqət etməmişəm? Onun mehriban qara gözləri və çiyinlərinə
çatan dalğalı şabalıdı saçları var. Gülümsəyəndə ətli dodaqlan dairə şəklini alır.

Biz əvvəlcə kinoya getdik, sonra isə şam etdik. İlk filmdən çox az şey başa düşdüm, çünki daim, axır ki, onunla yanaşı oturmağım haqda düşündüm. Onun çılpaq qollan iki dəfə mənimkinə toxundu və mən hər dəfə qorxaraq qolumu çəkdim ki, birdən o hirslənər. Sonra qarşıda oturan oğlanın əlini öz rəfiqəsinin çiyninə qoyduğunu gördüm və mən də miss Kinnianı qucaqlamaq istədim. Təsəvvür edirsiniz, görün hara gəlib çıxmışdım...

Tələsmək lazım deyil... Əlimi onun kreslosunun başına qoyacağam... Sonra yavaş-yavaş... Artıq əlim onun çiyninin yanındadır... guya təsadüfən...

Cürətim çatmadı.

Mən yalnız bircə dəfə dirsəyimi guya bilmədən onun kreslosunun tutacağına qoydum, ancaq o, əlini mənim zəbt etdiyim yerdən dərhal çəkdi və mən dərhal üzümün tərini sildim. Bir dəfə isə o, təsadüfən mənim ayağıma toxundu.


downloaded from KitabYurdu.org

Axırda bu, dözülməz oldu və mən özümü onun haqqında düşünməməyə məcbur etdim. Birinci film müharibə haqdaydı, lakin mən onun ancaq sonuna baxa bildim: bir əsgər Avropaya qayıdıb, onun həyatını xilas edən bir qadınla evlənirdi. Amma ikinci film məni maraqlandırdı. Guya bir-birini sevən, amma, əslində, bir-birilərini məhvə aparan kişiylə qadın haqqında psixoloji bir film idi. Hər şeyin ərin arvadını öldürməyə apardığı bir məqamda qadın qəfil yuxusunda kabus görərək qışqırır və kişi öz uşaqlığını xatırlamağa başlayır. O başa düşür ki, bütün nifrətini onu daim dəhşətli əhvalatlarla qorxudan və bununla qiymətli "mən"inə çat salan acıqlı dayəsinə yönəltməlidir. Öz kəşfindən son dərəcə həyəcanlanan ər sevincindən elə qışqırır ki, arvadı oyanır. O, arvadını qucaqlayır və... bütün problemlər həll olunur. Səviyyəsiz bir şey! Yəqin ki, haqlı qəzəbimi nəyləsə ifadə etdim deyə Alisa qəfil mənə nə olduğunu soruşdu.

- Həyasız bir yalan, - foyeyə çıxanda dedim. - Belə şey olmur.

-Əlbəttə, olmur, - o dedi və güldü. - Kino yalanlar aləmidir.

-Bu, cavab deyil! - mən israr etdim. - Hətta uydurma aləmin də öz qaydaları olmalıdır. Ayrı-ayrı hissələr vahid bütövdə birləşməlidir. Belə filmlər cəfəngiyyatdır. Ssenarist və ya prodüser yerinə düşməyən şeylər ediblər və adama dərhal elə gəlir ki, hər şey əyri və çəpinə gedir.



downloaded from KitabYurdu.org

Biz gur işığa qərq olmuş Tayms-skverə çıxdıq. Alisa dalğın halda mənə baxdı.

- Sən necə də tez dəyişirsən...

-Mən özümü itirmişəm. Mən bildiklərimdən çox - bilmirəm.

-Qoy bu səni narahat etməsin. Sən dünyanı görməyə və dərk etməyə başlayırsan. - O əlini yellədərək ətrafımızda parıldayan neonu da bu hərəkətinə qoşdu. Biz Yeddinci avenyuya döndük. - Sən şeylərin arxasında gizlənən şeyləri anlamağa başlayırsan... Ayrı-ayrı hissələr bir-birinə uyğun gəlməlidir məsələsində səninlə razıyam.

-Sən nə danışırsan... Mən böyük kəşf etdiyimi hiss edə bilmirəm. Mən öz-özümü anlamıram və öz keçmişimdən heç cür baş aça bilmirəm. Valideynlərimin belə harada olduğunu bilmirəm, görkəmlərini xatırlamıram. Ancaq onların duyğularının ifadəsini çox görmək istəyirəm! Onların üzünü görməyənəcən mənimlə nə baş verdiyini heç vaxt anlamayacağam...

-Sakit ol, Çarli. - Bizə dönüb baxdılar. Alisa mənim əlimdən yapışıb özünə tərəf çəkdi. - Bir az döz. Unutma ki, bir neçə həftə ərzində sən başqalarının bütün həyatı boyu edə bilmədiklərini etmisən. Tezliklə sən ayn-ayrı hadisələr arasında əlaqə tapacaq və anlayacaqsan ki, ilk baxışda müxtəlif görünən bilik sahələri, əslində, bütöv bir tamın hissələridir. Sən sanki böyük bir nərdivanla elə hey



downloaded from KitabYurdu.org

yuxarı qalxırsan və ətrafda daha çox şey görürsən.

Biz əlli dördüncü küçədəki kafeyə daxil olub siniləri götürəndə o, həyəcanla dedi:

-Adi adamlar çox az şey görə bilirlər. Özünü dəyişmək, yaxud müəyyən səviyyədən yüksəyə qalxmaq iqtidannda
deyillər. Ancaq sən dahisən və hər gün əvvəllər varlığından qətiyyən xəbərin olmadığı yeni dünyalar kəşf edəcəksən.

Adamlar növbəylə dönüb yeni zühur etmiş dahiyə baxmağa başladılar və mən asta danışması üçün miss Kinnianı xəfifcə dümsükləməli oldum.

-Ancaq mən ümid edirəm ki, - o pıçıldadı, - bunun sənə ziyanı olmayacaq.

Mən ona dərhal cavab verə bilmədim. Biz piştaxtadan yemək götürüb pulunu ödədik və balaca masanın arxasına keçdik. Sakitcə yeməyə başladıq, ancaq bu sükut, axır ki, mənim əsəblərimə təsir etməyə başladı və zarafat etməyə qərar verdim.

-Əməliyyatın mənə ziyan edə biləcəyi haradan ağlına gəldi? Mən, çətin ki, əvvəlkindən daha pis olam. Elcernona bax. Əgər ona yaxşı təsir edibsə, məndə də yaxşı olacaq.

O, sakitcə yağ diliminin üzərinə bıçaqla dairələr çəkirdi və bu ölçülü hərəkətlər məni bir anlıq hipnoz etdi.

-Hə, - mən dedim, - mən bəzi şeylər də eşitmişəm.



downloaded from KitabYurdu.org

Professor Nemur və doktor Ştraus mübahisə edirdilər və Nemur müsbət nəticəyə ümid etdiyini söylədi.

-Ümid edək, - o dedi. - Sənə görə necə qorxduğumu təsəvvür belə edə bilməzsən. - Onun əlinə baxdığımı görüb, bıçağı ehtiyatla boşqabının yanma qoydu.

Mən özümü toplayıb dedim:

- Mən buna sənə görə razı oldum.

Alisa gülümsədi və xoşbəxtlikdən titrədi. Onun mehriban qara gözləri olduğunu da elə bu zaman hiss etdim. O, qəfil baxışlarını aşağı dikib qızardı.

- Sağ ol, Çarli, - o dedi və mənim əlimdən tutdu.

Belə bir şeyi mənə hələ deyən olmamışdı. Mən ona tərəf əyilib, qoxudan büzüşmüş halda dedim:

-Sən mənim çox xoşuma gəlirsən. - O başını tərpədib, təkcə dodaqlarıyla xəfifcə güldü... - Xoşuma gəlirsən azdır. Mən demək istəyirəm ki... Lənət şeytana, mən heç nə demək istədiyimi bilmirəm!

Hiss elədim ki, qıpqırmızı qızarmışam, hara baxdığımı və əllərimlə nə etdiyimi bilmirəm. Çəngəli əlimdən saldım, əyilib götürmək istəyəndə suyla dolu stəkanı onun üstünə aşırdım. Bir
anda yenidən küt və yöndəmsiz oldum, üzr istəmək istəyəndə isə hiss etdim ki, dilim çox böyüyüb və ağzıma sığmır.

-Qorxulu heç nə yoxdur, - Alisa məni sakitləşdirmək istədi. - Bu, adi sudur.


downloaded from KitabYurdu.org

Taksiylə evə gedərkən yolda uzun müddət susduq, sonra o, çantasını qoyub mənim qalstukumu və döş cibimdəki dəsmalı düzəltdi.

- Sən çox həyəcanlısan, Çarli.
- Mən özümü gülünc hiss edirəm.

-Mən öz söhbətlərində sənin kefini pozdum, səni karıxdırdım.

-Yox, belə deyil. Məni duyğularımı həmişə ifadə edə bilməməyim narahat edir.

-Duyğular sənin üçün yenilikdir. Hər şeyi demək... lazım deyil...

Mən ona yaxınlaşdım və əlindən tutmaq istədim, ancaq o, əlini çəkdi.

-Lazım deyil, Çarli. Mənə elə gəlir ki, indi sənə lazım olan bu deyil. Mən sənin qarşında günahkaram və bütün bunlann
necə qurtaracağı hələ məlum deyil.

Mən yenə küt və gülünc olduğumu hiss etdim. Öz-özümə acığım tutdu, Alisadan aralandım və gözlərimi pəncərəyə zillədim. Çətin suallara bəsit cavablar verdiyinə və ana kimi şirin söhbətinə görə ona nifrət edirdim, hələ heç kəsə belə nifrət etməmişdim. Onu şillələmək, qarşımda diz çökməyə məcbur etmək, sonra qucaqlayıb öpmək istəyirdim.

- Məni bağışla, Çarli.
- Unudaq bunu.



downloaded from KitabYurdu.org

- Ancaq sən nə baş verdiyini araşdırmalısan.

-Əlbəttə, əlbəttə, ancaq, hər halda, gəl bu barədə danışmayaq.

Taksi onun evinə yaxınlaşanda mən artıq özümü dünyanın ən bədbəxt adamı hiss edirdim.

-Başa düş, - Alisa dedi, - bu mənim səhvimdir. Mən gərək səninlə heç bir yerə getməyəydim.

- Hə, artıq bunu görürəm.

-Mən demək istəyirəm ki... Biz öz münasibətlərimizi... emosional əsasda qura bilmərik. Sənə hələ çox şeylərə nail
olmaq lazımdır... Mənim sənin həyatına müdaxilə etmək haqqım yoxdur.

- Bu mənim problemimdir, elə deyilmi?

-Bu yalnız sənin şəxsi məsələn deyil, Çarli. Sənin məsuliyyətin təkcə Nemurla Ştrausun deyil, ardınca gedəcək milyonlar qarşısındadır.

O bu barədə nə qədər çox danışırdısa, mən özümü bir o qədər pis hiss edirdim. Onunla keçirdiyim axşam bütün bacarıqsızlığımı, belə hallarda özümü apara bilməməyimi üzə çıxarmışdı. Mən onun nəzərində, sadəcə, yöndəmsiz bir yeniyetməydim və o, yaxasını məndən mümkün qədər nəzakətlə qurtarmağa çalışırdı.

Biz mənzilin kandarında dayandıq. Alisa gülümsədi və mənə hətta elə gəldi ki, o məni içəri dəvət etmək istəyir. Ancaq o yalnız bunu pıçıldadı:



downloaded from KitabYurdu.org

- Gecən xeyrə qalsın, Çarli. Gözəl gecəyə görə sağ ol. Vidalaşarkən mən onu öpmək istədim. Bu barədə əvvəlcədən düşünmüşdüm. Görəsən, qadın həmişə öpülməsini gözləyir? Mənə məlum olan romanlarda və filmlərdə təşəbbüs
həmişə kişilərdən gəlirdi. Dünən onu öpəcəyimə qəti qərar vermişdim. Bəlkə, birdən qoymadı?

Ona sarı bir addım atdım, ancaq Alisa məndən cəld tərpəndi.

-Yaxşısı budur, gəlin bir-birimizə xeyirli gecə arzulayaq, Çarli. Hər şey birdən olmaz... Hələlik olmaz.

Mən bu "hələlik" sözünün nə mənaya gəlməsini soruşmağa macal tapmamış o, qapıdan içəri keçdi.

- Gecən xeyrə qalsın. Bir daha sağ ol. Sağ ol.

Qapı çırpıldı.

O anda həm özümə, həm də ona, bütün dünyaya qarşı çox acıqlansam da, evə çatanda başa düşdüm ki, o, haqlıdır. Onun xoşuna gəldiyimi, ya da, sadəcə, mənimlə mehriban davrandığını bilmirəm. Mənim nəyim Alisanm xoşuna gələ bilər axı?

Hə, mən yöndəmsizəm, ancaq, sadəcə, ona görə ki əvvəllər heç vaxt belə situasiyalarla qarşılaşmamışam. Başqasına qarşı necə davranmalı olduğunu insan haradan bilə bilər axı? Kişi özünü qadınla necə aparmalı olduğunu haradan bilsin axı?

Kitabların faydası çox azdır.



downloaded from KitabYurdu.org

Gələn dəfə onu mütləq öpəcəyəm.

3 may

Məni ən çox narahat edən şeylərdən biri odur ki, öz keçmişimi xatırlayarkən nəyin həqiqətən baş verdiyini, yoxsa mənə elə gəldiyini, məhz belə olduğunu, yaxud hər şeyi uydurduğumu heç vaxt tam əminliklə deyə bilmirəm. Mən ömrünün yarısını dərin yuxuda olan, oyandıqdan sonra yatarkən kim olduğunu bilməyə çalışan adama bənzəyirdim.

Gecə gördüyüm kabuslardan müəyyən şeylər yadımda qalırdı.

...Toz gözümü çıxarda-çıxarda uzun dəhlizlə qaçıram. Mən irəli qaçıram, sonra dönüb dala qaçıram. Mən qorxuram, çünki cibimdə nəsə gizlətmişəm. Bunun nə olduğunu və haradan götürdüyümü bilmirəm, ancaq hər nədirsə, onu mənim əlimdən almaq istəyirlər.

Birdən divar uçur, onun yarığında sarışın saçlı bir qız peyda olur və əllərini mənə uzadır. Onun üzü solğun maskadan ibarətdir. O məni qucaqlayıb öpür, sakitləşdirir, mən onu bərk-bərk bağrıma basmaq istəyirəm, ancaq qorxuram. O məni buraxmır və mən getdikcə daha çox qorxuram, ona görə ki heç vaxt qadına toxunmamalı olduğumu bilirəm. Mən içimdə nəyinsə qaynadığını və titrədiyini hiss etməyə başlayıram. İstilənirəm. Gözlərimi qaldırıb baxanda onun əlində qanlı bıçaq görürəm. Mən qaçıram. Ciblərim



downloaded from KitabYurdu.org

boşdur. Ciblərimi eşələyirəm, ancaq nəyi itirdiyimi, ümumiyyətlə, onu niyə gizlətdiyimi bilmirəm.

Yuxudan ayılıb Alisanı xatırlayanda yenə eynilə yuxudakı kimi təşvişə düşdüm. Nədən qorxuram axı? Yəqin ki, hər necəsə bıçaqla bağlıdır.

Qəhvə dəmləyib, siqaret yandırdım. Mən heç vaxt yuxumda belə bir şey görməmişdim və tamamilə əmin idim ki, yuxumun kökləri dünənki axşama gedib çıxır. Mən Alisa haqqında başqa cür düşünməyə başlayıram.

Sərbəst assosiasiyalar hələ də son dərəcə əzablı bir prosesdir. Öz düşüncələrinə nəzarəti tərgitmək çox çətindir... Beyninin qabağını aç və qoy nə varsa, tökülsün ora... Obrazlar stəkandakı, vannadakı qabarcıqlar kimi luqquldayır... orada bir
qadın, qız çimir... Norma vanna qəbul edir... Mən açar dəliyindən baxıram... O silinmək üçün qalxır və mən onun bədəninin mənimkindən fərqləndiyini görürəm... Nəsə çatmır.

Dəhlizlə qaçıram... Kimsə məni qovur... adam deyil... ancaq yekə mətbəx bıçağıdır... Mən dəhşət içindəyəm və qışqırmaq istəyirəm, ancaq səsim çıxmır, boğazım kəsilib və ondan qan axır.

- Ana, Çarli mənə baxır!

O niyə başqa cürdür? Ona nə olub?.. Qan... qan gölü... Üç kor siçan... Üç kor siçan, onlar necə də qaçırlar! Onlar quyruqlarını mətbəx bıçağıyla kəsən fermer arvadının


downloaded from KitabYurdu.org

ardınca qaçırlar. Sən haçansa belə şey görmüsən? Üç... kor... siçan...

Səhər tezdən Çarli mətbəxdə təkdir. Hamı hələ yatıb və o öz ipiylə əylənir. Birdən o yöndəmsizcəsinə dönəndə köynəyinin düyməsi qırılıb, linoleumun üzəriylə müəmmalı xətt cızaraq vanna otağına doğru diyirlənir və Çarlinin gözündən itir. Düymə necə oldu? Axtarışlar Çarlini vanna otağına aparır. Orada çirkli alt paltarlanyla dolu yeşik var və oradakı şeyləri - atasının, anasının, Normanın paltarlarını çıxarıb baxmaq onun
xoşuna gəlir. Bir dəfə onlan geyinib özünü Norma kimi göstərəndə anası onu əməlli-başlı şillələdi. Onun gözünə Normanın qanlı alt tumanı dəyir. O, dəhşətə gəlir. Bacısına nə olub, görəsən? Yəqin, onu kimsə yaralayıb və indi də onu izləyir...

Niyə bu xatirə də bir çox digərləri kimi yaddaşımdan silinib getmir? Niyə o məni dəhşətə gətirir? O mənim Alisaya olan duyğularımla hansı şəkildə bağlıdır?

Mənə niyə qadınlardan uzaq durmağı öyrətdiklərini artıq başa düşməyə başlayıram. Alisa ilə o cür danışmamalıydım. Qadınlar haqqında düşünməyə mənim haqqım yoxdur, hələlik yoxdur.

Niyə hamı mənə adam olacağımı söyləyir? Mən həmişə adam olmuşam, hətta cərrahın bıçağı mənə toxunana qədər də.

Mən insanam... Mən sevməliyəm.



downloaded from KitabYurdu.org

8 may

Hətta indi, cənab Donnerin arxasında nələr çevrildiyini aydınlaşdırdıqdan sonra belə buna inanmağa çətinlik çəkirəm. İlk xoşagəlməz halı iki gün əvvəl gördüm. Cimpi piştaxtanın
arxasında dayanıb daimi müştərilərimizdən birinə bayram piroqu bükürdü. Belə piroqun qiyməti 3 dollar 95 sentdir. Cimpi kassanı cingildətdi və onun balaca ekranında 2,95 rəqəmi çıxdı. Mən ağzımı açıb bu xətanı düzəltmək istəyirdim ki, piştaxtanın arxasında asılmış güzgüdə müştərinin şən-şən göz vurduğunu, Cimpinin isə cavabında ona gülümsədiyini gördüm. Müştəri pulunun qalığını alanda mən Cimpinin ovcunda qalan gümüşü sikkəni və onun yanın dolları cəld hərəkətlə cibinə göndərdiyini gördüm.

-Çarli, ekler* (pirojna növü) qalıb? - içəri girən qadın soruşdu.

- İndi baxaram.

Bu mənə istəmədən şahidi olduğum hadisə üzərində düşünməyə imkan verdi. Cimpi, şübhəsiz, səhv etməmiş, bir dolları müştəriyə bilərəkdən vurmamışdı və onlar bir-birini çox gözəl başa düşmüşdülər. Hərəsi yanm dollar qazanmışdı.

Mən nə edəcəyimi bilməyərək, aciz halda divara söykəndim. Cimpi düz on beş il idi ki, Donnerin yanında işləyirdi. Donner öz işçilərinə yaxın dostlan kimi yanaşır



downloaded from KitabYurdu.org

və
Cimpinin ailəsini dəfələrlə evinə şam yeməyinə dəvət etmişdi. Bir yerə gedəndə Cimpini öz yerinə qoyur, hətta Cimpinin arvadının xəstəxana xərclərini ödəmək üçün ona pul verdiyini də eşitmişdim.

Belə bir adamdan oğurluq etmək ağlasığmaz idi. Burada nəsə başqa bir səbəb olmalıydı. Məsələn, Cimpi təsadüfən səhv edə bilərdi, yanm dollar isə, sadəcə, çaypulu ola bilərdi. Ya da cənab Donner daimi müştərilərə güzəşt edə bilərdi. Hər nə olursa olsun, ancaq Cimpi oğru olmasın. Axı o, həmişə mənə qarşı rəhmli olmuşdu.

Mən heç nə bilmək istəmirdim. Eklerləri gətirdim və bulkalan piştaxtanın üzərinə düzməyə başladım. Kassanın ekranına bir daha baxmadım.

Ancaq... içəri balacaboy və sarısaç bir qadın girdi - o, həmişə mənim yanaqlarımı çimdikləyir və zarafatla tezliklə mənə qız tapacağını deyirdi. Yadıma düşdü ki, o, demək olar ki, həmişə Donner səhər yeməyi yeyəndə və Cimpi piştaxtanın arxasında dayananda gəlir. O məni tez-tez bu qadının evinə sifariş aparmağa da göndərirdi. Mən qeyri-ixtiyari onun aldığı
şeylərin qiymətini hesabladım: 4 dollar 53 sent və Cimpinin nə qədər vurduğunu görməmək üçün üzümü çevirdim. Mən həqiqəti bilmək üçün alışıb-yanır, eyni zamanda ondan qorxurdum.


downloaded from KitabYurdu.org

- İki əlli üç, missis Uiler, - Cimpinin səsini eşitdim. Kassa cingildədi. Pulun qalığı cingildədi. Piştaxta taqqıldadı.

- Təşəkkür edirəm, missis Uiler.

Mən məhz onun əli cibində olanda üzümü döndərdim və sikkələrin boğuq cingiltisini eşitdim.

Sifarişləri göndərərkən o məndən bir vasitəçi kimi neçə dəfə istifadə etmişdi? Qalan pulu kiminlə bölüşmüşdü? Necə ola bilər ki, bütün bu illər ərzində ona oğurluqda kömək etmişəm?

Mən piştaxtanın arxasında əlləşib-vuruşan Cimpidən gözümü çəkə bilmirdim. Onun kefi əlaydı, həyəcanlanmışdı, başındakı ağ qalpağının altından tər axırdı. Birdən mənim baxışlanmı tutdu və qaşqabağını sallayıb üzünü döndərdi. Könlümdən onu vurmaq keçirdi. Piştaxtanın arxasına keçib,
əngini necə lazımdır əzmək istəyirdim. Əvvəllər nə vaxtsa belə bir arzumun olduğunu xatırlamıram...

Otağımın sakitliyində duyğularımı kağıza köçürdüm. Ancaq köməyi olmadı. Cimpinin cənab Donnerə kələk gəlməsi yadıma düşən kimi nəyisə sındırmaq, qırmaq, əzmək istəyirəm. Yaxşı ki, zorakılığa qadir deyiləm. Ömrüm boyu heç kəsi vurmamışam.

Bir qərar qəbul etmək lazımdır. Yəni cənab Donnerə özü kimi inandığı adamın oğru olduğunu deyim? Cimpi hər şeyi boynundan atacaq, mənsə heç nə isbat edə


downloaded from KitabYurdu.org

bilməyəcəyəm. Bəs cənab Donner özü bu xəbəri necə qəbul edəcək? Heç bilmirəm neyləyim.

9 may

Gecə gözümü də yummadım. Cənab Donnerə çox borcluyam, ona görə də onun qarət olunmasına kənardan sakitcə baxa bilməzdim. Əgər sussam, Cimpinin şəriki olacağam. Digər tərəfdən, ondan xəbərçilik etməyə haqqım vardımı? Məni ən çox narahat edən o idi ki, öz çirkin işlərini görməkdə ona kömək edən də məhz mən idim. Hələlik heç nə
başa düşmürdüm, məndən nəsə soruşan da yox idi, ancaq susmaqla mən də Cimpi kimi cinayətkar olacaqdım.

Bəli, Cimpi mənimlə birlikdə işləyir, üç uşağı var. Birdən Donner onu qovsa, öz taxta ayağı ilə haradan iş tapacaq?

Mənim nəyimə lazımdır?

Bəla burasındadır ki, ən geniş biliklər belə mənə bu kiçik məsələnin həllində kömək edə bilmirdi.

ıo may

Hər şeyi professor Nemura danışdım. O dedi ki, bunun mənə dəxli yoxdur və nəticəsi heç də xoş olmayacaq bir işə qarışmaq tamamilə lüzumsuzdur. Məndən vasitəçi kimi istifadə olunması faktı onda heç bir təəssürat doğurmadı. Əgər o vaxtlar mən nə baş verdiyini başa düşməmişəmsə, deməli, bu işdən kənardayam. Sənin günahın adamı yaralayan bıçaqdan, yaxud vurub əzən


downloaded from KitabYurdu.org

maşından çox deyil.

- Məni dilsiz-ağızsız dəmir-dümürlə müqayisə etməyin! Mən insanam.

O, bir anlıq tutuldu, sonra qəhqəhə çəkib güldü.

-Əlbəttə, Çarli. Ancaq mən əməliyyata qədər olan dövrdən danışıram.

Özündən razı, təşəxxüslü - istədim onunənginə bir dənə ilişdirim.

-Mən əməliyyata qədər də şəxsiyyət idim. Əgər unutmamısmızsa...

-Əlbəttə, əlbəttə, Çarli. Ancaq məni düzgün başa düş... Hər şey başqa cür idi... - bu zaman o xatırladı ki, kiminsə xəstəlik tarixçəsini yoxlamalıdır və qaçdı.

Doktor Ştraus, adətən, bizim psixoterapevtik seanslar zamanı susur, ancaq öz duyğularım haqqında danışanda dedi ki, mənim borcum hər şeyi cənab Donnerə danışmaqdır.

Bu barədə nə qədər çox düşünürəmsə, məsələ daha da qəlizləşir. Kimsə bu düyünü çözməlidir, etibar edə biləcəyim yeganə insansa Alisadır.

Saat on birin yarısında, axır ki, qərara gəldim. Onun nömrəsini yığaraq üç dəfə dəstəyi asdım, yalnız dördüncü dəfə özümü cavabı gözləməyə məcbur edə bildim.

Əvvəlcə o mənimlə yenidən görüşmək haqqında eşitmək belə istəmədi. Ancaq təslim olmadım:

- Sən mənə lazımsan, sən həmişə mənə yaxşı


downloaded from KitabYurdu.org

məsləhətlər vermisən. - O tərəddüd edərkən əlavə etdim: - Sən mənə kömək etməlisən! Özün demisən ki, mənə görə məsuliyyət daşıyırsan. Əgər sən olmasaydın, mən heç vaxt bu işə girişməzdim. Sənin məndən üz döndərməyə haqqın yoxdur!

O, deyəsən, mənim səsimdə nəsə tutdu, çünki şam etdiyimiz kafedə yenidən görüşməyə razı oldu. Dəstəyi asıb gözlərimi telefona zillədim. Niyə onun nə düşündüyünü, nə hiss etdiyini bilmək mənə bu qədər vacibdir? Bütün il boyu mənim yeganə arzum onu sevindirmək olub. Bəlkə, elə əməliyyata da buna görə razılıq vermişəm?

Kafenin qarşısında o qədər oyan-buyana var-gəl etdim ki, bir az aralıda dayanmış polis məni şübhəli nəzərlərlə süzməyə başladı. İçəri girib bir fincan qəhvə sifariş verdim. Xoşbəxtlikdən, keçən dəfə oturduğumuz masa boş idi...

Alisa məni dərhal gördü və əl elədi, ancaq yaxmlaşmazdan qabaq piştaxtanın qarşısında ləngiyib qəhvə götürdü. O
gülümsədi və mən dərhal başa düşdüm ki, bunun səbəbi masanın həminki olmasıdır. Romantik təsadüf...

-Əlbəttə, artıq gecdir, - mən üzr istəməyə başladım, - ancaq and içirəm ki, səninlə təcili danışmalıyam. Az qalır ki, başıma hava gəlsin...

O, qəhvəsini qurtumlayaraq, Cimpini necə ifşa



downloaded from KitabYurdu.org

etdiyimə, keçirdiyim hisslər və aldığım məsləhətlər haqqında danışdıqlanma sakitcə qulaq asdıqdan sonra dalğın halda dedi:

-Çarli, sən məni heyrətləndirirsən. Birdən-birə böyüdüyündən uşaq kimi qətiyyətsizsən. Mən sənin yerinə qərar verə bilmərəm. Əgər ömür boyu uşaq qalmaq istəmirsənsə, başqalarının dediyini gözləmə. Qərarı özün qəbul etməli, nəyin doğru olduğunu özün hiss etməlisən. Özünə etibar etməyi öyrən.

Əsəblərim kəlləçarxa vurdu və onun nə demək istədiyi mənə qəfil çatdı.

- Demək istəyirsən ki, mən özüm etməli...

O başını tərpətdi.

-Artıq bəzi şeyləri anladım. Mənə elə gəlir ki, Ştraus və Nemur hər ikisi haqsızdırlar.

O, diqqətlə mənə baxdı.

- Sənə nəsə olur, Çarli. Sifətin yaman dəyişib!

-Haqlısan! Olur! Qarşımda tüstü pərdəsi vardı, sən onu üfürüb dağıtdın. Çox sadə bir ideya. Özünə inan. Əvvəllər belə bir şey ağlıma belə gəlməzdi.

- Afərin sənə, Çarli!

Mən onun əlindən yapışıb möhkəm sıxdım.

- Sən mənim gözlərimə toxundun və onları açdın.

Alisa qızardı və əlini çəkdi.

-Keçən dəfə sənə dedim ki, xoşuma gəlirsən. Ancaq qətiyyətli olmalıydım və səni sevdiyimi deməliydim.



downloaded from KitabYurdu.org

-Lazım deyil, Çarli. Gözlə.

-Gözləyim?! Onda sən də eyni şeyi deyirsən. Nəyi gözləyim?

-Ş-ş-ş... Hər halda, gözlə. Təhsilini başa vur və bax gör nələr olacaq. Sən çox tez dəyişirsən.

-Nə olsun ki? Sənə qarşı hisslərim heç vaxt dəyişməyəcək. Əgər ağıllansam, səni daha çox sevəcəyəm!

-Onu demirəm... Elə alınıb ki, mən sənin qarşına çıxan ilk qadın olmuşam. Məhz qadın. Mən sənin müəllimin, yəni sənin köməkçin, məsləhətçin olmuşam, əgər mənə vurulmasaydın, bu çox qəribə olardı. Başqa qadınlara da bax. Özünə vaxt ver.

-Sən demək istəyirsən ki, uşaqlar mütləq öz müəllimlərinə vurulurlar, mənsə emosional olaraq hələ uşağam?

-Sözlərlə oynama. Sən mənim üçün qətiyyən uşaq deyilsən.

-Emosional baxımdan geri qalmış böyük adam?

-Yox.

-Bəs onda mən nəyəm?

-Mənə təzyiq göstərmə, Çarli. Mən bilmirəm. Bir neçə aydan, bəlkə də, bir neçə həftədən sonra sən tamamilə başqa adam olacaqsan. Elə ola bilər ki, biz artıq intellektual səviyyədə ünsiyyət qura bilmərik, sən emosional cəhətdən böyüdükdən sonra isə, sadəcə, məni



downloaded from KitabYurdu.org

görmək istəməyəcəksən. Çarli, mən axı
özüm haqda da düşünməliyəm. Yaşayarıq, görərik. Bir az səbirli olaq.

Onun sözlərində, şübhəsiz, müəyyən həqiqət vardı, ancaq mən, sadəcə, onu tam anlaya bilmirdim.

-Keçən dəfə... - mən güclə dedim. - Bunu necə gözlədiyimi təsəvvür edə bilməzsən... Özümü necə aparacağımı, nə deyəcəyimi, necə təəssürat yaradacağımı dərk etməyə çalışaraq az qala dəli olacaqdım. Səni nəyləsə hirsləndirə biləcəyim fikri məni dəhşətə gətirirdi.

- Mən qətiyyən hirslənmirdim. Əksinə.
- Səni bir də nə vaxt görəcəyəm?
- Mənim səni özümə bağlamağa haqqım yoxdur.

-Məgər sən mənim artıq bağlandığımı görmürsən?! - mən qışqırdım, ancaq qonşu stollardan baxdıqlarını görüb, qəzəbdən titrəyən səsimin tonunu aşağı saldım. - Mən şəxsiyyətəm, adamam, kişiyəm, mən ancaq kitablarla, kasetlərlə və elektron labirintlərlə kifayətlənə bilmərəm. Sən mənə "başqa qadınlara bax" deyirsən. Əgər mən başqa qadınlar tanımıramsa, onda bəs necə olsun? Ətrafda hər şey sənin adını
qışqırır. Mən kitabın səhifəsinə baxanda orada sənin üzünü görürəm, uzaq keçmişdən gələn solğun ləkəni deyil, əsl, canlı sifəti. Mən ona toxunan kimi o yox olur... Onda mən kitabı parça-parça edib, pəncərədən bayıra atmaq istəyirəm!


downloaded from KitabYurdu.org

- Çarli, xahiş edirəm...
- Səni bir də nə vaxt görəcəyəm?
- Sabah laboratoriyada.

-Sən mənim nə dediyimi bilirsən. Cəhənnəm olsun laboratoriya. Cəhənnəm olsun universitet. Təklikdə deyirəm.

Hiss edirdim ki, o razılaşmaq istəyir, mənim inadkarlığım onun üçün açıq-aşkar sürpriz idi. Mən özüm də çox təəccüblənmişdim, ancaq bilirdim ki, istədiyimə nail olmayanacan Alisanı rahat buraxmayacağam. Qorxudan boğazım qovuşdu, ovuclarım tərlədi. Ən çox nədən qorxurdum? Onun "hə"sindən, yoxsa "yox"undan? Əgər o, bir dəqiqə də cavab verməsəydi, mən gərginlikdən huşumu itirəcəkdim.

-Yaxşı, Çarli. Qoy laboratoriyada olmasın, ancaq üz-üzə də olmaz. Biz hələlik təkbətək qalmamalıyıq.

-Yaxşı, harada olur-olsun, - deyə ah çəkdim. - Mən səninlə olmaq istəyirəm və testlər, statistika, suallar, cavablar haqqında düşünmək istəmirəm...

Alisa bir saniyə fikrə getdi.

-Mərkəzi parkda pulsuz yaz konsertləri verirlər. Gələn həftə məni ora dəvət edə bilərsən.

Biz onun evinə yaxınlaşanda o, üzünü döndərib məni tez öpdü.

-Gecən xeyrə qalsın, Çarli. Mənə zəng vurduğuna görə çox şadam. Sabah laboratoriyada görüşərik.


downloaded from KitabYurdu.org

O, qapının arxasında yox oldu, mənsə dayanıb onun pəncərəsinin işığı sönənədək baxdım.

Heç bir söhbət ola bilməz. Hər şey aydındır. Mən onu sevirəm.

ıı may

Düşünüb-daşınaraq anladım ki, Alisa haqlıdır - adam gərək öz intuisiyasma daha çox etibar etsin. Bu gün Cimpini diqqətlə müşahidə etdim və üç dəfə aldığı pulun bir hissəsini cibinə qoyduğunu gördüm. Həm də o bunu ancaq daimi,
inanılmış müştərilərlə edirdi. Ağlıma gəldi ki, onların günahı zərrə qədər az deyil, əgər onların razılığı olmasaydı, Cimpi belə asanlıqla oğurlaya bilməzdi. Bəs niyə məhz o günah keçisi olmalıdır? Məni özümlə kompromisə getməyə də elə bu fikir məcbur etdi. Bu qərar, yəqin ki, ideal deyildi, ancaq o mənim qəranm idi və yaranmış vəziyyətdə mənə ən məqbul görünürdü. Cimpini xəbərdar edəcəyəm, hər şeyi bildiyimi ona eyham vuracağam.

Onu duşxanada yaxaladım. Məni görən kimi diksinib geri tullandı. Dərhal mətləbə keçdim.

-Mənə səninlə məsləhətləşmək lazımdır. Bir dostumun problemləri yaranıb, o, təsadüfən öyrənib ki, iş yoldaşlanndan biri öz müdirini aldadır və nə edəcəyini bilmir. Dostum iş yoldaşından xəbərçilik edib, ona pislik etmək istəmir, ancaq müdirini də çox sevir və bu



downloaded from KitabYurdu.org

biabırçılığa biganə qalmaq istəmir.

Cimpi gözlərini mənə zillədi.

- Yaxşı, bəs dostin neyləmək istəyir?

-Ən çətini də elə budur... O buna qətiyyən laqeyd qalmaq istəmir. Amma özün fikirləş, əgər oğurluq dayansa, bu barədə
danışmağın da mənası qalmaz. O, sadəcə, bunu unudar, elə bilər ki, heç bir şey olmayıb.

-Sənin dostun burnunu başqalarının işinə soxmağı çox xoşlayır, - Cimpi taxta ayağını açaraq donquldandı. - Belə şeylərə göz yummaq lazımdır. Yəni o əsl dostlarının kim olduğunu bilmir? Boss bosdur, işçilər ona qarşı bir olmalıdır.

- Mənim dostum o cür düşünmür.
- Bunun ona dəxli yoxdur.

-Əgər sussa, günahın bir hissəsi də onun boynuna düşür. Amma oğurluq dayansa, məsələ də öz-özünə həll olunar. Əks halda, o hər şeyi müdirə danışacaq. Necə düşünürsən, oğru bu şərtlə razılaşacaq?

Hiss etdim ki, Cimpi özünü güclə saxlayır. Əlində imkanı olsaydı, məni əməlli-başlı əzişdirərdi, ancaq aciz halda yumruqlarını düyməkdən başqa çarəsi qalmadı.

- Dostuna de ki, o oğlanın, sadəcə, başqa yolu qalmır.
- Çox gözəl. Dostum çox sevinəcək.

Cimpi üzünü döndərdi, susdu, sonra tərəddüdlə mənə baxdı.



downloaded from KitabYurdu.org

- Sənin dostun... pay istəmir ki?

-Yox. Onun yeganə arzusu buna tezliklə son - qoyulmasıdır.

Cimpinin gözləri qəzəb qığılcımları saçdı.

-Sən bu işə qarışdığına görə peşman olacaqsan. Amma mən həmişə sənin tərəfində olmuşam... Yəqin ki, psixiatrın yanma getməliyəm... - deyə o çıxdı.

Bəlkə də, bu barədə Donnerə xəbər verməliydim. Bu, yəqin ki, Cimpinin çörəkxana ilə vidalaşmasıyla nəticələnəcəkdi. Bilmirəm... Mən öz işimi gördüm. Ancaq yer üzündə nə qədər Cimpi kimilər var!

15 may

Dərslər uğurla gedirdi. Universitet kitabxanası mənim ikinci evim olmuşdu. Mənə aynca otaq ayırmışdılar. Bir saniyəyə bir səhifəni oxuya bilirəm və kitabı vərəqləyəndə ətrafıma mütləq maraqcıl tələbələr toplaşırlar.

Hazırda məni ən çox maraqlandıran qədim dillərin etimologiyası, variasiyalı hesablama və Hindistan tarixidir. Çox maraqlıdır: ilk baxışda müqayisəolunmaz görünən anlayışlar

arasında, sən demə, dərin əlaqələr varmış. Mən növbəti mərhələyə keçdim və müxtəlif elm sahələrinə aid axınlar sanki bir mənbədən qaynaqlanırdı.

Tələbələrin din və siyasətlə bağlı mübahisələri mənə uşaq söhbətləri kimi görünür. Artıq mən belə primitiv



downloaded from KitabYurdu.org

səviyyəli ideya mübadilələrindən zövq almıram. İnsanlara nəyisə, misalçün, hansısa problemin bütün mürəkkəbliyini anlamadıqlarını, dərinliyinə vara bilmədiklərini deyəndə nədənsə inciyirlər. Yüksəkdəki həyat da o qədər şirin deyilmiş.

Kafeteriyada Bart məni iqtisadi amillərin bank uçot dərəcələrinə təsirindən bəhs edən əsərləriylə tanınan bir iqtisadiyyat professoru ilə tanış elədi. Bəzi məsələləri ciddi bir iqtisadiyyatçı ilə çoxdan müzakirə etmək istəyirdim. Məsələn, məni dinc dövrdə iqtisadi blokadadan silah kimi istifadə olunmasının mənəvi tərəfi çox maraqlandırır. Ondan soruşdum ki, bəzi senatorların embarqo siyasətinə keçmək və bəzi kiçik ölkələri Birinci və İkinci Dünya müharibələri dövründə olduğu kimi hərbi-dəniz blokadasına almaqla bağlı təkliflərinə necə baxır.

O, boşluğa baxaraq məni sakitcə dinlədi. Mənə elə gəldi ki, verəcəyi cavabı götür-qoy edir, ancaq bir neçə dəqiqədən sonra boğazını arıtlayıb başını buladı. İzah etdi ki, bu məsələlər onun kompetensiyasına daxil deyil. Onu hərbi iqtisadiyyat yox, uçot dərəcələri maraqlandınr. Mən doktor Vessi ilə söhbət etməliyəm, onun bir dəfə İkinci Dünya müharibəsi ərəfəsində dünyadakı iqtisadi əlaqələr haqqında məqaləsi dərc olunub. Sonra ağzımı açmağa macal vermədən əlimi tutub bərk-bərk silkələdi. O mənimlə tanış olmasına çox şad idi, ancaq vaxtı yox idi,


downloaded from KitabYurdu.org

mühazirəyə hazırlaşmalıydı.

Eyni şey Amerika ədəbiyyatı üzrə mütəxəssislə Çoser haqqında danışmaq istəyəndə, şərqşünasdan Trobrian adası haqqında soruşanda və psixoloqla, gənclər üzrə ekspertlə istehsalın avtomatlaşdırılmasmın işsizliklə əlaqəsini müzakirə edəndə oldu. Onlar hamısı, sadəcə, öz biliklərinin məhdudluğunun aşkara çıxmasından qorxur və sürüşüb aradan çıxmağa həmişə bəhanə tapırdılar.

Ətrafdakılar indi mənə tam başqa cür görünürlər. Bütün professorların hamısını fikir nəhəngləri kimi qəbul etmək,
sadəcə, axmaqlıqdır! Onlar hamısı ən adi adamlardır, hətta bunu başqalarının başa düşə biləcəyinin qorxusu altında yaşayırlar. Alisa da ilahə yox, insandır. Sabah axşam onu konsertə aparacağam.

17 may

Səhərə az qalıb, amma mən yata bilmirəm... Dünən baş verənləri anlamağa çalışıram.

Axşam yetərincə uğurlu başladı. Biz gələndə bütün çəmənliyi tutmuşdular, ona görə də Alisa ilə mən ağacın altında boş yer tapanacan otun üzərinə uzanmış cütlüklərin arasından keçməli olduq. Ətrafdakı insanların varlığından yalnız narazı qadın gülüşü və arabir görünən siqaret közərtiləri vasitəsilə xəbər tutmaq mümkün idi.

-Burada qalaq, - Alisa dedi. - Orkestrin ortasında oturmağımız vacib deyil.



downloaded from KitabYurdu.org

- Onlar nə çalırlar? - soruşdum.
- Debüsi “Dəniz”. Xoşuna gəlir?

-Mənim bu musiqidən hələ başım çıxmır. Gərək onun haqqında düşünəm.

-Lazım deyil, - o pıçıldadı, - onu hiss etməyə çalış, qoy səni ağuşuna alsın.

Alisa otun üzərinə uzanıb, başını musiqi səsi gələn tərəfə çevirdi. Onun məndən nə gözlədiyini bilmirdim. Bütün bunlar təmiz elmi cizgidən və biliklərin sistematik toplanması prosesindən nə qədər uzaq idi! Öz-özümə təkrar edirdim ki, tərləmiş ovuclarım, köksümdəki ağırlıq, onu qucaqlamaq həvəsi ancaq biokimyəvi reaksiyalardır. Hətta nəyin məni nevroz halına saldığını anlamaq üçün bütün qıcıqlandırıcı reaksiyalan da izləyirdim. Ancaq sonrakı hərəkətlər mənə dumanlı və qeyri- müəyyən görünürdü. Onu qucaqlayım, ya yox? O bunu istəyir, yoxsa yox? Hiss etdim ki, özümü uşaq kimi aparıram və bu məni əsəbiləşdirdi.

-Hə, - güclə dedim. - Yerini rahatla. Başını onun çiyninə qoy. - Onu qucaqlamağıma imkan verdi, mənə sarı heç baxmadı da. Deyəsən, musiqiyə elə aludə olmuşdu ki, ətrafda baş verənləri dərk etmirdi. O bunu istəyir, yoxsa, sadəcə, mənə dözür? Əlimi onun belinə qoydum. Alisa diksindi, ancaq gözünü orkestrdən çəkmədi. Özünü elə göstərdi ki, guya ancaq
musiqiyə dalıb. Bu onu mənə reaksiya verib-verməmək


downloaded from KitabYurdu.org

məsələsinin həllindən azad edirdi? Musiqiyə qulaq asa-asa özünü elə apara bilərdi ki, guya mənim varlığımı hiss etmir: lütfən, mənim bədənimdən istifadə elə, amma ruhuma toxunma. Onun çənəsindən yetərincə kobud tərzdə yapışıb üzünü özümə çöndərdim.

-Niyə mənə baxmırsan? Özünü elə aparırsan ki, guya mən yoxam?

-Yox, Çarli, - o pıçıldadı, - özümü elə aparıram ki, guya özüm yoxam...

Onu özümə tərəf çəkdim. Alisa diksindi və dartındı. Elə bu da onda baş verdi - qulaqlarım cingildədi... elektrik mişarı... çox uzaqlarda... Sonra soyuq: əllərim və ayaqlarım gizildədi... barmaqlanm keyləşdi... Birdən üzərimdə kiminsə baxışlarını hiss etdim.

...Qavrayışımda qəfil dəyişiklik oldu. Qaranlıqda hansısa nöqtədən, lap yaxınlıqdan özümüzü bir-birimizin ağuşunda gördüm.

Ətrafa boylandım və ağacın dalında gizlənmiş on beş yaşlı oğlanı gördüm.

- Nə olub? - Alisa dedi və təkrar etdi: - Nə olub?

Mən sıçradım və oğlan qaranlıqda yox oldu.

- Sən gördün?

-Yox, - o, əsəbi halda yubkasını hamarlayaraq cavab verdi. - Mən heç kəsi görmədim.

- O, burada dayanmışdı, lap yaxında, bizi güdürdü.

- Çarli, sən hara?


downloaded from KitabYurdu.org

- O, uzağa qaça bilməz.
- Sakit ol, Çarli. Bunun əhəmiyyəti yoxdur.

Onun üçün, bəlkə də, yoxdur...

Mən kiminsə ayağına toxunaraq özümü qaranlığa atdım, ancaq, təbii ki, heç kəsi tapmadım.

Onun haqqında nə qədər çox düşünürdümsə, bir o qədər ürəyim bulanırdı, bunun ardınca, adətən, bayılma olur. Mən özümü ələ almağa çalışaraq Alisanm yanma qayıtdım.

- Çata bildin?
- Yox, amma o, burada idi. Özüm gördüm!

Alisa çox qəribə tərzdə mənə baxdı:

- Özünü pis hiss edirsən?
- Başımda nəsə uğultu var... İndi keçəcək.
- Gedək buradan.

Alisanm evinə çatanacan o oğlan və özümüzü onun gözləriylə görməyim ağlımdan çıxmadı.

- Gəl evə, bir fincan qəhvə iç.

Mən, əlbəttə, girmək istəyirdim, ancaq nəsə məni saxlayırdı.

- Gəlməsəm yaxşıdır. Gedib bir az işləməliyəm.

-Çarli, yəni mən sənə nəsə yersiz bir söz dedim, ya da bir şey elədim?

-İş bunda deyil, sadəcə, o oğlan... O məni əməlli-başlı əsəbiləşdirdi.

Alisa mənə çox yaxın dayanmışdı və onu öpməyimi



downloaded from KitabYurdu.org

gözləyirdi. Mən onu qucaqladım, ancaq dərhal hər şey yenidən başladı. Əgər elə bu dəqiqə qaçmasaydım, pilləkəndəcə yıxılacağam.

- Çarli, sən lap xəstəsən.
- Sən onu gördün, Alisa? Ancaq məni aldatma.

O başını buladı.

- Yox, çox qaranlıq idi. Ancaq əminəm ki...

-Mən getməliyəm. Sənə zəng vuracağam. - Və onun özünə gəlməsini gözləmədən dəhlizdən çıxıb qaçdım.

Mən baş verənlərin qarabasmadan başqa bir şey olmadığına, demək olar ki, əminəm. Doktor Ştraus güman edir ki, mən emosional olaraq hələ qadınla yaxınlığın və ya seks haqqında düşüncələrin nəinki həyəcan və təşviş, hətta qarabasmaya səbəb olduğu yaş dövründən çıxmamışam. Qeyri- adi sürətli əqli inkişaf məni aldadıb və normal emosional həyat sürə biləcəyimə inandırıb. Son hadisələr açıq-aşkar göstərdi ki, mən Alisa Kinnian kimi qadınlarla tam ünsiyyətə hazır deyiləm.

20 may

Məni çörəkxanadan qovdular. Başa düşürəm, keçmişdən yapışmaq axmaqlıqdır, ancaq onun ağ kərpicdən olan və sobaların qovurduğu divarları arasında doğma nəsə vardı... O mənim evim idi.

Niyə onlar mənə belə nifrət edirlər?

Cənab Donneri nədəsə günahlandıra bilmərəm. O öz müəssisəsi, digər işçiləri haqda düşünməlidir. Amma, hər



downloaded from KitabYurdu.org

halda... O mənimçün atadan artıq olmuşdu.

O məni kabinetinə çağırıb, qədimi stolunun yanındakı yeganə kresloda oturtdu və kənara baxaraq dedi:

-Mən səninlə danışmalıyam, Çarli. Bunu yubatmağın mənası yoxdur... Sənin əmin German mənim ən yaxın dostum olub və ona söz vermişəm ki, işlərimin necə getməsindən asılı olmayaraq, sənin həmişə işin, cibində dolların və başının üstündə damın olacaq...

- Bura mənim evimdir və...

-...və mən sənə həmişə həyatını bu ölkəyə qurban vermiş oğlum kimi yanaşmışam. German öləndə sənin neçə yaşın var idi? On yeddi? Mən and içdim, özümə söz verdim ki, Artur Donner, nə qədər ki sən bu çörəkxananın sahibisən, Çarlini taleyin ümidinə buraxmayacaqsan. Onun yatmağa yeri, yeməyə də bir tikə çörəyi olacaq. Səni Uorrenə aparmaq istəyənlərə də izah etdim ki, mənim yanımda işləyəcəksən və özüm sənə baxacağam. Sən Uorrendə bir gün də qalmadın. Mən sənə otaq verdim... Necə düşünürsən, mən öz sözümü tutdum?

Mən başımı tərpətdim, ancaq hansısa kağızları bu əlindən o əlinə ötürdüyündən görünürdü ki, bu sözləri mənə demək ona necə ağırdır.

- Mən çalışmışam... Mən heç vaxt pis işləməmişəm...

-Bilirəm, Çarli. Ancaq mən indi iş haqqında danışmıram. Sənə nəsə olub, amma mən məhz nə olduğunu bilmirəm. Həm də təkcə mən yox... Hamı sənin


downloaded from KitabYurdu.org

haqqında danışır. Onlar qorxurlar, Çarli... Mən səndən getməyini xahiş etməyə məcburam.

Mən onun sözünü kəsmək istədim, ancaq o başını buladı.

-Dünən axşam mənim yanıma böyük bir nümayəndə heyəti gəlmişdi... Başa düş, Çarli, mən öz çörəkxanamın yanmasına razı ola bilmərəm!

O, əllərinə, tutduğu əzik kağıza baxdı, sanki orada əvvəllər olmayan nəsə tapmaq istəyirdi.

- Bağışla məni, Çarli.
- Bəs mən hara gedim?

O, bayaqdan bəri ilk dəfə mənim üzümə baxdı.

-Sən çox gözəl bilirsən ki, bu iş artıq sənə lazım deyil.

- Cənab Donner, mən başqa heç bir iş bilmirəm.

-Gəl bu məsələni müzakirə edək. Sən artıq on yeddi il bundan qabaqkı Çarli deyilsən, hətta dörd ay əvvəlki də deyilsən. Sənə nə olduğunu mənə izah etmədin. Razıyam, bu sənin öz işindir. Bəlkə, möcüzə baş verib. Sən parlaq bir cavan oğlan olmusan, xəmirqarışdıranda işləmək və sifarişlər daşımaq parlaq gənc üçün münasib məşğuliyyət deyil.

O, şübhəsiz, haqlı idi, ancaq məndə nəsə onun qəranna qarşı inadkarcasma müqavimət göstərirdi.

-İcazə verin qalım, cənab Donner. Siz axı German əmiyə mənim işim olacağıyla bağlı söz vermisiniz. Bu iş mənə hələ lazımdır, cənab Donner.

-Yox, Çarli, lazım deyil. Əgər belə olsaydı, mən



downloaded from KitabYurdu.org

onlann hamısını qovar və səni müdafiə edərdim. Ancaq onlar hamısı səndən dəhşətli dərəcədə qorxurlar! Mən öz ailəmi də yaddan çıxara bilmərəm.

-Birdən onlar fikirlərini dəyişsələr? Mən onlarla danışaram. - Söhbət cənab Donnerin istədiyi istiqamətdə getmədi, ancaq mən artıq dayana bilmirdim. - Onlar başa düşərlər, - mən yalvardım.

-Yaxşı, - o, nəhayət, dərindən nəfəs aldı. - Bir yoxla, ancaq xəbərdarlıq edirəm: yaxşı şeylər eşitməyəcəksən.

Mən kabinetdən çıxanda Frenk Reyli ilə Co Karp oradan keçirdilər və mən Donnerin şişirtmədiyini dərhal anladım.

Məni görmək onlar üçün çox böyük sınaq idi.

Frenk kündələr düzülmüş sinini götürdü və mən onları çağıranda hər ikisi dönüb baxdı.

- Görürsən ki, məşğulam, Çarli. Sonra.
- Yox, indi. Siz məndən qaçırsınız. Niyə?

Boşboğaz, arvadbaz və fırıldaqçı Frenk mənə diqqətlə baxıb, sinini masanın üstünə qoydu.

-Niyə? İndi sənə deyərəm niyə. Ona görə ki sən böyük adam olmusan, hər şeyi bilirsən, ağıllısan! Sən indi yumurtabaş vunderkindsən. Daim kitabla gəzirsən və bütün suallara
cavabın var. Nə olsun? Sən bizdən yaxşı olduğunu düşünürsən? Okey, sürüş buradan.

-Mən sənə neyləmişəm?



downloaded from KitabYurdu.org

-Neyləmisən? Eşidirsən, Co? İndi sənə deyərəm neyləmisən, cənab Qordon. Təkliflərinlə özünü gözə soxursan və indi biz, yerdə qalanlar, avara təsiri bağışlayırıq. Ancaq mən sənə başqa bir şey deyəcəyəm. Sən mənim üçün elə həmişəki gicgicisən. Bəlkə də, mən müdrik sözlər danışa, kitab adlan sadalaya bilmirəm, ancaq bu o demək deyil ki, səndən pisəm.

-Aha. - Co bu qənaəti haradansa peyda olan Cimpiyə təsdiqləmək üçün başını tərpətdi.

-Mən sizdən dostlanm olmanızı istəmirəm, - dedim. - Sadəcə, mənimlə işiniz olmasın. Qoyun işimdə qalım. Cənab Donner bunun sizdən asılı olduğunu dedi.

Cimpi məni baxışlanyla süzüb nifrətlə tüpürdü və hirslə fısıldadı:

-Amma sənin əsəblərin çox möhkəmdir! Rədd ol cəhənnəmə! - O dönüb ağır-ağır axsayaraq uzaqlaşdı.

Bax belə. Hər şey gözəl idi, onlar nə qədər ki mənə gülürdülər, mənim hesabıma özlərini ağıllı hesab edirdilər, indi isə vaxtilə bolluca lağa qoyub güldükləri gicgicidən də aşağıydılar. Mən öz qabiliyyətlərimin qeyri-adi yüksəlişi ilə onların "məni"nin ölçüsünü xeyli kiçiltmiş, bütün qüsurlarını gün üzünə çıxarmışdım. Mən onlara xəyanət etmişdim, buna görə məni görməyə gözləri yox idi.

Mənim işdən çıxarılmağımı istəməyən ancaq Fanni Birden idi və güclü təzyiqə baxmayaraq, onların tələbinə


downloaded from KitabYurdu.org

qol qoymadı.

-Ancaq bu heç də o demək deyil ki, mən sənin dəyişdiyini görmürəm, Çarli, - o mənə dedi. - Sən tamam başqa cür olmusan! Bilmirəm, bilmirəm... Sən sadə, yaxşı, etibarlı bir adam idin, çox kəlləli olmasan da, vicdanlı idin. Neylədin ki, birdən-birə belə ağıllandın? Bu, doğru deyil.

-İnsanın ağıllı olmaq, təhsil almaq istəməsində, dünyanı və özünü dərk etməsində pis nə ola bilər?

-Bibliyanı diqqətlə oxusan, görərsən ki, insan Tannnın ona verdiklərindən yüksəyə qalxmamalıdır. Çarli, əgər sən şeytanla nəsə etməmisənsə, ya da başqa bir şey... onda hələ də

bütün bunlardan imtina etmək gec deyil. Əvvəlki kimi qalsan, daha yaxşı olar.

-Yox, Fanni, artıq hər şey geridədir. Mən pis heç nə etməmişəm. Mən işığı ilk dəfə görən anadangəlmə kor kimiyəm. Bu, günah ola bilməz! Tezliklə mənim kimilərin sayı milyonlarla olacaq. Bu, elmin möcüzəsidir.

O, toy piroqunun üstündəki bəy və gəlin əksinə baxdı və dodaqlarını yavaşca tərpədərək pıçıldadı:

-Adəm və Həvva idrak ağacı meyvəsinin dadma baxanda çılpaq olduqlarını gördülər, şəhvəti və utancaqlığı dərk etdilər. Bu, günah idi. Bundan sonra cənnətin qapılan onların üzünə həmişəlik bağlandı. Əgər onlar buna aldanmasaydılar, indi biz qocalmaz, əzab


downloaded from KitabYurdu.org

çəkməz və ölməzdik.

Mənim daha nə ona, nə də digərlərinə deməyə sözüm qalmadı. Heç kəs mənim gözlərimə baxmırdı. Əvvəllər onlar mənim kobudluğuma və kütlüyümə, indisə ağlıma və biliyimə nifrət edirdilər. İlahi, axı bunlar məndən nə istəyirlər?

Ağlım mənimlə bütün tanıdıqlanm və sevdiklərim arasına paz vurmuşdu, məni evimdən qovmuşdu. Özümü heç vaxt belə
tənha hiss etməmişdim. Maraqlıdır, görəsən, Elcernonu başqa siçovullarla bir qəfəsə salsalar, nə olar? Onlar ona nifrət edərlərmi?

25 may

Mən insanın öz-özünə necə nifrət etməyə başladığını kəşf etdim. Bu o vaxt baş verir ki, o, düzgün hərəkət etmədiyini anlayır, ancaq dayana bilmir. Məni Alisanm yanma ayaqlanm gətirdi. O heyrətlənsə də, məni içəri buraxdı.

- Sən lap islanmısan. Burnundan da su damcılayır.
- Yağış çiçəklərə yaxşı təsir edir.

-Gəl içəri. İndi sənə məhrəba gərirərəm, yoxsa sətəlcəm olarsan.

-Mənim artıq gedəcək yerim yoxdur. Sənin yanında qala bilərəm?

- Qəhvə qaynayır... Qurulan, sonra danışanq.

O, mətbəxə keçənəcən mən ətrafa boylandım. Nəsə


downloaded from KitabYurdu.org

məni dərhal narahat elədi. Hər tərəf tərtəmiz idi. Pəncərənin qabağındakı farfor heykəlciklər ciddi şəkildə sıraya düzülüb eyni istiqamətə baxırdı. Balışlar divanın üstündə səliqəylə
düzülmüşdü. Jurnallar iki balaca stolun üzərinə elə düzülmüşdü ki, adları görünsün: stolun birinin üzərində “Reportyor”, “Saturday Review”, “New Yorker”, o birində isə “Mademoiselle”, “House Beautiful” və “Reader’s Digest” var idi.

Divandan uzaqdakı divardan Pikassonun “Ana və uşaq” əsərinin reproduksiyası asılmış, onunla üzbəüz isə maskalı və əlində qılınc olan İntibah dövrü saray döyüşçüsü qorxmuş qırmızıyanaq qızı naməlum təhlükədən qoruyurdu... Elə bil Alisa hansı aləmdə yaşamaq istədiyinə qərar verə bilmirdi.

-Çoxdandır nəsə laboratoriyada görünmürsən, - Alisa mətbəxdən məni səslədi. - Professor narahatdır.

-Mən insanlann üzlərinə baxmağa utanıram. Əslində, utanmalı bir şey yoxdur, ancaq mən bir neçə gündür ki, işləmirəm və içimdə bir boşluq yaranıb, çörəkxanadan, sobalardan, dostlanmdan ötrü danxıram... İki gecədir ki, yuxuda boğulduğumu görürəm.

Alisa sinini qəhvə masasının tən ortasına qoydu, salfetlər üçbucaq şəklində bükülmüş, pirojnalar ideal dairə halında düzülmüşdü.

-Bunu çox da ürəyinə salma, Çarli. Belə alınmağında


downloaded from KitabYurdu.org

axı sən günahkar deyilsən.

-Sınamışam, amma alınmır. Bu adamlar hamısı... biz bir ailə kimi olmuşuq. Məni elə bil doğma evimdən qovublar.

-Bəs sənə elə gəlmirmi ki, bu, uşaqlıq təəssüratlarının simvolik təkrarıdır? Valideynlərin də səndən imtina etmişdilər... Səni...

-Aman Tanrım! Axı hər şeyə səliqəli yarlıqlar yapışdırmaq nəyə lazımdır? Bu lənətə gəlmiş eksperimentə qədər mən onları öz dostlarım hesab edirdim! İndisə mən qorxuram...

- Sənin dostların var.

- Bu, eyni şey deyil.

- Qorxu tamamilə təbii reaksiyadır.

-Tam yox. Mən əvvəllər də qorxurdum. Normanın sözündən çıxmaqdan qorxurdim, Hauell-striti keçməkdən qorxurdum, orada bir dəstə məni əməlli-başlı terror edirdi.

Mən müəlliməm missis Libbidən qorxurdum, partanın üstündəki şeylərlə oynamayım deyə o mənim əllərimi bağlayırdı. Ancaq bütün bunlar real idi, mən qorxunun səbəbini bilirdim, nədən qorxduğumu bilirdim. İndisə hər şey başqa cürdür...

- Özünü ələ al.

- Sən məni başa düşə bilməzsən.

-Çarli, bu, gec-tez baş verməliydi. Sən, elə bil ki, ilk



downloaded from KitabYurdu.org

dəfə qüllədən tullanırsan və xilasedici lövhənin indicə ayağının altından qaçacağı səni dəhşətə gətirir. Cənab Donnerin sənə münasibəti həmişə yaxşı olub və bütün bu illər ərzində yaşamağa yerin olub. Sadəcə, indi zərbə sənin üçün çox güclü olub.

-Mən hər şeyi çox gözəl başa düşürəm, ancaq bu məni yüngülləşdirmir. Mənim artıq öz otağımda tək-tənha oturmağa gücüm yoxdur. Mən küçələri azana qədər məqsədsiz dolaşıram... axırda görürəm ki, yenə çörəkxanaya qayıtmışam. Dünən axşam isə Vaşinqton-skverdən Mərkəzi Parka qədər addımladım və orada yuxuya getdim. Mənə nə lazımdır axı? Mən nə axtarıram? Mən danışdıqca Alisa daha da kədərlənirdi.

- Çarli, mən... mənim sənə bir köməyim dəyə bilər?

-Bilmirəm... Mən indi çox gözəl və təhlükəsiz qəfəsdən buraxılmış vəhşi kimiyəm.

Alisa yanımda oturdu.

-Səni çox qısqanclıqla irəli itələyirlər. Sən bundan sonra necə yaşayacağını bilmirsən. Böyük olmaq istəsən də, daxilən balaca oğlansan. Sən təksən və qorxursan.

Alisa mənim başımı çiyninə qoydu, başa düşdüm ki, bu an ona lazımam. Necə ki o mənə.

-Çarli, - o pıçıldadı, - hər nə düşünürsən düşün... məndən qorxma.

...Bir dəfə Çarli sifarişləri apararkən az qala özündən gedəcəkdi, çünki hamamdan yenicə çıxmış orta yaşlı bir


downloaded from KitabYurdu.org

qadın onunla əylənmək üçün xalatmm qabağını açmışdı. Sən əvvəllər çılpaq qadın görmüsən? Bilirsən neyləmək lazımdır? Çarli özünü itirərək elə inildəmişdi ki, qadın qorxaraq xalatım möhkəm bağlamış, ona çaypulu verərək, gördüklərini unutmasını əmr etmişdi. Mən, sadəcə, səni yoxlayırdım... bilmək istəyirdim yaxşı oğlansan, ya yox.

-Mən yaxşı oğlan olmağa çalışıram, - Çarli ona cavab vermişdi, - və heç vaxt qadınlara baxmıram, çünki anam məni həmişə buna görə döyüb...

...Budur, Çarlinin anası əlində qayış çığırıb-bağırır, atası isə onu saxlamağa çalışır.

-Bəsdir, Roza! Sən onu öldürəcəksən! - Anası isə atasının əlindən çıxmağa çalışaraq, döşəmədə qıvrılan oğlunu yenə vurmaq üçün dartınır.

-Sən bir buna bax! - Roza qışqırır. - Yazmağı və oxumağı öyrənə bilmir, amma qızlara gizlicə baxa bilir! Mən bunu ona tərgitdirəcəyəm!

- Onda günah yoxdur, bu, ereksiyadır, normal bir şeydir.

O heç bir şey etməyib.

-Ona qızlar haqqında düşünmək belə lazım deyil! Rəfiqəsi bacısının yanma gəlir, onunsa ağlında çirkin şeylər dolaşır!

Mən ona yeni həyatı öyrədəcəyəm! Eşidirsən? Əgər bir qıza barmağını toxundursan, səni heyvan kimi həmişəlik



downloaded from KitabYurdu.org

qəfəsə salacağam! Məni eşidirsən?..

Hə, mən səni eşidirəm, ana. Bəlkə, mən artıq azadam? Bəlkə, qorxu və öyümə adamı boğan dəniz yox, keçmişi əyri göstərən gölməçədir? Mən azadam?

Əgər Alisaya bir az əvvəl, keçmişim məni udmamışdan
qabaq xatırlamamışdan qabaq... toxuna bilsəydim, yəqin ki,
panikaya da düşməzdim...

- Sən özün... özün... Məni qucaqla!.. - deyə bildim.

Nə baş verdiyini dərk edənəcən Alisa məni öpüb bərk-bərk qucaqladı. Ancaq həyatımda ilk dəfə baş verən bu anda hər şey: qulaqlarımdakı səs, üşümə, öyümə yenidən başladı. Mən üzümü çevirdim.

Alisa məni sakitləşdirməyə, bunun əhəmiyyətsiz olduğunu, özümü günahlandırmamalı olduğumu deməyə başladı. Beləcə, ağlayaraq onun ağuşunda yuxuya getdim və yuxuda igid cəngavərlə qırmızıyanaq qızı gördüm. Ancaq yuxuda yuxan qaldınlmış qılıncı o yox, qız tutmuşdu.

HESABAT N9l2

5 iyun

Nemur hirslənəcək, çünki artıq iki həftədir ki, hesabatlarımı görmür. O, müəyyən mənada haqlıdır, çünki Uelberq fondu mənə məvacib ödəməyə başlayıb deyə onun əvəzini çıxmalıyam. Bu məni iş axtarmaq



downloaded from KitabYurdu.org

qayğısından azad edir. Psixoloqların Çikaqoda keçiriləcək Beynəlxalq simpoziumuna cəmi bir həftə qalıb və Nemur, təbii ki, məruzənin təsirli olmasını istəyir. Elcernon və mən ən parlaq eksponatlarıq.

Bizim münasibətlərimiz hər gün keçdikcə daha da gərginləşir. Onun laboratoriya həyatımla bağlı daimi söhbətləri məni boğaza yığıb. Elə danışır ki, elə bil eksperimentə qədər mən heç olmamışdım.

Ştrausa dedim ki, dünyanı və ondakı yerimi dərk etmək vaxtımı çox alır, ona görə də yazı yazmağa hövsələm çatmır. Səmərəsiz proses dəhşətlidir. O mənə makinada yazmağı öyrənməyi tövsiyə etdi, ona görə də dəqiqədə yetmiş beş söz yazmaq həyatımı xeyli yüngülləşdirib.

O mənə xatırlatdı ki, insanlann başa düşməsi üçün fikirlərimi mümkün qədər anlaşıqlı ifadə etməliyəm. O deyirdi
ki, dil bəzən yol əvəzinə maneəyə çevrilir. Artıq mən intellektual hasarın o biri tərəfində yaşayıram.

Biz Alisa ilə görüşürük, ancaq heç vaxt aramızda baş verənlər haqqında danışmırıq.

Çörəkxanadan cəmi iki həftə qabaq qovulduğuma inanmaq çətindir.

Gecələr küçələrdə arxamca kabuslar düşür. Çörəkxananın qapısına çatanda onun qapısı bağlı olur və içəridəki adamlar heç vaxt üzlərini döndərib mənə


downloaded from KitabYurdu.org

baxmırlar. Toy piroqunun üzərindəki bəy və gəlin gülərək məni barmaqlarıyla göstərir, kupidonlar* (ı. Roma əsatirində: eşq allahı; 2. məc. qılman, mələk (göyçək oğlan, ya qız mənasında) isə öz oxlarını mənə sarı tuşlayıblar. Mən qışqırıram. Mən qapını döyürəm, ancaq heç kəs açmır. Mən Çarlini görürəm, o, pəncərədən mənə baxır. Yoxsa bu, sadəcə, pəncərədəki əksimdir? Kimsə mənim ayaqlarımdan yapışıb, çörəkxanadan xiyabanın qaranlıq kölgəsinə çəkir, kollar mənə sarmaşır və yuxudan ayılıram.

Bəzən çörəkxananın pəncərəsi açılır, mən içəri baxıb başqa şərait, başqa insanlar görürəm.

Qəribədir, mənim xatırlamaq qabiliyyətim necə də sürətlə inkişaf edir. Mən hələ ondan tam istifadə edə bilmirəm, ancaq mütaliə edəndə, yaxud hər hansı problemin həlliylə məşğul olanda fikirlərim qeyri-adi dərəcədə aydınlamr. Mənə elə gəlir ki, bu, alt şüurdan gələn xəbərdarlıq kimi bir şeydir və mən xatirələri gözləmək əvəzinə, özüm onları çağınram. Tezliklə onları tam nəzarətdə saxlamağı öyrənəcəyəm və təkcə keçmiş həyatımdakı hadisələri deyil, həm də beynimin gizli imkanlarını araşdıra biləcəyəm.

Mən çörəkxananm pəncərəsini görürəm... Əlimi uzadıram və ona toxunuram... şüşə soyuqdur... o istiləşir... barmaqlarımı yandırır. Şüşə güzgüyə çevrilir və mən on dörd-on beş yaşlı gənc Çarli Qordonu görürəm.



downloaded from KitabYurdu.org

O öz evinin pəncərəsindən mənə baxır, onun mənə qətiyyən oxşamaması ikiqat qəribədir...

O, bacısının məktəbdən nə vaxt qayıdacağını gözləyir. Budur, bacısı tindən çıxır və o, “Norma! Norma!” qışqıraraq özünü artırmaya atır.

Norma dəftərini ona yellədir.

-Mən tarixdən yoxlama yazıdan beş almışam! Missis Baffin dedi ki, mən sinifdə hamıdan yaxşı yazmışam! Mən bütün cavablan tapdım!

Norma çox qəşəng qızdır, açıq-şabalıdı saçları səliqəylə hörülərək başının ətrafına tac çələng kimi dolanıb. O başını qaldınb böyük qardaşına baxır və təbəssümü ağız-burun əyməyə keçir. Qız onun yanından ehtiyatla keçərək evə qaçır. Çarli də şən-şən gülərək onun ardınca cumur.

Valideynləri mətbəxdədir və bacısına görə fəxr edən Çarli ona ağzını açmağa imkan vermədən qışqırır:

- O, beş alıb! O, beş alıb!

-Yoxxx! - Norma ciyildəyir. - Sən demə! Sus! Bu mənim qiymətimdir, özüm deyəcəyəm!

-Bircə dəqiqə, kiçik xanım! - Matt qəzeti kənara qoyaraq Normaya acıqlanır: - Qardaşınla belə danışma!

- Onun mənim əvəzimdən danışmağa haqqı yoxdur!

-İş bunda deyil! - Matt hədələyici barmağı üzərindən ona baxır. - O ancaq sənin yaxşılığını istəyir, onun üstünə bu cür qışqırmaq olmaz.


downloaded from KitabYurdu.org

Norma anasının onu müdafiə etməsini istəyir.

-Bütün sinifdə təkcə mən beş almışam. İndi mənim itim olacaq? Sən söz vermişdin. Demişdin ki, yoxlamadan beş alan kimi mənə it alacaqsan. Mən də beş almışam. Ağ xallan olan qəhvəyi rəngli it istəyirəm. Mən onun adını Napoleon qoyacağam, çünki bu suala hamıdan yaxşı cavab vermişəm. O, Vaterloo yaxınlığındakı döyüşdə uduzmuşdu.

Roza başını tərpədir:

-Get eyvanda Çarli ilə oyna. O, bir saatdır sənin məktəbdən gəlməyini gözləyir.

- Onunla oynamaq istəmirəm.
- Çıx eyvana! - Matt deyir.

Norma əvvəlcə atasına, sonra isə Çarliyə baxır.

-Getməyəcəyəm. Anam dedi ki, əgər istəmirəmsə, onunla oynamaya bilərəm.

-Mənə elə gəlir ki, kiçik xanım, - Matt qalxıb ona san gedir, - sən qardaşından üzr istəməlisən.

-Heç vaxt! - Norma anasının oturduğu stulun arxasında gizlənib ciyildəyir. O lap axmaqdır! O, Monopoliya oynaya
bilmir, dama da bacarmır... heç nə bilmir... hər şeyi qarışdırır. Bir də heç vaxt onunla oynamayacağam.

- Onda öz otağına get!
- Ana, sən mənə it alacaqsan?

Matt yumruğunu bərkdən stola çırpır.


downloaded from KitabYurdu.org

- Nə qədər ki özünü belə aparırsan, bu evdə it olmayacaq!

-Ancaq mən ona söz vermişəm ki, yaxşı oxusa, - alacağam...

- Qəhvəyi rəngdə, ağ xallan da olsun! - Norma əlavə edir. Matt divara qısılmış Çarlini göstərir.

-Sən artıq öz oğluna demisən ki, biz it saxlaya bilmərik. Guya bizim yerimiz və ona baxacaq adamımız yoxdur. Yadından çıxıb? Axı o da it istəmişdi. Niyə susursan?

-Mən öz itimə baxacağam, - Norma israr edir. - Mən onu yedirdəcəyəm, çimdirəcəyəm, gəzdirəcəyəm...

Bu anadək sapa keçirilmiş iri qırmızı düymə ilə oynayan Çarli gözlənilmədən deyir:

-Mən itə baxmaqda Normaya kömək edəcəyəm! Mən də onu yedirdərəm, darayaram, başqa itləri onu dişləməyə qoymaram!

Matt və Roza nəsə deməyə macal tapmamış Norma həyəcanla qışqırır:

- Yox!!! O mənim itim olacaq! Ancaq mənim!

-Bax görürsən? - Matt deyir. Roza qızının yanında oturub onun saçını sığallayır.

- Paylaşmaq lazımdır, əzizim, Çarli sənə kömək edər.

-Yox, ancaq mən! Beşi mən almışam, o yox! O, heç vaxt yaxşı qiymət almayıb, ona görə də mənə kömək edə bilməz!



downloaded from KitabYurdu.org

Həm də it onu sevər və mənim yox,
Çarlinin iti olar! Əgər belədirsə, onda mənə it-zad lazım deyil!

-Danışdıq, - Matt deyir və döşəməyə düşmüş qəzeti qaldırıb stulunda oturur. - İt olmayacaq.

Norma bir neçə dəqiqə əvvəl təntənəli surətdə evə gətirdiyi dəftəri qamarlayıb cırıq-cırıq edir və Çarlinin heyrətlənmiş sifətinə çırpır:

-Nifrət edirəm! Nifrət edirəm sənə! Mən məktəbi buraxacağam və Çarli kimi axmağın biri olacağam! Mən öyrəndiklərimin hamısını unudacağam və biz onunla bir-birimizə oxşayacağıq! - O qışqırmağa başladı: - Mən artıq unuduram, unuduram... Mən artıq heç nə xatırlamıram! - O qaçıb otaqdan çıxır.

Roza dəhşət içində onun ardınca götürülür. Matt laldinməz dizinin üstündəki qəzetə baxır. Bu bağırtılardan qorxan Çarli divarın dibinə qısılaraq sakitcə hıçqırır. O nə pis iş görüb axı? Onun qıçıyla üzüaşağı isti nəsə axır və anasının qayıdanda ona vuracağı labüd şapalağı gözləyir.

Bu hadisədən sonra Norma bütün vaxtını ya rəfiqələri ilə keçirir, ya da otağına girib qapını bağlayırdı.

Yadımdadır, bir dəfə Norma rəfiqəsi ilə oynayarkən dedi:

- Çarli mənim doğma qardaşım deyil. Bizim ona, sadəcə, yazığımız gəlib və götürüb saxlamışıq. Bunu mənə anam deyib və Çarlinin qardaşım olmadığını


downloaded from KitabYurdu.org

hamıya danışmağa icazə verib!

Əgər bu xatirə cırıq-cırıq edərək, parçalarını Normanın sifətinə çırpıb qisas ala biləcəyim fotoşəkil olsaydı, yaxşı olardı. Mən qışqıraraq ona demək istəyirəm: "Tüpürüm sənin o itinə! Təkcə sənin olur, olsun da! Mən heç vaxt o itin məni Normadan çox sevməsinə yol verməzdim. Mən ancaq Normanın mənimlə
əvvəlkitək oynamasını və heç vaxt özünü pis hiss etməməsini istəyirdim".

6 iyun

Alisa ilə ilk əsl davamız. Günah məndədir.

Mən onunla görüşmək istəyirdim. Yaşanan xatirələrdən və ya kabuslardan sonra bunda qeyri-adi heç bir şey yox idi, təkcə onu görməyim məni sakitləşdirir. Səhv bundaydı ki, mən onun iş yerinə getdim.

Əməliyyatdan sonra mən əqli cəhətdən geri qalanlar mərkəzində olmamışdım, odur ki, onu yenidən görmək mənə maraqlı gəlirdi. Mərkəz İyirmi beşinci küçədə, Beşinci avenyudan şərqdə məktəb binasında yerləşir; buranı artıq beş il idi ki, Bekman universiteti eksperimental tədris (ağıldankəmlər üçün xüsusi sinif) üçün icarəyə götürmüşdü.

Dərslər saat səkkizdə qurtarırdı, ancaq mən lap bu yaxınlara qədər hərfləri və dolların qalığını saymağı çətinliklə öyrəndiyim sinifdə olmaq istəyirdim.


downloaded from KitabYurdu.org

Pilləkənlə yuxan qalxıb tanış qapıya yaxınlaşdım və balaca pəncərədən gizlicə içəri baxdım. Alisa müəllim stolunun
arxasındakı yerində dayanmışdı, yanında tanımadığım, yorğun üzündə aşkar heyrət ifadə olunmuş bir qadın oturmuşdu. Maraqlıdır, görəsən, Alisa ona nə başa salırdı? Yazı taxtasının qarşısındakı əlil arabasında Mayk Dorni əyləşmiş, birinci partanı isə, Alisanın fikrincə, sinfin ən qabiliyyətli şagirdi Lester Braun rövnəqləndirmişdi. Mənim günlərlə üzərində əlləşdiyim şeyi Lester dərhal qapsa da, məktəbə kefi istəyəndə gəlir, bəzən döşəmə sürtməklə pul qazandığından həftələrlə itib- batırdı. Əminəm ki, əgər Lesterlə mən dərslərə eyni yanaşsaydıq, əməliyyat stoluna mən yox, o uzanacaqdı. Sinifdə oturanların çoxunu tanımırdım.

Mən özümü toplayıb qapını açdım və içəri girdim.

- Bu ki Çarlidir! - Mayk kreslosunu döndərərək qışqırdı.

Mən ona əl yellədim.

Mənasız gözləri olan qəşəng sarışın Bernis mənə küt-küt baxdı və gülümsədi:

- Haralardaydın, Çarli? Nə qəşəng kostyumun var!

Daha bir neçə nəfər mənimlə salamlaşdı və mən də onlara əl elədim. Bu zaman Alisanın hirsləndiyini hiss etdim.

Artıq saat səkkizə qalıb, - o dedi. - Getmək vaxtıdır.

İş çox idi: təbaşirləri, pozanlan, dəftərləri, dərslikləri,



downloaded from KitabYurdu.org

karandaşlan, boyalan və digər şeyləri yığışdırmaq lazım idi. Hər kəs ondan nə tələb olunduğunu bilir və iş qaynayırdı. Gözünü məndən çəkməyən Bernisdən başqa, hamı qurdalanırdı. Nəhayət, o soruşdu:

- Çarli niyə məktəbə gəlmirdi? Sənə nə olmuşdu, Çarli?

Hamı gözünü mənə zillədi, mənsə Alisaya, fikirləşirdim ki,
bəlkə, o cavab verə. Amma o susurdu. Nə deyəsən və necə deyəsən ki, heç kəs inciməsin?

- Mən... mən, sadəcə, gəldim...

Qızlardan biri - Fransina irişdi, Alisa hamıdan çox ona görə narahat olurdu. Valideynləri onu histerektomiya müayinəsinə aparmağa macal tapmamış on səkkiz yaşında üçünü doğmuşdu. Heç bir gözəlliyi yox idi, Bernisə qətiyyən çata bilməzdi, həm də ona hansısa oyuncaq və ya kino bileti alan onlarla kişi üçün çox asan ov idi. İndi o, Uorren-haus şurasının tövsiyəsi ilə yataqxanada yaşayır və axşamlar ona
yalnız məktəbə getməyə icazə verilirdi. Lakin onu iki dəfə yolda yaxalayandan sonra Fransina küçəyə ancaq bələdçilərlə çıxırdı.

- Bizim Çarli böyük adam olub. - O, istehzayla güldü.

-Bəsdir! - Alisa birdən dedi. - Hamınız azadsınız. Sabah altıda görüşərik.

Şagirdlər sinifdən çıxdılar. Alisanın öz şeylərini hirslə


downloaded from KitabYurdu.org

yeşiklərə atmasından hiss olunurdu ki, özündə deyil.

-Bağışla, - mən dedim. - Əvvəlcə mən səni aşağıda gözləyirdim, sonra düşündüm ki, bəlkə, öz sinfimə bir baxım. Mənim alma materim. Mən, sadəcə, qapının arxasından baxmaq istəyirdim, məni içəri girməyə nəyin vadar etdiyini heç özüm də bilmirəm. Sən niyə belə hirslənmisən?

- Mən qətiyyən hirslənməmişəm. Zərrə qədər də.

-Nə danışırsan... Sənin incikliyin baş verənlərə qeyri-proporsionaldır. Sadəcə, məndən nəyisə gizlədirsən.

-Yaxşı. Bilmək istəyirsən? Sən başqasan. Sən dəyişmisən. Mən sənin intellekt əmsalın haqqında danışmıram. İnsanlara münasibət... sən, sadəcə, başqa adamsan...

- Yaxşı, lazım deyil...

-Qoy fikrimi tamamlayım! - Onun səsindəki aşkar qəzəb məni silkələdi. - Hə, hə, məhz belə! Əvvəllər səndə nəsə... bilmirəm... istilik... mehribanlıq vardı, hamının xoşuna gəlirdin və insanlar özlərini səninlə yaxşı hiss edirdilər. Amma indi səndə ağıl və biliklə birlikdə başqa xüsusiyyətlər də əmələ gəlib...

Mən dözmədim:

-Bəs sən nə istəyirdin? Sən elə bilirdin ki, mən quyruq bulayan və onu təpikləyən çəkməni yalayan yumşaq küçük olaraq qalacağam? Mən, əlbəttə, dəyişmişəm, özümü dərk etməyə başlamışam. Mən artıq bütün ömrüm


downloaded from KitabYurdu.org

boyu beynimə yeridilən cəfəngiyyatı dinləməyə borclu deyiləm.

- Bir çox insan sənə yetərincə yaxşı münasibət göstərirdi.

-Maraqlıdır, sən bunu haradan bilirsən? Qulaq as, onlann ən yaxşılannm belə mənə yazığı gəlir, bununla öz gözlərində ucalırdılar. Sən ağıldankəm adamın yanında hər kəsin dahi göründüyünə diqqət etmisən?

Bunu deyən kimi Alisanm məni yanlış anlayacağını düşündüm.

- Sən məni də həmin kateqoriyaya aid edirsən?

-Mənim sözlərimi tərsinə çevirmə. Sən çox gözəl bilirsən ki...

-Sən müəyyən mənada haqlısan. Mən sənin yanında səfeh görünürəm. Bizim hər görüşümüzdən sonra özümü tam axmaq kimi hiss edirəm. Mən öz sözlərimi xatırlayır və onların yerinə ağlıma əla, parlaq cümlələr gəlir. Düşünürəm ki, gərək onları deyəydim və az qalıram özümü öldürüm.

- Bu hamının başına gəlib.

-Başa düşürsən, mən səndə təəssürat yaratmaq istəyirəm. Bu yaxınlaracan belə bir fikir mənə gülməli görünərdi, amma indi özümə inamımı itirmişəm. Bir şey söyləməzdən və etməzdən qabaq baş sındırıram: buna dəyərmi?

Mən söhbətin mövzusunu dəyişmək istədim.


downloaded from KitabYurdu.org

-Alisa, mən bura qətiyyən mübahisə etməyə və didişməyə gəlməmişəm. İcazə ver səni ötürüm. Mənə mütləq kimləsə danışmaq lazımdır.

-Mənə də. Ancaq son vaxtlar səninlə danışmaq mənimçün çətinləşir. Bu söhbətlərdə mənim rolum daha çox dinləmək,
razılaşmaq və özümü yalandan mədəni fərqlərdən, neobulian riyaziyyatından və postsimvolik məntiqdən başım çıxırmış kimi göstərməkdən ibarət olur. Mənə elə gəlir ki, göz görə-görə kütləşirəm, sən getdikdən sonra isə güzgüyə yaxınlaşıb öz- özümə deyirəm: "Alisa, sən ağlını itirmirsən! Sən kütləşirsən! Sən düşkünləşmirsən! Sadəcə, Çarli o qədər sürətlə irəliləyir ki, sən geriyə getdiyini düşünürsən!.." Sonra biz yenidən görüşürük, sən tələsmədən nəyisə izah etməyə başlayırsan və mən əminəm ki, ürəyində mənə gülürsən. Sənə elə gəlir ki, mənə maraqlı deyil, mən, sadəcə, tənbələm. Haradan biləsən ki, tək qalanda özümü ifşa edirəm? Sən mənim gecələr hansı kitabları oxuduğumu, hansı mühazirələrə getdiyimi bilmirsən, hər şey sənə uşaq kəkələməsi kimi görünür. Mən ümid edirdim ki, sənə kömək edəcək, uğurlarına sevinəcəyəm, sənsə məndən uzaqlaşdın.

Mən dinləyirdim və Alisanm haqlı olduğu fikri məni tərk etmirdi. Mən özümlə baş verənlərə son dərəcə aludə olmuş və onu unutmuşdum.

Yolda evə gedərkən o, sakitcə ağlayır, mənsə


downloaded from KitabYurdu.org

susurdum; mənim deməyə sözüm yox idi və ancaq hər şeyin necə yüz səksən dərəcə dəyişməsi haqqında düşünürdüm. O məndən qorxur. Buz sınmış və aramızdakı təmiz su zolağı getdikcə genişlənirdi. Ağıl axını məni açıq dənizə aparır. Mənimlə ünsiyyətə girmək Alisa üçün işgəncəyə çevrilib. Bizi birləşdirən heç bir şey qalmayıb.

-Sən ciddi görünürsən, - o, axır ki, mənim gözlərimə baxıb dedi.

- Mən səninlə özüm haqqında düşünürdüm.

-Mənim sözlərimə çox da əhəmiyyət vermə. Mən səni qətiyyən məyus etmək istəmirdim. - Alisa gülümsəməyə çalışdı.

-Sən məni artıq məyus etdin. Ancaq mən nə edəcəyimi bilmirəm.

Biz Alisanm evinə çatanda o, birdən dedi:

-Mən səninlə simpoziuma getməyəcəyəm. Bu gün səhər bu barədə Nemura demişəm. Sən mühüm adamlarla söhbət edəcək, məşğul olacaqsan, hamının diqqəti səndə olacaq... Mən əl-ayağa dolaşmaq istəmirəm...

- Alisa...

-...indi sən nə deyirsən de, mən özümü sənə mane olurmuş kimi hiss edəcəyəm. Əgər etirazın yoxdursa, mən bir az öz qırılmış qürurumla birlikdə olmaq istərdim. Çox sağ ol.

- Sən şişirdirsən. Mən əminəm ki, əgər sən...


downloaded from KitabYurdu.org

-Sən bilirsən! Sən əminsən! - O, dəhlizin pilləkənində dönüb diqqətlə mənə baxdı. - İşə bir bax, sən necə də qüsursuz olmusan! Sənə elə gəlmir ki, başqalarının arzulanyla çox sərbəst davranırsan? Sən mənim nə hiss etdiyimi, necə və nə üçün hiss etdiyimi bilə bilməzsən!
O öz mənzilinin qapısını açdı və titrək səslə dedi:

-Sən qayıdanda mən burada olacağam. İndisə biz bir-birimizdən çox uzağıq, gəl hər şeyi yaxşı-yaxşı götür-qoy edək.

Uzun zamandan bəri o, ilk dəfəydi ki, məni evinə dəvət etmirdi. Mən bağlı qapının qarşısında dayanıb əsəbimdən qovrulurdum. Mən qışqırmaq, qapını döyəcləmək, sındırmaq, evi yandırmaq istəyirdim. Ancaq sonradan evə gedəndə yolda yavaş-yavaş sakitləşdim. Azad olduğumu hiss etdim.

Artıq başa düşürəm ki, ağlımın irəli getməsiylə Alisaya qarşı duyğulanm da azalır: pərəstişdən məhəbbətə, minnətdarlığa və ən nəhayət, adi təşəkkürə doğru. Ondan məni keçmişlə bağlayan sonuncu bağı itirməkdən qorxduğum üçün yapışmışam.

Azadlıq duyğusu özüylə kədər gətirdi. Mən Alisanı sevməyi, emosional və seksual qorxulan adlamağı arzulayırdım, evim, uşaqlarım olmasını istəyirdim. Artıq bu, mümkün deyil. Mən Alisadan əvvəlki 70 İQ-üm ilə də nə qədər uzaq idimsə, indiki 185 İQ-üm ilə də o qədər uzağam. Fərq burasındadır ki, artıq hər ikimiz bunu


downloaded from KitabYurdu.org

anlayırıq.

8 iyun

Məni evdən qovan və şəhərdə təkbaşına avaralanmağa vadar edən nədir? Yay axşamında bu heç də yüngül gəzinti deyil, daim harasa tələsməkdir... Bəs hara? Mən bulvarla addımlayır, qapıların altına, işıqlı pəncərələrə baxır, danışmağa adam axtarıram və bundan qorxuram. Bir küçədə, o birində, onların bitib-tükənməyən labirintində, hər yerdə bütün şəhəri
bürüyən qəfəslərin gözqamaşdırıcı neon çubuqlarına rast gələrək.

Mən nə... axtarıram?

Mərkəzi parkda bir qadına rastladım. O, gölün kənarındakı skamyada əyləşmişdi və havanın çox isti olmasına baxmayaraq, paltosunun bütün düymələrini düymələmişdi. O gülümsədi və əl işarəsiylə məni yanında oturmağa dəvət etdi. Biz qaranlıq səmanın fonunda seçilən parlaq işıqlandırılmış binaların əzəmətinə tamaşa elədik və mən bütün işıqları bir anda içimə çəkmək istədim.

Hə, mən Nyu-Yorkdanam. Yox, mən heç vaxt Virciniyada, Hyuport-Nyusda olmamışam. O, əslən oralıydı, orada dənizçiyə ərə getmişdi. O, indi dənizdədir, qadın iki il yarımdır ki, onu görmür. O, burun dəsmalını əlində dartışdıraraq, arabir alnındakı tər damcılarını silirdi. Hətta gölün səthinin əks etdirdiyi zəif işıqda belə



downloaded from KitabYurdu.org

onda nə qədər kosmetika olduğu görünürdü, ancaq yuxudan yenicə oyanmış adam kimi şişmiş sifətini saymasaq, cəlbedici görünürdü. O özü haqda danışmaq istəyir, mənimsə dinləməyə həvəsim yox idi.

Atası varlı gəmi sahibinin qızına verə biləcəyi hər şeyi yeganə qızına vermişdi; yaxşı ev, təhsil... təkcə günahını bağışlamamışdı. Adi matrosla sevgi macərası yaşadığına görə onu lənətləmişdi.

O, əlimdən tutub, başını çiynimə qoydu.

-Harri ilə evləndiyimiz gecə, - o pıçıldadı, - mən ürkək bir qız idim. O isə dəliyə dönmüşdü. Əvvəlcə məni döydü, sonra sevgisiz-filansız zorladı. Bu bizim ilk və son yaxınlığımız oldu, ondan sonra onu özümə yaxın buraxmadım.

Əlimin titrəməsindən, o, yəqin ki, necə sarsıldığımı anlamışdı. Hə, belə söhbətlər mənimçün yenilik idi... O məndən daha da bərk yapışdı, elə bil qaçacağımdan, danışdıqlarına qulaq asmayacağımdan qorxurdu. Deyəsən, bu onunçün çox vacib idi, odur ki, mən ovcundan quş yemləyən adam kimi çox sakit oturmuşdum.

-Ancaq bu o demək deyil ki, kişilərə nifrət edirəm, - o, cəlbedici sadəlövhlüyü ilə məni sakitləşdirdi.

- Məndə başqalan da olub. Çoox, ancaq o, bircə dəfə də. Kişilər,
adətən, mehriban olurlar, əvvəlcə öpüb-əzizləyirlər. - O,



downloaded from KitabYurdu.org

mənalı-mənalı mənə baxdı.

Bu mənim eşitdiyim, oxuduğum və arzuladığım idi. Mən onun adını bilmirdim, o da mənimkini soruşmadı. O, sadəcə, mənimlə birlikdə olmaq istədi. Bəs Alisa buna nə deyərdi?

Mən onun çiynini elə yöndəmsizcəsinə sığalladım və elə naqolaycasma öpdüm ki, o, təşvişlə soruşdu:

- Sənə nə olub? Fikrin haradadır?

- Sənin yanında.

- Səndə getməyə yer var?

Ehtiyatlı, ehtiyatlı ol, Çarli... Belə anlarda torpaq ayağının altından qaça və səni uçuruma sala bilər!

-Əgər yoxdursa, Əlli üçüncü küçədəki bir hotel elə də baha deyil. Pulu qabaqcadan ödəyəndə baqajın harada olduğunu da soruşmurlar.

- Məndə otaq var...

O mənə yenə hörmətli nəzərlərlə baxdı:

- Çox gözəl, əla.

Hələ ki hər şey qaydasmdaydı. Maraqlıdır, görəsən, mən panikaya düşmədən nə qədər uzağa gedə bilərəm? Onunla otaqda nə vaxt tək qalacağıq? Onun bədənini nə vaxt görəcəyəm?

Qəflətən həyatda mənimçün ən vacib sualla qarşılaşıram: başqa kişilərə oxşaya bilərəmmi? Qadından mənim taleyimi bölüşməsini xahiş edə bilərəmmi? Burada ağıl və bilik kifayət deyil... Məndə azadlıq və


downloaded from KitabYurdu.org

sərbəstlik duyğusu ilə birlikdə bu dəfə hər şeyin necə lazımdırsa alınacağına inam da yarandı. Bu qadın Alisa deyil. O, çox şey görüb.

Qadının səsi dəyişdi, onda qətiyyətsizlik yarandı.

- Getməmişdən qabaq... demək istəyirəm ki... - O qalxıb mənə san addımladı, paltosunun qabağını açdı və mən onun bədəninin cizgilərinin qətiyyən skamyada yanımda oturduğum zaman təsəvvür etdiyim kimi olmadığını gördüm. - Hələ beş aylıqdır, - o dedi. - Ancaq bunun fərqi yoxdur, elə deyilmi?

O qabağı açıq paltoda elə dayanmışdı ki, eynilə gözəl xalatmı Çarlinin qarşısında nümayiş etdirən qadın tablosuna bənzəyirdi. Mənsə kafir ildırım zərbəsini gözləyəntək
gözləyirdim. Üzümü çevirdim. Bu mənim ən az gözlədiyim şey idi, amma isti yay axşamında qabağı düymələnmiş palto burada nəsə əcaib bir şey olmasıyla bağlı məni xəbərdar etməliydi.

-Bu, ərimdən deyil. Mən səni aldatmamışam, biz onunla uzun illərdir görüşmürük. Səkkiz ay bundan qabaq bir ticarət agentiylə rastlaşdım və onunla yaşadım. Onu bir daha görməyəcəyəm, ancaq uşağı saxlamaq istəyirəm. Ancaq gərək ehtiyatlı olaq, çox möhkəm olmaz və ümumiyyətlə... Sənin narahat olmağına heç bir əsas yoxdur...

O mənim gözlərimə baxdı və onlarda nə gördüsə,


downloaded from KitabYurdu.org

susdu.

- Bu, ədəbsizlikdir! - qışqırdım. - Heç utanmırsan?

O, geri çəkildi və içindəkini qorumaq üçün paltosunun qabağını cəld bağladı.

Bu hərəkət... Yenə ikili obraz: bacıma hamilə olan anam həmin günlərdə məni özünə az sıxır, az qızdırır, mənim tam normal olmadığımı deyən adamlardan az qoruyurdu.

Deyəsən, onun çiynindən yapışdım, əmin deyiləm, ancaq o qışqırdı. Onun fəryadları məni tez gerçəkliyə qaytardı. Ona
demək istəyirdim ki, qorxmaq lazım deyil, mən ömrümdə heç kəsə heç bir pislik etməmişəm.

Ancaq o səsini kəsmədi və mən qaranlıq cığırla kiminsə bizə doğru qaçdığını eşitdim. Heç kəs məni düzgün başa düşə bilməz. Mən qaranlığa, parkın çıxışına doğru götürüldüm, əvvəlcə bir, sonra o biri cığırla qaçdım. Mən hara qaçacağımı bilmirdim və qəflətən nəyləsə toqquşub geri uçdum. Tor məftil - dalan! Gözümə bir-iki yelləncək dəydi və buranın gecə bağlı olan uşaq meydançası olduğunu anladım. Ağac kötüklərinə ilişə-ilişə hasar boyu qaçdım. Meydançanı əhatəyə alan yanmdairəvi gölün yanından geri döndüm, daha bir cığır tapıb, balaca bir körpücüyün, sonra ikincinin yanından keçdim. Çıxış yox idi.

- Nə olub, xanım?



downloaded from KitabYurdu.org

- Manyak idi?
- O sizə nə etdi?
- O hara qaçdı?

Beləliklə, mən köhnə yerimə qayıtdım. Kolların arasındakı iri qaya parçasının arxasında gizlənib torpağın üzərinə
uzandım.

-Polis çağırın! Onlar da heç vaxt lazım olduqları yerdə olmurlar!

- Nə olub?!
- Hansısa degenerat onu zorlamaq istəyirdi.
- Orada kimsə qaçır! Odur o!
- Nə qədər ki parkdadır, onu tutmaq lazımdır!
- Ehtiyatlı olun! Onda bıçaq və tapança var!

Hay-küy, deyəsən, bütün gecə quşlarını öz qaranlıq yuvalarından perikdirmişdi, çünki daha bir fəryad yüksəldi: "Budur o!" Mən öz sığınacağımdan baxıb gördüm ki, kimsə işıqlandırılmış cığırla qaçır və onu qovurlar. Bir saniyə sonra gözlərim qarşısından daha bir qaraltı keçib özünü qaranlığa vurdu. Mən kütlənin məni necə tutmasını, vurmasını, parça- parça etməsini təsəvvür etdim... Mən buna layiq idim. Mənim istədiyim təxminən elə bu idi!

Qalxıb üstümə yapışmış zir-zibili çırpdım və tələsmədən, bir saniyə sonra məni də tutub yerə, palçığın içinə çırpacaqlarını gözləyə-gözləyə cığırla irəlilədim.



downloaded from KitabYurdu.org

Ancaq tezliklə
irəlidə Əlli doqquzuncu küçənin və Beşinci avenyunun işıqları göründü və mən parkdan çıxdım.

Baş verən hadisəni otağımın təhlükəsizliyində götür-qoy edərkən onun aşkar amansızlığından dəhşətə gəldim. Anamın Normanı doğmamışdan qabaq necə göründüyünü xatırlamaq məni qorxudur. Ancaq ən dəhşətlisi tutulub döyülməyimi istəməyim idi. Keçmişin kölgələri ayağımdan yapışıb məni aşağı çəkir. Mən qışqırmaq üçün ağzımı açıram, amma səsim çıxmır. Əllərim titrəyir, üşüyürəm. Qulaqlarımda səs var.

Hesabat N213

10 iyun

Biz reaktiv təyyarədəyik. Təyyarə havaya qalxacaq və Çikaqoya doğru uçacaq. Bu hesabat öz mövcudluğu ilə Barta borcludur, çünki onu maqnitofona diktə etmək ideyası məhz ona məxsusdur. Onu Çikaqoda çap edəcəklər. Bu ideya Nemurun xoşuna gəldi. O hətta mümkün qədər hər şeyi qeyd etməyimdə israrlıdır: çünki belə bir lent yazısı onun məruzəsini zənginləşdirəcək.

Beləliklə, mən Çikaqoya istiqamət götürən təyyarənin ayrıca bir kabinəsində oturub, danışa-danışa düşünməyi öyrənməyə çalışır və öz səsimə öyrəşirəm. Ümid edirəm ki, makinaçı qız bütün bu "hm"ları, "hansı ki"ləri, "ah"ları kağıza köçürməyəcək və məruzəni oxunaqlı hala gətirəcək. Yüzlərlə insanın ürək sözlərimi dinləyəcəyini



downloaded from KitabYurdu.org

düşünəndə dəhşətə gəlirəm.

Başım bomboşdur, ancaq indi fikirlər yox, duyğular önəmlidir.

Havada uçmaq ideyası öz-özlüyündə dəhşətlidir. Terapiyaya qədər mən təyyarənin nə demək olduğunu dərk etmirdim, kinoda və televizorda gördüklərimlə başım üzərindən guruldayaraq uçan gümüşü quşlar arasında heç cür əlaqə qura bilmirdim. İndi mənə bir şey əzab verir: bəs qəzaya uğrasaq, necə olacaq? Bu dəhşətli fikirdən və ölüm qorxusundan bədənimi vicvicə tutub. Nədənsə Tanrıyla bağlı mübahisələr yadıma düşür.

Son vaxtlar ölüm haqqında tez-tez düşünsəm də, Tannm yada sala bilmirdim. Bəzən anam məni özüylə kilsəyə aparırdı,
ancaq mən kilsə ilə Tann arasında da hansısa bağlantı qurmaqda aciz idim. Anam onun haqqında tez-tez danışır və axşamlar mənə dua etdirirdi, ancaq bütün bunlar mənə qətiyyən toxunmurdu. Mən Tanrını taxtda əyləşmiş uzun saqqallı uzaq qohumum, supermarketdə uşaqlan dizinin üstündə oturdub hansı hədiyyəni istədiklərini soruşan Santa Klaus kimi təsəvvür edirdim.

Anam ondan qorxsa da, mərhəmət diləyirdi. Atam onu heç vaxt yada salmırdı, sanki o, anamın dayısı idi və atam onunla heç bir münasibət qurmaq istəmirdi.

-Tezliklə havaya qalxacağıq, ser. İcazə verin kəmərləri bağlamaqda sizə kömək edim.


downloaded from KitabYurdu.org

- Bu, vacibdir? Mən bağlamaq istəmirəm.
- Yüksəkliyə qalxanacan, ser.

-Mən bunu etmək istəməzdim. Bilirsiniz, məni bağlayanda qorxuram. Özümü pis hiss edirəm.

- Qaydalar belədir, ser. Mən sizə kömək edərəm.
- Lazım deyil! Mən özüm...
- Elə yox... bax bunu bura...
- Bircə dəqiqə... hazırdır!

Maraqlıdır. Qorxulu heç nə yoxdur. Kəmər qətiyyən sərt deyil. Nədən belə qorxurammış? Bundan və təyyarənin torpaqdan ayrılarkan titrəməsindən. Həyəcanımın dərəcəsi situasiyanın ciddiliyinə uyğun gəlmir... Burada nəsə var... nə? Üzüyuxarı, qara buludlara doğru uçuruq... Kəmərləri bağlayın... Sən bağlamısan... qaçmırsan... titrəmə və qulaqlarında səs hiss edirsən.

Yumru pəncərədən buludların arasında Çarlini görürəm. Neçə yaşı olduğunu demək çətindir. Beş? Norma anadan olanacan olan vaxtıdır...

-Nə oldu, hazırsınız? - Yekəpər və ağır çəkili atam qapıya yaxınlaşır. O, yorğun görünür. - Sizdən soruşuram, hazırsınız?

- Bu dəqiqə, - Roza cavab verir. - Şlyapamı geyinim.

Onun köynəyini düyməlcombinə, ayaqqabısının iplərini bağla.

- Tez olun görək, qurtarın.
- Hara? - Çarli soruşur. - Çarli hara gedir?

Atam qaşqabağını sallayır. Matt Qordon həmişə



downloaded from KitabYurdu.org

oğlunun suallarına cavab verməyə çətinlik çəkirdi. Roza şlyapasının
torunu düzəldə-düzəldə yataq otağından çıxır. O nə iləsə quşu xatırladır, başı üzərində çırpılan əlləri qanadlara oxşayır.

-Biz həkimin yanına gedirik, o sənə ağıllı olmağa kömək edəcək.

Roza torun altından oğluna məftil çəpərin arxasından baxan kimi baxır. O, atasıyla anasının getməzdən qabaq təzə paltarlar geyinməsindən həmişə qorxur, deməli, onlar başqa adamlarla danışacaqlar və anam mütləq əsəbiləşib özündən çıxacaq. O qaçmaq istəyir, ancaq yer yoxdur.

- Sən bunu ona niyə deyirsən? - Matt soruşur.

-Çünki bu, doğrudur. Doktor Quarino onu müalicə edə bilər.

Matt ümidini çoxdan itirmiş və ancaq möcüzəyə inanan adam kimi var-gəl edir.

-Bunu haradan çıxardın? Sən onun haqqında nə bilirsən axı? Əgər nəsə etmək mümkün olsaydı, həkimlər bunu bizə çoxdan deyərdilər.

-Belə danışma! - Roza qışqırır. - Nə olur-olsun, o, normal adam olmalıdır!

- Ağılı pulla ala bilməzsən...

-Axı bu, Çarlidir, sənin oğlundur, sənin yeganə övladındır! - Rozanın isterikası tutur. - Mən sənə qulaq



downloaded from KitabYurdu.org

asmaq istəmirəm! Həkimlər, sadəcə, heç nə anlamırlar, ona görə də eyni şeyi deyirlər. Doktor Quarino mənə hər şeyi izah etdi. Dedi ki, onun üsulunu heç kəs dəstəkləmir, çünki o halda həkimlərin haqsız olduğunu hamı anlayacaq! Alimlərin hamısında belə olub. Pasteri və Ceninqsi də əvvəlcə heç kəs qəbul etməyib. Doktor Quarino dedi ki, həkimlər inkişafdan qorxurlar.

Mattın ağzını bu yolla yuman Roza sakitləşir və özünə inamı yenidən bərpa edir. O, Çarlini buraxır, Çarli qorxudan titrəyə-titrəyə küncə qısılır.

- Baxsana, - Roza deyir, - sən onu yenə qorxutdun!

-Mən?

- Sən həmişə onun yanında belə söhbətlər edirsən.

- Aman Tanrım! Gedək, tez olun gedək.

Həkimə gedərkən yol boyu hamısı susur. Həkimin kabinetinə gedərkən keçdikləri üç məhəllə boyu avtobusda sakitlikdir, sakitlik. On beş dəqiqədən sonra doktor Quarino
qəbul otağına çıxıb onlarla salamlaşır. O, kök və keçəldir, elə bir görkəmi var ki, elə bil bu dəqiqə öz ağ xalatından tullanıb çıxacaq. Onun sıx çal qaşları və tərpənən çal bığlan Çarlini vəcdə gətirir. Bəzən əvvəlcə bığları tərpənir, sonra qaşları qalxırdı, bəzənsə əvvəl qaşları dartılır, ardınca bığları tərpənirdi.

Quarinonun bizi apardığı böyük ağ otaqdan təzə boya qoxusu gəlir və demək olar ki, boşdur. Bir divarın döşünə


downloaded from KitabYurdu.org

iki stol, digər divar boyu isə bormaşında* (bormaşın - diş həkimlərinin işlətdiyi burğu maşını) olduğu kimi dörd uzun dəstəyi olan siferblatlı* (saat və ölçü cihazlarının üzərindəki rəqəmli lövhəcik) nəhəng maşın qoyulmuşdu. Onun yanında da pasiyentləri bağlamaq üçün kəmərləri olan qara dərili bir taxt vardı.

-Çox gözəl, çox gözəl, - Quarino qaşlarını qaldıraraq guruldayır. - Deməli, sən beləymişsən, hə, Çarli? - O, oğlanın çiynindən möhkəm yapışır. - Biz səninlə mütləq dost olacağıq!

- Siz, doğrudan, onun üçün nəsə edə bilərsiniz?
- Matt soruşur. - Sizdə buna bənzər hallar olub? Bilirsiniz, biz
o qədər də varlı deyilik.

Quarino mısmırığını sallayır, qaşları dərhal aşağı düşür.

-Cənab Qordon, məgər mən nəsə vəd vermişəm? Hələ bir əvvəlcə uşağa baxaq! Bəlkə də, mən nəsə edə bilərəm, amma mümkün olmaya da bilər. Patologiyanın səbəbini öyrənmək üçün əvvəlcə fiziki və əqli testlərdən keçirmək lazımdır. Proqnozlar haqqında danışmağa sonra da vaxtımız olacaq. Sizə açığını deyəcəyəm, hazırda mənim vaxtım yoxdur və sizin uşağınızla məşğul olmağa ona görə razı oldum ki, ləng inkişafın məhz bu növüylə maraqlanıram. Ona görə də əgər şübhəniz varsa...

O, məyus halda susur və üzünü çevirir, ancaq Roza


downloaded from KitabYurdu.org

dirsəyi ilə Mattın böyrünü dümsükləyir.

-Ərim, sadəcə, fikrini düzgün ifadə etmədi, doktor. O, tez- tez belə yersiz danışır, - deyə baxışlanyla Matta yalvarır ki, üzr istəsin.

Matt ah çəkir.

-Əgər Çarliyə kömək etmək üçün bir üsul varsa, biz tələb olunan hər şeyi edərik. Ancaq işlər pis gedir. Mən bərbərlik
ləvazimatları alveriylə məşğulam və şad olardım...

-Sizi bir məsələdə xəbərdar etmək istərdim. - Doktor Quarino dodaqlarını yuvarlaq şəklə salaraq uzatdı, sanki mühüm qərar verirdi. - Müalicə kursuna başlasaq, onu yarımçıq qoymaq olmaz. Aylarla nəzərə çarpmayan yaxşılaşma özünü qəfil göstərə bilər. Mən mütləq uğur vəd etmirəm, Tanrı xatirinə. Heç bir təminat da vermirəm. Ancaq siz mənim bütün dediklərimə əməl etməlisiniz, əks halda, başlamağa dəyməz.

O, valideynlərə diqqətlə baxır, söhbətin ciddiliyini anlamaları üçün onlara vaxt verir. Onun qaşları altındakı iki parlaq mavi lampa yanan ağ abajurlara bənzəyir.

- Xahiş edirəm, çıxm. Mən oğlana baxım.

Matt oğlunu onunla təklikdə qoymaq istəmir, ancaq Quarino israrlıdır.

-Belə daha yaxşıdır, - o, ərlə arvadı qəbul otağına itələyərək deyir. - Psixosubstantiv testlər mən pasiyentlə təklikdə qalanda daha doğru nəticələr verir. Xarici



downloaded from KitabYurdu.org

qıcıqlanmalar bir çox kənar effektlər doğurur.

Roza qalib görkəmdə ərinə gülümsəyir və Matt itaətkarcasma onun ardınca gedir. Doktor Quarino Çarlinin başını sığallayır. Onun təbəssümü mehribandır.

- Hər şey qaydasındadır, oğlum. Taxta uzan.

Çarli yerindən tərpənmir. Bunu görən həkim onu astaca qaldırıb taxta qoyur və ağır kəmərlərlə bağlayır. Taxtdan dəri və tər iyi gəlir.

- Ana-a-a!

-O, qapının arxasındadır. Qorxma, Çarli, səni zərrə qədər incitməyəcəyəm.

-Anamı istəyirəm! - Hərəkət edə bilməməsi Çarlini həyəcanlandırıb. O nə baş verdiyini anlamır, ancaq valideynlərini bayıra çıxarmaqla pis iş görən doktorları artıq görüb.

Quarino onu tutmağa çalışır:

- Sakit ol, ağıllı oğlum. Bu böyük maşını görürsən?

Bilirsən mən nə etmək istəyirəm?

Çarli anasının sözlərini xatırlayır:

- Məni ağıllandırmaq istəyirsiniz.

-Doğrudur. Ən azından, bura niyə gəldiyini bilirsən. Gözlərini yum və sakitcə uzan, mən də maşını işə salım. O, təyyarə kimi guruldayacaq, ancaq səni bir damcı da ağrıtmayacaq. Ola bilər ki, o səni lap azca ağıllandırsm da.

Quarino düyməni çıqqıldadır, böyük maşın



downloaded from KitabYurdu.org

uğuldamağa başlayır, qırmızı və mavi işıqlar yanıb-sönür. Çarli dəhşət içindədir. O titrəyir və kəmərlərdən qurtulmaq istəyir. O qışqırmağa başlayır, ancaq Quarino yumrulanmış cunanı onun ağzına basır.

-Hə, hə, Çarli. Bəsdir. Sən axı yaxşı oğlansan. Səni ağrıtmayacaq.

Çarli yenə qışqırmaq istəyir, onun ağzından yalnız boğuq inilti çıxır və bu səsdən onun ürəyi bulanır. O, ayaqlanyla üzüaşağı yaşlıq sürüşdüyünü hiss edir, qoxu isə anasının onu yenidən şillələyib, küncə qoyacağından xəbər verir. Orqanizminin bəzi funksiyalarını nəzarətdə saxlamağa onun gücü çatmır. Azca həyəcanlanan kimi özünü batırıb-bulayır. O boğulur... özünü pis hiss edir... kabinet qaranlığa qərq olur...

Çarli nə qədər vaxt keçdiyini bilmir, ancaq gözlərini açanda artıq ağzında cuna yoxdur, kəmərlər açılıb. Doktor Quarino özünü elə aparır ki, guya heç bir iy hiss etmir.

- Hə, ağntdı?
- Y-y-yox...

-Onda bəs niyə titrəyirsən? Bax maşın səni ağıllandırdı. Necə düşünürsən, ağıllı olmaq yaxşıdır?
Qorxularını unudan Çarli bərəlmiş gözləriylə maşına baxır.

- Mən ağıllanmışam?
- Əlbəttə! Burada dayan. Nə hiss edirsən?


downloaded from KitabYurdu.org

- Mən islanmışam. Tumanımı batırmışam.

-Hə, hm, yaxşı... Gələn dəfə belə etməyəcəksən, eləmi? Artıq qorxulu olmadığını bilirsən və qorxmayacaqsan. İndisə anana ağıllandığını söylə. O səni həftədə iki dəfə bura gətirəcək və biz ensefalorekondisiyalaşdırma ilə məşğul olacağıq. Sən getdikcə ağıllanacaq, ağıllanacaq və ağıllanacaqsan.

Çarli gülümsəyir.

- Mən daldalı da yeriyə bilirəm!

-Doğrudan? Baxaq görək, - Quarino üzünə təəccüb ifadəsi verərək deyir.

Çarli ağır-ağır, böyük səylə arxaya bir neçə addım atır və taxta dirənir. Quarino başını məmnunluqla tərpədir:

-Əla! Ancaq bir az səbirli ol! Biz kursu bitirəndə sən məhəllənizdə ən ağıllı oğlan olacaqsan!

Çarli məmnunluğundan qızarır. İnsanlar ona tez-tez gülümsəyib belə sözlər demirlər. Hətta maşının və kəmərlərin qorxusu da uçub gedir.

-Bütün məhəllədə? - Bu fikir onun sinəsini qabardır. - Haymidən də ağıllı?

Quarino yenə gülümsəyir:

- Haymidən də ağıllı olacaqsan.

Çarli maşına yeni maraq və hörmətlə baxır, maşın onu onlardan iki ev aralıda yaşayan, oxumağı və yazmağı bacaran, boyskautluğa qəbul edilən Haymidən də ağıllı edəcək.



downloaded from KitabYurdu.org

- Bu maşın sizindir?

-Hələlik yox. O, banka məxsusdur, ancaq tezliklə mənim olacaq, mən onunla bir çox uşaqları ağıllandıracağam. - O,
Çarlinin başını tumarlayır və davam edir: - Səninlə işləmək anaların dahi etmək üçün yanıma gətirdikləri normal uşaqlarla işləməkdən qat-qat yaxşıdır. Sənsə, Çarli... elə olduğun kimi, yaxşı balaca oğlan olaraq qal.

Doktor qapını açıb Çarlini valideynlərinin yanma aparır.

-Bu da o. Qorxulu heç nə olmadı. Əla oğlandır. Biz onunla dost olacağıq. Hə, Çarli?

Çarli başını razılıqla tərpədir. O, doktor Quarinonun xoşuna gəlmək istəyir, ancaq bu zaman anasının baxışlarını hiss edir və dəhşət geri qayıdır.

- Çarli! Sən nə etmisən?

- Təsadüfdür, missis Qordon. Onu cəzalandırmayın. Həkim ziyarəti cəzayla assosiasiya olunmamalıdır.

Ancaq Roza Qordon xəcalətindən alışıb-yanır.

-İyrəncdir! Doktor, mən, sadəcə, nə edəcəyimi bilmirəm. O, evdə də belə edir... qonaqlann yanında... Mən ona görə çox utanıram!

Anasının üzündə aşkar nifrət var və Çarli titrəməyə başlayır. O, bir anlıq necə pis oğlan olduğunu və ata-anasına əzab verdiyini unudur. O, səbəbini bilmir, ancaq anası onlara əzab verdiyini söyləyəndə, ağlayanda və



downloaded from KitabYurdu.org

onun üstünə qışqıranda bərk qorxur, üzünü divara çevirərək sakitcə inildəyir.

-Onu qorxutmayın, missis Qordon, sakit olun. Həftənin ikinci və dördüncü günləri elə bu vaxtlar onu mənim yanıma gətirin.

-Bunun ona köməyi dəyəcək? - Matt soruşur. - On dollar çox...

-Matt! - Roza onun qolundan yapışır. - Axı necə bu cür danışa bilirsən! O sənin canından və qanındandır! Bəlkə də, doktor Quarino onu Tanrının köməyi ilə sağaldacaq və o, başqaları kimi olacaq, sənsə elə hey puldan danışırsan!

Matt Qordon nəsə demək istəyir, ancaq fikrini dəyişib bumajnikini çıxarır.

-Siz nə danışırsınız... - Pulu görən Quarino sifətinə süni pərtlik verir və ah çəkir. - Maliyyə məsələlərinə assistentim baxır... Təşəkkür edirəm. - O, Rozaya xəfifcə təzim edir, Mattın əlini sıxır, Çarlinin kürəyini şappıldadır. - Əla oğlandır, əla, - və gülümsəyə-gülümsəyə kabinetinə keçir.

Evə gedərkən onlar bütün yol boyu mübahisə edirlər. Matt bərbərlik sahəsində durğunluq olduğundan, əmanətlərinin əriyib getməsindən şikayətlənir, Roza isə durmadan yeganə oğullarının rifahından vacib heç bir şey olmadığını təsdiqləyir.


downloaded from KitabYurdu.org

Çarli isə qorxusundan ağlayır. Valideynlərinin səslərindəki qəzəb ona əzab verir. Onlar evə girən kimi o, cəld mətbəxə qaçıb, orada küncdə dayanır, alnını divara dirəyərək sakitcə ağlayır. Valideynləri ona əhəmiyyət vermirlər. Onlar onu yuyub-təmizləməyi və tumanını dəyişməyi unudublar.

-Mən boş yerə əsəbiləşmirəm! Məni əsəbiləşdirən odur ki, sənin oğlun üçün nəsə etmək istəyəndə başlayırsan ağlayıb-
sıtqamağa. Onun böyüyüb necə olacağı sənin vecinə deyil!
Sənin üçün fərqi yoxdur!

-Fərqi var! Sadəcə, ona heç bir şeyin kömək etməyəcəyini mən çoxdan başa düşmüşəm. Belə uşaqlar düzəlmir, biz ancaq onun yükünü çəkməli və onu sevməliyik. Mən bununla razıyam,
ancaq sənin axmaq hərəkətlərinin ardınca düşmək istəmirəm. Bütün pullarımız şarlatanlara gedir, mən bu pullara çoxdan yaxşı bir iş qurardım. Hə, hə! Mənə elə baxma! Sənin havaya sovurduğun pullara mən öz bərbərxanamı açar, piştaxta arxasında çürüməzdim! Öz işimi qurardım və adamlar mənə işləyərdilər!

-Qışqırma! O qorxur.

-Rədd ol cəhənnəmə! Artıq bu evdə kimin uzunqulaq olduğunu bilirəm: bu mənəm, çünki səni vaxtında saxlamadım.



downloaded from KitabYurdu.org

O, qapını bərkdən çırparaq özünü küçəyə atır.

-Üzr istəyirəm, ser, ancaq biz artıq enməyə hazırlaşırıq. Kəmərləri bağlayın... Ah, siz Nyu-Yorkdan burayacan onlarla oturmuşunuz? Təxminən iki saatdır...

-Lap yadımdan çıxıb. Enəndən sonra açaram. Daha qorxmuram.

Artıq hamını heyrətləndirən ağıllı olmaq arzumun mənə kimdən keçdiyini bilirəm. Roza daim bununla yatıb-dururdu. Onun qorxusu, günahı, xəcaləti. Çarli ağıldankəmdir! Onun hər şeyi düzəltməyin mümkünlüyü ilə bağlı arzusu. Və əbədi sual -
kimdir müqəssir? Matt, yoxsa o? Yalnız Norma doğularaq onun sağlam uşaqlara sahib ola biləcəyini sübut edəndən sonra oğlunun, sadəcə, idbarın biri olduğunu anlayan Roza onu ağıllandırmaqdan vaz keçdi. Ancaq mən özüm normal insana çevriləcəyimə olan ümidimi heç vaxt itirmədim... Təki anam məni sevsin.

Daha maraqlı bir şey. Məni, Rozanı və Mattı aldatdığına görə gərək Quarionoya qarşı incikliyimi gizli saxlayaydım. Ancaq mən onu minnətdarlıqla xatırlayıram. O mənə qarşı həmişə rəhmli olub. Gülümsəyib, əlini dostcasına kürəyimə şappıldadıb, çox nadir hallarda eşitdiyim xoş sözlər deyib. O zaman o mənimlə hətta ağıllı bir varlıq kimi davranırdı.

Bəlkə də, bundan nanəciblik qoxusu gəlir, ancaq mənə təcrübə heyvanı kimi baxılması, Nemurun mənə daim


downloaded from KitabYurdu.org

məni olduğum kimi etməsini, yaxud günlərin bir günü minlərlə axmağın əsl insana çevriləcəyini xatırlatması heç vaxt xoşuma gəlməyib.

Məni yaratmadığını ona necə başa salım? Nemur ağıldankəm adamlara gülənlərin səhvlərini təkrar edir və bu
zaman onlarla eyni hisslər keçirdiyini dərk etmir. Bilmir ki, mən onunla görüşümüzdən xeyli əvvəl də şəxsiyyət olmuşam.

Mən incikliyimi saxlamağı, hövsələli olmağı, gözləməyi öyrənəcəyəm. Mən böyüyəcəyəm. Hər gün özüm haqda yeni nəsə öyrənəcəyəm və balaca ləpədən başlayan xatirələr məni on ballıq dalğalarla qamçılayacaq.

ıı iyun

Anlaşılmazlıq biz Çikaqodakı "Çalmerm-hotel"ə çatan kimi başladı və biz otaqlarımızın ancaq sabah axşam boşalacağını, yaxınlıqdakı "İndependens" hotelində gecələyəcəyimizi öyrəndik. Nemur özündə deyildi. O bunu şəxsiyyətinə qarşı təhqir kimi qəbul etdi və kuryerdən müdirə qədər hamıyla söyüşdü. O, foyedə dayanıb, onların hər birinin özündən yüksək vəzifəli şəxsin yanma gedib bu problemi həll etməsini gözləyirdi.

Biz bütün bu qarışıqlığın: səliqəsiz şəkildə üst-üstə qalaqlanmış yüklərimiz, arabalarla ora-bura şütüyən yükdaşıyanlar, bir ildir bir-birini görməyən və həyəcanla


downloaded from KitabYurdu.org

salamlaşan simpozium iştirakçılarının ortasında dayanıb, Nemurun hər dəqiqə artan həyəcan və pərtliklə psixoloqların Beynəlxalq Assosiasiyası üzvlərinin üstünə bağırmasına baxırdıq.

Nəhayət, bəlli oldu ki, heç bir şey etmək mümkün deyil və vəziyyətimizin ümidsiz olduğu Nemura çatdı. Elə oldu ki, gənc iştirakçıların çoxu elə "İndependens" hotelinə düşdü. Onların çoxu Nemurun eksperimenti haqda eşitmişdi və mənim kim olduğumu bilirdilər. Hara gedərdiksə gedək, kimsə məni yanlayıb müxtəlif məsələlərlə bağlı fikirlərimlə maraqlanırdı - yeni vergilərdən tutmuş Finlandiyadakı arxeoloji qazıntılara qədər. Bu, birbaşa meydan oxuma idi, ancaq bilik ehtiyatım mənə, demək olar ki, istənilən problemi sərbəst müzakirə etməyə imkan verirdi. Lakin tezliklə başa düşdüm ki, hər dəfə mənə sual ünvanlandıqca Nemurun sifəti daha çox qaralır. Ona görə də Falmut-kollecdən olan gənc və qəşəng həkim qadın əqli geriliyimin səbəbini nəylə izah edə biləcəyimi soruşanda dedim ki, bu suala heç kəs professor Nemurdan yaxşı cavab verə bilməz.

Özünü göstərmək məqamının yetişdiyini görən Nemur tanış olduğumuz müddət ərzində əlini ilk dəfə çiynimə qoydu.

-Fenilketonuriyanın bu cür müxtəlifliyinə nəyin: qeyri-adi biokimyəvi, yaxud genetik situasiyanın,



downloaded from KitabYurdu.org

ionlaşdırıcı şüalanmanın, təbii radioaktivliyin, ya da embriona qarşı virus hücumunun səbəb olduğunu əminliklə söyləmək mümkün deyil. Mühüm olan nəticə qüsurlu genin... gəlin onu "çaşqın enzim" hazırlayan adlandıraq, ortaya çıxması və qüsurlu biokimyəvi reaksiyaları stimullaşdırmasıdır. Yekunda əmələ gələn amin turşuları normal enzimlərlə rəqabətə girərək beyinin zədələnməsinə səbəb olur.

Qız qaşqabağını tökdü. O, mühazirə gözləmirdi, ancaq Nemur artıq kafedranı ələ almışdı və fikrini inkişaf etdirməyə tələsirdi:

-Mən bunu "enzimlərin rəqabət edən ingibisiyası" adlandırıram. Misalçün, təsəvvür edin ki, qüsurlu genin istehsal etdiyi enzim mərkəzi sinir sisteminin kilidinə sala biləcəyimiz, ancaq burulmayan açardır. Deməli, əsl açar lazım olan enzimdir, ancaq o da kilidə heç cür girmir. Nəticə? Beyin
toxumasının proteininin heç vaxt bərpa olunmayan pozulmasıdır.

-Əgər bu bərpa olunmursa, - psixoloqların auditoriyasına qoşulanlardan biri söhbətə qarışdı, - bəs cənab Qordonun müalicəsi necə mümkün olub?

-Ah, - Nemur quruldadı, - mən dağılan toxumaların bərpa olunmadığını dedim, prosesin yox. Bir çox alimlər onu qüsurlu enzimlərlə reaksiyaya girən maddələrin inyeksiyası vasitəsilə bərpa edə biliblər, necə deyərlər,


downloaded from KitabYurdu.org

açarın molekulyar dilini dəyişərək. Bu prinsip bizim metodikanın da əsasını təşkil edir. Ancaq əvvəlcə biz beyinin zədələnmiş hissəsini götürür və qoyduğumuz beyin toxumasını yüksək sürətli proteini sintezləşdirməyə məcbur edirik...

-Bir dəqiqə, professor, - çıxışının ən yüksək tonunda onun sözünü kəsdim. - Siz bu mövzuyla bağlı Rahacamatinin əsəriylə bağlı nə deyə bilərsiniz?

- Kimin, kimin? - o anlamayaraq soruşdu.

-Rahacamatinin. O öz əsərində Tanidanm nəzəriyyəsini - enzimlərin metabolizmini dövrəyə alan kimyəvi strukturların
dəyişmə konsepsiyasını tənqid edir.

Nemur qaşqabağını salladı:

- Məqalənin tərcüməsi haradadır?

-O hələ tərcümə olunmayıb. Mən onu bir neçə gün qabaq “Psixopatologiya” adlı hind jurnalından oxumuşam.

Nemur ətrafdakılara nəzər salıb, üzünü məndən çevirmək istədi:

-Bu məqaləyə elə də böyük əhəmiyyət vermək lazım deyil. Bizim nəticələr öz-özlərinə cavabdehdir.

-Ancaq Tanida özü azmış enzimin rekombinasiya yoluyla dövrəyə alınması nəzəriyyəsini təklif edib, indisə təsdiq edir ki...

-Yaxşı, yaxşı, Çarli. İnsanın nəzəriyyəni hamıdan


downloaded from KitabYurdu.org

qabaq təklif etməsi qətiyyən o demək deyil ki, son sözü demək haqqı da həmişəlik ona məxsusdur, xüsusilə də həmin nəzəriyyənin təcrübi inkişafı sahəsində. Zənnimcə, ABŞ-da və İngiltərədə aparılan tədqiqatlar hindlərin və yaponların işlərindən çox-çox irəlidədir. Dünyadakı ən yaxşı laboratoriyalar və avadanlıqlar bizdədir.

-Ancaq bununla Rahacamatinin fikirlərini təkzib etmək olmaz, çünki...

-İndi bunun dərinliyinə getməyin vaxtı deyil. Mən əminəm ki, bu məsələ burada detallı müzakirələrə səbəb olacaq.

Nemur köhnə bir tanışıyla söhbət etməyə başladı və mənimlə dialoqu tamamilə kəsdi. Çox gözəl. Mən Ştrausu kənara çəkib onu sual yağışına tutdum:

-Hə, fikrin nədir? Sən həmişə deyirdin ki, mən onun ən həssas yeriyəm. Bəs niyə o belə incidi?

-Sən ona öz üstünlüyünü hiss etdirdin, onunsa belə şeylərə dözümü yoxdur.

- Yox, mən ciddiyəm. Mənə düzünü de.

-Çarli, artıq hamının sənə gülmək istəməsindən şübhələnməyi dayandırmalısan. Nemur o məqalələr barədə heç nə bilmir, çünki onları oxumayıb.

- Məgər o, hind və yapon dillərini bilmir? Ola bilməz!

- Dil öyrənmək qabiliyyəti hamıda səndəki kimi deyil.

-Onda bəs Rahacamatinin fikirlərini necə inkar edə, Tanidanın nəzarət üsullarının doğruluğu ilə bağlı



downloaded from KitabYurdu.org

şübhələrini
necə rədd edə bilər? O bilməlidir ki...

-Bir dəqiqə, - Ştraus dalğın halda dedi. - Bu işlər, yəqin ki, yenidir. Onları hələ tərcümə etməyiblər.

- Demək istəyirsən ki, sən də onları oxumamısan?

O çiyinlərini çəkdi:

-Mən, bəlkə də, ondan daha pis linqvistəm. Amma əminəm ki, yekun məqalə dərc olunmazdan qabaq Nemur bütün jurnalları diqqətlə oxuyacaq.

Mən nə deyəcəyimi bilmirdim. Öz sahələrinə aid inqilabi əsərlər haqqında onların hər ikisinin heç nə bilməməsi fikri məni dəhşətə gətirirdi.

- Sən hansı dilləri bilirsən? - soruşdum.
- Fransız, alman, ispan, italyan və bir az da İsveç dilini.
- Bəs rus, portuqal, Çin dilləri?

O mənə izah etdi ki, praktik psixiatr və neyrocərrah fəaliyyəti ilə məşğul olduğundan dillərin öyrənilməsinə çox vaxt sərf edə bilmir. Qədim dillərdən o yalnız latın və və yunancanı oxuya bilir. Qədim Şərq dilləri haqqında isə heç bir təsəvvürü yoxdur.

Ştrausun diskussiyanı davam etdirməyə açıq-aşkar səbri çatmırdı, ancaq onu heç cür buraxa bilmirdim. Maraqlıdır, ümumiyyətlə, o nə bilir axı?

Fizika: məkanın kvant nəzəriyyəsindən dərin heç nə yoxdur.

Geologiya: geomorfologiya, stratiqrafiya və hətta


downloaded from KitabYurdu.org

petrologiya haqqında heç nə.

Riyaziyyat: primitiv səviyyəli differensial hesablamalar, Banax cəbri və Rieman fəzası haqqında heç nə.

Bütün bunlar üstümə gələn kəşflər axınının ilkin - zərrələriydi.

Mən, necə deyərlər, dostlar üçün təşkil olunmuş şam yeməyinin sonunacan otura bilməyib aradan çıxdım ki, bir az gəzişərək eşitdiklərimi götür-qoy edim. Yalançıymışlar onlar. Hər ikisi. Amma özlərini necə də dahi hesab edirlər! Kor- koranə işləyən, ancaq başqalarını qaranlığı işıqlandırmaq qabiliyyətlərinə inandıran adi adamlar. Niyə hamı yalan danışır? Mənim inandıqlanmın heç biri zamanın sınağına tab gətirmədi.

Tini burulanda gözlərimin kənanyla arxamca tələsən Bartı gördüm.

-Güdürsən? - o mənə çatanda soruşdum. O, süni tərzdə gülümsədi.

-Eksponat A, ən böyük ölçülü ulduz. Əgər bu gün bu motorlu Çikaqo kovboylanndan biri səni əzsə, ya da Steyt- stritdə səni qarət etsələr, bunu özümə bağışlamayacağam.

- Sayıq nəzarət altında olmaq istəmirəm.

O, baxışlarını yayındıraraq və əllərini ciblərinin dərinliyinə soxaraq yanımca addımlamağa başladı.

-Başa düş, Çarli, qoca əməlli-başlı həyəcan keçirir.



downloaded from KitabYurdu.org

Simpozium onun həyatının kulminasiyasıdır. O öz reputasiyasını qumara qoyub!

-Sizin bu qədər yaxın olduğunuzu bilmirdim, - Bartın professor dayazlığından və tiraniyasından daim şikayətləndiyini xatırlayıb onu sancdım.

-Biz o qədər də yaxın deyilik... O bütün həyatını öz işinə sərf edib. O nə Freyddir, nə də Yunq, nə Pavlovdur, nə də
Uotsun, ancaq o, mühüm işlə məşğuldur və bu işə girişdiyinə görə ona hörmət edirəm, adi adamın öz qarşısına yalnız dahilərin həll edə biləcəyi belə bir mürəkkəb məsələni qoyması təqdirəlayiqdir. Amma dahilərin çoxu indi bomba düzəltməklə məşğuldur...

-İstərdim ki, "adi adam" olduğunu onun üzünə də söyləyə biləsən.

-Onun özü haqda nə düşünməsinin elə bir əhəmiyyəti yoxdur. Bəli, Nemur eqoistdir, amma nə olsun? Belə bir işə girişə bilmək üçün elə eqoist olmaq lazımdır. Mən bütün rənglərdə olan nemurlara yetərincə baxmışam və bilirəm ki, onların əzəmətli görkəmləri altında həmişə qorxu və özünəinamsızlıq gizlənir.

-Həm də yalançılıq və xırdaçılıq, - mən əlavə etdim. - Artıq onları dişimə vurdum. Mən Nemurun yalançı olduğundan, həmişə nədənsə qorxduğundan çoxdan şübhələnmişdim. Ancaq məni ən çox təəccübləndirən Ştraus oldu.


downloaded from KitabYurdu.org

Bart susub dərindən nəfəs aldı. Mən onun sifətini görmədim, ancaq havada titrəmə hiss olunurdu.

- Sən mənimlə razı deyilsən?

-Sən uzun bir yolu çox qısa zamanda keçmisən. İndi sənin fövqəladə bir beynin var, ağlının dərəcəsini hesablamaq mümkün deyil, topladığın biliklərin miqdarı isə bütün fantaziyalan aşır. Ancaq sən birtərəflisən. Sən bilirsən, görürsən, ancaq anlamırsan. Səndə dözümlülük yoxdur. Sən alimləri yalançı adlandırırsan. Məgər onlardan hansısa mükəmməl olduğunu, fövqəlinsan olduğunu deyib? Onlar adi insanlardır. Dahi olan sənsən. Nitqinin moizəyə keçdiyini görən Bart susdu.

- Davam elə, nə oldu sənə?
- Sən heç Nemurun arvadını görmüsən?

-Yox.

-Əgər onun niyə həmişə, hətta laboratoriyada işləri əla gedəndə də, mühazirələrdə alqışlananda da gərgin olduğunu bilmək istəyirsənsə, sənə Berta Nemurla tanış olmaq lazımdır. Onu arvadının professor etdiyini bilirsən? Bilirsənmi ki, məhz
arvadı atasının nüfuzundan istifadə edərək, Uelberq fondundan onun üçün zorla dotasiya alıb? Simpoziumda vaxtından qabaq çıxış etməyə də onu arvadı məcbur edib. Nə qədər ki səni də belə bir qadın qovmur, bunu öz dərisində hiss edən kişini dərk etməyə çalışma.

Mən cavab vermədim, ona isə hotelə tez qayıtmaq


downloaded from KitabYurdu.org

lazım idi. Biz lal-dinməz geri qayıtdıq.

Mən dahiyəm? Əmin deyiləm. Ən azından, indi. Mən Bartın deyə biləcəyi kimi istisnayam. Lənətə gəlmiş "istedadlı" və "qabiliyyətsiz" damğalarından (əslində, bunlar "parlaq" və "ağıldankəm" mənalarını verir) qurtulmaq üçün tamamilə demokratik bir termindir. Elə ki "istisna" sözü anlam qazanmağa başlayır, onu dərhal başqasıyla əvəz edirlər. Sözdən heç kəs onun mənasını başa düşməyənə qədər istifadə et. "İstisna"nı əqli spektrin hər iki ucuna aid etmək olar, ona görə də mən bütün ömrüm boyu "istisna" olmuşam.

Daha çox öyrəndikcə varlığından xəbərimin belə olmadığı daha çox şey görürəm. Əvvəllər özümü HƏR ŞEYİ bilə biləcəyim, bəşəriyyətə aid bütün bilikləri beynimə yığa

biləcəyimlə bağlı səfeh düşüncəylə sakitləşdirirdim. İndisə yalnız biliyin varlığını bilməyə və onun kiçik bir zərrəsini dərk etməyə qadir olacağıma ümid edirəm. Görəsən, buna vaxtım çatacaqmı?

Bart mənə acıqlanıb. O mənim çox səbirsiz olduğumu düşünür, elə başqalan da onunla eyni fikirdədirlər. Məni tutub saxlayırlar, yerimdə oturtmaq istəyirlər. Mənim yerim haradadır? Mən kiməm? Nəyəm mən? Bütün həyatımın yekunuyam, yoxsa onun son bir neçə ayının? Ah, mən bütün bunlar haqqında danışmağa başlayan kimi onlar özləri necə də dözülməz olurlar! Heç kəs öz


downloaded from KitabYurdu.org

cahilliyini etiraf etmək istəmir. Nemur kimi "adi adam"ın öz ömrünü başqalarını dahiləşdirməyə həsr etməsi paradoksdur. O, tarixə yeni tədris üsullarının ixtiraçısı kimi, psixologiyanın Eynşteyni kimi düşmək istəyir. Ancaq heç nəyə baxmayaraq, onda istedadlı şagirddən qorxan müəllim qorxusu yaşayır, köməkçisinin onun işini qiymətdən salacağından rahatsız olan ustanın qorxusu. Digər tərəfdən, mən Bart kimi nə Nemurun şagirdiyəm, nə də köməkçisi.

Nemunın özünü nəhənglər arasında taxta ayaqlar üzərində gəzən kimi görməkdən qorxması aydındır. Hər hansı səhvi onu məhv edəcək. Hər şeyi yenidən başlamaq üçün isə o çox qocadır.

Məni həm də, əgər belə demək mümkündürsə, pərəstiş etdiyim adamların əsl mahiyyətini kəşf etməyim dəhşətə gətirdi. Ancaq bu məsələdə Bart haqlıdır, belə səbirsiz olmaq olmaz.
Axı bu onlann ideyasıdır və eksperimenti parlaq iş mümkün edib, odur ki, mən yolumu azıb onlara yuxandan baxmamalıyam. Başa düşməliyəm ki, müəllimlərim məni "başqalan"nm anlaya bilmədiyi çox mürəkkəb hesabatlara görə danlayanda özlərini nəzərdə tuturlar. Buna baxmayaraq, mənim taleyimi əvvəllər təsəvvür etdiyim nəhənglərin deyil, suallarıma belə cavab verə bilməyən insanlann öz əllərində saxladığını düşünmək dəhşətlidir.


downloaded from KitabYurdu.org

13 iyun

Mən bu qeydləri heç bir şeylə müqayisə olunmayan emosional stress keçirərək diktə edirəm. Mən oradan qaçdım və
indi Nyu-Yorka uçan təyyarədə oturmuşam. Ora çatanda nə edəcəyimi təsəvvür belə etmirəm.

Etiraf edim ki, yüzlərlə alim və mütəfəkkirin fikir mübadiləsi aparmaq üçün eyni vaxtda eyni yerə toplaşdığı mənzərə məndə pərəstiş duyğusu oyatdı. Düşündüm ki, burada nəsə mühüm bir şey baş verir. Burada hər şey universitetlərdəki steril diskussiyalar kimi olmayacaq, çünki bura psixologiyanın və tədris nəzəriyyəsinin ulduzları, kitab yazan və mühazirə oxuyan, sitatlar gətirilən əsl alimlər toplaşmışdılar. Qoy Nemurla Ştraus lap ortabab olsunlar, ancaq əmin idim ki, qalanları belə deyillər.

Vaxt yetişdi və Nemur Barokko üslubunda qəşəng mebelləri olan böyük foye ilə, geniş mərmər pillələrdə getdikcə artaraq başını tərpədən və əllərimizi sıxan kütlənin arasıyla bizi apardı. Səhər-səhər bizim daha iki professorumuz: Uayt və Klinger də gəlmişdi, onlar bir az sağda, Nemur və Ştrausdan bir addım arxada gedirdilər. Ən arxada Bartla mən idim.

Camaat aralanaraq bizə konfrans zalına keçməyə yol verdi. Nemur reportyorlara və fotoqraflara, digər toplaşanlara şən-şən



downloaded from KitabYurdu.org

əl elədi, o, ilk çıxışlardan cəmi üç həftə ərzində adi axmaq üzərində etdiyi gözəl şeylər haqqında eşitmək istəyirdi. Görünür, Nemur onları qabaqcadan xəbərdar etmişdi.

Bəzi məruzələr məndə güclü təəssürat oyatdı. Alyaskadan gələn alim qrupu izah etdi ki, beynin müxtəlif sahələrinin stimullaşdınlması biliklərin mənimsənilmə qabiliyyətinə təsir edir, Yeni Zelandiyadan gələn başqa bir qrup isə beyin qabığının stimulların mənimsənilməsinə cavabdeh olan hissələrini müəyyənləşdirdi.

Başqa işlər də vardı. Məsələn, P.T.Zellerman siçovulların keçdiyi labirintlərdə sürətin həmin labirintlərin və onların künclərinin formasından asılılığı mövzusunda məruzə etdi... Ya da Verfel adlı biri makak-rezuslarda* (cənub-şərqi Asiyada meymun növü) müvəqqəti reaksiyalar zamanı ağıl səviyyəsinin məruz qaldığı təsirlər haqqında məlumat verdi. Boş yerə sərf olunan vaxt, pul və enerji. Bəli, başqaları sadə və uğuru təmin olunmuş mövzularla məşğul olduqları bir zamanda Nemuru və Ştrausu özlərini mühüm və naməlum bir işə həsr etdiklərinə görə tərifləyən Bart haqlıymış.

Kaş ki Nemur mənə insan kimi yanaşmağa qadir olaydı!

Budur, sədr Bekman universitetinin məruzəsini elan etdi və biz rəyasət heyətinin yanındakı yerlərimizi tutduq - mən və Bart, ortamızda da qəfəsə salınmış Elcernon. Biz


downloaded from KitabYurdu.org

həmin axşamın başlıca tələ yemiydik, odur ki, sədr bizi təntənəli surətdə elan etdi. Mən onun dodaqlarından, demək olar ki, bu sözlərin qopacağını gözləyirdim: "Çox hörmətli tamaşaçılar! Ayaq saxlayın! Elm aləminin heççç bir sahəsində görməyəcəyiniz nadir tamaşa! Siçovul və ağıldankəm gözləriniz önündə dahiyə çevriləcəklər!!!"

Lakin o dedi:

- Məruzəni dinləməmişdən öncə bir neçə kəlmə demək istəyirəm. Artıq biz hamımız Bekman universitetinin divarları arasında Uelberq fondunun vəsaiti ilə psixologiya professoru Nemurun həmin universitetin neyropsixologiya laboratoriyasının əməkdaşı doktor Ştrausla birlikdə həyata keçirilmiş son dərəcə mükəmməl iş haqqında eşitmişik. Ona görə də bu məruzəni səbirsizliklə gözlədiyimizi təkrarlamağa ehtiyac yoxdur. Sözü Bekman universitetinə verirəm!

Nemur başını vüqarla tərpətdi və hisslərinin coşqunluğundan Ştrausa göz vurdu. İlk olaraq professor Klinger çıxış etdi. Tüstüyə və səs-küyə alışmayan Elcernon qəfəsdə əsəbi halda vurnuxurdu. Haradansa məndə qəfəsin qapısını açıb onu zala buraxmaq həvəsi oyandı. Bu, absurddur, əlbəttə. Bununla belə, Klingerin "Sol tərəfləri döngələri üstünlük təşkil edən labirintlərlə sağtərəfli döngələri üstünlük təşkil edən labirintlərin müqayisəsi" mövzusunda ürək sözlərini dinləyərkən qəfəsin keçəcəyini barmağımla qeyri-ixtiyari



downloaded from KitabYurdu.org

sığalladığımı hiss etdim.

Sonra Bart Elcernonu öyrətmək üçün işləyib hazırladıqları metodikanı təsvir etdi. Bundan sonra bir parça pendirdən ötrü cürbəcür problemlərin öhdəsindən gələn Elcernonun özünü nümayiş etdirməliydilər (elə şeylər var ki, bunlar məni daim incidir).

Mən heç vaxt Bartın əleyhinə olmamışam. Başqalarından fərqli olaraq, o, həmişə mənə səmimi və dürüst insan təsiri bağışlayıb, ancaq o, kürsüdən ağıl bəxş olunmuş ağ siçovulu təsvir etməyə başlayanda mənim də hamı kimi qoltuğum

qarpızlandı. Sanki müəllimlərimin mantiyasmı geyinib baxırdım. Mən Bartı dostum hesab edirdim, məni saxlayan da elə bu idi. Elcernonu buraxmaq simpoziumu balaqana* (balaqan - ı. keçmişdə yarmarka tamaşaları üçün taxta tikili;

2. oyunbazlıq, küçə tamaşası) çevirmək idi, bu isə, sözsüz ki, akademik şan-şöhrət yolunda ilk addımlarını atan Bartın reputasiyasına ciddi zərbə olacaqdı. Barmağım elə keçəcəyin üstündə qaldı. Elcernon öz qırmızı gözləriylə onu diqqətlə izləyir və əminəm ki, mənim nə etmək istədiyimi çox gözəl başa düşürdü. Ancaq bu zaman Bart qəfəsi nümayiş etdirmək üçün yuxarı qaldırdı. O, kilidin nə dərəcədə mürəkkəb olduğunu, onu açmaq üçün nə dərəcədə ağıl tələb olunduğunu izah etdi. Elcernonun ağlı artdıqca bununçün daha az vaxt tələb olunurdu - bu mənə


downloaded from KitabYurdu.org

məlum olan aşkar fakt idi. Ancaq sonra Bart mənim bilmədiyim bir şey dedi. Sən demə, maksimum dərəcədə ağıllanan Elcernon özünü qəribə apanrmış. Bəzən işləməkdən tamamilə imtina edirmiş, hətta açıq-aşkar ac olanda da. Bəzənsə tapşınğı uğurla yerinə yerirəndən sonra
yeməkdən ləzzət almaqdansa, qəfəsin çubuqlarına cummağa başlayırmış.

Zaldan "bu qəribə davranışın ağlın səviyyəsi ilə birbaşa bağlı olub-olmadığını güman etməyə əsas varmı?" deyə soruşulanda Bari cavabdan yayındı.

- Mənim qənaətimə görə, - o dedi, - bu heç bir şeylə isbatlanmır. Ola bilər ki, müəyyən mərhələdə həm xaotik davranış, həm də ağlın dərəcəsi bir-birinin funksiyaları yox, əməliyyatın nəticəsidir. Bu davranışın Elcernonun xarakter cizgisi olduğu da istisna deyil. Belə bir şeyə başqa siçovullarda rast gəlinməyib, ancaq digər tərəfdən onlardan heç biri Elcernon səviyyəsinə yüksələ də bilməyib və hətta öz səviyyəsində belə yetərincə uzun müddət qala bilməyib.

Aydındır ki, bu informasiyanı məndən gizli saxlamışdılar, mən hətta bunun səbəbindən də şübhələnmişəm. Mən, təbii ki, hirsləndim, ancaq bu, filmləri göstərərkən məni boğan vəhşi qəzəbin yanında heç nəydi. Mənimlə apanlan bütün erkən təcrübələrin lentə çəkildiyi ağlıma da gəlməzdi. Budur, mən Bartla


downloaded from KitabYurdu.org

birlikdə stolun yanında çaşqın halda ağzımı ayıraraq dayanıb, elektrik çubuğuyla labirinti keçməyə çalışıram. Elektrik hər dəfə çarpanda üzümdə qorxu ifadəsi yaranır, sonra səfeh təbəssüm yenidən geri qayıdırdı. Bu hər dəfə təkrarlananda zal gülməkdən qəşş edir və hər dəfə əvvəlkindən daha çox gülürdülər.

Öz-özümə təkrarlayırdım ki, onlar başıboş maymaqlar yox, ömürlərini həqiqət axtarışına sərf etmiş alimlərdir. Bəli, kadrlar, doğrudan da, əyləncəliydi və ümumi ovqatı tutan Bart şən izahatlar verməyə başladı. Elcernonu buraxmaq və onlann hamısının qorxmuş balaca dahini tutmaq üçün dizin-dizin sürünmələrinin daha gülməli olacağı fikri məni tərk etmirdi. Lakin özümü saxladım və Ştraus kürsüyə qalxanda tamamilə sakitləşdim.

Ştraus, əsasən, neyrocərrahiyyənin nəzəri və texniki tərəflərindən danışdı. Hormonal nəzarət mərkəzlərinin yerini necə müəyyən etməyi detallı şəkildə təsvir etdi, o onlan ayrı- ayrılıqda stimullaşdırmağı, eyni zamanda beyin qabığının hormon ingibitorlan sintezləşdirən müəyyən hissələrini götürməyi bacarmışdı. O, enzimlərin təcridi nəzəriyyəsini şərh
etdikdən sonra mənim əməliyyata qədərki durumumun təsvirinə keçdi. İştirakçılara fotoşəkillər paylandı (onları çəkməyə haçan macal tapmışdılar?), başlann razılıqla tərpənməsindən və təbəssümlərdən anladım ki, əksəriyyət sifətdəki “mənasızlığ”ın öz yerini “diqqətli və



downloaded from KitabYurdu.org

intellektual" ifadəyə verməsiylə razıdır.

Mən burada elmi işin bir hissəsi kimi peyda olmuşdum və vitrinə qoyulacağımdan şübhəm yox idi, ancaq hamı mənim haqqımda elə danışırdı ki, sanki elə indicə yaradılmışam. Simpoziumun iştirakçılarından heç biri mənim canlı insan olduğumu düşünmürdü. "Elcernon və Çarli"nin, "Çarli ilə Elcernon"un daim tutuşdurulması aydın göstərirdi ki, onlar bizim hər ikimizə laboratoriyanın divarlarından kənarda yaşamaq hüquqlan olmayan təcrübə heyvanları kimi baxırlar. Mən əsəbi halda burada nəyinsə yerində olmadığı duyğusundan bir an da ayrıla bilmirdim.

Nəhayət, layihənin rəhbəri professor Nemurun söylənənləri ümumiləşdirmək və ona heyran olanlardan alqış payını almaq növbəsi çatdı. O bu günü uzun müddət gözləmişdi.

Ədalət naminə demək lazımdır ki, o çox gözəl bir təəssürat yaratdı və mən lazımi yerlərdə onunla razılaşdığıma, hətta başımı tərpətdiyimə təəccüb etdim. Testdən keçməni, eksperimentləri, əməliyyatı, mənim sonrakı inkişafımı o bütün xırdalıqlanyla təsvir edərək, öz nitqini mənim məruzələrimdən gətirdiyi sitatlarla (əsasən də mənim eşitmək istədiklərində deyil) zənginləşdirdi. Şükür Tanrıya ki, Alisa ilə münasibətlərimizə dair bəzi detalları məruzələrə salmamağa ağlım çatmışdı.

... məruzəsinin sonunda o bunları söylədi:



downloaded from KitabYurdu.org

- Biz hamımız, eksperimentin bütün iştirakçıları təbiətin səhvlərindən birini düzəltməyimiz və yeni, tam mükəmməl bir insan yaratmağımızla fəxr edirik. Çarli bizim yanımıza gələnə qədər cəmiyyətdən kənar, böyük bir şəhərdə tək idi, dostlan və qohumlan, normal həyat sürmək üçün ağlı kifayət etmirdi. Onun keçmişi yox idi, indini dərk edə bilmir, gələcəyə ümid bəsləmirdi, Çarli Qordon, sadəcə, mövcud deyildi...

Bilmirəm, amma nədənsə bu cümlə məni qəzəbləndirdi, Çikaqo simpoziumu iştirakçılarının eyni fikirdə olması
mənimçün yenilik deyildi. Mən ayağa qalxıb qışqırmaq istəyirdim: "Mən insanam, şəxsiyyətəm, mənim atam və anam var, xatirələrim, tarixim var. Məni əməliyyat otağına salana qədər də belə olmuşam!"

Ştraus danışarkən və Nemur yekun vurarkən nəyin məni dumanlı şəkildə narahat etdiyini birdən aydın şəkildə gördüm. Onlar səhv etmişdilər... əlbəttə! Dövrün dəyişikliklərin dönməzliyinin sübutu üçün zəruri olan statistik dəyərləndirmələri erkən təcrübələrə əsaslanır və daim küt olan, ya da daim ağıllı olan heyvanlara aid edilirdi. Ancaq tamamilə aydın idi ki, intellektləri iki-üç dəfə artan heyvanlar üçün gözləmə mərhələsi ölçüyəgəlməz dərəcədə çox olmalıydı...

Deməli, Nemurun çıxardığı nəticələr tələsik idi. Elcernon və mənimlə bağlı uzun zaman gözləmək lazım



downloaded from KitabYurdu.org

idi, xeyli uzun zaman... Professorlar səhvə yol vermişdilər və heç kəs bunu hiss etməmişdi! Mən sanki iflic olmuşdum. Qəfəsdə oturan sanki təkcə Elcernon deyil, həm də mən idim.

İndi suallar yağmağa başlayacaq və nahar etməyə belə imkan vermədən məni dünya elitasını əyləndirməyə zorlayacaqlar. Yox! Aradan çıxmaq lazımdır.

-...müəyyən mənada o, dərindən düşünülmüş psixoloji eksperimentin nəticəsidir. Demək olar ki, bomboş qabığın, cəmiyyətə yük olan, məsuliyyətsiz davranışı ilə təhlükələrə belə əsas verə biləcək birinin yerində ümumi tərəqqiyə öz töhfəsini verməyə hazır olan əsl insan var. Mənə elə gəlir ki, Çarli Qordonun özünün dediyi bir neçə söz...

Lənətə gələsən. O nə danışdığını bilmir. Mən barmağımın iradəmə tabe olmadığına, Elcernonun qəfəsinin keçəcəyini açdığına təəccüblə baxdım. O, diqqətlə mənə baxıb qəfəsdən çıxdı və rəyasət heyətinin oturduğu uzun stolun üzəriylə qaçdı. Ağappaq süfrənin üstündə əvvəlcə onu görmək, demək olar ki, mümkün deyildi, ancaq qadınlardan biri ciyildəyərək yerindən sıçradı, stulunu və suyla dolu qrafini aşırdı. Bart qışqırdı:

- Elcernon qaçdı!

Elcernon stolun üstündən səhnəyə, oradan da zala tullandı.

-Tutun onu! Tutun! - Nemur var gücüylə ayaq və



downloaded from KitabYurdu.org

əllərdən ibarət yumağa dönmüş auditoriyaya bağırdı. Qadınlardan bəziləri (təcrübəçilər deyil) laxlayan qatlama stulların arxasına
girdilər, yerdə qalanlar isə qaçqını tutmaq üçün onları oradan çıxarırdılar.

-Arxa qapıları bağlayın! - Bart qışqırdı, o, Elcernonun yetərincə ağıllı olduğunu və məhz ora gedəcəyini anlamışdı.

- Qaç! - mən öz səsimi eşitdim. - Yandakı qapıdan qaç.
Bir neçə saniyədən sonra kimsə qışqırdı:

- O, yan qapıdan qaçdı!

-Tanrı xatirinə, yalvanram, onu tutun! - Nemur - yalvarırdı.

Kütlə zaldan koridora töküldü. Elcernon pəncələrini sürətlə ataraq XIV Lüdovik üslubundakı stollann altıyla, çəlləklərdəki palmaların ətrafında, pilləkəndə, foyedə ova çıxmışdı. Təqibə qarşıdan gələnlər də qoşulurdular. Onların bir çoxlarından ağıllı olan ağ siçovulun dalınca ora-bura qaçmasını müşahidə edərək hədsiz zövq alırdım.

- Gül, gül, - mənimlə toqquşan Nemur fınxırdı.
- Əgər onu tutmasaq, hər şey puç olacaq.

Özümü onu tapmağa cəhd edirmiş kimi göstərərək, zibil səbətini qaldırıb Elcernonun onun altında olub-olmamasına
baxdım.

-Siz səhvə yol verdiyinizi və onun tutulmasının heç bir


downloaded from KitabYurdu.org

əhəmiyyəti olmadığını bilirsiniz.

Bu zaman qadınların tualetindən çıxan altı-yeddi qadın yubkalarını həyəcanla qıçlanna sıxdı.

-Oradadır! - kimsə qışqırdı və hamı tərəddüdlə “Qadınlar üçün” lövhəsinin qarşısında dayandı. Mən görünməz maneəni hamıdan qabaq keçib, müqəddəs qapıdan içəri keçdim. Elcernon əlüzyuyan çanağının üzərində oturub güzgüdə öz əksinə baxırdı.

-Gedək, - dedim. - Mən səni atmaram. - Mənə onu götürüb pencəyimin cibinə qoymağa imkan verdi. - Sakit otur, özüm səni çıxaracağam.

Bu zaman içəri başqaları da soxuldular. Onların sifətində burada bir dəstə çılpaq qadın görəcəklərini gözlədikləri yazılmışdı. Axtarışların qızğın çağında mən dəhlizə çıxdım və Bartın səsini eşitdim:

- Burada ventilyasiya üçün dəlik var. Bəlkə, oradan qaçıb?
- Gör o dəlik hara çıxır? - Ştraus dedi.

-İkinci mərtəbəyə qaç, - Nemur Ştrausa dedi, - mən də zirzəmiyə düşüm.

-Güclər bölündü. Mən Ştrausun apardığı batalyonun ardınca ikinci mərtəbəyə qalxdım, burada hamı ventilyasiya çıxışını axtarmaqla məşğul idi. Ştraus və Uayt sağ tərəfdəki B koridoruna dönəndə mən sola C koridoruna buruldum və liftlə öz otağıma qalxdım.

Qapını arxamca bağlayıb, əlimi yavaşca cibimə



downloaded from KitabYurdu.org

şappıldatdım. Çəhrayı burun və ağ bığlar bayıra çıxdı.

-Şeylərimi yığım və aradan çıxaq. Ancaq sən və mən. İki əldəqayırma dahi qaçmağa hazırlaşır.

Xidmətçi çamadanı və maqnitofonu taksiyə apardı. Mən hesabı ödəyib küçəyə çıxdım. Nyu-Yorka geri dönmək üçün biletim vardı, qalırdı yalnız tarixini qoydurmaq.

Mən bir daha öz miskin hücrəmə qayıtmayacağam. Bir az hoteldə qalıb, sonra Tayms-skver yaxınlığında mənzil kirayə edəcəyəm.

Bunu diktə etdikdən sonra özümü əvvəlkindən müqayisəolunmaz dərəcədə yaxşı hiss edirəm, halbuki oturacağın altında ayaqqabı qutusunda oturan Elcernonla birlikdə təyyarənin bortunda nə etdiyimi yaxşı anlamıram. Təlaşlanmaq olmaz. Nemurun səhvinin ciddi olması mütləq deyil. Sadəcə, hər şey birdən-birə qeyri-müəyyən oldu... Nə etmək olar?

İlk olaraq valideynlərimi tapacağam. Təxirə salmadan. Bəlkə də, vaxtım mənə göründüyündən qat-qat azdır...

2

Hesabat N°14

15 iyun

Bizim Çikaqodan qaçmağımız bulvar qəzetləri üçün əsl hədiyyə oldu. “Daily Press” ikinci səhifəsində mənim köhnə fotoşəklimi və ağ siçovul rəsmi yerləşdirmişdi.



downloaded from KitabYurdu.org

Başlıq beləydi: "Axmaq dahi və siçovul dəlilik edirlər". Nemura və Ştrausa istinadən mənim son zamanlar daim gərgin vəziyyətdə olduğumu və tezliklə mütləq qayıdacağımı yazmışdılar. Elcernona görə beş yüz dollar mükafat təklif edirdilər və bizim bir yerdə olmağımız onların ağlına da gəlmirdi.

Beşinci səhifədə anamla bacımın fotoşəkillərini görəndə dəhşətə gəldim. Hansısa zirək müxbir gedib onları da tapmışdı.

BACISI SƏFEH DAHİNİN HARADA OLDUĞUNU BİLMİR

(Xüsusi olaraq "Daily press" üçün)

Mən bu qeydi bir neçə dəfə oxuduqdan sonra şəkillərə uzun-uzadı baxdım. Onları necə təsvir edə bilərəm?

Mən Rozanın sifətini xatırlamırdım. Şəkil yetərincə yüksək keyfiyyətlə çəkilsə də, mən onu hələ də uşaqlıq pərdəsinin arxasından görürdüm. Hə, mən onu tanıyıram, eyni zamanda həm də tanımıram. Onu küçədə görsəydim, tanımazdım, ancaq indi hər şeyi xırdalığına qədər xatırladım, hə!

Üzünün son dərəcə incə cizgiləri. İti burun, iti çənə. Onun qağayı qıyyasına bənzəyən səsini, demək olar ki, eşidirəm. Saçlarını yığaraq möhkəm düyünləyib. Qara gözlərinin baxışları məni dəlib keçir. Məni qucaqlamasını və yaxşı oğlan olduğumu söyləməsini istəyirəm, eyni zamanda şillədən canımı qurtara bilməyəcəyimdən


downloaded from KitabYurdu.org

qorxuram. Onu görməklə məni titrətmə tutur.

Norma. Qəşəngdir, üzünün cizgiləri o qədər nəzərəçarpan olmasa da, anama oxşayır. Çiyninə tökülən saçları onun obrazını mehribanlaşdırır. Onlar qonaq otağında divanda oturublar.

Rozanın şəkli qorxulu xatirələr oyatdı. O mənim üçün iki fərqli insan idi və mən heç vaxt onun bir saniyə sonra onlardan hansı olacağını bilmirdim. Norma gözlənilən fırtınanın əlamətlərini çox gözəl bilir və lazımi məqamda əlçatmaz yerdə olmağı bacarırdı, ancaq tufan məni həmişə qəfil yaxalayırdı. Mən təsəlli üçün onun ardınca gedir, o isə hirsini mənim üstümə tökürdü.

Növbəti dəfə o, sevgi və zəriflik dolu olur, mənim saçlanmı tumarlayır, köksünə sıxır və uşaqlığımın qapılan üzərinə həkk olunmuş sözlər söyləyirdi:

O, tamamilə başqa uşaqlar kimidir!

O, yaxşı oğlandır!

Fotoşəkil gözlərim qarşısında əriyir, mən onun arasından uşaq çarpayısının üzərinə əyilmiş özümü və atamı görürəm. O mənim əlimdən tutub deyir: “Bu sənin bacındır. Ehtiyatlı ol, o axı hələ çox balacadır”. Böyüyəndə səninlə oynayacaq.

Anam da buradadır. O, yaxındakı böyük çarpayıda uzanıb, üzgün və solğundur, əllərini taqətsiz halda adyalın üstünə uzadıb: “Ondan muğayat ol, Matt...”

Bu, anam mənə qarşı münasibətini dəyişənəcən olub



downloaded from KitabYurdu.org

və bunun niyə baş verdiyi artıq mənə məlumdur: anam Normanın mənə oxşayıb-oxşamayacağım bilmirdi. Sonradan o, dualarının boşa getmədiyinə və Normanın normal inkişaf etdiyinə əmin olanda səsinin tonu dəyişdi. Təkcə səsi yox, baxışları, toxunuşu da, hər şey dəyişdi. Elə bil onun maqnit qütbləri yerlərini dəyişdi və çəkən tərəf itələməyə başladı. Bizim bağda Norma çiçəyi açdı, mənsə yalnız görünməyən yerlərdə, qaranlıq künc-bucaqda böyümək haqqı olan alaq otuna çevrildim.

Mən onun üzünə baxır və qəlbimdə nifrət oyanırdı. Kaş ki onu mənim anadangəlmə axmaq olduğuma inandırmağa tələsən həkimlərə, müəllimlərə və başqalarına qulaq asmayaydı! Onda o məndən üz çevirməz, sevgiyə çox böyük ehtiyacım olduğu halda, onu məndən əsirgəməzdi. Bəs indi? İndi o mənim nəyimə lazımdır? O özü haqda nə danışa bilər? Buna baxmayaraq, mənə yenə maraqlıdır.

Onunla danışıb uşaqlıqda necə olduğumu soruşum, yoxsa onu unudum? Keçmiş onu bilməyə dəyərmi? Niyə dünyada mənimçün ən vacib şey ona bunları deməkdir: "Mənə baxsana,
ana. Mən dəyişmişəm. Mən normalam. Mən adi adamdan da artığam. Mən dahiyəm!"

Mən onu unutmaq istəyirəm, ancaq keçmişdəki xatirələr daim sızaraq indini qaraldır, bulaşdınr... Daha bir səhnə, ancaq mən bir az böyüyəm.



downloaded from KitabYurdu.org

Dava.

Çarli yatağında uzanıb və adyalı çənəsinəcən çəkib. Əgər qapının arasından düşüb qaranlığı yaran və iki dünyanı birləşdirən ensiz işıq zolağını saymasaq, otaq qaranlıqdır. O, sözləri anlamadan dinləyir, ancaq valideynlərinin səsindəki metal qıcırtısmın haradan gəldiyini bilir. Onlar onun haqqında danışırlar. Bu ton onda öz çimçişən sifətiylə hər gün daha çox assosiasiya olunur.

İşıq şüasıyla ona gəlib çatan söhbət davaya çevriləndə Çarli artıq yuxuya gedirdi. Anasının səsi kəskin və cingiltili idi, bu öz istəyinə isterik yolla çatmağa öyrəşmiş qadın səsiydi.

- Onu göndərmək lazımdır! Mən onu bir daha Normanın yanında görmək istəmirəm! Doktor Portmana zəng vur de ki, biz onu Uorrenə verməyə hazırıq.

Atamın səsi sərtdir:

-Sən ki onun Normaya pis heç bir şey etməyəcəyini bilirsən. Norma üçün bu yaşda heç nəyin əhəmiyyəti yoxdur.

-Haradan bilirsən? Bəlkə, uşağa onun kimi bir... biriylə eyni evdə yaşamaq zərərlidir!

- Doktor Portman dedi ki...

-Portman dedi! Portman dedi! Tüpürüm sənin o Portmanma! Onun belə bir qardaşla bir evdə böyüməyini təsəvvür edirsən! Mən bütün bu illəri onun böyüyüb adam



downloaded from KitabYurdu.org

olması ümidiylə yaşamışam. Ancaq yanılmışam. Onunçün ən yaxşısı bizsiz olmaqdır!

-Deməli, Norma anadan olandan sonra Çarli artıq sənə lazım deyil...

-Elə bilirsən mənə asandır? Hamı mənə deyirdi ki, onunla qurtarmaq lazımdır. Bunu söyləyənlər haqlı çıxdılar. Ondan canımızı qurtarmalıyıq. Bəlkə də, özü kimilərlə birlikdə... yeni həyata başlaya bilər. Mən artıq nəyin düz, nəyin səhv olduğunu bilmirəm, ancaq qızımı ona qurban vermək fikrində deyiləm.

Çarli nə baş verdiyini başa düşməsə də, qorxur. O, gözüaçıq uzanıb, ətrafdakı qaranlığı yarmaq istəyir.

Mən onu görürəm. Onun qorxusu sanki həqiqi deyil, o, sadəcə, qəfil yem uzadan əldən qorxan quş və ya dələ kimidir. Mən adyalın altında gizlənən Çarlini sakitləşdirmək, ona pis heç bir şey etmədiyini, anasını onu yenidən sevməyə məcbur etmək gücündə olmadığını söyləmək istəyirəm. Onda Çarli nə baş verdiyini anlamırdı, ancaq indi... mənə necə də ağırdır! Əgər keçmişə qayıtmaq mümkün olsaydı, mənə necə ağır olduğunu ona başa salardım...

Mən onun yanma tələsmirəm. Özümçün bir məsələni həll etməyə hələ vaxtım var.

Xoşbəxtlikdən, Nyu-Yorka qayıdan kimi bankdakı bütün pullarımı çıxara bilmişdim. Səkkiz yüz səksən altı dollara uzun müddət davam gətirə bilməzsən, ancaq


downloaded from KitabYurdu.org

onlarla bir az vaxt qazanmaq və qərar qəbul etmək olar. Nyu-Yorkdakı Tayms- skverdən bir məhəllə aralı olan Qırx birinci küçədə yerləşən "Kamden" hotelinə yerləşdim! Bu hotel haqqında nələr eşitməmişdim! Əxlaqsızlıq yuvası... qaynar qazan...

Hadsondakı Bağdad. Rənglər və işıqlar şəhəri. Bütün ömrünü Tayms-skverlə yanaşı yaşayıb, orada cəmi bircə dəfə olmağı təsəvvür etmək çətindir. Alisa ilə.

Özümü ona zəng vurmaqdan güclə saxlayıram. Nömrəsini bir neçə dəfə yığmağa başladım da. Ondan uzaq durmalıyam.

Kağıza köçürməli çoxlu dolaşıq fikirlər var. Öz-özümü inandırıram ki, nə qədər ki hesabatlarımı maqnitofona yazıram, gələcək nəsil bütün kəşflərimdən xəbər tutacaq. Hələlik qoy bir az qaranlıqda qalsınlar, mən otuz ildən artıq zülmətdə yaşamışam.

Yoruldum. Təyyarədə yatmamışdım, ona görə də indi gözlərim yumulurdu. Sabah elə bu yerdən davam edəcəyəm.

16 iyun

Bu gün Alisaya zəng vurdum, ancaq cavab verməmiş dəstəyi asdım. Ayı doxsan beş dollara mebelli otaq tapdım, bu mənim planlaşdırdığımdan artıq idi, ancaq Doxsan üçüncü ilə Onuncu avenyunun tinində yerləşdiyindən buradan kitabxanaya cəmi on dəqiqəlik yol idi. Həyatdan geri qalmaq olmaz. Dördotaqlı mənzil



downloaded from KitabYurdu.org

dördüncü mərtəbədədir, burada
piano da var. Ev sahibəsi bu günlərdə onu aparacaqlarını dedi, ancaq ona qədər çalmağı öyrənməyə çalışacağam.

Elcernon yaxşı yoldaşdır. O, yeməyini balaca masada yeyir və peçenyeni çox sevir. Dünən biz televizorda futbola baxanda isə o hətta pivə içirdi. Deyəsən, o, "Yanki"yə azarkeşlik edir.

Mən ikinci yataq otağını tamamilə boşaldıb, bütövlükdə Elcernona vermək istəyirəm. Orada plastik qalıqlarından üçölçülü labirint düzəldəcəyəm, onlan havayı da əldə etmək mümkündür. Labirint əvvəlkilərdən mürəkkəb olacaq, Elcernon da formada qalmalıdır. Ancaq yemək yox, başqa bir motivasiya tapmaq lazımdır. Onu hərəkətə gətirən başqa mükafatlar mütləq olmalıdır.

Tənhalığım mənə sakitcə düşünməyə, oxumağa və xatirələrdə qurdalanmağa - keçmişimi yenidən kəşf etməyə, nəhayət, kim olduğumu bilməyə imkan verir. Əgər hər şey əyri- üyrü və çəpinə getsə, heç olmasa keçmişim mənimlə qalsın.

19 iyun

Nərdivan qonşum Fey Lilmanla tanış oldum. Tərəvəzlərlə ağzınacan dolu çantalarla evə qayıdanda yadıma düşdü ki, açarı
unutmuşam, qapı isə çırpılaraq bağlanmışdı. Sonra yadıma düşdü ki, mənim qonaq otağımla üzbəüz mənzili yanğın nərdivanı birləşdirir.



downloaded from KitabYurdu.org

...Radiodan gurultulu musiqi səsi gəlirdi və mən qapını döydüm, əvvəl ehtiyatla, sonra bərkdən.

- Gəlin, qapı açıqdır!

Mən qapını itələyib açdım və yerimdə dondum: əynində çəhrayı lifçik və trusu olan biçimli bir sarışın qadın molbertin* (molbert - rəssam dəzgahı) qarşısında dayanmışdı.

-Üzr istəyirəm! - Mən qapını örtüb nəfəsimi buraxdım. Pilləkən meydançasında dayanıb qışqırdım:

-Mən sizin qonşunuzam! Qapımı aça bilmirəm, ona görə də mənzilimə yanğın pilləkəniylə keçmək istəyirəm!

Mənzilin qapısı açıldı və o, qarşımda peyda oldu, hələ də fırça əlində, özü də alt paltarmdaydı.

-Bəyəm eşitmədin, mən axı "gəlin" dedim? - O, əl işarəsiylə məni içəri dəvət etdi və dəhlizdəki karton zibil qutusunu ayağıyla kənara itələdi.

Mənə elə gəldi ki, o, çılpaq olduğunu ya dərk etmir, ya da, sadəcə, unudub, odur ki, gözlərimi neyləyəcəyimi bilmirdim. Mən ondan başqa hara gəldi: divarlara və tavana baxırdım.

Onun mənzilindəki səliqəsizliyi indiyədək heç yerdə görməmişdim. Otaqda on-on iki dənə balaca qatlama stol və hamısının üstündə rəng tübikləri vardı; bəziləri tamamilə sıxılaraq yastılanmış və tərk edilmiş ilan qabığını xatırladırdı, bəzilərindənsə hələ də rəngbərəng lentlər çıxmaqdaydı. Hər tərəf fırçalarla, bankalarla,



downloaded from KitabYurdu.org

əsgilərlə, karton parçalarıyla, kətan qırıqlanyla doluydu. Adamın burnuna qarışıq boya, əlif və skipidar qoxusu dəyirdi. Üç yumşaq kreslonun və yaşıl zəhər rəngdə divanın üzərinə səliqəsiz şəkildə cürbəcür paltarlar atılmış, döşəmədə çəkmələr və corablar gözə dəyirdi, elə bil ev sahibəsinin paltarlarını tələm-tələsik soyunub, hara gəldi atmaq adəti vardı. Hər şeyin üzərini nazik toz təbəqəsi örtmüşdü.

- Deməк, siz cənab Qordonsunuz, - o düz və diqqətlə sifətimə baxaraq dedi. - Sizi heç olmasa bircə dəfə görməyi çox arzulayırdım. Əyləşin. - O, kreslonun birinin üstündəki paltarları qamarlayıb divana atdı.
- Axır ki, qonşuları ziyarət etməyə qərar verdiniz... Nə - içəcəksiniz?

-Sizsə, deməli, rəssamsınız... - mən nəsə demək xatirinə mızıldandım. Onun, nəhayət ki, çılpaq olduğunu başa düşüb, ciyildəyərək özünü yataq otağına atacağı düşüncəsi mənə rahatlıq vermirdi. Gözlərim səylə ondan yayınmağa çalışırdı.

-Pivə, yoxsa el? Başqa heç nə yoxdur. Hə, bir də şerri sousu var, ancaq siz, yəqin ki, ondan istəməzsiniz?

-Təəssüf ki, mən tələsirəm. - Mən özümü ələ alaraq, baxışlarımı onun çənəsinin sol tərəfindəki xala zillədim. - Mənim qapım çırpılaraq bağlanıb, mən sizin pəncərədən yanğın pilləkəninə, oradan da evimə keçmək
istərdim.



downloaded from KitabYurdu.org

-İstədiyiniz vaxt, - o, inamla dedi. - Bu yaramaz patenləşdirilmiş kilidlər xoşagəlməz hadisələrdən başqa heç nəyə yaramır. İlk həftə məndə də üç dəfə çırpılıb bağlandı, birində düz bir saat çılpaq halda bayırda qaldım. Süd almağa çıxmışdım, lənətə gəlmiş qapı çırpılıb bağlandı. Məcbur olub kilidi yerli-dibli sökdüm, yenisini isə hələ də qoymamışam.

Mən, yəqin ki, səfeh görünürdüm, çünki o, qəfil uğunub getdi.

- Bu kilidlər bağlanmaqdan başqa heç nəyə yaramır, heç bir müdafiə qabiliyyətləri yoxdur. Bu lənətə gəlmiş evdə bir ildə on beş oğurluq olub, hamısı da qapılar açıq qaldığından. Amma mənim qapım daim açıq olsa da, girən olmayıb. Həm də məndə oğurlamalı bir şey də yoxdur.

O mənə bir də pivə təklif etdi və mən razılaşdım. Mətbəxə pivə dalınca gedəndə mən ətrafa bir də göz gəzdirdim və gördüm ki, otağın bir divarı tamamilə qaşınıb, mebellər kənara çəkilərək, suvağı kərpiclər görünənəcən qopardılıb və bir növ şəkil qalereyasına çevrilib. Bu divardan ta tavana qədər rəsmlər asılmış, xeyli tablo da bir neçə sırada döşəməyə düzülmüşdü. Burada rəssamın özünü çılpaq şəkildə çəkdiyi bir neçə avtoportret də vardı. Rəsmlərdə onun saçları çiyinlərinə qədər uzun təsvir olunmuş (halbuki indi qısaydı), bəzi telləri ayrılaraq sinəsinə tökülmüş, döşlərinin arasında


downloaded from KitabYurdu.org

rahatlıq tapmışdı... Onun addım səslərini eşidib üzümü tez molbertdən döndərdim
və döşəmədəki kitab qalağına ilişərək özümü yalandan elə göstərdim ki, guya divardakı payız mənzərəsinə baxıram.

Onun çiyninə köhnə bir xalat saldığını görüb rahat nəfəs aldım, doğrudur, xalatın cırıqları ən namünasib yerlərindəydi, buna baxmayaraq, axır ki, ona baxmağa cürət edə bildim. Gözəllər gözəli olduğunu demək olmazdı... Mavi gözləri və inadkar dik burnu onu bir qədər pişiyə bənzədir və bu onun cəsarətli çevik hərəkətləriylə tam bir harmoniya yaradırdı. O, otuz beş yaşlannda qamətli və biçimli bir qadın idi. Pivə dolu bankaları döşəməyə qoyaraq yanında oturdu və məni də eyni şeyi təkrarlamağa dəvət etdi.

-Mənə elə gəlir ki, döşəmə kreslodan rahatdır? Bəs sizə?

Mən bu barədə düşünməyə hələ ki bir səbəb olmadığını
söylədim. O gülümsədi və dedi ki, mən düz adama oxşayıram. O özü haqqında danışmağa meyilliydi:

-Qriniç-Villicdən qaçıram. Orada rəsm çəkmək əvəzinə, bütün günü barlarda və kafelərdə avaralanmalı olursan. Bura daha yaxşıdır, avaralardan və diletantlardan daha uzaqdır.
Burada nə istəsəm edə bilirəm və buna görə heç kəs məni


downloaded from KitabYurdu.org

danlamır. Siz də acıqlı adama oxşamırsınız.

Mən toza bulaşmış şalvarıma əhəmiyyət verməməyə çalışaraq çiyinlərimi çəkdim.

-Mənə elə gəlir ki, biz hamımız daim kimisə tənqid edirik. Məsələn, siz özünüz avaraları və diletantlan söyürsünüz, elə deyil?

Bir neçə dəqiqədən sonra dedim ki, getməliyəm. O, bir topa kitabı kənara çəkdi, mən qəzetlər və pivə butulkalarıyla dolu kisələrin üstünə çıxdım.

-Tezliklə, - o ah çəkdi, - onların hamısını təhvil verəcəyəm...

Pəncərədən yanğın pilləkəninə keçdim və öz pəncərəmi açıb tərəvəzlərin ardınca qayıtdım. Ancaq ona “sağ ol” deməyə macal tapmamış ardımca nərdivana çıxdı.

-İcazə verin sizin mənzilinizə baxım. Sizə qədər burada yaşayan qanlar - Vaqner bacılan mənə heç salam da vermirdilər.

O mənim pəncərəmdə oturdu.

-Gəlin, - mən tərəvəzləri stolun üstünə yığa-yığa dedim. - Məndə pivə yoxdur, amma qəhvə var.

Ancaq o, heyrətdən bərəlmiş gözləriylə içəriyə baxıb dedi:

-Aman Tanrım! Heç vaxt belə təmizlik görməmişəm! Təkbaşına yaşayan bir kişinin buna qadir olduğu kimin ağlına gələr!



downloaded from KitabYurdu.org

-Mən həmişə belə olmamışam, - ona dedim. - Mən bura gələndə mənzil təmiz idi, odur ki, məndə də onu təmiz saxlamaq həvəsi yarandı. Artıq istənilən səliqəsizlik məndə qıcıq yaradır.

O, pəncərədən düşüb otağa göz gəzdirməyə başladı.

-Ey, - o, birdən dedi, - sən rəqs etməyi xoşlayırsan? Bilirsən... O, əllərini uzatdı və hansısa Cənubi Amerika musiqisini mızıldanaraq bir neçə mürəkkəb
rəqs hərəkəti etdi. - De ki, bacanrsan və mən tavana doğru uçum!

- Ancaq fokstrot, onu da elə-belə...

-Mən oynamaq dəlisiyəm, ancaq xoşuma gələn tanışlarımdan heç biri rəqs etməyi bacarmır. Tamamilə dərd- qəmə batanda geyinib-kecinirəm və “Ulduz tozu” zalına
gedirəm. Oradakı oğlanlar bir az qorxunc olsalar da, əla rəqs edirlər.
O, dərindən nəfəs alıb ətrafa bir daha diqqətlə baxdı.

- Bilirsən sənin mənzilində mənim xoşuma gələn nədir?
Bir rəssam kimi... Xətlər məni dəli edir! Hamısı düzdür - döşəmə, divarlar, tavan, künclər - lap tabutdakı kimi. Yeganə çıxış yolu azca içməkdir. Xətlər əyilməyə və burulmağa başlayanda dünya mənə olduğundan daha yaxşı görünməyə başlayır. Ətrafda hər şey düz və hamar olanda özümü nəsə yaxşı hiss etmirəm. Ux! Əgər burada


downloaded from KitabYurdu.org

yaşasaydım, daim kefli olardım.
O, qəfil dönüb düz gözümün içinə baxdı.

-Ayın iyirmisinə qədər mənə beş dollar borc ver. Alimentimi alanda qaytaracağam. Mənim pula o qədər də ehtiyacım olmur, ancaq keçən həftə müəyyən problemlərim oldu...

Mən cavab verməyə macal tapmamış o ciyildəyərək küncdəki pianoya tərəf şığıdı.

-Mən sənin onu dınqıldatmağını eşidir və yaxşı oğlan olduğunu düşünürdüm! Səninlə tanış olmaq da elə onda ağlıma
gəldi. Mən lap çoxdandır ki, çalmıram... - O hansısa melodiyanı çalmağa hazırlaşanda mən qəhvə bişirmək üçün mətbəxə keçdim.

-İstədiyin vaxt gəlib məşq edə bilərsən, - mən dedim. Öz mənzilimə qarşı niyə birdən-birə belə sərbəst davranmağa başladığımı deyə bilmərəm, ancaq Feydə məni öz-özümdən imtina etməyə vadar edən nəsə vardı. - Mən hələ giriş qapısını açıq qoyacaq səviyyəyə gəlib çatmamışam, ancaq pəncərə bağlanmır, mən evdə olmayanda oradan girə bilərsən. Sən şəkər və qaymaq istəyirsən?

Mən cavabı eşitməyib otağa keçdim. Fey harasa yox olmuşdu. Pəncərəyə yaxınlaşanda Elcernonun otağından onun səsini eşitdim:

- Bu nədir belə?


downloaded from KitabYurdu.org

O mənim quraşdırdığım labirintin qarşısında dayanmışdı.

- Müasir heykəltəraşlıq! Qutular, tabutlar və düz xətlər!

-Bu, xüsusi labirintdir, - izah etdim. - Elcernonu öyrədən qurğudur.

Ancaq o, labirintin ətrafına dolanmaqda davam edirdi.

- Onu Müasir İncəsənət Muzeyinə göstərmək lazımdır!

-Bu, heykəltəraşlıq deyil! - mən təslim olmadım və qəfəsin qapısını açıb Elcernonu labirintə buraxdım.

-Aman Tanrım! - o pıçıldadı. - Canlı elementi olan heykəltəraşlıq! Çarli! Bu əzilmiş avtomobillər və bir-birinə qaynaq olunmuş konserv bankaları dövrlərindən bəri ən böyük əsərdir!

Elə ağzımı açmaq istəyirdim ki, o, canlı elementin bu əsəri tarixə salacağını bəyan etdi. Ancaq onun gözlərində oynayan qığılcımları gördükdən sonra mənə sataşdığını başa düşdüm.

-Bunu özünü yeniləyən incəsənət kimi təsnif etmək olar. Özünəməxsus yaradıcı qəhrəmanlıq. Daha bir siçovul tap və onların balaları əmələ gələndə canlı element öz-özünü yeniləməyə başlayacaq və sənin işin ölümsüzlük qazanacaq, danışmağa nəsə olsun deyə hamı bunun bənzərini tapmağa cumacaq. Bu möcüzəni necə adlandıraq?

- Yaxşı... - mən dedim. - Təslim oluram!



downloaded from KitabYurdu.org

-Yox, yox! - o, altında Elcernonun hədəfə aparan yolu artıq tapdığı plastik günbəzi şappıldadaraq fınxırdı. - “Təslim
oluram” artıq təngə gətirib. Bəs “həyatın labirintli qutu olması”na necə baxırsan?

- Sənin başın xarab olub, - dedim.

-Əlbəttə! - Fey çömbələrək reverans* (təzim etmə üsulu) etdi. - Mən bayaqdan sənin bunu hiss edəcəyini gözləyirdim.

O, yanm fincan qəhvə içib birdən qışqırdı və dedi ki, təcili harasa qaçmalıdır, çünki artıq yanm saatdır ki, hansısa sərgidə kimləsə görüşməlidir.

-Sənə pul lazım idi, - ona xatırlatdım. O, bumajnikimi götürüb açdı və içindən beş dollarlıq bir əsginas çıxartdı.

-Gələn həftə qəbzi alanda qaytaracağam. Hədsiz minnətdaram!

Fey pulu ovcunda əzdi, Elcernona hava öpüşü göndərdi və mən nəsə deməyə macal tapanacan pəncərədən çıxıb yox oldu.

O çox cazibədardır. Həyat doludur, zəngin təxəyyülü var. Səsi, gözləri - hər şeyi adamı çəkir və məndən cəmisi bir pəncərə aralıda yaşayır.

20 iyun

Yəqin ki, Matt ilə görüşə tələsmək lazım deyildi. Bəlkə də, onun yanma getməyə heç gərək də yox idi. Mən Mattın Bronksda haradasa bərbərxana açdığını bilirdim,



downloaded from KitabYurdu.org

odur ki, onu tapmaq elə də çətin olmadı. Onun Nyu-Yorkdakı bərbərlik ləvazimatları satan bir şirkətdə satıcı işlədiyi yadımdaydı. Bu məni Metro Barber Şopa apardı və onların siyahılarından Uentvort-stritdə yerləşən "Qordon Salon"un adını tapdım. Matt öz işi haqda tez-tez danışar və satıcılıqdan zəhləsi getdiyini deyərdi! Bu söhbətin ətrafında nə dava-dalaşlar olurdu! Roza satıcılığm, hər halda, daha hörmətli peşə olduğunu, bərbər ərə nifrət etdiyini söyləyirdi. "Sən Marqaret Finneyin "bərbər arvadı" sözünü deyəndə necə fınxırdığını təsəvvür edirsən?!
Hələ Lu Mayner burnunu necə dik tutacaq!"

Bütün bu illər hər bir yeni günü nifrətlə qarşılayan Matt öz başının ağası olacağı günləri arzulamışdı. O, pula qənaət etmək üçün mənim başımı da özü qırxırdı. Rozadan ayrılandan sonra o, əvvəlki işini buraxmışdı və mən buna görə onunla fəxr edirdim.

Atamla görüşəcəyim məni həyəcanlandırırdı. Onunla bağlı xatirələr içimi qızdırırdı. Çünki Matt məni olduğum kimi qəbul edirdi.

Norma doğulanadək olan mübahisələr: "onu rahat burax, özünü başqa uşaqlarla müqayisə etməyə məcbur etmə! Normadan sonra: onun öz həyatını yaşamaq haqqı var, başqaları kimi olmasa belə!"

O, həmişə məni müdafiə edib. Maraqlıdır, görəsən, onunla hər şey haqqında danışanda... sifəti necə olacaq?


downloaded from KitabYurdu.org

Bronksdakı Uentvort-strit açıq-aşkar yaxşı günlərini yaşamırdı. Kontorlann və mağazaların çoxunun üzərində “icarəyə verilir” yazılmış, qalanlan da, sadəcə, bağlıydı. Ancaq küçənin təxminən ortasındakı bərbərxananın lövhəsi işıq saçırdı.

Ustanın özünü saymasaq, içəri bomboş idi, o bir yığın jurnalı qucağına yığıb, pəncərəyə yaxın kresloda oturmuşdu. O mənə baxdı və mən möhkəm, qırmızıyanaq, xeyli qocalmış, başının ortası dazlaşmış, kənarları çallaşmış Mattı tanıdım...

Bu, Matt idi, özgəsi ola bilməzdi. Mənim getmədiyimi görüb jurnalları kənara qoydu.

- Sizin növbənizdir, cənab!

Mən bir az duruxdum, ancaq o bunu düzgün başa düşmədi.

-Bu saatda bura, adətən, bağlı olur, cənab, siz haqlısınız. Sadəcə, bir daimi müştəri gəlib çıxmadı. Mən artıq bağlamaq istəyirdim, ancaq bəxtiniz gətirdi ki, bir dəqiqəlik oturub dincəlməli oldum! Bronksda ən yaxşı saç düzümləri!

Mən içəri keçdim, o qurdalanaraq siyirmədən qayçı, daraq və təzə mələfə çıxartdı.

-Siz hər şeyin steril olduğuna diqqət etdiniz? Qonşu bərbərxanalarda bunu görə bilməzsiniz... Saçınızı və üzünüzü?

Mən kresloda yerimi rahatladım. Maraqlıdır, mən onu


downloaded from KitabYurdu.org

dərhal tanısam da, o məni tanımamışdı. Təxminən on beş il görüşmədiyimizi öz-özümə xatırlatmalı oldum, son aylar isə mən xeyli dəyişmişdim. O, zolaqlı mələfəni üstümə sərib, güzgüdə diqqətlə üzümə baxdı və sanki nəyisə xatırlayaraq qaşqabağını salladı.

-Hər şey edin, - mən həmkar təşkilatının təsdiqlədiyi qiymətlərə baxıb dedim, - saçımı şampunlayın, qıran, üzümü taraş edin, qulaqlarımı ütün...

O qaşlarını qaldırdı.

-Bu gün çoxdan görüşmədiyim bir adamla görüşüm var, - ona dedim, - istəyirəm yaxşı görünüm.

...O mənim başımı yenə qırxdı - qorxunc bir duyğu. Sonra ülgücü qayışa çəkməyə başladı və dəriyə sürtünən poladın küt vıyıltısı məni kresloya sıxılmağa məcbur etdi. O, əllərinin yumşaq hərəkətiylə başımı arxaya basdı və ülgücün boğazımı qırxdığım hiss etdim. Gözlərimi yumub gözlədim... elə bil yenidən əməliyyat stolunda idim.

Boynumun əzələləri gərilmişdi, heç bir xəbərdarlıq etmədən dartıldı və ülgüc düz xirtdəyimi kəsdi.

-Oy! - o qışqırdı. - Aman Tanrım! Xahiş edirəm, sakit olun, çox təəssüf edirəm, ancaq siz xəbərdar etmədiniz...

O, məhrəbanı tez çanaqda islatdı. Mən güzgüdə parlaq qırmızı qovuq və ondan üzüaşağı nazik qan axdığını gördüm.

Matt üzrxahlıq yağdıraraq, yarayla məşğul oldu və


downloaded from KitabYurdu.org

mələfəyə doğru hərəkət edən qanın qabağını kəsməyə tələsdi.

Onun cəld və çevik hərəkətlərini müşahidə edərək özümü günahkar hiss etdim. İstədim kim olduğumu deyim və o, əlini çiynimə qoysun və biz gözəl əski çağlardan danışaq. Ancaq heç nə demədim, o isə qanı hopduraraq yaraya zəy səpdi... Sonra sakitcə üzümü qırxıb qurtardı, kvars lampasını yandırıb, gözlərimə losyonda islatdığı pambıq parçalan qoydu. Və mən parlaq qırmızı işıqda onun məni evdən sonuncu dəfə çıxanb apardığı həmin axşam nə baş verdiyini gördüm...

Çarli yatır, ancaq anasının fəryadlanndan oyanır. Dava- dalaşlar, adətən, ona yatmağa mane olmur, onlar onun həyatının bir parçasına çevrilib. O dinləyir...

-Mən artıq dözə bilmirəm! O getməlidir! Qızımız haqqında düşün! O hər gün məktəbdən göz yaşlan içində qayıdır, çünki ona sataşırlar! Bizim onu normal həyatından məhrum etmək haqqımız yoxdur!

- Sən nə istəyirsən? Biz Çarlini küçəyə atmalıyıq?
- Buradan uzaqlaşdırmalı, Uorrenə göndərməliyik.
- Gəl bu haqda sabah danışaq.

-Yox! Sən heç nə etmirsən, ancaq danışırsan, danışırsan... Bu gün! İndi!

-Sarsaqlama, Roza. Artıq gecdir... Sənin fəryadlarını bütün küçə eşidir!

-Cəhənnəmə! Onu günü bu gün görmək istəmirəm!



downloaded from KitabYurdu.org

Mən artıq ona baxa bilmirəm!

- Özünə gəl, Roza! Sən nə danışırsan?!
- Sənə axınncı dəfə deyirəm, onu buradan rədd elə!
- Bıçağı yerinə qoy!
- Mən Normanın həyatını məhv etmək istəmirəm!
- Sən dəli olmusan! Bıçağı yerinə qoy!

-Bundansa ölsə yaxşıdır... Ondan heç vaxt adam olmayacaq... Yaxşısı budur...

- Tanrı xatirinə, özünü ələ al!
- Onu apar. Elə indi.

-Lənətə gələsən səni. İndi mən onu Germanm yanma apararam, sabah isə Uorrenə necə yerləşdirilməsiylə maraqlanaram.

Araya sükut çökür. Sonra yenə Mattm səsi eşidilir:

-Mən bütün bunların sənə ağır olduğunu bilirəm, Roza və səni suçlamıram. Ancaq özünü ələ al. Mən onu Germanın yanına aparıram. Razı qaldın?

-Mən də səndən elə bunu xahiş edirəm. Sənin qızının yaşamaq haqqı var.

Matt Çarlinin otağına daxil olur və oğlunu geyindirir. Oğlan nə baş verdiyini anlamır, ancaq qorxur. Onlar Rozanın yanından keçəndə o üzünü döndərir. Roza özünü inandırmaq istəyir ki, oğlu artıq onun həyatından gedib, daha mövcud deyil. Çarli stolun üstündə anasının ət doğradığı uzun bıçağı görür və dumanlı şəkildə hiss edir ki, ona nəsə pis bir şey etmək istəyirmiş. Onun nəyinisə


downloaded from KitabYurdu.org

alıb Normaya vermək istəyirmiş.
O, ətrafa boylananda Roza əsgini götürüb su çanağını yumağa başlayır...

Axır ki, saç və üz qırxma, kvars lampası və digər prosedurlar bitdi və mən süst halda kresloda oturub özümü yüngül, sürüşkən və təmiz hiss etdim. Matt cəld hərəkətlə mələfəni üzərimdən götürüb, boynumun ardını görə bilməyim
üçün ikinci güzgünü tutdu. Mən özümü arxadakı güzgüdə qarşıdakı güzgüyə baxan gördüm və bir müddət o elə bir bucaq altında oldu ki, dərinlik illüziyası - öz-özünə baxan Çarlinin sonsuz dəhlizini yaratdı... öz-özünə baxan... öz-özünə...

Onlardan hansı mən idim?

Bəlkə, heç ona deməyim? Bu xəbər ona yaxşı nə verəcək? Heç bir söz demədən, sadəcə, çıxıb gedim. Ancaq sağ olduğumu, kim olduğumu bilməsini istəyirdim, istəyirdim ki, sabah müştəriləriylə danışanda mənim atam olmasıyla lovğalansın. Bu mənim mövcudluğumu real edə bilərdi. Əgər o məni oğlu kimi qəbul etsə, deməli, şəxsiyyətəm.

-Siz məni əla taraş etdiniz, bəlkə, indi kim olduğumu xatırladınız? - dedim və kreslodan qalxarkən onun baxışlarında kiçik bir işartı tutmağa çalışdım...

Matt üz-gözünü turşutdu:

- Sizi necə başa düşüm? Bu, zarafatdır?


downloaded from KitabYurdu.org

Onu bunun zarafat olmadığına və əgər diqqətlə baxarsa, yəqin ki, məni tanıyacağına inandırdım. O çiyinlərini çəkib, stolun üstündəki qayçını və darağı yığışdırmağa başladı.

-Mənim tapmaca tapmağa vaxtım yoxdur, dükanı bağlamalıyam. Üç dollar əlli sent verməlisiniz.

Yəni o məni unudub? Yəni arzular boş fantaziya olaraq qalacaq? O, pulu almaq üçün əlini uzatdı, mənsə yerimdən tərpənə bilmirdim.

O xatırlamalıdır, bilməlidir.

Amma yox, əlbəttə ki, yox... Ağzımda acılıq, ovuclarımda tər hiss edəndə başa düşdüm ki, bir dəqiqədən sonra özümü pis hiss edəcəyəm.

- Ey, cənab, sizə nə oldu?

-Hər şey qaydasındadır... Dayanın... - Mən xromla rənglənmiş kresloya ilişdim, havanı ağzımla udmağa çalışaraq ikiqat oldum. İlahi, heç olmasa indi olmasın...
Yarəb, məni onun qarşısında rüsvay etmə...

-Su... zəhmət olmasa... - yox, içmək istəmirdim, sadəcə, üzünü çevirməsi üçün dedim...

Matt bir stəkan suyla geri qayıdanda artıq yaxşıydım.

- Buyurun, için, bir dəqiqə dincəlin. Hər şey yaxşı olacaq.

Suyu içərkən o, gözlərini məndən ayırmadı və mən onun beynində unudulmuş xatirələrin dolaşdığını hiss etdim.


downloaded from KitabYurdu.org

- Biz, doğrudan, nə vaxtsa görüşmüşük?
- Yox... sağ olun, mən gedim.

Ona necə deyim? Nə deyim?

Ey, mənə yaxşı-yaxşı bax, bu mənəm, sənin öz mühasibat dəftərindən sildiyin Çarliyəm. Mən buna görə səni suçlamıram, budur, məni əvvəlkindən qat-qat yaxşı ediblər. İstəyirsən yoxla. Sorğu-sual et. Mən iyirmi canlı və ölü dildə danışıram, dahi riyaziyyatçıyam, mən adımı bəşəriyyət tarixinə əbədi yazacaq fortepiano konsertləri yazıram.

Axı ona necə deyim?

Bu miskin bərbərxanada oturub atamın başımı sığallayaraq mənə "yaxşı oğlan" deyəcəyini gözləyərkən kənardan necə də axmaq görünürəm... Ayaqqabılarımın ipini bağlamağı, köynəyimi düyməmələməyi öyrənəndə onun gözləri necə də parıldamışdı... Mən bura bunun üçün gəlmişdim, ancaq başa düşdüm ki, heç nə alınmayacaq.

- Həkim çağırım?

Yox, mən onun oğlu deyiləm. O, Çarli idi. Ağıl və bilik məni başqa adam edib. Matt da çörəkxanadakılar kimi bundan xoşlanmayacaq, axı mən onu ötmüşəm.

-Keçib-getdi. Sizi bu qədər narahat etdiyimə görə üzr istəyirəm. Yəqin, zəhərlənmişəm... Sizə dükanı bağlamaq lazımdır.

Mən qapıya tərəf gedəndə sərt səs kürəyimin ortasına


downloaded from KitabYurdu.org

sancıldı:

- Bir dəqiqə!

Çevrildim və o, şübhəylə mənə baxdı.

- Siz nəyisə unutdunuz.
- Anlamadım...

O, əlini irəli uzadıb baş barmağını şəhadət barmağına sürtdü.

- Üç əlli.

Mən üzr istədim, ancaq o, pulu ödəməyi unutduğuma açıq- aşkar inanmadı. Ona beşlik verib qalığını almadım və baxmadan küçəyə çıxdım.

21 iyun

Mən getdikcə mürəkkəbləşdirdiyim labirintə müvəqqəti tələlər əlavə etsəm də, Elcernon onların öhdəsindən uğurla gəlirdi. Sən demə, onu yeməklə aldatmağa gərək yox imiş, onun mükafatı problemin uğurlu həllinin özüydü.

Onun davranışlarını (Bart bu haqda simpoziumda danışmışdı) əvvəlcədən bilmək mümkün deyildi. Bəzən o acıqlanmağa başlayır və özünü labirintin divarlanna çırpır, bəzənsə yumağa dönərək işləməkdən imtina edirdi. Bu, əsəb idi, yoxsa daha dərin bir şey?

5:30 P.M.

Bu başdanxarab Fey bu gün səhər pəncərədən içəri soxularaq özüylə dişi bir ağ siçovul gətirdi, bununla, özünün dediyi kimi, Elcernonun tənha yay gecələrinə



downloaded from KitabYurdu.org

rəng qatmaq istəyirdi. O mənim bütün etirazlarıma məhəl qoymadan qətiyyətlə bəyan etdi ki, bunun Elcernona ancaq faydası olacaq. Mən yalnız Minninin sağlamlıq durumunun möhkəmliyinə və mənəvi prinsiplərə sarsılmaz inamına əmin olduqdan sonra tam razılıq verdim.

Elcernon onunla tanış olduqda nə baş verəcəyinə baxmaq mənə çox maraqlıydı, ancaq biz onu qəfəsə buraxan kimi Fey qolumdan tutub məni otaqdan çıxartdı.

-Başqalarına baxmaq ədəbsizlikdir! - o qışqırdı və radionu qoşaraq mənə meydan oxudu: - İndi sənə rəqs etməyi öyrədəcəyəm.

Məgər ona acıqlanmaq olardı?

Hər necə olsa da, Elcernon artıq yalqız olmadığına görə xoşbəxt idim.

23 iyun

Gecədən keçmiş pilləkən meydançasından gülüş səsi gəldi və qapım döyüldü. Fey və yanında bir kişiydi.

-Salam, Çarli. - Fey məni görən kimi irişdi. - Bu, Çarlidir, Leroy, qonşumdur. Əla sənətkardır, canlı elementi olan heykəllər düzəldir.

Leroy Feyi tutaraq divara çırpılmağa qoymadı, sonra narahat halda mənə baxıb, mızıldanaraq salam verdi.

-Leroyla "Ulduz tozu"nda tanış olduq, - Fey izahat verdi. - O, əla rəqs edir. - Fey öz mənzilinə tərəf döndü, ancaq yarı



downloaded from KitabYurdu.org

yolda dayanıb yenidən irişdi. - Bəlkə, Çarlini də içməyə dəvət edək?

Bu ideya Leroyun ürəyincə olmadı, ancaq mən üzr istəyib qapını örtə bildim. Sonra onlann gülüş səslərini eşitdim. Başımı kitab oxumaqla qatmağa çalışsam da, bir mənzərə gözümün qarşısından getmədi: böyük ağ çarpayı, sərin ağ mələfələr və bir-birinə sarılmış onlar.

Mən Alisaya zəng vurmaq istədim, ancaq vurmadım. Niyə özümə əzab verməliyəm? Mən onun üzünü belə xatırlaya bilmirdim. Feyi geyimli və çılpaq, iti baxışlı mavi gözləriylə, çələng formalı sarışın saçlanyla istənilən an təsəvvürümdə canlandıra bilərdim. Amma Alisa xəyalımda qatı dumana bürünmüşdü. Təxminən bir saatdan sonra Feyin mənzilindən uca səslər, sonra onun fəryadı və başqa şeylər eşidildi, elə bil nəsə ağır bir şeyi yerə çırpırdılar. Onun köməyə ehtiyacı olub- olmadığını bilmək üçün yatağımdan çıxmaq istəyirdim ki, qapı çırpıldı və mən pilləkənlə aşağı yüyürən Leroyun söyüş söydüyünü eşitdim. Daha bir neçə dəqiqə keçdikdə pəncərəm
döyüldü. Açdım. Qara kimono geymiş Fey sürüşüb içəri keçdi və pəncərədə oturdu.

- Salam, - o pıçıldadı. - Siqaretin olmaz ki?

Məndə siqaret vardı. Fey pəncərənin qabağından tullanıb divanda özünə yer etdi və dərindən nəfəs aldı.

-Mən, adətən, öz qayğıma qala bilirəm, ancaq elə


downloaded from KitabYurdu.org

tiplər var ki, onları ancaq belə ağıllandırmaq mümkündür.

-Əlbəttə, - mən dedim. - Sən onu evinə ağıllandırmaq üçün gətirmişdin.

O, işarəni başa düşdü.

- Xoşuna gəlmədi?

-Mən kiməm ki, xoşuma gəlsin, ya da gəlməsin? Əgər sən rəqs meydançasından oğlan tapmısansa, hadisələrin müvafiq inkişafını da gözləməlisən. O hesab edir ki, buna haqqı var.

O başını buladı.

-Mən ora rəqs etməyə gedirəm və kimisə evimə gətirirəmsə, niyə onunla yatağa girməli olduğumu anlamıram. Elə bilirsən onunla yatdım? - Bir qədər susdu və sualına cavab
gözləmədən əlavə etdi: - Əgər onun yerində sən olsaydın, etiraz etməzdim.

- Səni necə başa düşüm?

-Elə belə də başa düş. Məndən xahiş etsən, etiraz etməyəcəyəm.

Sakit ol, Çarli, sakit ol...

-Hədsiz minnətdaram. Çalışaram unutmayım. Sənə qəhvə dəmləyim?

-Sənin nə cür adam olduğunu heç cür anlaya bilmirəm. Mən kişilərin xoşuna gəlib-gəlmədiyimi dərhal anlayıram. Amma sən, deyəsən, məndən qorxursan... Təsadüfən homoseksual deyilsən?



downloaded from KitabYurdu.org

- Təkcə bu çatmırdı!

-Demək istəyirəm ki, belə şeyləri məndən gizlətmək lazım deyil. Onda biz, sadəcə, yaxşı dost olaraq qalarıq.

-Yox, yox. Sən o oğlanla mənim qapımı döyəndə onun yerində olmağı çox istədim.

O məni qucaqlayaraq, açıq-aşkar cavab hərəkətləri gözlədi. Məndən nə tələb olunduğunu bilirdim. Niyə də olmasın? Bəlkə,
bu dəfə hər şey alınacaq? Əsas odur ki, təşəbbüs ondan gəlir. Həm də ona bənzər qadına heç rastlamamışam, həm də bu səviyyəli emosional inkişafın mənə gərəkli olduğu istisna deyil.
Mən də onu qucaqladım.

-Bax bu, başqa məsələ, - o quruldadı, - yoxsa mənə elə gəlməyə başlayırdı ki, səninçün fərqi yoxdur.
Onun boynundan öpüb pıçıldadım:

- Yox, fərqi var.

Ancaq bu zaman yenə özümüzü qapıda dayanmış üçüncü şəxsin gözləriylə görməyə başladım. Mən qucaqlaşan kişi və qadın gördüm və bu məndə, demək olar ki, heç bir təəssürat oyatmadı. Doğrudur, təşviş yox idi, ancaq həyəcan, ehtiras da yox idi.

- Burada qalaq, yoxsa bizə keçək?
- Bir dəqiqə gözlə.
- Nə olub?

-Bəlkə, heç lazım deyil? Bu gün nəsə özümü yaxşı


downloaded from KitabYurdu.org

hiss etmirəm.

- Əgər mənim nəsə etməyimi istəyirsənsə... Söylə...

-Yox, - mən qəti cavab verdim. - Sadəcə, bu gün özümü pis hiss edirəm.

Feyin burada olması məni sıxırdı, ancaq vida sözləri boğazımda ilişib qalmışdı. O mənə uzun-uzadı baxıb dedi:

- Qulaq as, gecəni burada qalsam, etiraz etməzsən?
- Niyə?

O çiyinlərini çəkdi:

-Sən mənim xoşuma gəlirsən. Bilmirəm. Leroy geri qayıda bilər. Milyon dənə səbəb var. Əgər istəmirsənsə...
O, yenə məni qəflətən yaxaladı və mən təslim oldum.

- Səndə cin var? - Fey soruşdu.
- Yox, mən, demək olar ki, içmirəm.
- Məndə var. Dayan, indi gətirərəm.

Mən etiraz etməyə macal tapmadım. O, bir göz qırpımında pəncərəyə tullandı və əlində başından azca içilmiş butulka və limonla geri qayıtdı. Mətbəxdən iki stəkan gətirib cin süzdü və dedi:

-Tut görüm. Bundan pisi olmayacaq. Xətləri əyək. Özünü ona görə pis hiss edirsən ki, ətrafda hər şey düz və hamardır,
sən sanki qutuda oturmusan... Elcernon o labirintin içində oturduğu kimi.

Əvvəlcə içmək istəmirdim, ancaq elə kədərliydim ki,



downloaded from KitabYurdu.org

heç nəyi vecimə almamağa qərar verdim. Bundan pis olmayacaq ki, bəlkə, bir udum cin duyğularımı kütləşdirəcək və özümə adi şeyləri anlamayan insan gözüylə baxacağam.

Ancaq o məni içib keflənməyə məcbur etdi.

İlk stəkan, yatağa necə girməyim və Feyin əlində butulka sivişib yanıma girməyi yadımdadır. Sonra ertəsi gün günortayadək hər şey məhv oldu, ayılanda möhkəm xumar idim. Fey yastığı bürmələyərək üzü divara tərəf hələ də yatırdı. Stolun üstündə ağzınacan dolu külqabının yanında boş butulka vardı, ancaq son xatırladığım pərdəni salmağım, ikinci stəkanı boşaldarkən özümə baxmağım idi.

Fey gərnəşərək çevrildi, o, lüt idi. Mən ondan aralanmaq istəyəndə çarpayıdan yıxıldım və adyalı qapıb büründüm.

- Salam. - O əsnədi. - Bilirsən nə istəyirəm?

-Nə?

-Səni çılpaq çəkmək. David Mikelancelo kimi. Sən əlasan. Özünü necə hiss edirsən?

- Normal, ancaq başım çatlayır. Dünən... çox içdim?

O güldü və dirsəklənərək dikəldi.

-Hə, sən əməlli-başlı vurdun və elə qorxunc oldun ki, oğlan, yox, mən homoseksualizmdən danışmıram, ayrı bir aləm oldun e...

- Səni and verirəm, mən nə oyun çıxardım?



downloaded from KitabYurdu.org

-Mənim istədiyim qətiyyən olmadı. Heç bir seks-filan. Ancaq sən fenomensən. Əsl tamaşa oldu! Adam lap dəhşətə gəlir! Səhnədə sənin tayın-bərabərin ola bilməz. Sən səfeh və utancaq oldun. Bilirsən, elə bil böyük adam uşaq rolu oynayırdı. Sən məktəbə necə getmək, başqaları kimi ağıllı olmaq üçün necə oxuyub-yazmaq istəyindən və çoxlu başqa şeylərdən danışdın. Sən tamam başqa adam oldun... və elə hey mənimlə oynamayacağmı deyirdin, çünki anan fındıqlarını əlindən alıb, səni qəfəsə salacaq.

- Fındıqları?

- Hə! - Fey bir az da gülüb ənsəsini qaşıdı. - Sən fındıqları mənə verməyəcəyini deyirdin. Kef idin e! Elə danışırdın, o tinlərdə dayanıb qadınlara baxan kimi dəliyə dönənlər var ha, lap onlar kimi. Tamam başqa olmuşdun... Əvvəlcə mənə elə gəldi ki, sən, sadəcə, özünü gicliyə qoymusan, indisə düşünürəm ki, bəlkə, çox həssassan, ya da nəsə buna bənzər bir şey... Bütün bunlar sənin saflığından irəli gəlir və sən daim hər şeyə görə narahat olursan.

Mən çox kədərləndim, halbuki bu, gözlənilən idi. Alkoqol hansı yollasa şüurumun altındakı dərinlikdə gizlənən əvvəlki Çarli Qordonu aşkara çıxarmışdı. Onun həmişəlik getmədiyindən mən də şübhələnmişdim. Bizdə olan heç bir şey izsiz yoxa çıxmır. Əməliyyat Çarlini mədəniyyət və təhsilin nazik təbəqəsiylə örtmüşdü, ancaq


downloaded from KitabYurdu.org

o özü qalmışdı. O baxır və gözləyir.

O nəyi gözləyir?

Fey büküldüyüm adyaldan yapışıb məni yatağa çəkdi. Mən onu saxlaya bilmədim və o məni qucaqlayıb öpdü.

-Çarli, mən elə qorxurdum, elə bildim sənin başına hava gəlib. Mən qəfil havalanıb manyaka dönən impotentlər haqqında eşitmişəm.

- Bəs onda necə qaldın?

-Sən balaca qorxmuş uşağa çevrildin. Mən özümə qarşı hər hansı təhlükə olmayacağmdan əmin idim, ancaq sən özünü şikəst edə bilərdin! Ona görə də burada qalmağa qərar verdim. Doğrusu, hər ehtimala qarşı...

O, çarpayı ilə divarın arasından ağır bir kitab çıxartdı.

- Ondan istifadə etmədiniz?

O başını buladı.

- Uşaqkən sən, yəqin ki, fındığı çox sevirmişsən. Maraqlıdır, yüksək mənəvi prinsipləri gözləyən, eyni dərəcədə həssas adamlar əlsiz, ayaqsız, gözsüz doğulan insanlara öz üstünlüklərini hiss etdirmədikləri halda, anadan ağıldankəm doğulanları çox asanlıqla lağa qoyub gülürlər. Qəzəbim bir zamanlar özümün də kloun olduğumu xatırlamağımdan doğur.

Axı bunu, demək olar ki, unutmuşdum.

Bu yaxınlaracan insanlar mənə də gülürdülər... İndisə özüm də onlann şən xoruna qoşulmuşdum. Məni ən çox ağrıdan da bu idi.



downloaded from KitabYurdu.org

Mən əvvəlki hesabatlarımı tez-tez oxuyur, onlardakı savadsızlığı və uşaq sadəlövhlüyünü görürəm. Bu bədbəxt ağıl qaranlıq otaqdan parlaq dünyaya açar dəliyindən xoşbəxtcəsinə və inamsızcasına gülümsəyərək baxır. Ətrafdakılardan aşağıda olduğumu hətta öz səfehliyimlə də başa düşürdüm. Onlarda məndə olmayan nəsə vardı. Əqli cəhətdən kor olduğumdan inanırdım ki, bu oxumaq və yazmaq qabiliyyətidir, əgər bunlan öyrənsəm, onlara bərabər olacağam.

Hətta ağıldankəm adam da başqalarına bənzəmək istəyir.

Körpə uşaq özünü yedirtməyi və nə yeyəcəyini bilmir, ancaq aclığın nə olduğunu anlayır.

Gün boşuna keçmədi. Özümə, öz keçmişimə və gələcəyimə görə narahat olmaq yetər. Artıq nəsə vermək zamanıdır. Bilik və bacarığımı başqalarının xeyri üçün tətbiq etməliyəm. Bunu məndən yaxşı kim edə bilər? Kim iki dünyada yaşayıb?

Sabah Uelberq fondunun direktorlar şurası ilə əlaqə yaradacağam və mənə müstəqil iş sahəsi ayırmalarını xahiş edəcəyəm. Kaş razı olsunlar! Mənim bəzi xırda ideyalanm var...

Əgər bir az işləsək, mövcud texnika ilə də çox şeyə nail olmaq olar. Əgər məndən dahi düzəldə biliblərsə, onda təkcə elə Birləşmiş Ştatlardakı beş milyon, dünyadakı milyonlarla, hələ doğulmadan buna məhkum



downloaded from KitabYurdu.org

olunmuş ağıldankəm haqqında nə demək olar? Bu texnikanı normal adamlara, dahilərin özünə tətbiq etməklə necə yüksək nəticələrə nail olmaq olar?

Bununçün nə qədər qapı açmaq lazımdır! İnsanlar bu işin nə qədər mühüm olduğunu anlamalıdırlar. Əminəm ki, fond mənə yox deməyəcək.

Ancaq mən tənhalıqdan yorulmuşam. Hər şeyi Alisaya danışmaq lazımdır.

25 iyun

Alisaya zəng vurdum. Mən əsəbiydim və yəqin ki, o qədər də aydın danışmırdım, buna baxmayaraq, onun səsini yenidən eşitmək çox xoş idi! Deyəsən, o da şad idi. O mənimlə
görüşməyə razılıq verdi, odur ki, bir neçə dəqiqədən sonra taksidə oturub küçədəki tıxacları lənətləyirdim.

Qapını döyməyə macal tapmamış Alisa onu taybatay açıb üstümə tullandı.

-Çarli, biz hamımız sənə görə necə də narahat idik! Mən qorxunc yuxular görürdüm, guya sən ölmüsən, ya da yaddaşını itirmiş halda xarabalıqları dolaşırsan. Niyə harada olduğunu xəbər vermirdin? Sənə nə mane olurdu?

-Məni danlama. Mənə tək qalmaq və bir çox suallara cavab tapmaq lazım idi.

-Gedək mətbəxə, qəhvə dəmləyim. Bu qədər vaxtı nə edirdin?

-Gündüzlər düşünür, oxuyur və yazırdım. Gecələr öz-



downloaded from KitabYurdu.org

özümü axtararaq səyahət edir və Çarlinin məni güddüyünü kəşf edirdim.

O diksindi.

-Belə danışma. Heç kəs səni izləmir, sənin, sadəcə, fantaziyan oynayıb.

- Hiss edirəm ki, mən - mən deyiləm. Mən əvvəlki Çarlini qovaraq onun yerini tutmuşam, məni çörəkxanadan bayıra atdıqları kimi. Demək istəyirəm ki, Çarli Qordon keçmişdə mövcuddur, keçmiş isə realdır. Köhnə evi uçurmadan onun yerində yenisini tikmək olmaz, Çarlini məhv etmək isə mümkün deyil. Əvvəlcə mən onu axtardım. Onun - mənim atamızla görüşdüm. Mənim sübut etmək istədiyim şey - Çarlinin keçmişdə şəxsiyyət kimi mövcud olması və bugünkü varlığımın məhz onunla bağlı olmasıydı. Nemurun məni guya onun yaratmasıyla bağlı sözləri təhqiramizdir... Ancaq mən Çarlinin elə indi də mövcud olduğunu aşkar etdim, o mənim içimdə və ətrafımdadır. Bizim aramıza girən də o idi. Sən demə, bu əngəli, bu yekəxana axmaq qüruru, səni ötüb-keçdiyim üçün aramızda ümumi heç nə ola bilməz duyğusunu yaradan da mənim ağlımmış. Bu ideyanı mənim ağlıma sən qoymuşdun. Ancaq bu belə deyil. Bu Çarli balaca bir oğlandır, o, qadınlardan qorxur, çünki anası onu döyürdü. Yəni sən bunu anlamırsan? İntellektual inkişaf balaca Çarlinin emosional sxeminə heç bir şey edə bilməmişdi. Sənə hər dəfə toxunanda,



downloaded from KitabYurdu.org

ya da bir-birimizi sevdiyimizi təsəvvür edəndə qısaqapanma baş verirdi.

Mən həyəcanlanmışdım və səsim onu titrəmə tutanacan döyəclədi.

-Çarli, - o pıçıldadı. - Mən nə edə bilərəm? Sənə necə kömək edim?

-Bilirsən, mənə elə gəlir ki, son vaxtlar mən, hər halda, çox dəyişmişəm. Əvvəlcə mən qaranlıqda dolaşdım. Problemi özümün həll etmək cəhdim iflasa uğradı, ancaq yuxuların və xatirələrin girdabına düşdükcə emosional problemlərin eynilə intellektual problemlər kimi həll oluna bilmədiyini daha aydın dərk edirdim. Bunu tam olaraq dünən axşam dərk etdim. Öz- özümə dedim ki, qaranlıqda sanki itmiş ruh kimi dolaşıram, amma sonra həqiqətən itdiyimi anladım. Hansısa yolla hamıdan və hər kəsdən uzaq düşdüm. Və mənim qaranlıq küçələrdə, yəni ən namünasib yerdə axtardığım şey intellektual azadlığımı saxlamaqla insan kütləsinin bir hissəsinə çevrilmək üsuluydu. Mənə böyümək lazımdır. Vəssalam...

Mən şübhə və qorxuları özümdən çırparaq danışdım, danışdım. Alisa mənim auditoriyam idi, mən onu hipnoz etmişdim. Mən qızdırmalı vəziyyətə düşmüşdüm, elə sanırdım ki, alışıb-yanıram. Ancaq indi qarşımda biganə olmadığım bir insan vardı. Bütün fərq də elə bundaydı.

Bu yük ona ağır gəldi. Titrətmə hönkürtüyə keçdi.



downloaded from KitabYurdu.org

Baxışlanm taxtın üzərindəki tabloya sataşdı - qorxmuş qırmızıyanaq qıza. Alisa indi nə hiss edir? Onun özünü mənə təslim edəcəyini bilirdim, mən də onu istəyirdim, bəs Çarlini neyləyim?

Əgər Alisanın yerində Fey olsaydı, Çarli işə qarışmayacaqdı. O, qapıda dayanıb baxırdı. Mən Alisanın yanında dayanan kimi o təlaşlanırdı. Alisa ona nə etmişdi axı?

Alisa taxtda oturub mənə baxır və nə edəcəyimi gözləyirdi. Mən nə edə bilərdim axı? Onun qucaqlamaq və...

Fikrimi toplamağa macal tapmamış xəbərdarlıq gəldi.

- Sənə nə olub, Çarli? Rəngin ağarıb.

Mən onun yanında oturdum.

-Nəsə başım hərlənir. Tezliklə keçəcək. - Ancaq çox gözəl bilirdim ki, Alisanı istəyən kimi Çarli buna imkan verməyəcək və özümü pis hiss edəcəyəm.

Bu zaman ağlıma belə bir fikir gəldi... Əvvəlcə o mənə iyrənc göründü, ancaq bilirdim ki, iflicdən xilas olmağın yeganə yolu Çarliyə kələk gəlməkdir. Əgər Çarli hansı səbəbdənsə Alisadan qorxur, ancaq Feydən qorxmursa, işığı söndürüm və özümü elə aparım ki, guya yanımdakı Feydir. Onda hər şey qaydasında olacaq.

Dəhşətli dərəcədə iyrəncdir. Əgər bu fənd baş tutsa, onda Çarlinin mənim emosiyalarımı dolaşdırdığı zəncirləri qıracağam. Alisanı sevdiyimi özümə sonra


downloaded from KitabYurdu.org

etiraf edərəm... Hələlik başqa çıxış yolu görmürdüm.

-Məndə hər şey qaydasındadır. Gəl bir az qaranlıqda oturaq, - dedim və işığı söndürdüm. Bu, asan olmayacaq. Mən Feyi təsəvvür etməli, özümü buna o dərəcədə inandırmalıyam ki, yanımda oturan qadın Feyə çevrilsin. Əgər Çarli kənardan
baxmaq üçün məndən ayrılsa belə, bundan bir şey çıxmayacaq, çünki otaq qaranlıqdır.

Gözlədim, təşviş simptomlan yox idi. Qətiyyən. Özümü sakit və inamlı hiss etdim. Əlimi onun çiyninə qoydum.

- Çarli, mən...

-Sus! - mən qışqırdım və o qorxub geri çəkildi. - Xahiş edirəm, heç nə demə. Sadəcə, mənə səni qaranlıqda qucaqlamağa icazə ver. - Mən onu qucaqlayıb özüm sıxdım və qaranlıqda, örtülü göz qapaqlarımın altında uzun sarışın saçlı və ağ dərili Feyi təsəvvür etdim. Fey onu son dəfə gördüyüm kimiydi. Mən onun saçlanndan, boynundan və nəhayət, dodaqlarından öpdüm. Feyin kürəyimi, çiyinlərimi sığalladığını hiss etdim. Əvvəlcə onu astaca əzizləyirdim, sonra səbrim tükəndikcə cəsarətim də artdı.

Boynuma nəsə sancıldı. Otaqda kimsə vardı, o, gərgin halda otağa baxır, nə etdiyimizi görməyə çalışırdı. Qızdırmalı kimi öz-özümə təkrarladım: Fey! Fey! Fey! Gözlərimin qarşısındakı onun üzüydü axı, odur ki, heç


downloaded from KitabYurdu.org

kəs araya girə bilməzdi... O mənə qısıldı, ancaq qışqırıb onu itələdim.

-Çarli! - Mən Alisanın üzünü görmədim, ancaq onun keçirdiyi şok səsində əks olundu.

- Yox, Alisa! Bacarmıram! Sən anlamırsan!

Mən taxtdan sıçrayıb işığı yandırdım. Onu görəcəyimə, demək olar ki, əmin idim. Ancaq, təbii ki, görmədim. Biz tək idik. Baş verənlər hamısı mənim beynimlə əlaqəliydi. Alisa uzanmışdı, köynəyinin yaxası açılmış, gözləri bərəlmişdi, sifəti yanırdı.

-Mən səni sevirəm! - qəfil ağzımdan çıxdı. - Ancaq bacarmıram! Mən bunu sənə izah edə bilmirəm, ancaq səni itələməsəydim, ömrümün sonunacan özümə nifrət edəcəkdim. Səbəbini soruşma, yoxsa sən də mənə nifrət edəcəksən. Bütün məsələ Çarlidədir. Hansısa naməlum səbəblərdən o heç vaxt sənə mənimki olmağa icazə verməyəcək.

Alisa üzünü çevirib yaxasını düymələdi.

-Bu gün hər şey başqa cür idi. Sən qorxmurdun, məni istəyirdin.

-Hə, mən səni istəyirdim, ancaq indi mən səninlə deyildim. Mən səndən istifadə etmək istəyirdim, ancaq heç nə
izah edə bilmərəm. Özümüzü hər şeyin qaydasında olduğuna inandırmamalıyıq, bu bizi yalnız növbəti dalana aparacaq.



downloaded from KitabYurdu.org

-Çarli, yenidən yoxa çıxma.

-Mən daha gizlənməyəcəyəm. Mənim işlərim var. Onlara de ki, bir neçə gündən sonra laboratoriyaya gələcəyəm, özümə gələn kimi.

Onun mənzilindən çıxanda qızdırmalı kimi titrəyirdim. Hara gedəcəyimə qərar verə bilməyib, bir qədər küçədə dayandım. Getməyə yer yox idi.

Nəhayət, metro stansiyasına gedib, qatarla Qırx doqquzuncu küçəyə gəldim. Ətrafda adam az idi, ancaq nə isə Feyi xatırladan bir sarışın gördüm. Avtobus dayanacağına gedərkən mağazaya dönüb bir şüşə cin aldım. Avtobus gözləyərkən butulkanın ağzını elə paketin içindəcə açıb yaxşı bir qurtum aldım; yadıma düşdü ki, adətən, içki düşkünləri belə edirlər. Alkoqol mədəmi yandırdı, ancaq dadı pis deyildi. Avtobus yaxınlaşanda mən artıq uçurdum. Ancaq əlavə olaraq bir damcı da içmədim. Qətiyyən keflənmək fikrim yox idi.

Pilləkənlə yuxarı qalxıb Feyin qapısını döydüm. Sükut. Qapını açıb içəri baxdım. O hələ gəlməmişdi, ancaq bütün lampalar yanırdı. Onun dünya vecinə deyildi. Bəlkə, mən də onun kimi olum?

Mənzilimə qayıdıb soyundum, duş qəbul etdim, xalatımı geyindim və onun özüylə heç kəsi gətirməməsini yalvararaq gözləməyə başladım.

Təxminən gecə saat üçün yarısında onun addım səslərini eşitdim. Butulkanı qamarlayıb bayıra çıxdım,



downloaded from KitabYurdu.org

Fey giriş qapısını açan anda mən onun pəncərəsinin qarşısındaydım. Mənim onu güdmək fikrim yox idi və burada olduğumu xəbər vermək üçün əlimi qaldırıb pəncərəni tıqqıldatmaq istəyirdim ki, o, çəkmələrini çıxanb məmnun halda gülümsədi və soyunmağa başladı. Onu güddüyümü düşünməsinə yol vermək olmazdı.

Mənzilimə qayıdıb, işığı yandırmadan içəridə gəzişdim. Əvvəlcə onu yanıma dəvət etmək istədim, ancaq bura çox təmiz idi, əyilməli olan düz xətlər də həddən artıq idi. Burada heç nə alınmayacaqdı. Meydançaya çıxıb qapını döydüm, əvvəl astaca, sonra bərkdən.

- Açıqdır! - Fey qışqırdı.

O, qollarını açaraq döşəmədə uzanmış, ayaqlarını qaldırıb taxta qoymuşdu. Başını qaldırıb altdan-yuxarı mənə baxdı.

- Çarli, əzizim, sən niyə başı üstə durmusan?

-Fikir vermə, - butulkanı paketdən çıxara-çıxara dedim. - Bu gün xətlər nəsə çox düzdür və mən düşündüm ki, sən onlardan bəzisini lazımi duruma gətirmək üçün mənə kömək edərsən.

-Bunun üçün cindən yaxşı nə ola bilər? Əgər fikrimizi mədəmizdə yaranan istiyə cəmləsək, xətlər dərhal əyilməyə başlayacaq.

- Tamamilə doğrudur!

-Çox gözəl! - Fey sıçrayıb ayağa qalxdı. - Bu gün mən


downloaded from KitabYurdu.org

qutuya bənzəyən adamlarla rəqs etmişəm. Qoy onlar da əriyib yoxa çıxsınlar.

-O, stəkanını mənə uzatdı, mən doldurdum. İçərkən onu qucaqladım, çılpaq çiyinlərini sığalladım.

- Ey, oğlan! Sən neynirsən?

- Mən sənin gəlməyini gözləyirdim.

O, bir addım geri çəkildi.

-Bir dəqiqə, Çarli. Bir dəfə biz bundan keçmişik və heç nə alınmayıb. Sən mənim xoşuma gəlirsən, əgər zərrə qədər ümidim olsa, bir saniyə belə düşünmədən səni yatağa çəkərəm. Amma... boş yerə əlləşməkdən zəhləm gedir. Bu, doğru deyil, Çarli.

-Bu gün hər şey başqa cür olacaq. And içirəm. Mən keçmişdə olanlann hamısının əvəzini ödəyəcəyəm. Peşman olmazsan.

-Çarli, mən heç vaxt səndən belə şeylər eşitməmişəm. Mənə belə baxma, elə baxırsan, elə bil məni bütöv udacaqsan. - O, kresloların birindən köynəyini qapıb örtünməyə çalışdı. - Sən məni özümü çılpaq saymağa məcbur edirsən!

-Mən səni istəyirəm. Bu gün mən hər şey edəcəyəm, mən bilirəm... Məni rədd etmə, Fey!

Mən onun boynunu və çiyinlərini öpməyə başladım. Həyəcanım ona da keçdi, o, tez-tez nəfəs almağa başladı.

-Çarli, əgər məni yenə aldatsan, nə edəcəyimi bilmirəm. Axı mən də adamam!


downloaded from KitabYurdu.org

Onun əlindən tutub taxtda, paltar və ağların üzərində oturtdum.

-Burada yox! - o qalxmaq istəyərək dedi. - Yataq otağına gedək.

-Yox, burada! - köynəyi onun əlindən dartaraq israr etdim.

Fey mənə baxdı, ayağa qalxıb əynində qalanları da soyundu.

- İşığı söndürək.
- Lazım deyil, mən özümü görmək istəyirəm.

O məni öpüb möhkəm qucaqladı.

-Ancaq məni bir də aldatma, Çarli. Yaxşısı budur, lazım deyil.

Mən əmin idim ki, bu dəfə heç kəs bizə mane olmayacaq. Mən nə etməyi və necə etməyi bilirdim. Bir anlıq yenə onun baxdığını hiss etdim - bir neçə dəqiqə əvvəl olduğum pəncərənin o tərəfindəki qaranlıqdan. Qavramanın ani dəyişməsi nəticəsində mən artıq orada, onun yerindəydim və bir-birini qucaqlamış kişiylə qadına baxırdım.

Güclü iradə və mən yenidən Feylə birlikdəydim, ac gözlər isə pəncərədən baxır. Hə, uğursuz yaramaz, bax, axır ki, öz qayğıma qaldım. Cəhənnəm ol.

O baxdı və gözləri böyüyüb nəlbəkiyə döndü.

29 iyun

Laboratoriyaya qayıdana qədər mənə simpoziumdan



downloaded from KitabYurdu.org

sonra başladığım bir neçə layihəmi başa çatdırmaq lazım idi. Yeni təlim üsulları institutuna, Langedorfa zəng vurub, onunla biofizikada buxarlı nüvə fotoeffektindən istifadə haqqında danışdım. Əvvəlcə o elə bildi ki, danışan dəlinin biridir, ancaq ona son məqaləsindəki bəzi nöqsanları göstərəndə məni telefonda bir saat saxlayıb, öz ideyalarımı onun qrupu ilə müzakirə etməyə dəvət etdi. Bəlkə də, laboratoriya ilə qurtardıqdan sonra elə belə də etdim. Təbii ki, əgər vaxtım olsa. Başlıca problem vaxtdır, mən nə qədər vaxtım olacağını bilmirəm. Bir ay? Yoxsa bir il? Bütün ömrüm boyu? Bu, eksperimentin kənar psixofiziki effektlərini öyrənməyimdən asılı olacaq.

Mənim artıq Feyim var, odur ki, artıq küçələrdə avaralanmıram. Öz mənzilimin açarını ona vermişəm. O mənim qapımın kilidinə gülür, mən də onun mənzilindəki tör- töküntüyə. Fey mənə onun mənzilinə toxunmamaqla bağlı xəbərdarlıq edib. Əri beş il əvvəl ondan elə bunun üstündə - əşyalan hara gəldi atdığına və evi yığışdırmadığına görə ayrılıbmış.

O, əhəmiyyətsiz hesab etdiyi hər şeyə belə yanaşır. Onun, sadəcə, heç nə vecinə deyil. Bir dəfə mən kreslonun arxasındakı küncdə maşını lazımi yerdə saxlamamağa görə yazılmış bir dəstə cərimə qəbzi gördüm. Qırx, ya da əlli ədəd olardı. Ondan onları niyə topladığını soruşdum.


downloaded from KitabYurdu.org

- Hə, bunları deyirsən? - O güldü. - Keçmiş ərimdən çek alan kimi ödəyəcəyəm. Bilirsən onlan niyə kreslonun arxasına qoymuşam: çünki onlan görəndə vicdan əzabı çəkirəm. Ancaq zavallı bir qızcığazı günahlandırmaq nə dərəcədə doğrudur? Hara gedirsən, hər yerdə "Saxlamaq qadağandır!" nişanları qoyulub. Saxlamaq qadağandır! Mən hər dəfə maşını saxlayıb düşəndə özümü kənara baxmağa məcbur etmək istəmirəm.

Söz verdim ki, onu dəyişməyə çalışmayacağam. Onunla maraqlıdır. Əla yumor hissi var. Ancaq, hər şeydən öncə, o, azad və müstəqildir. Məni yoran yeganə şey bitib-tükənməyən rəqslərdir. Keçən həftə biz hər gün gecə saat üçəcən rəqs etdik. Mənim, demək olar ki, bütün gücüm tükəndi.

Bu, sevgi deyildi, ancaq hiss etdim ki, axşamlar pilləkəndə onun addım səslərinin eşidilməsini səbirsizliklə gözləyirəm. Çarli artıq bizi güdmür.

5 iyul

Orkestr və fortepiano üçün Birinci konsertimi Feyə həsr etdim. Ona nəsə həsr olunmasından vəcdə gəlsə də, konsertdən xoşlanmadı. Nə etmək olar, bir qadında hər şey birdən ola bilməz. Poliqamiyanın xeyrinə əsaslı arqument.

Əsas odur ki, ürəyi yumşaqdır. Feyin ayın əvvəlində niyə pulsuz qaldığını bu gün öyrəndim. Mənim gəlişimdən bir həftə əvvəl o, "Ulduz tozu"nda bir qızla


downloaded from KitabYurdu.org

tanış olubmuş, o deyib ki, şəhərdə heç kəsi tanımır, çox üzgündür və gecələməyə yeri də yoxdur. Fey onu evinə dəvət edib. İki gündən sonra qız stolun siyirməsindən iki yüz otuz iki dolları götürərək aradan çıxıb.

Fey polisə şikayət etməyib, o heç öz "rəfiqəsi"nin adını da tam bilmirmiş.

-Polisə niyə gedim ki? - o dedi. - Əgər oğurluğa məcbur olubsa, o həyasıza, həqiqətən, pul lazım imiş. İki yüz dollara görə qızın həyatını məhv etməyəcəyəm ki. Bu o demək deyil ki, mənə pul lazım deyil, ancaq onu tutduranda əlimə nə keçəcək? Başa düşürsən?

-Əlbəttə.

Mən heç vaxt belə səmimi və sadəlövh insan məxluquna rast gəlməmişdim. Mən sadə insanlarla ünsiyyətə susamışdım.

8 iyul

İşləməyə, demək olar ki, vaxt qalmır; səhər xumarlığından axşamlar klubda əzilib-büzülməyə qədər olan qısa zamanda nə işlədinsə işlədin.

Ancaq aspirinin və Feyin şəxsən icad etdiyi hansısa zəhrimar qarışığının sayəsində urdu dilindəki feillərin linqvistik təhlilini başa çatdırdım və məqaləni "Beynəlxalq dilçilik bülleteninə göndərdim".

Dilçi sürülərinin əllərində maqnitofon Hindistana cumduğunu təsəvvür edirəm, çünki məqaləm onlann bütün metodologiyasını darmadağın edirdi.



downloaded from KitabYurdu.org

Bu struktur linqvistlər də özlərindən yazılı kommunikasiyanın pisləşməsinə əsaslanan elm uydurublar. İnsanlann öz həyatlarını daha xırda şeylərin daha geniş öyrənilməsinə həsr etmələrinə, cildləri və kitabxanaları xorultuların linqvistik təhlili ilə doldurmalanna dair daha bir misal. Halal xoşunuz olsun, ancaq bundan dilin sabitliyini pozmaq aləti kimi istifadə etmək olmaz.

Bu gün Alisaya zəng vurdum, o mənim nə vaxt qayıdacağımı öyrənmək istədi. Cavab verdim ki, bəzi işlərimi qurtarmalıyam və ümid edirəm ki, müstəqil çalışmaq üçün Uelberq fondundan icazə ala biləcəyəm. Ancaq o, haqlıdır, vaxtı boş yerə sərf etmək olmaz.

Feyin yeganə arzusu ancaq rəqs etməkdir. Dünən axşam biz “Ağ at” klubunda içib oynamağa başladıq, sonra “Mağara”ya, oradan da “Çəhrayı çəkələklər’əkeçdik... Sonra hər şey dumana büründü, ancaq o qədər oynadıq ki,
yorğunluqdan ayaq üstə dayana bilmirdim. Deyəsən, alkoqola əməlli-başlı öyrəşmişdim, çünki Çarli ancaq yaxşıca keflənəndə peyda olurdu. Yadımda ancaq onun “Allakazamen”in səhnəsində yetərincə bayağı bir xalq rəqsini oynaması qalıb. Ona uzun müddət çəpik çaldılar, sonra administrator bizi oradan bayıra tulladı, Fey isə dedi ki, hamı mənim böyük komik olduğuma əmindir və mənim oynadığım ağıldankəm obrazı, sadəcə, əntiqədir.



downloaded from KitabYurdu.org

Qalan şeyləri xatırlamıram, ancaq kürəyimin əzələləri möhkəm ağrıyır. Yəqin, dartılıb. Mən bunun oynamaqdan olduğunu düşünürdüm, ancaq Fey deyir ki, lənətə gəlmiş taxtdan yıxılmışam.

Elcernonun davranışı yenə xaotik olub. Mənə elə gəlir ki, Minni ondan qorxur.

9 iyul

Bu gün çox dəhşətli bir hadisə baş verdi. Elcernon Feyi dişlədi. Mən Feydən xahiş etmişdim ki, onunla oynamasın, ancaq siçovulu yemləmək onun xoşuna gəlir. Adətən, Fey otağa girəndə Elcernon onun qarşısına yüyürürdü, ancaq bu dəfə tərsinə oldu. O, ağ tüklü yumağa çevrilərək, ən uzaq divarın
dibində uzanmışdı. Fey əlini içəri salanda o, küncə qısıldı. Fey labirintin qapısını açıb onu çıxarmaq istədi və mən onu xəbərdar etməyə macal tapmamış Elcemonu əlinə götürməldə səhvə yol verdi. Elcernon onun barmağını qapdı, sonra hirslə bizə baxıb labirintə qaçdı.

Minnini labirintin o biri başından, mükafat hücrəsindən tapdıq. Onun sinəsindəki yaradan qan damırdı, ancaq hələ sağ idi. Onu əlimə götürmək istəyəndə Elcernon mənə hücum edib dişlərini köynəyimin qoluna ilişdirdi və silkələyib tullayana qədər asılı qaldı.

Bundan sonra o sakitləşdi. Onu bir saat gözdən qoymadım. O, yeni problemləri bəxşişlərsiz yerinə



downloaded from KitabYurdu.org

yetirməyə davam etsə də, hərəkətlərində əvvəllər ona xas olmayan tələskənlik vardı. Əvvəllər labirintin dəhlizlərində ehtiyatlı, ancaq qətiyyətli hərəkətlər edirdisə, indi pərakəndə şəkildə vurnuxurdu. Tinləri bir-birinin ardınca sürətlə dönüb özünü maneəyə çırpırdı.

Mən nəticə çıxarmağa tələsmirəm. Nəticələr bir çox amillərdən asılı olacaq. Elcemonu mütləq özümlə laboratoriyaya aparmalıyam. Uelberq fondu mənə dotasiya verəcəkmi? Sabah Nemura zəng vuracağam.

Hesabat N°i5

12 iyul

Nemur, Ştraus, Bart və bir neçə nəfər məni kabinetdə gözləyirdilər. Hamı özünü mənim gəlişimə şad olduğunu göstərməyə çalışırdı, ancaq, misalçün, Bartın üzündən Elcernonu məndən almaq istədiyini sezmək çətin deyildi. Heç kəs pis heç nə demədi, ancaq hiss etdim ki, Nemur onun başı üzərindən Uelberq fonduna müraciət etdiyim üçün məni tezliklə bağışlamayacaq. Qoy olsun. Mənə oz araşdırmalarımı aparmaq üçün əminlik lazım idi. Əgər hər xırda şeyə görə Nemura hesabat versəm, işləməyə vaxt qalmaz.

Fondun direktorlar şurasının qərarı ona bəlliydi, ona görə də qəbul sərin və formal xarakter daşıyırdı. O mənə əl uzatdı, ancaq üzündə təbəssüm yox idi.

- Çarli, - Nemur dedi, - biz hamımız sənin qayıtmağına və qarşıda görəcəyimiz birgə işlərə görə şadıq.


downloaded from KitabYurdu.org

Laboratoriya və personal tam olaraq sənin ixtiyarındadır. Hesablama mərkəzi
sənin hesablamalarını növbədənkənar qəbul edəcək və əgər mən özüm nədəsə lazım olacağamsa...

Nemur var gücüylə gülərüz görünməyə çalışsa da, üzündə şübhə vardı. Hər şeydən öncə, mənim eksperimental psixologiya sahəsində heç bir təcrübəm yox idi. Onun neçə illər sərf etdiyi eksperimentin texniki tərəfi haqqında axı mən nə bilirdim? Ancaq, artıq dediyim kimi, o özünü mehriban göstərməyə çalışır və öz mühakimələrini gələcəyə saxlamağa hazır idi. Bizim, sadəcə, başqa seçimimiz yox idi. Əgər Elcernonun davranışını izah edə bilməsək, onun bütün əməyi puç olacaq. Əgər uğur qazansaq, mən özümlə bərabər başqalarını da yüksəklərə qaldıracağam.

Mən laboratoriyaya keçdim, burada Bart artıq Elcernonu çoxsaylı labirintlərin birindən keçirmişdi. Bart dərindən nəfəs alaraq başını buladı və dedi:

-Zavallı çox şeyi unudub. Adama elə gəlir ki, bütün mürəkkəb cavab reaksiyaları onun yaddaşından silinib. O, tamamilə primitiv səviyyədə işləyir.

- Sənə elə gəlir?

-Əvvəllər o, obrazlann sadə ardıcıllığını hesablaya bilirdi. Məsələn, ancaq ikinci və ya üçüncü qapıdan, yalnız qırmızı, yaxud yaşıl qapıdan girmək lazım olduğunu bilirdi. İndisə o, labirintdən üçüncü dəfə keçir,



downloaded from KitabYurdu.org

amma hər dəfə də səhv edir.

- Bəlkə, səbəb onun burada çoxdan olmamasıyla bağlıdır?
- Ola bilər... Qoy öyrəşsin, sabah baxarıq.

Əvvəllər mən laboratoriyada çox vaxt keçirirdim, indisə onun bütün imkanlarını qiymətləndirməyin zamanı çatmışdı. Başqalarının illər sərf etdiyi şeyi mən bir neçə günə mənimsəməliydim.

Bart düz dörd saat məni otaqlarda gəzdirdi və mən işləyəcəyim yer haqqında yetərincə geniş təsəvvür əldə edə bildim. Ən sonda gözüm hələ baxmadığımız bir qapıya sataşdı.

- Orada nə var?

-Soyuducu və yandırma sobalan. - Bart ağır qapını itələyib açdı və işığı yandırdı. - Biz ölmüş heyvanları yandırmazdan əvvəl dondururuq. Üfunətin qarşısını alır. Çıxmaq istəyəndə onu saxladım.

-Ancaq Elcernonu yandırmayacaqsınız! Eşidirsən... əgər... haçansa nə isə, mən onun bura düşməsini istəmirəm... Onu mənə ver, onun qayğısına özüm qalacağam.

O gülümsəmədi, ancaq başını tərpətdi. Nemur ona mənim bütün əmrlərimi yerinə yetirməsini əmr etmişdi.

Vaxt az idi. Əgər öz suallanma cavab tapmaq istəyirdimsə, gərək bir dəqiqə də itirməyəydim. Mən Bartdan lazımi kitabların siyahısını, Nemurdan və



downloaded from KitabYurdu.org

Ştrausdan isə onlann qeydlərini alıb getməyə hazırlaşırdım ki, ağlıma qəribə bir fikir gəldi. Nemura dedim:

-Mənə bir məsələni izah edin. Mən sizin üzərində təcrübə apardığınız heyvanları yandırdığınız sobanızı gördüm.

Mənimlə bağlı hansı planlarınız vardı?

Sualım onu karıxdırdı.

- Sən nəyi nəzərdə tutursan?

-Əminəm ki, bütün mümkün variantları lap əvvəldən düşünmüsünüz. Mənim sonum necə olmalıydı?

Professor özünü itirib susdu, ancaq mən əl çəkmədim:

-Mənim eksperimentlə bağlı hər şeyi bilməyə haqqım var. Bu siyahıya mənim taleyim də daxildir.

-Yaxşı, bunu səndən gizlətməyə elə bir səbəb görmürəm. - Nemur kibriti artıq tüstüləyən siqaretinə apardı. - Sən, əlbəttə, başa düşürsən ki, biz eksperimentin nəticələrinin dönməzliyinə praktiki olaraq əmin idik və hələ də... ümid var ki...

-Başa düşürəm, düşürəm...

-Əlbəttə, sənin məsələndə bizim üzərimizə böyük məsuliyyət düşürdü. Bilmirəm eksperimentin əvvəli, ya da onun ayrı-ayrı mərhələlərinin sənin beynində bütövləşməsi sənin yadındadır, ya yox, ancaq biz sənə aydın şəkildə izah etdik ki, ağıl səviyyəsinin yüksəlməsi müvəqqəti də ola bilər.



downloaded from KitabYurdu.org

-Hə, bu, hesabatlarda yazılıb, - razılaşdım. - Ancaq o zaman mən bunun nə demək olduğunu çətin başa düşəydim.

-Biz risk etməyə qərar verdik, - Nemur davam etdi, - çünki sənə ziyan vurmaq ehtimalının son dərəcə cüzi olduğunu hiss edirdik, xüsusilə də sənin adam olma ehtimalınla müqayisədə.

- Özünüzə bəraət qazandırmayın.

-Bizə əməliyyatı etmək üçün sənin qohumlarının birindən icazə almaq lazım idi. Sən özün bu məsələni həll etmək iqtidarında deyildin.

-Mən bunu da bilirəm. Siz mənim bacım Norma haqqında danışırsınız. Mən qəzetləri oxumuşam və əgər onun ekzekusiyaya* (ekzekusiya - bədən cəzası) çox həvəslə razılıq verdiyini güman etsəm, yanılmaram.

Nemur qaşlarını qaldırdı, ancaq diqqətini bu sözlər üzərində cəmləmək istəmədi.

-Biz ona izah etdik ki, əgər eksperiment uğursuz olsa, sən, çətin ki, çörəkxanaya qayıda biləsən.

- Niyə?

-Sən başqa cür olacaqdın. Cərrahi müdaxilə və hormonlann vurulması çox gec effekt verə bilərdi. Sənə əməliyyatdan sonra qazandığın təəssüratlar və həyat təcrübəsi öz möhrünü vura bilərdi. Mən adi ağıldankəmliyi ağırlaşdıra biləcək mümkün emosional pozuntulan nəzərdə tuturam...



downloaded from KitabYurdu.org

- Çox gözəl. Təkcə elə bu çatmırdı.

-Hə, bir də... Sənin əvvəlki durumuna qayıdıb-qayıtmayacağın bəlli deyil. Geriləmə istisna olunmur, həm də daha primitiv səviyyəyə qədər.

Hə, o mənə ən pisini söylədi. Çiynimdəki yükü götürdü.

-Nə qədər ki hadisələrin gedişinə təsir edə bilirəm, hər şeyi bilmək istəyirəm. Sizin sonrakı planlarınız nədən ibarət idi?

-Fond hər şeyi elə düzüb-qoşmuşdu ki, səni Uorrenə göndərsinlər.

- Nəyə görə?

-Miss Qordonla əldə olunan razılığa görə, sənin bütün xərclərini Uelberq fondu öz üzərinə götürməlidir. Fond sənin şəxsi ehtiyaclann üçün zəruri olan məbləği ömrünün sonuna qədər hər ay ödəyəcək.

-Niyə onlar? German əmi öləndə mən artıq öz-özümü dolandıra bilirdim. Heç Donner də məni Uorrenə aparmağa qoymadı, mən onun yanında qalır və işləyirdim. Niyə məni məhz Uorrenə həvalə ediblər?

-Əgər sən öz qayğına qala bilsən, heç kəs səni orada zorla saxlamayacaq. Bundan da ağır hallarda insanlara ayrı yaşamağa icazə verirlər... Ancaq biz səni, hər ehtimala qarşı, təmin etməliydik.

O, əlbəttə, haqlıdır. Mən şikayətlənməməliyəm. Onlar hər şeyi düşünüblər. Uorren ən məntiqli qərardır, orada



downloaded from KitabYurdu.org

mən ən qoca çağlarıma qədər yaşaya bilərəm.

- Nə etmək olar, hər halda, bu, soba deyil.

-Nə?

-Fikir verməyin, zarafatdır. - Ağlıma bir fikir gəldi. - Deyin, Uorrenin müalicəxanasma baxmaq olar? Ziyarətçi kimi.

-Onlann daim ziyarətçiləri olur. Cəmiyyətlə qarşılıqlı əlaqələr çərçivəsində. Ancaq bu nəyə lazımdır?

-Nə qədər ki nəyisə dəyişə bilərəm, başıma nə gələcəyini bilmək istəyirəm. Xahiş edirəm, ora getməyimi təşkil edin və nə qədər tez olsa, bir o qədər yaxşı olar.

Bu ideyanın onun xoşuna gəlmədiyi şəksiz idi. Mən sanki öz tabutumu ölçürdüm. Professoru günahlandıra bilmərəm. O, sadəcə, başa düşmür ki, insanın özünü dərk etməsi üçün yalnız

keçmişi yox, gələcəyi də vacibdir, təkcə olduğu deyil, olacağı yerlər də önəmlidir. Mən, sadəcə, kimsə deyiləm, həm də bu kimsənin varolma üsuluyam - saysız-hesabsız üsullarından biriyəm və mənə yalnız getdiyim yolu deyil, bütün mümkün yolları bilmək lazımdır.

Bir neçə günlük özümü kitablara verdim: kliniki psixologiya, psixometriya, təlim, eksperimental psixologiya, heyvanların psixologiyası, fizioloji psixologiya, davranış nəzəriyyəsi. Analitik, funksional, dinamik, orqanik və sair qədim və yeni təlimlər,



downloaded from KitabYurdu.org

məktəblər və cərəyanlar. Pis odur ki, psixologiyanın insan ağlı və yaddaşı haqqında ideyalann gəldiyi nəticələrin əksəriyyəti heç bir əsası olmayan hökmlərdən ibarətdir.

Fey laboratoriyaya baxmaq istəyir, ancaq bunu ona qadağan etmişəm. Təkcə onun Alisa ilə rastlaşması çatmırdı. İşim-gücüm qurtarmışdı.

Hesabat N°16

14 iyul

Uorrenə yola düşmək üçün açıq-aşkar uğursuz - boz və yağışlı bir gün seçmişdim, xatirələrimin kədərli olması da qismən bununla bağlıdır. Bununla özümü, sadəcə, aldatmağım istisna deyil və ruhumun alaqaranlığı müalicəxanaya salma biləcəyimlə izah olunur. Avtomobili Bartdan almışdım. Alisa da mənimlə gəlmək istədi, ancaq o mənə mane ola bilərdi. Feyə, ümumiyyətlə, hara getdiyimi demədim.

Saat yarım maşın sürdükdən sonra Uorrenin fermer icmasına, Lonq-Aylendə gəldim. Lazımi yeri tapmaqda çətinlik çəkmədim. Geniş əraziyə yayılmış boz malikanə bütün dünyaya yalnız giriş qapısını göstərirdi: köndələn yolun hər iki tərəfindəki beton dirək və cilalanıb panldadılmış mis lövhəcik: Dövlət müalicəxanası “Uorren” xüsusi məktəbi

Yolun kənanndakı nişan sürəti saatda əlli milə qədər məhdudlaşdırırdı, inzibati binanı axtara-axtara maşını


downloaded from KitabYurdu.org

boz evlərin yanıyla astaca sürdüm.

Çəmənliklə mənə san bir traktor gəlirdi, kabinəsində sürücüdən başqa, iki nəfər də sıxışıb oturmuşdu. Pəncərədən
başımı çıxarıb qışqırdım:

- Cənab Uinslounu necə tapa bilərəm?

Sürücü saxlayıb əliylə göstərdi:

-Əsas hospitala gedin. Sola dönün və sağ tərəfdə olduğunu görəcəksiniz.

Mən traktorun arxa tərəfindən yapışan gənc oğlana diqqət yetirməyə bilmədim, onun tüklü üzünə boş təbəssüm kölgəsi qonmuşdu. Başında yekə matros şlyapası vardı, onun günəşdən qoruyan kənarlarını bütün oğlanlar kimi yuxarı qatlamışdı. Oğlanın suallı baxışlarını bir anlıq tutub gözlərimi dərhal yayındırdım. Traktor tırıldayaraq yoluna davam edəndə güzgüdə onun gözlərini maraqla məndən çəkmədiyini gördüm. Çarliyə elə oxşayırdı ki, özümü pis hiss etdim.

Baş psixoloqun çox gənc olması məni təəccübləndirdi. O, ucaboy, qamətli bir kişiydi, zahirən yorğun görünsə də, mavi gözlərində iradə və qətiyyət vardı.

O, avtomobilinin pəncərəsindən mənə öz "mülkləri"ni: əyləncə salonlarını, xəstəxananı, məktəbi, pasiyentlərin yaşadığı və onun kottec adlandırdığı ikimərtəbəli kərpic evləri göstərdi.

- Niyə hasarlar görünmür? - soruşdum.



downloaded from KitabYurdu.org

-Hasarlar yoxdur. Ancaq darvaza və avaralar üçün canlı çəpər var.

- Bəs onları... necə qoruyursunuz? Çıxıb gedə bilərlər axı...

O gülümsəyib çiyinlərini çəkdi.

- Hə, bəziləri gedirlər, amma çoxu qayıdır.

- Siz onlan axtarırsınız?

Uinslou mənə elə baxdı ki, sanki suallanmda adi maraqdan daha çox şey gizləndiyini hiss etmişdi.

-Yox. Başlarına xoşagəlməz bir hadisə gələndə tezliklə qonşu fermerlər vasitəsilə xəbər tuturuq. Ya da polis onları tutub geri gətirir.

- Əgər belə olmasa?

-Onda bizə qalır yalnız onun kafi yaşayış üsulu tapdığını güman etmək... Məni düzgün başa düşün, cənab Qordon, bura qazamat deyil. Hakimiyyət bizdən qaçışların qarşısını almaq üçün bütün ağlagələn tədbirləri görməyi tələb edir, ancaq bizim dörd min insanı daim nəzarət altında saxlamaq gücümüz yoxdur. Qaçanlar, əsasən, yüngül xəstələrimiz olur, ancaq
onların sayı bizdə getdikcə azalır. Son zamanlar bizim əsas kontingentimiz beyni zədələnənlərdir, onları ciddi nəzarət altında saxlamaq lazımdır, ancaq qalanları üçün hərəkət azadlığı məhdudlaşdırılmır. Qaçqınlar "azadlıq"da bir-iki gün qaldıqdan sonra orada yaxşı heç nə olmadığını görüb geri qayıdırlar. Cəmiyyət onları rədd



downloaded from KitabYurdu.org

edir və bunu onlara başa salmaq üçün vasitə seçimində çətinlik çəkmir.

Biz maşından düşüb, kotteclərdən birinə yaxınlaşdıq. İçəridəki divarlara ağ plitələr vurulmuşdu, xlor iyi gəlirdi. Birinci mərtəbənin hollundan böyük zala qapı vardı, orada divar boyu qoyulmuş skamyalarda oturan qırx-əlli nəfər oğlan lança çağıracaq zəngin vurulmasını gözləyirdi. İlk gözümə sataşan böyük oğlanlardan biri oldu, o, on dörd yaşlı başqa bir oğlanın başını dizləri üstünə qoyub küncdə oturmuşdu və ona layla çalırdı. Bizi görən kimi hamı dönüb baxdı, ən qoçaqları isə yaxınlaşıb gözlərini mənə zillədilər.

- Qorxmayın, - sifətimin dəyişdiyini görən Uinslou dedi, - onlar sizə pislik etməzlər.

Şöbənin rəhbəri olan hündür və qəşəng qadın bizə yaxınlaşdı. Onun köynəyinin qolları dircəyəcən çırmanmışdı, nişastalı ağ yubkasının üstündən isə önlük taxmışdı. Kəmərində açar dəsti cingildəyirdi. Başını döndərəndə üzünün bir tərəfinin anadangəlmə qırmızı ləkə ilə örtüldüyünü gördüm. O dedi:

-Bu gün biz heç kəsi gözləmirdik, Rey. Sən qonaqlan, adətən, dördüncü günlər gətirirsən.

-Bu, cənab Qordondur, Bekman universitetindən gəlib. O, buralara göz gəzdirmək və bizim işimiz haqqında öyrənmək istəyir... Sənə qalanda isə, Telma, bilirəm ki, səninçün hansı gün olmasının fərqi yoxdur,


downloaded from KitabYurdu.org

hamısı yaxşıdır.

-Elədir! - Telma ucadan və şən-şən güldü. - Ancaq üçüncü günlər döşəkləri dəyişdiyimiz üçün buraların qoxusu qat-qat yaxşı olur.

Hiss etdim ki, Telma üzündəki ləkəni gizlətmək üçün məndən solda dayanmağa çalışır. O, yataq otaqlarını, camaşırxananı, anban, yemək salonunu mənə göstərdi, stollara qab-qacaq düzülmüş və mərkəzi mətbəxdən yemək gətirilməsini gözləyirdilər. Telma danışarkən gülür və başındakı bir çəngə
tük onu Lotrek rəqqasəsinə bənzədirdi. O mənim gözlərimə bir dəfə də baxmadı. Maraqlıdır, iş gəlib Telmanın mənə nəzarət etməsinə çıxsa, görəsən, həyat necə olacaq?

-Bizdə onlara yaxşıdır, - o dedi. - Ancaq bilirsiniz... Hər şöbədə yetmiş beş olmaqla üç yüz uşaqdır, bizsə cəmi beş nəfərik. Onlara nəzarət etmək çox çətindir. Buna baxmayaraq, bura “çirkli” kotteclərdən qat-qat yaxşıdır. Odur ki, çox adam orada uzun müddət tab gətirmir. Körpələrlə olanda buna o qədər də əhəmiyyət vermirsən, ancaq uşaqlar böyüyüb altlarını batıranda...

-Mənə elə gəlir ki, siz çox yaxşı insansınız, - dedim. - Sizinlə uşaqların bəxti gətirib.

O, yenə qarşısına baxaraq, razılıqla gülümsədi.

-Mən başqalarından nə yaxşıyam, nə də pis. Sadəcə, bu uşaqlar mənim xoşuma gəlir. Əlbəttə, onlarla o qədər


downloaded from KitabYurdu.org

də asan deyil, ancaq fikirləşəndə ki, onlara lazımsan... - Təbəssümü yox oldu. - Normal uşaqlar çox tez böyüyürlər... çıxıb gedirlər... onları sevənləri və qayğılarına qalanları unudurlar. Ancaq bunlar... Onlara gərək özünü tam olaraq verəsən, bütün
həyatını. - O, yenə gülümsədi, elə bil dediklərindən utandı. - Ağır işdir, ancaq dəyərlidir.

Aşağıda Uinslou bizi gözləyən yerdə zəng çalındı və uşaqlar yeməkxanaya doğru axışdılar. Özündən balaca oğlanın başını dizləri üstə qoyan böyük oğlanın onun əlindən tutaraq apardığını gördüm.

-Maraqlıdır, - mən başımla onlara işarə edərək dedim. Uinslou da başını tərpətdi.

-Böyüyün adı Cerridir, balaca isə Dastidir. Biz belə şeyləri sıx-sıx görürük. Heç kəsin onlara ayırmağa vaxtı olmadığından mehribanlığı və məhəbbəti bir-birilərində tapırlar...

Bundan sonra biz məktəbə baş çəkməliydik və kotteclərin birinin yanından keçəndə uca bir haray, ya da inilti eşitdik və bir neçə səs də ona qoşuldu. Bu binanın pəncərələrində barmaqlıqlar var idi.

Səhərdən bəri ilk dəfəydi ki, Uinslounun davranışında müəyyən inamsızlıq gördüm.

O izahat verdi:

-“K” kottecində xüsusi təhlükəsizlik tədbirləri alınıb. Tez həyəcanlanan xəstələr kiçicik bir imkan düşən kimi



downloaded from KitabYurdu.org

özlərinə, ya da bir-birinə xətər toxundururlar. Onlar daim qapalı saxlanır.

-Çox qızğın pasiyentləriniz var! Məgər onlann yeri psixiatrik xəstəxanalar deyil?

-Əlbəttə, əlbəttə... Ancaq bu durumun sərhədlərini necə müəyyənləşdirəsən? Onlardan bəziləri bu cür meyilləri dərhal büruzə vermirlər, bəzilərini isə bura məhkəmə göndərir, odur ki, onlan qəbul etməyə məcbur oluruq. Bəla burasındadır ki, heç yerdə heç kəsə yer yoxdur. Bilirsiniz bizə nə qədər növbə gözləyən adam var? Min dörd yüz nəfər. İlin sonunacan biz, bəlkə də, onlardan iyirmi-otuz nəfərini qəbul edə bildik.

- Bəs o min dörd yüz nəfər indi haradadır?

-Evdə. Ya da başqa bir yerdə gözləyirlər... Bizim problemlər xəstəxana çarpayılarının çatışmamasından bir qədər fərqlidir. Xəstələr burada, adətən, ömürlərinin sonuna qədər qalırlar.

Biz yeni məktəbə, iri işıqlı pəncərələri olan şüşə və beton binaya yaxınlaşdıq, mən onun koridorlarında pasiyent kimi
necə gəzəcəyimi, özümə oxşarlarla birlikdə sinif otağına necə növbəyə duracağımı təsəvvür etməyə çalışdım. Bəlkə də, mən bədbəxt qardaşlarından birini əlil arabasında, ya da əlindən tutub gəzdirənlərdən, yaxud balaca oğlana dizləri üstündə layla çalanlardan biri olacağam...



downloaded from KitabYurdu.org

Dülgər emalatxanasında bir qrup böyük uşaq partalar üçün oturacaqlar düzəldirdi, içəri girən kimi bizi maraqla dövrəyə aldılar. Müəllim də mişarı kənara qoyub yaxınlaşdı.

- Cənab Qordon Bekman universitetindən gəlib,
- Uinslou məni təqdim etdi. - Bizim xəstələrə baxmaq istəyir. Müəssisəmizi alıb-almamaq barədə düşünür. Müəllim gülümsəyib əlini şagirdləri tərəfə yellətdi:

-R-r-razıyıq. Onda g-g-gərək b-b-bizi də g-g-götürsün. B- bizə isə işləmək üçün ç-çoxlu t-taxta lazım olacaq.

O, emalatxananı mənə göstərəndə buradakı uşaqların qeyri-adi dərəcədə susqun olduqlarına diqqət etdim. Onlar skamyaları sürtüb cilalayarkən bir kəlmə də danışmırdılar.

-B-bunlar s-sakit u-uşaqlardır, - təəccübümü hiss edən müəllim dedi. - L-lal-k-karlardır.

-Onlar cəmi yüz altı nəfərdirlər, - Uinslou əlavə etdi. - Onların təhsilini federal hökumət maliyyələşdirir.

Çox maraqlıdır! Tanrı onlara başqalarından nə qədər az qabiliyyət verib! Ağılları az, həm də lal-kar, ancaq skamyaları necə də səylə cilalayırlar!

Taxta parçasını məngənədə sıxan uşaqlardan biri işinə ara verib Uinslounun çiyninə şappıldatdı və əliylə küncdəki rəflərə yığılmış hazır məhsulları göstərdi. O, əvvəlcə ikinci rəfə qoyulmuş lampa üçün altlığı, sonra isə


downloaded from KitabYurdu.org

özünü göstərdi. Bu, qeyri-peşəkarcasına düzəldilmiş yöndəmsiz, böyrü əyri bir altlıq idi, səthi qeyri-bərabər laklanmışdı. Uinslou və müəllim onu şövqlə tərifləməyə başladılar. Gənc məğrurcasına gülümsəyib mənə baxdı və tərif xoruna qoşulmağımı gözlədi.

Mən başımı tərpədib aydın tələffüzlə mübaliğəli sözlər söylədim:

-Çox yaxşıdır... Sadəcə, aldır... - Mən bu sözləri onun ehtiyacını ödəmək üçün dedim, ancaq içimdə boşluq hiss etdim. Gənc oğlan gülümsəyib paltarımın qoluna xəfifcə toxundu. Bununla mənə “sağ ol” dedi. Ürəyim sıxıldı və emalatxanadan çıxanacan özümü ağlamaqdan güclə saxladım.

Məktəbin direktoru qətiyyən zabitəli təsir bağışlamayan bəstəboy və toppuş bir qadın idi. O məni səliqəli hərflərlə pasiyentlərin müxtəlif tipləri, həmçinin müəllimlərin sayı və hər bir qrup üçün fənlərin siyahısı yazılmış plakatın qarşısında oturtdu.

-Əlbəttə, indi bizdə İQ-sü yüksək olan pasiyentlərin sayı azdır, - o izahat verdi. - Altmışdan yetmişəcən olanlar daha çox adi məktəblərdə, ancaq xüsusi siniflərdə oxuyurlar. Cəmiyyət müəyyən dərəcədə onlann qayğısına qalır. Onların əksəriyyəti sığmacaqlarda, yataqxanalarda müstəqil şəkildə yaşayıb, fermalarda, fabriklərdə, camaşırxanalarda işləməyə qadirdir...

- Ya da çörəkxanalarda, - mən dedim.


downloaded from KitabYurdu.org

Direktor fikrə getdi.

-Bəli, mənə elə gəlir ki, bunu da bacararlar... Biz öz uşaqlarımızı (yaşlarından asılı olmayaraq, mən onların hamısına uşaqlarım deyirəm) “təmizlər’ə və “çirklilər’ə ayırırıq.

Kottecdə ancaq eyni tipli xəstələr olanda onları idarə etmək xeyli asandır. Beyinləri ciddi zədələnmiş bəzi “çirkli” xəstələr ömürləri sona çatanacan uzanmağa məhkumdurlar...

- Ya da elm onlara kömək edə bilənədək.

-Qorxuram ki, artıq onlara kimsənin köməyi dəyməsin, - direktor dedi.

- Ümidi itirmək olmaz.

O, çaşqın halda, həm də diqqətlə mənə baxdı.

- Hə, hə, əlbəttə, haqlısınız... Ümid çox vacibdir...

Mən onun qəlbindəki rahatlığı pozdum və məni hansı kateqoriyaya: “təmiz’ə, yaxud “çirkli”yə aid etdiyini düşünərək için-için güldüm.

Biz Uinslounun kabinetinə qayıtdıq. O, qəhvə dəmləyib, öz işi haqda danışmağa başladı.

-Bura pis yer deyil. Bizim ştatda psixiatr yoxdur, ancaq məsləhətçi var və o da həftədə bir dəfə gəlir. Ancaq bunun əhəmiyyəti yoxdur. Bütün psixoloqlarımız əllərindən gələni əsirgəmirlər. Psixiatr da tutmaq olar, ancaq mən həmin pula iki psixoloq saxlayıram, onlar həyatlarının bir hissəsini


downloaded from KitabYurdu.org

bizim xəstələrə verməkdən qorxmurlar.

-“Həyatlarının bir hissəsi” deməklə nəyi nəzərdə -tutursunuz?

Yorğun Uinslou azca əsəbiləşdi, səsində narazı notlar duyuldu.

-Bizə pul və ya təchizatla kömək edənlər çoxdur, ancaq vaxtını və duyğularını verənlər azdır. Mən bunu nəzərdə tuturam!

O, kitab rəfindəki balaca və boş uşaq butulkasını göstərdi. Dedim ki, artıq ona diqqət etmişəm.

-Deməli, belə, sizin tanıdığınız adamlardan neçə nəfəri yekə kişini qucağında oturdub butulkadan yedirtməyə hazırdır? Bu zaman təpədən-dırnağa zibilə bulaşmaq riski də var. Təəccübləndiniz? Fil sümüyündən olan elmi-tədqiqat qülləsində oturduğunuz müddətdə bunu anlaya bilməzsiniz. Bəşəriyyətdən ayrı düşməyin nə demək olduğunu haradan biləsiniz?

Bu yerdə mən təbəssümümü gizlədə bilmədim.

Uinslou dərhal ayağa qalxdı və mənimlə çox soyuq tərzdə vidalaşdı. Əgər nə vaxtsa bura düşsəm, məni tanıyıb hər şeyi başa düşəcək. Belə bir adam anlamağa qadirdir.

Maşını Nyu-Yorka doğru sürürdüm və ətrafımdakı soyuq bozluğun üzərinə daxilən hər şeydən uzaq düşməyim də gəlmişdi. Görüşdüyüm adamların heç biri öz xəstələrinin müalicəsi, onlan nə vaxtsa cəmiyyətə...



downloaded from KitabYurdu.org

özlərinə qaytarmağın mümkünlüyü haqda bircə kəlmə də deməmişdi. Bircə ümid verən də olmamışdı. Xəstələr onlar üçün canlı meyitlər idi, yox, daha pis, heç vaxt yaşamayan, zamanı və məkanı düşünmədən gecə və gündüzün fasiləsiz əvəzlənməsi kimi dərk etməyə məhkum olunmuş insanlartək.

Mən oradakı sahibəni - üzünün yarısı qıpqırmızı xalla örtülü qadını, pəltək müəllimi, mehriban qadın direktoru, üzündən yorğunluq tökülən gənc psixoloqu xatırladım. Onlar bu susqun ağıllara xidmət etmək üçün bura necə gəlib çıxmışdılar? Özündən kiçik tale yoldaşını dizləri üstündə tutan oğlan kimi, onların da hər biri öz həyatının mənasını, onun bir hissəsini həyatın rədd etdiyi insanlara həsr etməkdə tapmışdı.

...Bəs mənə göstərmədikləri kotteclər?

Bəlkə də, mən bura qayıdacaq və həyatımın qalan hissəsini Uorrendə keçirəcəyəm. Gözləyək...

15 iyul

Anamla görüşməyi elə hey təxirə salıram. Onu görməyi çox istəyirəm, ancaq başa düşürəm ki, məni nə gözlədiyini götür- qoy etmədən bu görüşün faydası az olacaq.

Elcernon labirintdə qaçmaqdan imtina edir, heç bir mükafat ona təsir etmir. Bu gün ona baş çəkməyə gedəndə Nemur və Ştrausla rastlaşdım, onlar narahat halda Bartın onu zorla yemləməsini müşahidə edirdilər.


downloaded from KitabYurdu.org

Laboratoriya stoluna bağlanmış bu balaca yumşaq yumağa və əlində damcıtökən ona tərəf əyilmiş Barta baxmaq çox qəribəydi.

Əgər bir az da belə davam etsəydi, onu iynəylə yaşatmalı olacaqdılar. Kəmərciklərlə bağlanmış Elcernondan gözümü çəkmədən onlann mənim əl-ayağımı bağladıqlarını təsəvvür edirdim. Mən boğulmağa başladım və təmiz hava almaq üçün özümü laboratoriyadan bayıra atdım. Özümü onunla eyniləşdirməyə son qoymağın zamanı çatıb.

Murreyin banna girib içdim, sonra Feyə zəng vurdum və biz əyləncə yerlərini dolaşmağa başladıq. Feyi daha rəqs etməyə aparmadığım üçün hirslənmişdi. Dünən axşam o əsəbiləşdi və sağollaşmadan çıxıb getdi. Onun mənim işimlə bağlı zərrə qədər təsəvvürü yoxdur. Onun, ümumiyyətlə, heç nə vecinə deyil, ancaq buna görə Feyi qınamaq mənimçün çətindir. Onu yalnız üç şey maraqlandınr: rəqs, rəsm və seks. Mənim onunla bölüşə biləcəyim şey təkcə seksdir. Onu mənim işimlə maraqlanmağa sövq etməyin özü axmaqlıqdır. Hazırda o, rəqsə mənsiz gedir. Srağagün dedi ki, yuxuda mənim bütün kitablarımı və yazılarımı yandırdığını və həmin tonqalın ətrafında şən-şən rəqs etdiyimizi görüb. Onunla ehtiyatlı olmalıyam, çünki tələblər irəli sürməyə başlayıb. Mənzilimin Feyin mənzilinə oxşamağa başladığını və zibilliyə çevrildiyini yenicə hiss etmişəm. Həm də həddən



downloaded from KitabYurdu.org

artıq çox içirəm.

16 iyul

Dünən axşam Alisa ilə Fey, axır ki, görüşdülər. Alisa Bartdan Elcernonun başına gələnləri eşidib gəlmişdi. O bunun
nəylə nəticələnə biləcəyini hiss edir, bundan başqa, məni bu işə qoşduğuna görə özünü günahkar sayır.

Biz qəhvə içə-içə xeyli söhbət etdik. Mən Feyin “Ulduz tozu”na getdiyini bilir və belə erkən qayıdacağını gözləmirdim. Ancaq təxminən ikiyə on beş dəqiqə qalmış qonşumun yanğın nərdivanında qəfil peyda olmasından dəhşətə gəldik. O, pəncərəni döydü, açdı, içəri keçib əlində butulka vals oynaya- oynaya otaqda dövrə vurdu.

- Gəlin ziyafət təşkil edək. Mən öz payımı gətirmişəm.

Alisanm mənimlə universitetdə işlədiyini artıq ona
söyləmiş, Feyin varlığı barədə isə Alisaya xəbər vermişdim, ona görə də bu görüş heç də gözlənilməz olmadı. Onlar bir-birinə sınayıcı nəzərlərlə baxıb, sənət və mənim haqqımda danışdılar və deyəsən, mənim burada olduğumu unutdular. Hə, onlar bir- birinin xoşuna gəlmişdilər.

-Yenə qəhvə dəmləmək lazımdır, - mən mızıldandım və qadınları tək buraxaraq mətbəxə cumdum.

Geri qayıdanda Fey artıq çəkmələrini soyunaraq döşəmədə oturub butulkadan cin qurtumlayırdı. Bu zaman o həm də


downloaded from KitabYurdu.org

Alisaya izah edirdi ki, insan bədəni üçün günəş qaralmasından faydalı heç nə yoxdur və bəşəriyyətin mənəvi problemlərinin hazır həlli nudistlərin koloniyasına qoşulmaqdadır.

Alisa sözügedən koloniyaya qoşulmaqla bağlı təklifə bir qədər əsəbi tərzdə gülüb, içki stəkanını Feydən aldı.

Biz, demək olar ki, səhərəcən oturduq və mən Alisanı evinə ötürmək istədim. O buna ehtiyac olmadığını demək istəyəndə Fey dərhal bəyan etdi ki, yalnız axmaqlar bu saatda təkbaşına küçəyə çıxa bilərlər. Mən evdən çıxıb taksi tutdum.

Yolda Alisa dedi:

-Onda nəsə var. Ancaq nə olduğunu bilmirəm... Açıqlıq, səmimiyyət var, eqoizmdən əsər-əlamət yoxdur...

Mən bununla razılaşmaya bilmədim.

- Həm də o səni sevir.

- Yox. O hamını sevir, mənsə, sadəcə, onun qonşusuyam.

- Bəs sən onu sevirsən?

- Mənim sevdiyim yeganə qadın sənsən.

- Gəl bu haqda danışmayaq.

- Sən məni çox maraqlı bir mövzudan məhrum edirsən.

-Çarli, sənin içməyin məni çox narahat edir. Mən bu kefliliklər barədə bəzi şeyləri bilirəm...



downloaded from KitabYurdu.org

-Barta de ki, öz müşahidələrini və nəticələrini müvafiq iş jurnallarına versin. Ona bizi bir-birimizə qarşı qoymağa imkan verməræm! Nə qədər içməli olduğumu özüm bilərəm!

- Bu sözləri artıq eşitmişəm.
- Məndən eşitməmisən.

-Feyin mənim xoşuma gəlməyən bircə cəhəti var. O səni içirdir və işləməyinə mane olur!

- Bunun da öhdəsindən gələcəyəm.

-Çarli, sənin işin təkcə bəşəriyyət üçün deyil, həm də özünçün lazımdır! Öz əl-qolunu bağlama!

-Həqiqət yavaş-yavaş üzə çıxır, - deyə onu hirsləndirdim. - Sən, sadəcə, mənim onunla az-az görüşməyimi istəyirsən.

- Mən bunu demədim!

-Amma nəzərdə tutdun. Əgər Fey, doğrudan da, maneədirsə, onu həyatımdan silərəm.

-Hər şeyi birdən etməyə nə lüzum var... O sənə lazım olan qadındır, həyatda çox şey görüb.

- Mənə sən lazımsan!

Alisa üzünü çevirdi.

- Ancaq onun kimi yox.

O, yenə mənə baxdı.

-Bu gün sənin yanma ona nifrət etməyə hazır vəziyyətdə gəlmişdim. Onu acıqlı, axmaq fahişə kimi görmək istəyirdim, aranıza girib səni onun


downloaded from KitabYurdu.org

caynaqlarından qoparmaqla bağlı möhtəşəm planım vardı. Ancaq onunla söhbət etdikdən sonra mühakimə etmək haqqımın olmadığını düşündüm. Mən özümə əminliyimdən məhrum oldum. O mənim xoşuma gəlir... düzdür, davranışı bir az... Amma fərqi yoxdur, əgər sən vaxtını onunla birlikdə kefxanalarda keçirməli olursansa, deməli, o sənə mane olur! Bu problem mənlik deyil, onu ancaq sən özün həll edə bilərsən.

- Yenə? - Mən güldüm.
- Ona möhkəm aludə olduğunu inkar etmə!
- Sən deyən qədər deyil.
- Sən ona özün haqda danışmısan?

-Yox, - cavab verdim və dərhal Alisanm sakitləşdiyini gördüm. Sirrimi Feyə verməməyim özümü ona tam həsr etməməyim demək idi. Hər ikimiz bilirdik ki, Fey nə qədər ecazkar olur-olsun, bundan heç nə anlamayacaqdı.

-Mənim ona ehtiyacım vardı və bilmirəm, nədənsə onun da mənə. Biz qonşu olduq və bu, rahat idi. Vəssalam. Məgər buna sevgi demək olar? Bizim aramızdakı nəsə başqa bir şeydir.

Alisa diqqətlə dırnaqlarına baxdı.

- Bəs bizim aramızdakı nədir?

-Nəsə elə dərin və mühüm bir şeydir ki, içimdəki Çarli bizim gecəni birlikdə keçirəcəyimizi biləndə dəhşətə gəlir.

- Ancaq onunla keçirəndə gəlmir?


downloaded from KitabYurdu.org

-Elə buna görə də bunun məhəbbət olmadığını bilirəm, Fey Çarli üçün heç bir əhəmiyyət kəsb etmir.

Alisa güldü:

-Çox gözəl! Necə də ironikdir! Sən danışanda mən ona nifrət edirəm. Necə düşünürsən, o bizə imkan verəcək?..

- Bilmirəm. Ümid edirəm.

Vidalaşarkən bir-birimizin əlini sıxdıq və qəribədir ki, bu hərəkət mümkün qucaqlaşmalardan daha incə və intim oldu.

27 iyul

Feyin etirazlanna məhəl qoymadan bütün sutkanı işləyirəm. Laboratoriyada mənimçün divan da qoyublar. Fey çox hökmlü və tezinciyəndir. Mənə elə gəlir ki, o, başqa bir qadının varlığına dözər, ancaq özümü tam olaraq işə həsr etməyim onun anlayış çərçivəsini aşır. İşə sərf etdiyim hər dəqiqəm qiymətsizdir, mənim vaxtımı oğurlamaq olmaz.

Əqli inkişaf səviyyəsini hesablamaq əla məşğuliyyətdir. Elə, ya da belə, bu problemlə bütün həyatım boyu üzləşəcəyəm. Mənim bütün biliklərimin tətbiq nöqtəsi məhz odur.

Zaman başqa anlam qazanır. Ətrafdakı aləm və keçmiş uzaq və təhrif olunmuş görünür, elə bil zaman və məkan dartılaraq uzadılıb, qorxudulub, tanınmaz hala salınıb. Yalnız əsas korpusun dördüncü mərtəbəsindəki



downloaded from KitabYurdu.org

qəfəslər, siçovullar və cihazlar realdır.

Nə gündüz var, nə də gecə. Alimin bütün həyatını bir neçə həftəyə necə yerləşdirmək olar? Başa düşürəm ki, arabir
dincəlmək, boşalmaq lazımdır, ancaq mənimlə nə baş verdiyini öyrənməyənəcən bunu edə bilmirəm.

Alisa əslköməkçidir ki, durub. O mənə qəhvə və buterbrodlar gətirir və heç nə tələb etmir.

Qavramam haqqında: hər şey aydın və dəqiqdir, hər bir hissiyyat görünməmiş yüksəkliyə qalxıb və elə işıq saçır ki, qırmızı, sarı və mavi rənglər sanki alovlanır. Mənim burada yatmağım qəribə effekt verir: laboratoriya heyvanlarının: itlərin, meymunların, siçanların qoxusu məni keçmişə qaytarır və yeni təəssüratları hiss etdiyimi, yoxsa köhnələri yadıma saldığımı anlamaq çətindir... Onların nisbətini müəyyənləşdirmək mümkün deyil və mən keçmişlə indinin, yaddaşımdakı cavab reaksiyaları ilə və otaqda baş verənlərə cavab reaksiyalarının qəribə qarışığına düşürəm. Sanki bütün bildiklərim əriyərək kristal bir kainat halında bitişib, o, qarşımda fırlanır və onun zərrələrində gözəl və parlaq qığılcımlar alışır...

...Qəfəsin ortasında oturub, qoca kişilər kimi qırışmış əllərini yanaqlarına dayaq verən meymun yuxulu gözləriylə
mənə baxır... Çini... çini... çini... Birdən o, qəfəsin barmaqlıqlarıyla yuxarı, başqa bir meymunun gözlərini



downloaded from KitabYurdu.org

küt-küt boşluğa zilləyərək oturduğu yelləncəyə sıçrayır.

O, qəfəsdə vurnuxur, yellənərək o biri meymunun quyruğundan yapışmaq istəyir, ancaq o biri sakitcə, təlaşlanmadan quyruğunu yığışdırır. Əla meymundur... Gözəl meymundur... iri gözləri və uzun quyruğu var. Görəsən, ona fındıq vermək olar? Yox, dərhal qışqıracaq. Orada yazılıb ki, heyvanları yemləmək olmaz. Bu, şimpanzedir. Onu sığallamaq olar? Yox. Mən şi-pa-ze-ni sığallamaq istəyirəm. Yaxşı, bəsdir, gedək filə baxaq.

Parlaq günəş işığına bürünmüş bahar libaslı insanlar.

Elcernon bir topa zir-zibilin içində oturub və üfunət get- gedə dözülməz olur.

Mənim axınm necə olacaq?

28 iyul

Fey özünə təzə dost tapıb. Dünən axşam onunla birlikdə olmaq üçün evə gəldim. Öz mənzilimə baxıb bir butulka götürdüm və yanğın nərdivanına çıxdım. Xoşbəxtlikdən, Feyin

mənzilinə girməmişdən əvvəl pəncərədən baxdım. Onlar taxtın üzərində əylənirdilər. Qəribədir, bu mənə nəinki təsir etmir, hətta yüngüllük hiss edirəm.

Laboratoriyaya Elcernonun yanma qayıtdım. Elə anlar olur ki, o, letargiya yuxusundan ayılır, bəzənsə hətta labirintlə qaçır və bu zaman əgər dalana girirsə, onun reaksiyasını yalnız qarşısıalınmaz qəzəb kimi təsvir etmək olar. Mən içəri girəndə o, qızğın haldaydı və məni



downloaded from KitabYurdu.org

dərhal tanıdı. O işləmək istəyirdi, mən onu qəfəsdən labirintə qoydum və koridorlarla sürətlə qaçmağa başladı. Bunu iki dəfə uğurla etdi, ancaq üçüncü dəfə yol ayrıcında ilişdi və yanlış tərəfə döndü. Mən bunun nəylə bitəcəyini bilirdim, əlimi uzadıb onu tam karıxmadan öncə oradan çıxarmaq istədim, ancaq özümü saxladım.

Elcernon naməlum cığırla irəlilədiyini hiss edib dayandı. Onun hərəkətləri xaotik olmuşdu: başlayır, ara verir, geri dönür, yenə dönür, yenidən irəli gedirdi... və ta dalana dirənincə və ya yüngül elektrik zərbəsi ona səhv etdiyini xəbər verənəcən davam edirdi. O qaçaraq dövrə vurur, qrammofon iynəsinin cırıltısına oxşar səs çıxarır, sonra özünü labirintin
divarına çırpır, durmadan tullanıb-düşür, yıxılır və yenidən fırlanırdı. Caynaqlanyla iki dəfə labirinti yuxandan örtən tor məftildən yapışdı və hər ikisində bərkdən ciyildəyərək qopub düşdü. Axırda əbəs cəhdlərə son qoyub, balaca bərk yumağa döndü.

Mən onu qaldırdım, ancaq o açılmağa zərrə qədər də cəhd göstərmədi və katatonik stupor* (stupor - bəzi ruhi xəstəliklər zamanı xəstənin hərəkət və danışıq qabiliyyətini tamamilə itirdiyi hal) halında qaldı. Onu yenidən qəfəsə qoyub, özünə gələnə və normal hərəkət edənəcən müşahidə etdim.

Bu geriləmənin nə demək olduğu anlaşılmazdır. Yəni xüsusi haldır? Təsadüfi reaksiyadır? Yoxsa prosesin



downloaded from KitabYurdu.org

özündə lap əvvəldən bizi uğursuzluğa məhkum edən prinsip var?

Əgər qanunauyğunluğu anlaya, əqli gerilik və onun müalicəsinin mümkünlüyü ilə bağlı məlum olanlara heç olmasa bir vergül əlavə edə bilsəydim, necə də, necə də şad olardım. Başıma nə gəlirsə gəlsin, bundan sonra min həyatım olsa, yalnız başqaları, hələ doğulmamışlar üçün hamısını fəda edərdim.

Bu qədəri yetər.

31 iyul

Mən ən yüksəkdəyəm və bunu dərk edirəm. Ətrafda hamıya elə gəlir ki, özümü işlə həlak edirəm, ancaq onlar anlamırlar ki, mən indi aydınlığın və gözəlliyin ağlıma belə gəlməyən ən yüksək zirvəsindəyəm. Gündüzlər hər şeyi canıma hopdurur, axşamlar isə yatmazdan qabaq ideyalar başımda fişəng kimi partlayır. Dünyada bundan böyük həzz ola bilməz. Bu qaynayan eneıjini, coşqun həvəsi tükədəcək nəyinsə baş verəcəyinə inanmaq mümkün deyil. Sanki son aylar qazandığım bütün biliklər birləşərək, məni aydınlığın və idrakın zirvəsinə qaldırıb. Bu əriyib bir-birinə qarışmış həqiqət, sevgi və gözəllikdir. Bu, həzdir. Mən bütün bunlardan necə imtina edə bilərəm? İnsan həyat və işdən yaxşı heç nə əldə edə bilməz. Cavablar artıq mənim içimdədir və tezliklə, lap yaxınlarda beynimə də soxulacaq. Kaş ki xırda bir problemi həll edə biləydim! Yalvanram ki, onun qəran



downloaded from KitabYurdu.org

məhz mənə yetəcək bir şey olsun. Ancaq nə olursa olsun, buna görə minnətdar olacağam.

Sən demə, Feyin yeni tanışı "Ulduz tozu"nda rəqs müəllimi işləyirmiş. Mənim ona sərf etməyə vaxtım qalmır və o mənim
qarşımda heç nəyə görə günahkar deyil.

ıı avqust

Son iki günü dalana dirənmişəm. Heç nə alınmır. Haradasa düzgün dönməmişəm. Müxtəlif suallara bir yığın cavab alıram. Yalnız birindən, ən başlıcasından - Elcernonun tənəzzülünün eksperimentin əsas nəzəri ilkin şərtləriylə hansı şəkildə bağlılığından başqa.

Xoşbəxtlikdən, beyinin işi haqqında yetərli biliyim var, ona görə də boş yerə əziyyət çəkmirəm. Təşvişə düşən və təslim olan da deyiləm, ya da daha pisi: cavablan onların olmadığı yerdə axtaran deyiləm. Mən problem haqqında daha düşünməyəcəyəm və ona yetişməyə imkan verəcəyəm. Şüur səviyyəsinin imkanları tükənib, ona görə də qoy sirli şüuraltı işləsin. Qəribədir, bütün gücüm yeganə-vahid məsələ üzərində konsentrasiya olunur. Ancaq bu hissə qapılsam və bütün gücümü təkcə ona versəm, bunun heç nəyə köməyi olmayacaq. Maraqlıdır, təkcə alimlərin çox az bilməsi, ya da özlərinə, yaradıcılıq prosesini idarə etmək imkanlarına həddən artıq
güvənməsi ucbatından, görəsən, nə qədər müəmmalar


downloaded from KitabYurdu.org

həll olunmamış qalıb?

İşdən qısa müddətə ayrılıb missis Nemurun Uelberq fondunun direktorlar şurasının dotasiya ayrılmasında səsləri həlledici olan iki üzvünün şərəfinə təşkil etdiyi kokteylə qatılmağa qərar verdim.

Feyi də dəvət etmişdim, ancaq o dedi ki, görüşü var, rəqsə getmək bundan daha yaxşıdır.

Axşama saf niyyətlə başlayıb, yaxşı həmsöhbət olmağı və yeni dostlar qazanmağı qarşıma məqsəd qoydum. Son zamanlar insanlarla ünsiyyət qurmaqla bağlı çoxlu çətinliklə üzləşirəm. Bunda kimin günahkar olduğunu bilmirəm, ancaq başladığım istənilən söhbət iki dəqiqədən sonra bitir. Səbəbini bilmirəm. Yəni məndən qorxurlar?

Qədəhimi götürüb geniş qonaq otağına səyahətə çıxdım. Bir neçə kiçik dəstə nəyisə qızğıncasma müzakirə edirdi. Belə qruplara qoşulmaq mənimçün tamamilə mümkünsüz bir şey idi. Axırda missis Nemur məni küncün birinə sıxışdırıb, direktorlardan biri olan Hayram Harviyə təqdim etdi. Missis
Nemur cəlbedici qadın idi: yaşı qırx, ya da bir az artıq olardı, saçları açıq rəngdəydi, kosmetikadan bol istifadə edirdi, uzun dırnaqlarına parlaq qırmızı lak vurmuşdu. O, Harvinin dirsəyindən yapışıb məndən soruşdu:

- İşlər necə gedir?

-Təşəkkür edirəm, yaxşıdır. Hal-hazırda çox



downloaded from KitabYurdu.org

mürəkkəb bir iş üzərində çalışıram.

-Köməyinizə görə hamımız sizə minnətdarıq. Doğrusu, mənə elə gəlir ki, siz özünüzə aid bir mövzuyla daha həvəslə məşğul olardınız. Məncə, insanın özünün nəsə yaratması başqalarının başladığı işi başa çatdırmaqdan daha maraqlıdır.

Ədalət naminə qeyd etmək lazımdır ki, o, krediti məhz ərinin almalı olduğunu Harviyə bir saniyə də unutmağa imkan vermədi. Mən ona eyni üslubda cavab verməkdən özümü saxlaya bilmədim.

-Heç kəs tamamilə yeni bir şey təklif edə bilməz, missis Nemur. Hər bir tədqiqatçı öz işinə sələflərinin ideyalarının dağıntıları üzərində başlayır. Önəmli olan bilik çantasına son xəzinəni qoymaqdır.

-Əlbəttə, əlbəttə, - o, deyəsən, öz yaşlı qonağıyla danışırdı. - Təəssüf ki, cənab Qordon lap əvvəldən bizimlə birlikdə olmayıb. Ah... - o güldü, - bağışlayın, tamam unutmuşdum, o zaman siz, çətin ki, psixoloji araşdırmalarla məşğul ola biləsiniz.

Harvi də gülümsədi və mən susmağa qərar verdim. Son sözü mənim deməyim doğru olmazdı. Bu, doğrudan da, pis olardı.

Mən Ştrausla Bartı da gördüm. Onlar Uelberq fondunun ikinci şəxsi Corc Reynorla söhbətləşirdilər. Ştraus deyirdi:

-Cənab Reynor, bu cür tədqiqatları apararkən əsas


downloaded from KitabYurdu.org

çətinlik pul almaq və praktik nəticə tələblərinin adamın əl- qolunu bağlamamasıdır. Kreditlər ciddi şəkildə müəyyənləşdirilmiş hədəflər üçün veriləndə biz, sadəcə, işləyə bilmirik.

Reynor başını bulayıb əlindəki nəhəng siqarını yellətdi.

-Əksinə, problem elə direktorlar şurasını işin sırf praktiki dəyərinə inandırmaqdan ibarətdir!

Başını bulamaq növbəsi Nemura keçdi.

-Mən demək istəyirəm ki, bəzən fundamental araşdırmalara da pul ayırmaq lazımdır. Hər hansı işin praktiki nəticəsinin olacağını heç kəs əvvəlcədən deyə bilməz, çünki nəticələr yetərincə tez-tez mənfi olur. Ancaq bizim izimizlə gedən alimlər üçün bu nəticələr müsbətə bərabər olacaq. O, ən azı, nə etmək lazım olduğunu biləcək.

Mən onlara bir az da yaxınlaşdım və Reynorun arvadını, otuz yaşlarında çox gözəl əsmər qadını gördüm. O, diqqətlə mənə baxdı, yox, daha doğrusu, mənim təpəmə baxdı, elə bil indicə oradan nəsə çıxacağını gözləyirdi. Mən də gözlərimi ona zillədim. O qızanb Ştrausa sarı döndü və soruşdu:

-Siz indiki işiniz haqqında nə deyə bilərsiniz? Sizin metodikanız başqa kəmağılların müalicəsində də tətbiq oluna biləcək?

Ştraus çiyinlərini çəkib başıyla məni göstərdi.



downloaded from KitabYurdu.org

-Bu haqda danışmaq hələlik tezdir. Əriniz Çarliyə bizim işimizə qoşulmaqda kömək etdi və çox şey onda nə alınacağından asılıdır.

-Əlbəttə, - Reynor dedi, - təmiz araşdırmaların mühümlüyü bizim işimizdə danılmazdır. Ancaq bir düşünün, əgər laboratoriyanın divarlanndan kənarda konkret nəticələr almağa imkan verən metodu işə sala bilsək, pullarımızın nəzərəçarpan nəticələr əldə olunmasına kömək etdiyini bütün dünyaya göstərə bilsək, haqqımızda necə yüksək rəy yaranacaq!

Ağzımı açmaq istəyirdim ki, Ştraus nəsə deməyə hazırlaşdığımı hiss edib bir addım atdı və əlini çiynimə qoydu.

-Biz hamımız hiss edirik ki, Çarlinin apardığı işin çox böyük əhəmiyyəti var. Onun vəzifəsi necəliyindən asılı olmayaraq, həqiqəti bərqərar etməkdir. Xalqla münasibətləri və cəmiyyətin maarifləndirilməsini isə məmnuniyyətlə sizə həvalə edəcəyik.

O, Reynorlara gülümsəyib məni onlardan uzaqlaşdırdı.

- Mən belə bir şey demək istəmirdim, - dedim.

-Şübhəsiz, - o, dirsəyimi buraxmadan pıçıldadı. - Gözlərinin parıltısından başa düşdüm ki, onları yıxıb-sürüyəcəksən. Buna yol verə bilməzdim.

-Şübhəsiz, - onunla razılaşdım və sinidən yeni “Martini” qədəhini götürdüm.



downloaded from KitabYurdu.org

-Sənə belə çox içmək olmaz.

-Bilirəm... ancaq mən bir qədər rahatlanmaq istəyirəm, ancaq, deyəsən, bununçün o qədər də münasib yer seçməmişəm.

-Sakit ol, - Ştraus dedi, - və çalış ki, heç kəslə dalaşmayasan. Bu adamlar qətiyyən axmaq deyillər. Sənin onlara münasibətini bilirlər, onlar sənə lazım olmasalar belə, biz onlarsız heç nəyik!

Mən qədəhimi Ştrausa sarı qaldırdım.

-Çalışaram, ancaq missis Reynoru mənə yaxın buraxma. Əgər o, bir də öz dalını mənim qabağımda burcutsa, ona təpik vurmalı olacağam.

-Ş-ş-ş! - Ştraus fışıldadı. - Eşidər.

-Ş-ş-ş, - ona hay verdim. - Bağışla. Gedim küncün birində oturum və əl-ayağa dolaşmayım.

Üstümə elə bil pərdə çəkmişdilər, ancaq onun arxasından camaatın mənə sarı baxdığını hiss edirdim. Deyəsən, öz-özümə
danışırdım, ancaq elə də ucadan yox. Yox, yadımdadır ki, mızıldanırdım. Az sonra hiss etdim ki, qonaqlar çox tez gedirlər, ancaq Nemur yaxınlaşıb düz qarşımda dayanmayanacan buna əhəmiyyət vermədim.

-Bu nədir! Buna necə cəsarət edirsən?! Ömrümdə heç vaxt bir axşamda bu qədər kobudluq eşitməmişdim!

Ştraus onu saxlamaq istədi, ancaq artıq gec idi. Nemur ağzının suyu axa-axa qışqırdı:


downloaded from KitabYurdu.org

-Səndə zərrə qədər minnətdarlıq duyğusu yoxdur! Sən ətrafda nə baş verdiyini anlamırsan! Sən bu insanlara olan borcunu heç vaxt ödəyə bilməzsən! Sən onlara təsəvvür etdiyindən də qat-qat çox borclusan!

-Heç hind donuzundan da minnətdarlıq umarlar? Mən ki sizin məqsədlərinizə xidmət etmişəm, indisə etdiyiniz səhvləri araşdırmağa çalışıram... Mən necə borclu ola bilərəm axı?

Ştraus söhbətə yenidən müdaxilə etmək istəsə də, Nemur onun sözünü kəsdi:

-Bir dəqiqə! Ona axıracan qulaq asmaq istəyirəm! Qoy sözünü desin!

- O həddən artıq çox içib, - arvadı dedi.

-Elə də çox içməyib, - Nemur fınxırdı. - O, fikirlərini çox aydın ifadə edir. O bizim işimizi hələ tamamilə məhv etməsə də, əməlli-başlı karıxıb, mən həqiqəti onun öz dilindən eşitmək istəyirəm.

-Lazım deyil, - mən dedim. - Həqiqəti bilmək, çətin ki, sizin işinizə yaraya.

-Yanılırsan, Çarli! Mən bilmək istəyirəm! Ən azından, sənin versiyanı. Mən bilmək istəyirəm ki, səndə oyanan qabiliyyətlərə, qazandığın biliklərə, həyat təcrübəsinə görə minnətdarsanmı? Yoxsa əvvəllər daha yaxşı yaşadığını düşünürsən?

- Müəyyən mənada hə, daha yaxşı!

Bu onu dəhşətə gətirdi.



downloaded from KitabYurdu.org

-Son aylar mən çox şey öyrənmişəm, həm də təkcə Çarli Qordon haqqında yox, ümumiyyətlə, dünya haqqında və başa düşmüşəm ki, Çarli Qordonun axmaq və ya dahi olması heç kəsin vecinə deyil. Bunun nə fərqi var ki?
Nemur güldü.

-Sənin, sadəcə, özünə yazığın gəlir! Bəs sən nə gözləyirdin? Eksperimentin məqsədi sənin ağlını artırmaq idi, səni məşhur etmək yox. Biz sənin şəxsiyyətinin inkişafım nəzarət altında saxlaya bilmədik və sən bir az kəmağıl olsan da, yaxşı bir cavan oğlandan yekəxana, eqoist, antisosial bir it oğluna çevrildin.

-Əziz professor, sizə dahiyə çevirib qəfəsdə saxlaya biləcəyiniz və dəfnə yarpağının növbəti məhsulunu dərəndə nümayiş etdirə biləcəyiniz biri lazım idi... Ancaq bəla burasındadır ki, mən şəxsiyyət oldum!

Nemurun iki arzu arasında qaldığı hiss olunurdu: o bilmirdi mübahisəni kəssin, yoxsa, hər halda, məni sındırmağa çalışsın.

-Sən həmişəki kimi haqsızsan. Biz həmişə səninlə yaxşı rəftar etmişik və mümkün hər şeyi etmişik...

-Hər şey etmisiniz, yalnız bircə şeydən başqa, siz mənə ağıllı bir varlıq kimi baxmamısımz. Siz mənim əməliyyata qədər heç nə olmağımla lovğalanmaqdan doymursunuz və mən bunun səbəbini bilirəm! Çünki əgər mən heç kim olmuşamsa,


downloaded from KitabYurdu.org

deməli, məni siz yaratmısınız və bu sizə mənim ağam, sahibim olmaq haqqı verir! Sizə sutkada iyirmi dörd dəfə təşəkkür etmədiyimə görə məndən inciyirsiniz. Ancaq unutmayın, mənim üçün nə etsəniz də, bu sizə mənimlə təcrübə heyvanı kimi davranmaq hüququ vermir! Mən insanam, Çarli də sizin laboratoriyaya gəlməmişdən əvvəl insan idi. Siz şokdasınız?
Bəli, bəli, belə çıxır ki, mən həmişə şəxsiyyət olmuşam, bu isə sizin əqidənizə ziddir, insanın İQ-sünün yüzdən aşağı olması onu müzakirəyə çıxarmağa əsas vermir. Professor Nemur, mənə elə gəlir ki, siz mənə baxanda vicdan əzabı çəkirsiniz!

- Kifayətdir! Siz, sadəcə, sərxoşsunuz!

-Qətiyyən, - dedim. - Əgər mən, həqiqətən, kefli olsaydım, siz qarşınızda tamam başqa bir Çarli Qordon görərdiniz. Hə, başqa Çarli... O, qaranlıqda dolaşır, ancaq bizimlə birlikdədir! Mənim içimdə.

-O, dəli olub, - missis Nemur dedi, - və iki Çarli Qordonun olduğuna əmindir. Doktor, ondan daha yaxşı göz olmanızı xahiş edirəm.
Ştraus başını buladı.

-Yox. Mən onun nə demək istədiyini bilirəm, biz bu barədə terapiya seanslarında danışmışıq. Artıq bir aydır ki, Çarli ara-sıra qəribə şəkildə şəxsiyyətinin bölünməsini hiss edir... Onun şüurunda sanki iki müstəqil individuum yaşayır və əvvəlki, əməliyyata qədər olan Çarli bədənə


downloaded from KitabYurdu.org

nəzarət uğrunda mübarizə aparır...

-Yox! Mən bunu heç vaxt deməmişəm! Çarli mövcuddur, ancaq o mənimlə bədən uğrunda mübarizə aparmır... O, sadəcə, gözləyir və mənim hərəkətlərimə heç vaxt qanşmır. - Mən Alisanı xatırlayıb əlavə etdim: - Demək olar ki, heç vaxt... Sizin indicə nostalji duyğularıyla xatırladığınız fağır, sakit Çarli səbirlə gözləyir. Gizlətmirəm, onun bir çox cəhətləri mənim xoşuma gəlir, ancaq fağırlığı yox. Fağır adama bu dünyada yer yoxdur.

-Sən çox abırsız olmusan, - Nemur dedi. - Dahilik səndə insanlığa inam hissini öldürüb.

-Bu tam belə deyil, - mən sakitcə cavab verdim. - Mənim eşitdiyimə görə, saf ağıl öz-özlüyündə heç bir məna kəsb etmir. Bizim universitetdə ağıl, təhsil, bilik - hamısı ilahiləşdirilir.

Ancaq mən sizin görmədiyiniz şeyləri də bilirəm: insan duyğularının hopmadığı çılpaq biliklərin bir qara quruş dəyəri yoxdur.

Mən daha bir qədəh “Martini” götürüb moizəmi davam etdirdim:

- Məni düzgün başa düşün: ağıl bəşəriyyətin çox böyük kəşfidir! Buna baxmayaraq, bilik ardınca qaçma öz yerini çox zaman məhəbbət axtarışına verir. Mən bunu bu yaxınlarda kəşf etmişəm. Belə bir fərziyyə irəli sürürəm: ağıllı, ancaq sevmək qabiliyyətindən və sevilməkdən



downloaded from KitabYurdu.org

məhrum adam intellektual və mənəvi faciəyə məhkumdir, hətta ağır psixi xəstəliyə də tutula bilər. Bundan başqa, hesab edirəm ki, özünə qapanmış beyin ətrafdakılara ağrıdan və əzabdan başqa heç nə verə bilməz. Ağıldankəm olarkən mənim çoxlu dostum vardı. Ancaq indi yoxdular. Mən çox adam tanıyıram, ancaq onlar, sadəcə, tanışlardır, onlann arasında, demək olar ki, mənimçün nəsə əhəmiyyət kəsb edən və mənim maraqlı olduğum bir adam da yoxdur.

Hiss etdim ki, nitqim anlaşılmaz olmağa başlayır, başımsa şübhəli şəkildə yüngülləşir.

-Ancaq bunu düzəltmək olar... Belə olmamalıdır... Siz... siz mənimlə razısınız?

Ştraus yaxınlaşıb qolumdan tutdu.

-Çarli, sənə dincəlmək lazımdır. Sən həddən artıq çox içmisən.

-Niyə mənə belə baxırsınız? Mən nə dedim axı? Nə etdim axı? Məgər düz demirəm?

Dilimin ağzımda güclə döndüyünü hiss edirdim, elə bil ovurdlanma novokain iynəsi vurmuşdular. Mən sərxoş idim və özümü, demək olar ki, idarə edə bilmirdim. Bu zaman elə bil hansısa düyməni basdılar və mən bütün səhnəni, həmçinin özümü qapı dəliyindən, qorxmuş gözlərim bərəlmiş halda qədəh dolu siniylə yanaşı dayanmış gördüm.

-Mən hər şeyi düzgün etmək istəyirəm! Anam həmişə


downloaded from KitabYurdu.org

deyirdi ki, adamları sevməliyəm, çünki belə olsa, heç vaxt başıma bəla gəlməz və həmişə çoxlu dostum olar...

O dartındı, qıvrıldı və mən başa düşdüm ki, vanna otağına getmək istəyir. İlahi, ancaq burada, onların yanında olmasın!

- Üzr istəyirəm, - o mızıldandı, - mənə çıxmaq lazımdır...

Hətta bu dərəcədə kefli halında belə onu vanna otağına qədər apara bildim.

O özünü vaxtında çatdıra bildi və bir neçə saniyədən sonra mən rahatlanaraq yenidən vəziyyətə nəzarət edirdim. Yanağımı divarın soyuq kaşısma söykəyib yuyundum. Başımda hələ də uğultu vardı, ancaq artıq hər şeyin qaydasında olacağını bilirdim.

Bu zaman əlüzyuyanın üzərindəki güzgüdən Çarlinin mənə baxdığını gördüm. Bunun mən yox, o özü olduğunu necə anladığımı başa düşmürəm. Onun üzündə küt yalvarıcı ifadə vardı... hiss edirdim ki, ağzımı açıb nəsə deyən kimi xəyali güzgü aləmində yoxa çıxacaq. Ancaq o qaçmadı. O, sadəcə, ağzını ayırıb mənə baxırdı, çənəsi qeyri-ixtiyari sallanırdı.

- Salam, - dedim. - Axır ki, səninlə qarşılaşdıq.

O, qaşqabağını azacıq salladı, elə bil izahat tələb edirdi, ancaq nə soruşacağını bilmirdi. Sonra təslim oldu və ağzının
küncüylə əyri-əyri gülümsədi.



downloaded from KitabYurdu.org

-Getmə! Qal! - mən qışqırdım. - Künc-bucaqda dayanıb məni güdməyindən bezmişəm!

O baxırdı.

- Necəsən, Çarli?

O gülümsədi.

Mən başımı tərpətdim, o da tərpətdi.

- Yaxşı, sən nə istəyirsən axı? - soruşdum.

O çiyinlərini çəkdi.

-Danış görüm. Sənə, yəqin ki, nəsə lazımdır. Sən qaçıb bura...

O, aşağı baxdı, hara baxdığını bilmək üçün mən də baxdım.

-Sən geri qayıtmaq istəyirsən? Mənim bu bədəndən getməyimi və qayıdıb yeni həyata başlamaq istəyirsən? Tam qanuni arzudur... Bura sənin yerin, sənin beynin... Həm də sənin həyatındır, ancaq sən ondan çox şey ala bilməmisən. Mənim sənin həyatını əlindən almağa haqqım yoxdur. Kim deyə bilər ki, mənim işığım sənin qaranlığından yaxşıdır?

- Mənim sənə başqa deyəcəklərini də var, Çarli.

- Mən dikəlib güzgüdən kənara çəkildim. -Məni öz dostun hesab eləmə. Mən öz ağlımı mübarizəsiz sənə verən deyiləm, özümü yenidən mağaraya qayıtmağa məcbur etməyim çox çətindir. Mən güzəştə gedə bilmərəm, Çarli, odur ki, kənara çəkil. Mənim şüurumun altında qal və məni izləmə. Onlar nə düşünür-düşünsün,



downloaded from KitabYurdu.org

mən təslim olmayacağam! Hə, mən təkəm, ancaq bunun əhəmiyyəti yoxdur... Mənə veriləni qoruyacaq, dünya üçün, sənin kimilər üçün çox şeylər edəcəyəm.

Dönüb qapıya tərəf gedəndə elə bildim ki, Çarli əlini mənə uzatdı. Boş şeydir. Mən, sadəcə, sərxoşam və güzgüdəki əksimlə danışıram.

Otağa qayıdanda Ştraus mənimçün mütləq taksi çağırmaqda israr etdi, odur ki, ona evə özbaşıma çox müvəffəqiyyətlə gedib çıxa biləcəyimi sübut etməli oldum. İndi mənim ən çox bir udum təmiz havaya ehtiyacım vardı. Mən tək olmaq istəyirdim.

Özümü məhz Nemurun adlandırdığı kimi - yekəxana, eqosentrik əclaf kimi hiss edirdim. Çarlidən fərqli olaraq, mən
insanlar və onların problemləri haqqında düşünə bilmirəm. Məni ancaq və ancaq özüm maraqlandırır. Mən özümü Çarlinin gözləriylə gördüm və xəcalət çəkdim.

Bir neçə saatdan sonra evimin qarşısındaydım və pilləkənlə yuxarı qalxırdım. Feyin qapısının altından işıq gəlirdi, ancaq döymək istəyirdim ki, mənzildən onun hınltısı və kişi gülüşü eşidildi.

Gecikdim.

Ehtiyatla mənzilimə girib dayandım, ancaq işığı yandırmağa cürət etmədim. Mən, sadəcə, dayanıb gözümün qabağında fırlanan burulğana baxırdım.

Mənə nə olub? Niyə belə tənhayam?



downloaded from KitabYurdu.org

Səhər saat 4.30-da

Qərarı yuxuda qəbul etdim. Aydınlanma! Səpələnmiş parçalar birləşib bütövləşmişdi və mən lap əvvəldən anlamalı olduğumu indi başa düşdüm. Yatmaq yetər. Laboratoriyaya qayıdıb nəticələri kompüterdə hesablamaq lazımdır. Eksperimentdə səhvə yol verilmişdi və mən onu tapmışdım. Yaxşı, bəs mənin axırım necə olacaq?

26 avqust

Professor Nemura məktub (surəti)

Əziz professor!

"Elcernon-Qordon effekti: yüksək inkişaf səviyyəsində beynin strukturu və fəaliyyəti" məqaləsinin surətini sizə ayrıca zərfdə göndərirəm. Lazım bilsəniz, dərc etdirə bilərsiniz.

Bildiyiniz kimi, mən artıq öz təcrübələrimi başa çatdırmışam. Məqalədə düsturlar göstərilmiş, alman nəticələrin riyazi analizi təqdim olunmuşdur. Təbii ki, rəqəmlər ciddi şəkildə yoxlanılmalıdır. Nəticə aydındır. Mənim intellektual nərdivanla qalxmağımın sensasion aspektləri faktların üzərinə kölgə salmamalıdır. Sizin doktor Ştrausla birgə işləyib hazırladığınız cərrahi-terapevtik metodikanın hazırda heç bir praktik əhəmiyyəti yoxdur.

Elcernon fiziki cəhətdən gənc olsa da, əqli tənəzzülə uğraması aşkar görünür. Hərəkət fəallığı pozulub. Daxili


downloaded from KitabYurdu.org

sekresiya vəzlərinin fəaliyyətində ümumi düşmə baş verib. Koordinasiyanın sürətlə itməsi, inkişafda olan amneziya*
(amneziya - huşsuzluq, hafizənin pozulması, zəifləşməsi) müşahidə olunur.

Məqalədə göstərilib ki, əqli və fiziki deqradasiyanın digər göstəriciləri mənim irəli sürdüyüm düstur əsasında statistik baxımdan qabaqcadan təyin oluna bilər. Hər ikimizin məruz qaldığı cərrahi stimullaşdırmanın nəticələrindən intensifikasiya və təfəkkür proseslərinin sürətlənməsi doğsa da, əqli inkişaf səviyyəsinin artmasıyla müşayiət olunan bütün prosesin məntiqi nəticəsi mənim Elcernon-Qordon effekti adlandırmağa cürət etdiyim qüsurdan ibarətdir. Bu fərziyyə qısa şəkildə aşağıdakı kimi şərh oluna bilər.

Əqli inkişaf süni surətdə inkişaf etdirildikdə deqradasiya da bu səviyyənin yüksəlmə dərəcəsinə düz mütənasib sürətlə gedir.

Nə qədər ki yazmaq qabiliyyətim imkan verir, fikir və ideyalanmı qeyd edəcəyəm. Eksperimentin yekunlaşması üçün bu, son dərəcə zəruridir. Hər şeydən göründüyü kimi, mənim özümdə də deqradasiya prosesi son dərəcə sürətlə gedəcək.

Qüsurları axtararkən bütün nəticələri dəfələrlə və dönə- dönə yoxladım, ancaq onların şəksiz olduğunu təəssüflə təsdiqləməliyəm. Bununla belə, insan beyni


downloaded from KitabYurdu.org

haqda biliklərə və onu idarə edən qanunlara öz töhfəmi vermək üçün mənə yaradılan şəraitə görə minnətdaram.

Dünən doktor Ştraus dedi ki, eksperimentin uğursuzluğu, nəzəriyyənin təkzibi uğur qədər vacibdir... Artıq mən bunun belə olduğunu anlayıram, bununla belə, mənim elmə verdiyim töhfənin sizin işlərinizin küllükləri üzərində qurulmasına təəssüf edirəm.

Səmimiyyətlə, sizin Çarlz Qordon.

Məqalənin nüsxəsi əlavə olunur.

Surəti: Uelberq fonduna, doktor Ştrausa.

ı sentyabr

Təlaşlanmaq olmaz! İlk simptomlar: unutqanlıq və emosional dözümsüzlük tədricən əmələ gəlməlidir. Onları özümdə hiss edə biləcəyəmmi? Mənim edə biləcəyim ancaq öz durumumu mümkün qədər obyektiv şəkildə qeydə almaq və
gündəliyimin bu mənada ilk, bəlkə də, həm də sonuncu olacağını unutmamaqdır.

Səhər tezdən Nemur mənim məqaləmi Bartm əlinə verib Hallston universitetinə göndərdi. Universitetin aparıcı mütəxəssisləri çıxardığım nəticələrin doğruluğunu təsdiq etməlidirlər. Bart bütün həftə boyu düstürlar və statistik hesablamalarım üzərində baş sındırmışdı. Nemur mənim ideyalarımın onun düşüncə səviyyəsindən yüksəkdə olduğunu etiraf etməkdə acizdir. O özünün qüsursuzluğu haqda mifə həddindən artıq


downloaded from KitabYurdu.org

inanır.

Onun haqqımda nə fikirləşməsi artıq məni qətiyyən maraqlandırmır... həm də təkcə onun yox. Artıq vaxtım yoxdur. İş görülüb, nəticələr əldə olunub, qalır ancaq taleyimin Elcernonun taleyi ilə nə dərəcədə üst-üstə düşdüyünü gözləmək və baxmaq.

Hər şeyi Alisaya danışdım. O ağladı və qaçıb getdi. Amma onun heç bir günahı yoxdur.

2 sentyabr

Dəqiq bir şey yoxdur. Mən ağappaq saf işığın düşdüyü sakitlikdə hərəkət edirəm. Ətrafda hər şey donmuş halda gözləyir. Mənə elə gəlir ki, dağın zirvəsində tək-tənha dayanıb ətrafdakı mənzərəni seyr edirəm. Günəş zenit nöqtəsindədir və mənim kölgəm büzüşərək ayağımın altında bərk yumağa dönüb. Ancaq günəş yavaş-yavaş əyilir, kölgə uzanır və üfüqə qədər uzanır, uzanır...

Bir dəfə doktor Ştrausa dediyimi təkrarlamaq istəyirəm: baş verənlərdə kimsə günahkar deyil. Eksperiment yaxşı hazırlanmışdı, onun aparılma texnikası çoxlu heyvan üzərində sınaqdan keçirilmişdi. Səhvə yol verilməsi ehtimalı son dərəcə cüzi idi. Məndən ilk insan kimi istifadə olunmasına qərar veriləndə hamı heç bir fiziki təhlükəyə məruz qalmayacağıma əmin idi. Tələ çox gözlənilməz oldu və kiminsə mənə görə ziyan çəkməsini istəmirəm.

Bir sual var: görəsən, bu nə qədər sürəcək?



downloaded from KitabYurdu.org

15 sentyabr

Nemur mənim gəldiyim nəticələrin təsdiqləndiyini söylədi, bu isə qüsurun eksperimentin quruluşunda olduğu deməkdir.

İnsanlar haçansa bu problemin öhdəsindən gələcəklər, ancaq bunun vaxtı hələ çatmayıb. İnsanlar üzərində bir daha təcrübə apanlmamasım məsləhət görərdim. Yetərsiz nəticələri heyvanlar üzərində də almaq olar.

Araşdırmaların çoxtərəfli istiqaməti, mənə elə gəlir ki, insan orqanizmində enzimlər balansının öyrənilməsiylə sıx bağlıdır. Burada vaxt hər şeydə olduğu kimi həlledici amildir. Qüsuru nə qədər tez aşkar etsək, əvəzedici hormonu da bir o qədər daxil etmək olar! Mən gələcək araşdırmaçılara bunda və operativ nəzarət üçün radioaktiv izotoplann seçilməsində həvəslə kömək edərdim.

17 sentyabr

Dalğın olmağa başlayıram. Əşyaları yığışdırır, sonra axtarıb tapa bilmirəm və qarşıma çıxanlara hücum çəkirəm. Simptomlar?

Srağagün Elcernon öldü. Mən sahildə gəzirdim və laboratoriyaya səhər saat beşin yarısında qayıtdım. Elcernon ayaqlarını uzadaraq qəfəsin küncündə uzanmışdı. Elə bil yuxuda qaçırdı.

Onun meyitini yaranda mənim fərziyyələrimin doğruluğu təsdiq olundu. Elcernonun beyni normal


downloaded from KitabYurdu.org

beyindən kəskin fərqlənirdi, çəkisi azalmış, qırışları hamarlanmış, yarımkürələri ayıran batıqlar dərinləşmiş və genişlənmişdi.

Eyni şeylərin indi məndə də baş verdiyini düşünmək dəhşətlidir. Mən bütün bunların nə qədər real olduğunu gördüm və gələcəyimdən qorxmağa başlamışam.

Elcernonu tabutcuğa - balaca metal qutuya qoyub evə apardım. Heç onu yandırmaq olar? Bu, axmaqcasına sentimental görünsə də, dünən axşam onu arxa həyətdə basdırdım. Onun qəbrinə bir dəstə çobanyastığı qoyub xeyli ağladım.

21 sentyabr

Sabah Marks-stritə gedib anama baş çəkmək istəyirəm. Keçən gecə gördüyüm yuxu xeyli xatirə oyatdı, keçmişin böyük bir parçasına işıq saldı. Bunu da mütləq yazmaq lazımdır və mümkün qədər tez, heç nəyi unutmamış. Son zamanlar çox şeyi unutmağa başlamışam. İndi anamı hər zamankından daha çox anlamaq, onun necə bir insan olduğunu və niyə başqa cür yox, məhz belə hərəkət etdiyini bilmək istəyirəm.

Onunla görüşənəcən gərək öz duyğularımı götür-qoy edim ki, çox qəddar davranmayım.

27 sentyabr

İndi yazdıqlarımı gərək kağıza dərhal köçürəydim, təxirə salmadan. Bu məruzəni mümkün qədər dolğun yazmaq çox önəmlidir.


downloaded from KitabYurdu.org

Biz üç gün öncə görüşdük. Özümü yenidən Bartın maşınını borc götürməyə məcbur etdim. Çox qorxsam da, bu görüşün vacibliyini anlayırdım.

Marks-stritə çatanda elə bildim yolu səhv salmışam və başqa yerə gəlmişəm. Küçə dəhşətli dərəcədə zibilliydi və qətiyyən mənim təsəvvür etdiyim kimi deyildi. Bu yaxınlarda sökülmüş bəzi evlərin yerində bir qalaq zir-zibil qalmışdı. Səkidə qapısı qopmuş paslı soyuducu, yanında isə yaylan çıxmış köhnə döşək vardı. Bəzi evlərin pəncərələrinə taxtalar mıxlanmış, elə evlər də vardı ki, daha çox çirkli komaları
xatırladırdı. Maşını bizim evdən bir məhəllə aralı saxlayıb piyada getdim.

Heç yerdə oynayan uşaqların gözə dəyməməsi də mənim xatirələrimə uyğun gəlmirdi. O zaman hər yer uşaqla doluydu, Çarli isə onlara pəncərədən baxırdı. Qəribədir, xatirələrimin çoxu şəkil çərçivəyə salındığı kimi pəncərə cildinə bürünmüşdü... İndisə ancaq yanuçuq köşklərdə dincələn qocaları gördüm.

Rozanın evinə yaxınlaşanda daha bir zərbə aldım. Köhnə qəhvəyi sviter geymiş Roza evin qarşısındakı skamyanın üstünə çıxıb, küləkli və soyuq havaya baxmayaraq, pəncərə yuyurdu. Qonşular onun yaxşı arvad və ana olduğunu görsün deyə daim işləyirdi...

Roza üçün ən mühüm şey həmişə başqalarının onun haqqında nə düşünməsi olub. Bu məsələdə o, sarsılmaz


downloaded from KitabYurdu.org

idi və həyatda daha mühüm şeylər olduğunu söyləyən Matta heç bir əhəmiyyət vermirdi. Norma yaxşı geyinməlidir. Evdə qəşəng mebel olmalıdır. Qonşular pis heç nə düşünməsinlər deyə Çarli evdən bayıra çıxmamalıdır.

Mən doqqaza yaxınlaşıb onun üzünü görəndə diksindim. Bu mənim böyük əzabla xatırlamağa çalışdığım sifət deyildi... Onun saçlan seyrəlmiş, yanaqları qırışlarla örtülmüşdü. Alnında tər damcıları vardı.

O məni dərhal gördü.

Üzümü çevirib küçəylə geri qaçmaq istədim, ancaq artıq çox yaxında idim. Qalırdı yalnız özümü guya yad yerdə azmış adam kimi göstərib ondan yolu soruşmaq. Rozanın üzünə bircə dəfə baxmaq mənə tamamilə bəs elədi... Mən lal-dinməz dayanıb ona baxmağa başladım, o da mənə baxdı.

- Sizə nə lazımdır?

Onun xırıltılı səsi yaddaşımın mağaralarında dəqiq əks- səda verdi.

Ağzımı açdım, ancaq sözlər boğazımda ilişib qaldı. Dodaqlarımın və dilimin tərpəndiyini hiss edirdim, amma bircə söz söyləməkdən ötrü var qüvvəmi sərf elədim, axı o, demək olar ki, məni tanımışdı! Anamın məni bu cür... fikrimi izah edə bilməyəcək halda görməsini necə də istəmirdim. Ancaq ağzım



downloaded from KitabYurdu.org

qurudu, dilim böyük və yöndəmsiz oldu, sözlər boğazımda ilişdi...

...Yalnız bir şeydən başqa. Mən görüşərkən nəsə sakitləşdirici, gümrahlaşdıncı bir şey söyləmək, bununla keçmişi bir kənara atıb, bir neçə sözün köməyi ilə duruma hakim olmağı planlaşdırırdım... Ancaq qurumuş boğazımdan təkcə bir söz çıxdı:

- Maaaaa...

Mən, bir neçə dili mükəmməl bilən bir adam, yalnız bunu deyə bildim... Elə bil ağzını anasının əmcəyinə çatdırmış ac quzu idim.

Roza alnını əlinin üstüylə silib, mənə yaxşı-yaxşı baxmaq üçün gözlərini qıydı. Mən doqqazı açıb, döşəmə cığırla bir neçə addım atdım. O, qapıya tərəf çəkildi.

Məni tanıyıb-tanımadığına əmin deyildim, ancaq o, birdən nəfəsini buraxdı:

- Çarli!

O mənim adımı nə qışqırdı, nə də pıçıldadı. O bu adı qorxulu yuxudan ayılmış adam kimi nəfəsini verərək dedi.

-Ma... - Mən ayağımı ilk pilləyə qoydum. - Bu mənəm... - Mənim hərəkətim onu qorxutdu və o, bir addım geri çəkilib, suyla dolu vedrəni aşırdı, çirkli sabunlu su pillələrdən şəlalə kimi axdı.

- Sən burada neynirsən?
- Mən səni elə görmək... danışmaq... istəyirdim ki...



downloaded from KitabYurdu.org

Dilim mənə hələ də mane olur, səsim həmişəki kimi çıxmırdı. Onda ağlamsınan bir çalar vardı. Yəqin ki, uzun illər məhz belə danışırmışam.

- Getmə! - yalvardım. - Məndən qaçma!

Ancaq Roza artıq dəhlizə qaçıb qapını örtmüşdü. Bir saniyə sonra o, qapının ağappaq pərdəsini çəkib, dəhşətdən bərəlmiş gözləriylə mənə baxmağa başladı. Onun dodaqlan səssiz tərpənirdi.

- Çıx get! Məndən uzaq dur!

Niyə? Niyə anam məndən imtina edir? Hansı haqla?

- Qapını aç! Biz danışmalıyıq! Məni içəri burax!

Mən şüşəni döyəclədim. Şüşə çatladı və çatlaqlardan biri barmağımın dərisini elə sıxdı ki, bir müddət onu qopara
bilmədim. Yəqin, Roza başıma tamamilə hava gəldiyini və keçmişə görə ondan intiqam almaq istədiyimi düşündü. O, geri çəkilib binanın içərilərinə doğru cumdu.

Mən qapını bir az da möhkəm basdım, cəftə dözməyib qopdu və mən dəhlizə yıxıldım. Kəsikdən qan axmağa başladı, Tanrı qorusun, təzəcə yuyulmuş linoleumu batırmamaq üçün əlimi cibimə soxdum.

İkinci mərtəbəyə qalxan pilləkənin yanındakı dəhlizlə qaçdım. Bu pilləkəndə iblislər neçə dəfə ayağımdan yapışıb məni aşağıya, zirzəmiyə çəkmişdilər! Qışqırmaq istəsəm də, dilim məni boğmuş və susmağa məcbur etmişdi... Uorrendəki sakit uşaqlar kimi.


downloaded from KitabYurdu.org

İkinci mərtəbədə evin sakinləri - Meyerslər yaşayırdılar. Onlar mənə qarşı həmişə mehriban idilər, məni tez-tez şirniyyata qonaq edir, mətbəxlərində oturub itlə oynamağıma icazə verirdilər. Mənə heç kəs heç nə deməsə də, nədənsə onların artıq sağ olmadığını və yuxarıda yad adamlar yaşadığını və bu cığırın mənimçün əbədilik bağlandığını düşündüm...

Rozanın arxasında yox olduğu qapı bağlıydı, mən bir saniyəlik tərəddüd içində dayandım.

- Qapını aç!

Cavab ciyiltili balaca it hürüşündən ibarət oldu. Qəribədir.

-Qorxma, mənim heç bir pis niyyətim yoxdur. Mən sənin yanma çox uzaqdan gəlmişəm və elə-belə çıxıb getmək fikrim yoxdur. Əgər qapını açmasan, onu qırmalı olacağam!

Onun səsini eşitdim:

- Ş-ş-ş, Nappi... Get yataq otağına, get..

Daha bir saniyə keçdikdən sonra kilid çıqqıldadı, qapı açıldı və anam qəfil yanımda peyda oldu.

-Ana, - mən pıçıldadım. - Məndən qorxma və qulaq as! Başa düş, mən artıq əvvəlki kimi deyiləm... mən dəyişmişəm... normal adamam... Başa düşürsən? Mən artıq kəmağıl deyiləm... səfeh deyiləm. Mən hamı kimiyəm, sənin kimi, Matt kimi, Norma kimi...

Mən dil boğaza qoymadan danışır, ürəyimdə onun



downloaded from KitabYurdu.org

qapını çırpmaması üçün yalvarırdım. Mən ona hər şeyi birnəfəsə danışmaq istəyirdim.

- Məni əməliyyat etdilər və mən dəyişib sənin istədiyin kimi oldum. Qəzetlərdən bu barədə oxumamısan? Bu, insanın əqli qabiliyyətini artıran yeni elmi təcrübədir və mən birinci oldum! Məni başa düş! Mənə niyə elə baxırsan? Mən ağıllanmışam, Normadan, German dayıdan, ya da Mattdan daha ağıllıyam! Mən hətta universitet professorlarının bilmədiyi şeyləri bilirəm! Mənə bir söz de! Sən mənimlə fəxr edə, bütün qonşulara mənim barəmdə danışa bilərsən! Artıq qonaqlar gələndə məni zirzəmidə gizlətməli olmayacaqsan! Mənimlə danışsana! De görüm, balaca ikən necə olmuşam? Məndən qorxma! Mən səni qətiyyən suçlamıram, mən, sadəcə, nə qədər ki gec deyil, özüm haqda çox şey bilmək istəyirəm! Mən öz-özümü tamamilə dərk etməyənə qədər kamil insan ola bilmərəm və sən bu dünyada mənə kömək edə biləcək yeganə insansan! Məni içəri burax. Oturub danışaq.

Sözlərim yox, danışıq tonum onu ovsunladı. O, sadəcə, dayanıb baxırdı. Qanlı əlimi düşünmədən cibimdən çıxarıb, yalvarıb kömək istəyən adam kimi ona uzatdım. Onun üzü dərhal yumşaldı.

-Əlin ağrıdır... - Onun mənə, çətin ki, ürəkdən yazığı gələydi. Eyni hissləri pəncəsini yaralamış itə və döyüşdə cırmaqlanmış pişiyə qarşı da keçirə bilərdi. Ona görə yox


downloaded from KitabYurdu.org

ki mən onun Çarlisi idim. Tam əksinə.

- Keç əllərini yu, mən də yod və sarğı gətirim.

Küçədən gəlib yeməyə, ya da yatmağa hazırlaşanda anamın məni tez-tez yuduğu çatlaq çanağa yaxınlaşdım. Qollanmı çırmayarkən o dayanıb mənə baxırdı.

-Şüşəni qırmaq lazım deyildi. Ev sahibəsi hirslənəcək, mənimsə ona verməyə pulum yoxdur...

Sonra elə bil mənim hər şeyi ləng etməyimdən narazı qalıb sabunu əlimdən aldı və əllərimi özü yumağa başladı. Bu məşğuliyyət onu elə aludə etmişdi ki, mən bu səadəti ürkütməmək üçün tərpənməyə qorxurdum. Arabir o, dilini marçıldadaraq ah çəkirdi:

-Of, Çarli, Çarli, özünü harada belə batınb-bulamısan... Haçan özünü təmiz saxlamağı öyrənəcəksən?

O, iyirmi beş il əvvələ, mənim balaca Çarli olduğum illərə qayıtmışdı, o mənim günəşin altındakı yerim üçün son
nəfəsinədək mübarizə aparmağa hazır idi.

Axır ki, qan yuyuldu, əllərim kağız tənziflə silindi. O, birdən üzümə baxdı və dəhşətdən gözləri yenə bərəldi:

- Aman Tanrım! - o hıçqırdı və məndən aralandı.

Mən yenidən danışmağa başlayıb onu sakitləşdirməyə, niyyətimin son dərəcə xoş olduğunu bildirməyə çalışdım. Roza mənə qulaq asmırdı. O, dalğın halda ətrafa boylanırdı, birdən əlini ağzına aparıb inildədi:


downloaded from KitabYurdu.org

-Ev elə səliqəsizdir ki... Mən heç kəsi gözləmirdim. Sən bir bu pəncərələrə bax... hələ plintuslar...

- Hər şey qaydasındadır, maa* (anacan), narahat olma.
- Döşəməni daha yaxşı silmək lazımdır... O parıldamalıdır! Bu dəmdə o, qapıda qan ləkəsi görüb tez əsgiylə sildi.

Sonra yenə mənə baxıb qaşqabağını tökdü.

- Siz işıq pulunu gecikdirdiyimizə görə gəlmisiniz?

Mən "yox" deməyə macal tapana qədər o, narazı halda barmağıyla hədələdi:

-Mən qəbzi həmişə aym birində göndərirəm, ancaq indi ərim evdə yoxdur, o, iş dalınca gedib... Qızım bu həftə mütləq
pul alacaq və biz hamısını birdən ödəyəcəyik. Ona görə də nahaq gəlmisiniz, cənab.

- Sizin ancaq bir uşağınız var? Başqaları yoxdur?

Roza diksindi və baxışları harasa uzaqlara zilləndi.

-Mənim bir oğlum vardı. Elə ağıllıydı ki, başqa analann mənə paxıllığı tuturdu. Ancaq onu gözə gətirdilər... Hə, gözə gətirdilər! Əgər bu baş verməsəydi, o, böyük adam olacaqdı. Elə ağıllı idi ki... olduqca istedadlı uşaq idi. Hamı belə deyirdi. O, dahi ola bilərdi!

O, şotkanı götürdü.

-Bağışlayın... Qızım nahara cavan bir oğlanı dəvət eləyib, gərək evi səliqəyə salam.

O, dizləri üstə oturub, onsuz da par-par panldayan



downloaded from KitabYurdu.org

döşəməni sürtməyə başladı.
O mənə baxmırdı.

Sonra nəsə mızıldanmağa başladı. Mən qəti niyyətlə kətilin üstündə oturub, onun özünə gəlməsini və məni tanımasını gözləməyə başladım. Mənim Çarli olduğumu anlamayana qədər
çıxıb gedən deyiləm! Onun Çarlisi! Kimsə mənə inanmalıdır, ya yox!

Roza nəsə kədərli bir melodiya zümzümə edirdi, ancaq birdən şotkanı yuxarı qaldıraraq susdu, elə bil mətbəxdə başqa adamın olduğu ona indi çatmışdı.

O dönüb parıldayan gözləriylə mənə baxdı və başını yana əyib soruşdu:

-Bu necə ola bilər axı? Heç nə başa düşə bilmirəm... Mənə demişdilər ki, sən sağalmayacaqsan.

-Məni əməliyyat etdilər və başqa cür oldum. Mən indi məşhuram, bütün dünya məni tanıyır. Mən çox ağıllıyam, ana. Mən oxumağı və yazmağı bilirəm, mən...

-Şükür Tannya, - o pıçıldadı. - Mənim dualanm... Bütün bu illəri elə bilirdim ki, O məni eşitmir... Sən demə, O ancaq gözləyirmiş ki, öz iradəsini lazımi vaxtda gerçəkləşdirsin...

O, döşlüyü ilə üzünü sildi. Onu qucaqladım, başını çiynimə qoyub ağladı. Onun göz yaşlan bütün acılanma son qoydu. Artıq gəldiyimə görə peşman deyildim.

-Hamıya xəbər vermək lazımdır. - Roza gülümsədi. -


downloaded from KitabYurdu.org

Bütün müəllimlərə. Hamısının ağzı qulağının dibinə gedəcək, görərsən. Bütün qonşulara da. German əmiyə də demək lazımdır. O, çox şad olacaq! Gözlə, qoy atanla bacın da gəlsinlər... Bilirsən necə sevinəcəklər?! Təsəvvür edirsən?!

O bizim yeni xoşbəxt və birgə həyatımızla bağlı planlar qurmağa davam edərək məni bərkdən qucaqladı. Ona müəllimlərimin artıq uşaqlan öyrətmədiyini, qonşulann hamısının köçüb getdiyini, German əminin çoxdan öldüyünü, atamın isə onu uzun illər öncə atıb getdiyini deməyə cürətim çatmadı. Mən onun təbəssümünü görmək və onu həyatım boyu ilk dəfə gülümsəməyə məcbur edə bildiyimi dərk etmək istəyirdim.

Ancaq o sanki nəsə xatırlayaraq susdu, mən onun uzaqlaşdığını hiss etdim.

- Yox! - onu reallığa qaytarmaq üçün qışqırdım.

- Dayan, ana! Mən indi gedəcəyəm, ancaq sənə bir şey vermək istəyirəm!

- Gedirsən? Yox, sən heç yerə getməməlisən!

-Məni işim çoxdur, ana. Mən sənə yazacağam, pul da göndərəcəyəm.

- Bəs nə vaxt qayıdacaqsan?

- Hələlik bilmirəm, ancaq sənə bax bunu vermək istəyirəm.

- Jurnal?



downloaded from KitabYurdu.org

-Tam yox. Bu mənim yazdığım elmi məqalədir. Bax, “Elcernon - Qordon effekti” adlanır. Onu mən kəşf etmişəm və belə adlandırmışam! Onu sənə verirəm. Qonşulara göstər ki, sənin oğlunun daha ağıldankəm olmadığını bilsinlər.

O, jurnalı pərəstişlə aldı.

-Bu... bu, doğrudan, sənin adındır? Mən bunun belə olacağını bilirdim! Mən deyirdim! Mən mümkün olan hər şeyi yoxladım. Sən onda balaca idin və mənim əlimdən gələn hər şeyi etdiyimi xatırlamırsan. Mən hamıya sənin kollecdə oxuyacağını və alim olacağını deyirdim. Mənə gülürdülər, amma mən inanırdım!

O, göz yaşlan arasından gülümsədi, sonra qəfil üzünü döndərib əsgini götürdü və sanki yuxudakı kimi hərəkət edərək plintuslan silməyə başladı.

İt yenidən hürdü. Giriş qapısının açıldığı və örtüldüyü eşidildi, qadın səsi dedi:

- Narahat olma, Nappi, bu mənəm.

Yataq otağına salınmış itin sevincək qapıya cumduğu eşidildi. Mən Normanı görməyi zərrə qədər arzulamırdım, ancaq hiss etdim ki, tələyə düşmüşəm. Bizim bir-birimizə deyəcək sözümüz yox, evdə isə arxa qapı yox idi... Pəncərədən tullanmaq olardı, ancaq oğruya oxşadılmağımı istəmirdim.

Açarın kilidin içində qıcırdadığım eşidib, səbəbini özüm də bilmədən pıçıldadım:



downloaded from KitabYurdu.org

- Norma gəldi...

Ancaq anam sözlərimə əhəmiyyət vermədi, o çox məşğul idi.

Qapı açıldı. Norma mənə baxıb qaşqabağını tökdü. Otaq qaranlıq olduğundan məni tanımadı. Çantasını döşəməyə qoyub işığı yandırdı...

- Siz kimsiniz?

Mən cavab verənəcən o, əlini ağzına apardı və gücsüz halda divara söykəndi.

- Çarli!

O bunu eynilə anam kimi birnəfəsə söylədi. O özü də anamın gəncliyinə bənzəyirdi, üzünün cizgiləri xırda və iti idi...

-Çarli! Aman Tanrım, Çarli! Niyə xəbər eləməmisən, zəng vurmamısan... Belə olmaz axı... - O, əlüzyuyan çanağının yanında döşəmədə oturan anama baxdı. - O necədir? Çox həyəcanlandı?

- Onun şüuru aydınlandı, bir az danışdıq.

-Yaxşı. O, demək olar ki, heç nə xatırlamır. Qocalıqdandır... Doktor Portman mənə onu qocalar evinə verməyi məsləhət görür, ancaq mən istəmirəm. Onu orada təsəvvür edə bilmirəm...

O, yataq otağının qapısını açdı, it tullanaraq oradan çıxdı, Norma onu qaldırıb bağnna basdı.

- Mən, sadəcə, öz anama belə bir şeyi etmək istəmirəm...



downloaded from KitabYurdu.org

Norma mənə baxıb tərəddüdlə gülümsədi.

-Heç gözləmirdim... Ağlıma belə gəlməzdi... Qoy sənə yaxşı-yaxşı baxım. Küçədə görsəydim, qətiyyən tanımazdım.

Sən tamam dəyişmisən. - O ah çəkdi. - Səni görməyimə şadam, Çarli!

- Doğrudan? Elə bilirdim məni görmək istəmirsən.

-Ah, Çarli! - O, əlimdən tutdu. - Niyə belə danışırsan?! Mən, doğrudan da, səni görməyimə şadam. Mən səni gözləyirdim. Mən onda bilmirdim, ancaq inanırdım ki, mütləq gələcəksən, sənin konfransdan qaçdığını oxuyandan sonra... Sənin haqqında nə qədər düşündüyümü, haralarda olduğunu, nə etdiyini nə qədər fikirləşdiyimi təsəvvür edirsən? O professor... Ona nə vaxt gəlmişdi? Hə, martda. Yeddi ay bundan qabaq... Mən heç sənin sağ olduğunu da bilmirdim. Anam deyirdi ki, sən Uorrendə ölmüsən. Mən də elə düşünürdüm. Mənə xəbər veriləndə ki, sən sağsan və hansısa eksperimentdən ötrü lazımsan, özümü itirdim. Professor... - Nemur idi də onun adı? - mənə səninlə görüşməyə icazə vermədi, o, əməliyyat qabağı səni həyəcanlandırmaq istəmirdi. Sonra qəzetdən əməliyyatın baş tutduğunu və sənin dahi olduğunu oxudum... Aman Tanrım! Mən işdə və klubda sənin qəzetdəki şəklini göstərib hamıya danışdım... və tezliklə bizə
baş çəkməyə gələcəyini dedim. Axır ki, gəldin! Demək,



downloaded from KitabYurdu.org

unutmamısan!

O məni yenə qucaqladı.

- Ah, Çarli, Çarli... Böyük qardaşım olduğunu bilmək necə də gözəldir! Otur, sənə yeməyə bir şey hazırlayım, sənsə başına gələnləri, bundan sonra nə edəcəyini danış. Mən... mən, sadəcə, səndən nə soruşacağımı bilmirəm. Yəqin ki, mən indi çox səfeh görünürəm, hə, qardaşının qəhrəman, kinoulduz, ya da buna bənzər biri olduğunu öyrənən qız kimi.

Açığı, bacımla belə bir görüşü gözləmirdim və əməlli-başlı karıxmışdım. Uzun illər anamla tək qalmasının onun dəyişdirə biləcəyini nəzərə almamışdım. Ancaq bu, qaçılmaz idi. O artıq mənim yaddaşımdakı şıltaq və ərköyün məxluq deyildi. O böyümüş və sevməyi bacaran bir qadına çevrilmişdi.

Biz söhbətə girişdik. Anamız barədə danışdıq. Elə danışırdıq ki, sanki o, yanımızda deyil. Halbuki bizimlə eyni otaqdaydı. Norma onunla necə yaşamaları haqda danışarkən mən arada altdan-altdan ona baxırdım ki, görüm bizi dinləyir, ya yox? Ancaq, deyəsən, öz fikirlərinə elə dərindən dalmışdı ki,
bizim nə danışdığımız onun vecinə deyildi. O, mətbəxdə kölgə kimi hərəkət edir, daim nələrinsə yerini dəyişir, gah ora, gah da bura qoyurdu... O bizə qətiyyən mane olmurdu. Qorxunc mənzərə idi.
Norma iti yedirtməyə başladı.


downloaded from KitabYurdu.org

-Axır ki, ona sahib olmusan. Nappi - Napoleonun qısa formasıdır?
Norma dikəlib diqqətlə mənə baxdı.
- Haradan bilirsən?

Ona bu yaxınlarda tarixdən yoxlama yazı işini evə gətirdiyini, it haqqında söhbət saldığını və Mattın buna qarşı çıxdığını xatırladığımı izah etdim.

-Mən heç nə xatırlamıram... Ah, Çarli, yəni mən belə həyasız olmuşam?

-Səndən soruşmaq istədiyim daha bir xatirə var. Heç cür anlamıram, bu doğrudan olub, yoxsa yuxuda görmüşəm. O zaman biz səninlə sonuncu dəfə dost kimi oynadıq. Zirzəmidə abajurlan başımıza qoyub, Çin arabaçılarının rolunu oynayır və köhnə döşəklərin üzərində atılıb-düşürdük. Sənin yeddi-səkkiz
yaşın vardı, mənimsə on üç. Sən pis tullandın və başını divara vurdun. Bərk əzilməsən də, qışqırırdın. Anamla atam dərhal qaçıb gəldilər. Onlara dedin ki, guya mən səni öldürmək istəyirəm. Roza Mattı ittiham etməyə başladı ki, o mənə nəzarət etmir. Sonra anam məni qayışla huşumu itirənəcən döydü. Yadındadır? Belə olmuşdu?

Norma bu xatirədən dəhşətə gəldi.

- Çox dumanlı xatırlayıram... Abajurları başımıza keçirib, döşəklərin üstündə tullandığımız yadımdadır. - O, pəncərəyə yaxınlaşıb küçəyə baxdı. - Mən sənə nifrət


downloaded from KitabYurdu.org

edirdim, çünki valideynlərimiz daim səninlə məşğul olurdular. Pis qiymət aldığına görə səni heç vaxt döymürdülər. Sən kefin istəyən qədər dərs buraxır, oynayırdın, mənsə var gücümlə çalışmaq zorundaydım. Sənə necə də nifrət edirdim. Sinifdə uşaqlar yazı taxtasına təlxək papağı qoymuş oğlan şəkli çəkib altına yazırdılar: "Normanın qardaşı". Onlar asfalta "Başdanxarabın bacısı" və "Qordonlar - axmaqlar" yazırdılar. Bir dəfə məni Emiliya Raskinin ad gününə çağırmadılar və bildim ki, bu sənə görədir. Odur ki, zirzəmidə səndən qisas almağa qərar verdim.
- O ağladı. - Yalandan dedim ki, məni öldürmək istəyirdin. Çarli, Çarli, mən necə də axmaq olmuşam, necə də axmaq... Bağışla məni...

-Özünü günahlandırma... Sənə də asan deyildi.
Mənimçün ev mətbəxdən və bu otaqdan ibarət idi, qalan heç bir şeyin əhəmiyyəti yox idi. Ancaq sən ətraf dünyayla təmasda idin.

-Səni niyə evdən qovdular, Çarli? Məgər qalıb bizimlə yaşaya bilməzdin? Mən bu haqda çox düşünmüşəm, amma anam hər dəfə deyirdi ki, sənə orada yaxşıdır.

-Bəlkə də, o, haqlıdır.

Norma başını buladı.

-O mənə görə səndən imtina elədi, elədir? Ah, Çarli, niyə belə bir şey məhz bizim başımıza gəlməliydi?

Mən necə cavab verəcəyimi bilmədim. Biz


downloaded from KitabYurdu.org

atalarımızın günahlanna görə əzab çəkirik, yoxsa hansısa yunan kahininin iradəsini yerinə yetiririk? Ancaq ona deməyə heç bir sözüm yox idi. Elə özümə də.

-Hər şey keçmişdə qalıb, - mən dedim. - Mən səni görməyimə şadam. Bundan sonra yaşamaq mənə asan olacaq.

Norma qəfil mənim əlimdən yapışdı.

-Çarli, sən anamla yaşamağın nə olduğunu təsəvvür edə bilməzsən! Bu mənzil, küçə, mənim işim... Onun başına nə gəldiyini, sağ olub-olmadığını bilmədən və bu fikirlərdən əzab çəkə-çəkə evə gəlmək dəhşətdir!

Ayağa qalxıb Normanı özümə sıxdım, o, başını çiynimə qoyaraq sakitcə ağladı.

-Çarli, mən sənin qayıtmağına çox şadam! Mənə təkbaşına çox çətindir, mən çox yorulmuşam!

Bir zamanlar mən bunu ancaq arzu edə bilərdim. Budur, bu baş verdi, amma nə olsun? Mən bundan sonra nə olacağını bacıma demək istəmirdim. Onun sevgisini qəbul etməyə haqqım varmı? Əgər mən əvvəlki Çarli olsaydım, o mənimlə yenə bu cür danışacaqdı? Tezliklə, lap tezliklə zaman mənim maskamı cıracaq...

-Ağlama, Norma, hər şey yaxşı olacaq, - deyə mən öz incə səsimi eşitdim. - Mən sizin qayğınıza qalacağam. Mənim

pulum var, Uelberq fondunun ödədiyi ilə birlikdə sizə göndərməyə də kifayət edəcək.



downloaded from KitabYurdu.org

- Məgər sən gedirsən? Sən bizimlə qalmalısan...

-Mənə bəzi yerlərə getmək, bəzi şeylər üzərində işləmək, bir neçə məruzə oxumaq lazımdır, ancaq mütləq sizə baş çəkəcəyəm, anamın qayğısına qalacağam, o, çox çətinliklərdən keçib. Nə qədər ki bacanram, sizə kömək edəcəyəm.

-Yox, Çarli! Getmə! - Norma məndən yapışdı. - Mən qorxuram!

Bu da mənim həmişə oynamaq istədiyim Böyük Qardaş rolu.

Bu zaman hələ də küncdə sakitcə oturan Rozanın bizə baxdığını hiss etdim. Onun üzündə nəsə dəyişmişdi, gözləri böyümüş, bədəni tamamilə irəli əyilmişdi. O mənə öz yuvasını qorumaq üçün şığımağa hazır dişi qartalı xatırlatdı.

Mən Normanı özümdən aralayıb nəsə demək istəyəndə Roza oturduğu yerdən sıçrayıb mətbəx bıçağını qamarladı və mənə tuşladı.

-Sən neynirsən? Ona toxunmağa cürət etmə! Sənə neçə dəfə demişəm ki, bacma yaxın getmə! Murdar heyvan! Sənə normal adamlarla yaşamaq olmaz!

Hər ikimiz geri çəkildik. Mən hansısa naməlum səbəbdən özümü günahkar hiss etdim, elə bil rüsvayçı bir iş üstündə yaxalanmışdım. Normanın da eyni hissi keçirdiyini anladım. Anamızın sözləri bizim qucaqlaşmağımıza ədəbsiz məzmun vermişdi.


downloaded from KitabYurdu.org

Norma qışqırdı:

- Ana! Bıçağı yerə qoy!

Əlində bıçaq tutmuş Rozanın görünüşü mənə onun atamı məni evdən çıxarıb aparmağa məcbur etdiyi həmin axşamı xatırlatdı. İndi o sanki həmin hadisəni yenidən yaşayırdı. Mənsə yerimdən tərpənə bilmirdim. Bədənimdən öyümə dalğası keçdi, nəfəsim həmişəki kimi təntidi, qulaqlarım uğuldadı... İçalatım bir-birinə tarım düyünlənərək dartıldı, elə bil günahkar bədənimdən qopub çıxmaq istəyirdilər.

Rozada bıçaq, Alisada bıçaq, atamda bıçaq, doktor Ştrausda da bıçaq...

Xoşbəxtlikdən, Norma sayıqlığını itirmədi və ölüm silahını Rozanın əlindən ala bildi. Ancaq Roza bağırmaqda davam edirdi:

- Qov onu buradan! O öz bacısına belə baxa bilməz!

Sonra o, kresloya yıxılıb ağlamağa başladı.

Nə mən, nə də Norma nə edəcəyimizi və söyləyəcəyimizi bilmirdik. Hər ikimiz son dərəcə pərt olmuşduq. Mənim evdən niyə qovulduğumu artıq o başa düşmüşdü.

Maraqlıdır, görəsən, mən nə vaxtsa anamın əndişələrinə haqq qazandıran nəsə etmişdim? Ən azı, özüm belə bir şey xatırlamırdım, ancaq pozulmuş beynimdə heç vaxt dəhşətli fikirlərin əmələ gəlmədiyinə necə əmin ola bilərdim? Yəqin ki, bunu heç vaxt


downloaded from KitabYurdu.org

bilməyəcəkdim, ancaq öz qızını müdafiə etmək istəyən qadına nifrət etmək olmaz. Əgər onu bağışlamasam, həyatımda heç nə qalmayacaq.

Norma titrəyirdi.

-Sakit ol, - mən dedim. - O nə etdiyini bilmir. O, bıçağı mənə yox, əvvəlki Çarliyə tuşlamışdı. Ondan çox qorxurdu.

Bizsə... gəl onu bir də xatırlamayaq. O, həmişəlik gedib. Elə deyil?

O məni dinləmirdi. Üzündə dalğın ifadə yaranmışdı.

-İndicə qəribə bir şey hiss etdim... Mənə elə gəldi ki, bütün bunlar elə bil olub, eyni səhnə olduğu kimi təkrarlanır...

- Həyatda hamı bir dəfə də olsa, belə hisslər keçirir...

-Hə, ancaq onu əlində bıçaq görəndə bunun uzun illər öncə gördüyüm yuxu olduğunu düşündüm.

Bunun yuxu olmadığını, həmin uzaq gecədə yatmadığını və hər şeyi öz otağından gördüyünü ona niyə deyim axı? Bu mənzərənin yatdığını, şəklini dəyişdirdiyini və özündən sonra qeyri-reallıq duyğusu qoyduğunu ona söyləmək nəyə lazımdır? Onun qəlbini həqiqətlə ağırlaşdırmağa lüzum yoxdur, o hələ anamın yükünü çəkməlidir. Mən bu yükü və ağnm onun əvəzinə məmnuniyyətlə çəkərdim, ancaq başa çatdıra bilməyəcəyin bir işə başlamağın heç bir mənası yoxdur.

- Mən getməliyəm, - dedim. - Onu və özünü qoru.



downloaded from KitabYurdu.org

Onun əlini sıxıb çıxdım. Napoleon məni hürüşləriylə yola saldı.

Rozanın evində özümü saxlasam da, küçəyə çıxanda artıq buna gücüm qalmamışdı. Bu barədə yazmaq çətindir, ancaq maşına doğru gedəndə uşaq kimi ağlayırdım, adamlar isə arxamca baxırdılar. Mən özümlə bacara bilmirdim, adamlarsa vecimə deyildi.

Addımladıqca başımda anlaşılmaz şeirlər səslənir, durmadan təkrarlanaraq addımlarımın ritminə uyğunlaşırdı: Üç kor siçan... üç kor siçan,
Necə qaçırlar! Necə qaçırlar!
Onlann quyruğunu mətbəx bıçağıyla kəsən Fermer arvadının dalınca qaçırlar.
Sən haçansa belə bir şey görmüsən?
Üç... kor... siçan...

Bu cəfəngiyyatı başımdan qova bilmirdim. Cəmi bircə dəfə dönüb baxdım və pəncərə şüşəsində dirənmiş uşaq çöhrəsinin mənə baxdığını gördüm.

Hesabat N217 3 oktyabr

Eniş getdikcə sürətlənir. Onu saxlamaq üçün nə qədər ki davranışıma nəzarət edə və ətraf dünyanı dərk edə bilirəm, intihar haqda düşünürəm. Ancaq birdən pəncərənin qarşısında gözləyən Çarlini xatırlayıram. Mən onun həyatıyla bağlı qərar verə bilmərəm. Mən onu, sadəcə, qısa müddətə borc götürmüşəm və artıq məndən borcumu qaytarmağı xahiş edirlər.


downloaded from KitabYurdu.org

Unutmaq olmaz ki, mən başına bu cür iş gəlmiş yeganə adamam. Öz fikirlərimi və hisslərimi son anadək yazacağam. Bu, Çarli Qordonun bəşəriyyətə hədiyyəsidir.

Mən acıqlı və əsəbi olmuşam. Valoxudanı gec saatlara qədər söndürmədiyimə görə qonşularla dalaşdım. Royalda çalmağı dayandırandan sonra tez-tez belə edirəm. Daim val oxutduğuma görə, əlbəttə, haqlı deyiləm, ancaq musiqi mənə yatmamaqda kömək edir. Arabir yatmalı olduğumu bilirəm, ancaq oyaq qaldığım hər saniyə mənə qiymətlidir. Bu ancaq kabus gördüyümə görə deyil, mən həm də yuxuda kütləşəcəyimdən qorxuram.

Üzərimə qaranlıq düşəndən sonra doyunca yatacağımı özümə xatırlatmaqdan yorulmuram.

Əvvəllər heç vaxt səs-küydən şikayətlənməyən aşağı mərtəbədəki qonşum cənab Vernor istilik sistemi borularını və mənzilinin tavanını döyməyi özünə adət edib. Əvvəllər bu səslərə əhəmiyyət vermirdim, ancaq dünən gecə o, xalatda mənim mənzilimə gəldi. Biz dalaşdıq və mən qapını onun üzünə çırpdım. Bir saatdan sonra o, polislə qayıtdı və polis mənə gecə saat dörddə musiqiyə bu qədər səs verməli olmadığımı izah etdi. Vernorun sifətindəki təbəssüm o dərəcədə iyrənc idi ki, özümü onu vurmaqdan güclə saxladım. Onlar getdikdən sonra bütün valları və valoxudanı qırdım. Onsuz da bu



downloaded from KitabYurdu.org

musiqi mənim xoşuma gəlmirdi.

4 oktyabr

Həyatımın ən anlaşılmaz terapiya seansı. Ştraus bunu açıq-aşkar gözləmirdi və əməlli-başlı hirsləndi.

Baş verənlər (mən bunu xatirə adlandırmağa cürət etmirəm) hər şeydən çox hallüsinasiyaya bənzəyirdi. Bu hadisəni izah, ya da interpretasiya etməyə çalışmayacağam, sadəcə, təsvir edəcəyəm.

Ştrausun kabinetinə yüngülvarı əsəbi halda daxil oldum, ancaq o özünü bilməməzliyə vurdu. Mən dərhal taxta uzandım, o isə, adətən, belə hallarda olduğu kimi böyrü mənə san stulda, ancaq bir az arxada, görmə sahəsindən kənarda oturdu. Oturub beynimdə toplanan çirkabı onun üzərinə nə vaxt püskürəcəyimi gözlədi.

Mən gizlicə Ştrausa baxdım. O, qoca və yorğun görünürdü və nədənsə mənə müştəri gözləyən Mattı xatırlatdı. Bunu Ştrausa dedim. O başını tərpətdi və gözləməyə davam etdi.

Bunu görüb soruşdum:

- Siz də müştəri gözləyirsiniz? Sizə bu taxtı bərbər kreslosu formasında düzəltdirmək lazımdır. Söhbət sərbəst assosiasiyalardan gedəndə sizə ancaq kreslonu pasiyentlə birlikdə arxaya əymək lazım olacaq, bərbər öz qurbanını sabunlamağa hazırlaşanda etdiyi kimi. Əlli dəqiqədən sonra kreslo əvvəlki vəziyyətinə qayıdır, sizsə o bədbəxtə öz yeni qırxılmış “məni”nə baxmaq üçün



downloaded from KitabYurdu.org

güzgü verirsiniz.

Ştraus susurdu, mənsə boşboğazlığıma görə utansam da, artıq dayana bilmirdim:

-Sonra pasiyent hər seansdan əvvəl deyəcək: "Zəhmət olmasa, təpəmdəki həyəcanı bir az götürün", ya da "Eqoizmimi çox qısaltmaym". O hətta yumurta şampunu da istəyə bilər, bağışlayın, mən eqo-şampun demək istədim.* (Burada ingiliscə "egg" (yumurta) sözüylə "ego" (mən) sözünün oxşarlığından istifadə olunub) Aha! Yanıldığımı hiss etdinizmi? Mən ego- şampun əvəzinə egg-şampun dedim. Egg və ego. Sizə elə gəlmirmi ki, çox yaxındır? Bu o mənaya gəlmirmi ki, mən günahlanmı yumaq istəyirəm? Dirilmək? Bu nədir? Baptist simvolizmi? Yoxsa, hər halda, çox qısa qırxacağıq?

Mən onun reaksiyasını gözləyirdim, ancaq o yalnız kresloda qurdalanırdı.

- Siz yatımsınız? - soruşdum.
- Mən diqqətlə dinləyirəm, Çarli.
- Ancaq dinləyirsiniz? Siz nə vaxtsa özünüzdən çıxmısınız?
- Sən bunu çox istəyirsən?

Mən dərindən nəfəs aldım.

-Mətin Ştraus... Bura baxın, bura gəlib-getmək mənim zəhləmi tökdü. Terapiyanın nə mənası var? Bundan sonra nə olacağını məndən yaxşı bilirsiniz.

-Mən nədənsə bizim seansların səni bezdirdiyini


downloaded from KitabYurdu.org

düşünmürəm, - Ştraus dedi.

-Amma bu, axmaqlıqdır! Boş vaxt itkisidir; həm mənə, həm də sizə!

Mən yanmqaranlıq otaqda uzanıb tavandakı balaca kvadratlara baxırdım, bunlar səs keçirməyən panellər idi, hər bir sözü udan minlərlə dəlik. Diri-diri basdırılan söz...

Başımda qəfil boşluq yarandı. Beynim boşaldı və bu, qeyri- adi idi, ona görə ki belə seanslar zamanı mən həmişə deməyə nəsə tapırdım. Yuxular... xatirələr... problemlər... assosiasiyalar...

Bu gün isə ancaq arxamdakı Mətin Ştrausun nəfəsi.

- Özümü yaman qəribə hiss edirəm, - dedim.
- Mənə danışarsan?

Ah, o necə də bərq vurur, necə də mahirdir! Mən özümü axı niyə bura soxdum? Assosiasiyalarımı tavandakı balaca dəliklər
və terapevtimdəki nəhəng deşiklər udsun deyə?

-Bu haqda danışmaq istəyimdən əmin deyiləm... Səbəbini bilmirəm, ancaq bu gün sizə qarşı kinliyəm... - Bununla da haqqında nə düşünürəmsə, hamısını Ştrausa demiş oldum.

Ştrausu görməsəm də, onun başını dalğın halda tərpətdiyini bildim.

-Bunu izah etmək çətindir, - davam etdim, - bu məndə cəmi bir, ya da iki dəfə olub, huşumu itirməzdən qabaq. Baş gicəllənməsi... Bütün hisslərim son həddəcən



downloaded from KitabYurdu.org

gərginləşib... Əl- ayağım keyləşir...

-Davam et! - İndi onun səsi kəskin və həyəcanlıydı. - Daha nə?

-Mən öz bədənimi hiss eləmirəm. Elə bilirəm ki, Çarli haradasa yanımdadır. Mənim gözlərim açıqdır... Mən buna əminəm... Onlar açıqdır?

- Hə, geniş açılıb.

-Tavandan mavi-bəyaz işıq düşür... o, sayrışan kürəyə dönür... Havadan asılır... O, gözlərimə hopur... beynimə... hər şey parıldayır... Mən üzürəm... yox, mən genişlənirəm... Mən
aşağı baxmıram, ancaq taxtda uzandığımı bilirəm. Bu nədir - məni qara basır?

- Çarli, sənə nə olub?

Mistiklərin öz əsərlərində təsvir etdikləri budur? Mən Ştrausun səsini eşidir, ancaq cavab verə bilmirəm. Onun burada olması məni əsəbiləşdirir. Ona əhəmiyyət verməyəcəyəm. Sakit ol və hər nə olursa olsun, məni işıqla doldurmasına, udmasına imkan ver...

- Sən nə görürsən, Çarli? Sənə nə olub?

Mən yuxarı uçuram, elə bil yarpaqlann isti hava axını məni tutub aparır. Bədənimin atomları sürətlənərək müxtəlif istiqamətlərə uçuşur. Mən yüngül və böyük oluram... böyük... Partlayıram və günəşə çevrilirəm. Mən sakit dənizdə üzən genişlənən kainatam. Bədənim otağı udur, binanı, şəhəri, ölkəni... Əgər aşağı baxsam,



downloaded from KitabYurdu.org

kölgəmin bütün planetin üzərinə düşdüyünü görəcəyəm.

İndi varlığımın qılafmı parçalayıb, balıq kimi okeanın üstünə tullanacağam, ancaq birdən nəyinsə məni aşağı çəkdiyini hiss etməyə başlayıram.

Mən qəzəblənmişəm və gözəgörünməz buxovlan üzərimdən qırıb atmaq istəyirəm. Kainatla tam bütövləşmək ərəfəsində ətrafımda pıçıltı eşidirəm. O məni aşağıya, ölərilər dünyasına çağırır. Dalğalar yavaş-yavaş çəkilir, ölçüyəgəlməz dərəcədə böyümüş ruhum yer ölçülərinə qayıdır, ancaq qətiyyən könüllü yox, əslində, mən itmək, yox olmaq istəyirəm, ona görə ki məni aşağı... özlərinə çəkirlər və bir an sonra mən yenidən fani bədənimin əlcəklərini şüurumun barmaqlarına çəkərək taxtda uzanmışam. Əgər istəsəm, əlimi qaldıra, ya da göz vura bilərəm, ancaq əgər istəsəm. Lakin istəmirəm! Mən yerimdən tərpənməyəcəyəm!

Uzanıb gözləyirəm. Çarli beynimin pərdəsini aralamağımı istəmir. Çarli onun arxasında nə gizləndiyini bilmək istəmir.

Yəni o, Tanrını görməkdən qorxur? Yoxsa heç nə görməyəcəyindən qorxur?

Mən uzanıb gözləyirəm, özünüdərk anı keçib-gedir və mən yenə bədənimi hiss etmirəm: Çarli məni özünə çəkir. Mən gözəgörünməz şeyin içinə, mərkəzinə, qırmızı nöqtəyə baxıram və o, çoxlu ləçəyi olan işıq saçan çiçəyə çevrilir - şüurumun


downloaded from KitabYurdu.org

altının dərinliyindən bitib burularaq qalxan, işıq saçan, bərq vuran çiçəyə.

Mən kiçilirəm. Bu mənim bədənimin atomlarının yaxınlaşması deyil - bu, ərimədir, sanki mənim "mənim"in atomları mikrokosmda birləşir. Dəhşətli isti və dözülməz gur işıq olacaq - cəhənnəm içində cəhənnəm - ancaq mən işığa baxmıram, ancaq çiçəyə baxıram, çox şeydən birinin çoxalmayan, bölünməyən varlığına. Panldayan çiçək bir anlıq ipdə fırlanan qızılı diskə çevrilir, sonra rəngbərəng saplar yumağına çevrilir... Budur, axır ki, yenə sakit və qaranlıq mağaradayam. Labirintlə üzərək mən qəbul edəcək... udacaq... içinə çəkəcək birini axtarıram.

Elə buna da başlayıram.

Dərinlikdə yenidən işıq görürəm, ən qaranlıq mağarada dəlik, balaca və çox uzaqda, sanki teleskopun tərs tərəfində gözqamaşdırıcı, parlaq bir işıq var, sonra isə yenidən çoxləçəkli çiçək (hərlənən şanagüllə - o, şüursuzluğa girişin yaxınlığında üzür). Əgər ora qayıda və işıq dolu kahaya tullana bilsəm, girişdə cavab tapacağam.

Hələlik yox!

Mən qorxuram. Nə həyat, nə ölüm, nə boşluq, nə də heç vaxt olmadığım şeyin kəşfi. Və elə ki hərəkət etməyə başlayıram, təzyiq məni dövrəyə alaraq dalğavarı qıcolmalarla dəliyə doğru itələyir. O çox balacadır! Mən


downloaded from KitabYurdu.org

ondan keçməyəcəyəm!

Qəfildən məni durmadan divara çırpmağa və ora, işığın gözlərimi yandıracağı yerə itələməyə başlayır. Müqəddəs parıltıya bürünmüş pərdəni dəlib keçəcəyimi bilirəm. Ancaq bu mənim dözümümü üstələyir. Mən hələ belə ağrı, soyuq, ürəkbulanma, başım üzərində minlərlə qanadın çırpılmasını andıran dözülməz uğultu görməmişəm. Mən kor olmuş gözlərimi açıram, qollarımı geniş açır, titrəyir və qışqırıram.

Bu durumdan çıxdım, ancaq kiminsə əlinin qaba və israrlı şəkildə məni silkələdiyini hiss etdim.

-Şükür Tanrıya, - şüurlu halda baxmağa başlayanda doktor Ştraus pıçıldadı. - Mən nə edəcəyimi bilmirdim.

- Məndə hər şey qaydasındadır.
- Bu günlük bəsdir.

Ayağa qalxanda səndələdim. Kabinet mənə çox balaca göründü.

- Yetər artıq, həm də təkcə bu günlük yox. Həmişəlik.

Doktor Ştrausun kefi, təbii ki, pozuldu, ancaq o məni inandırmağa çalışmadı. Paltomu geyinib çıxdım.

5 oktyabr

Makinada yazmaq artıq mənimçün çətindir, işləyən maqnitofonun qarşısında danışmağı isə bacarmıram. Bu məruzənin önəminə qərar verənəcən onu yazmağı xeyli təxirə saldım və nəsə yazmamış şam yeməyinə oturan deyiləm. Nə olur-olsun.


downloaded from KitabYurdu.org

Səhər tezdən professor Nemur yenə dalımca adam göndərmişdi. O, laboratoriyaya gəlib bir neçə testdən keçməyimi istəyirdi, eynilə əvvəlki testlərdən. Əvvəlcə elə bildim ki, elə belə də lazımdır, axı onlar hələ də mənə pul verirlər, həm də eksperimenti başa vurmaq lazımdır. Ancaq bunun necə dözülməz olduğunu universitetə gəlib, Bartla işləməyə başlayanda anladım.

Birincisi labirint şəkli idi. Elcernon ilə yarışarkən belə tapşırıqların öhdəsindən necə gəldiyim yadımdadır və indi bunu nə qədər asta etdiyimi aydın hiss etdim.

Bart əlini vərəqə uzadanda mən onu cırıq-cırıq edib zibil yeşiyinə atdım.

-Bəsdir. Labirintlərlə qurtarmaq lazımdır. Artıq bezdim, vəssalam.

Bart qorxdu, elə bildi indi çıxıb gedəcəyəm və məni dilə tutmağa başladı:

- Belə olmaz, Çarli, sakit ol.

-Mənə “sakit ol” deməklə nəyi nəzərdə tutursan? Sən mənim nələr keçirdiyimi anlamırsan?

-Yox, ancaq təsəvvür edə bilərəm. Biz hamımız özümüzü pis hiss edirik.

- Öz şəfqətini başqalanna saxla.

O tutuldu və bunun qətiyyən onun günahı olmadığı mənə indi çatdı.

-Bağışla... Sənin işlərin necədir? Diplomu yazıb - qurtardın?



downloaded from KitabYurdu.org

O başını tərpətdi.

-Makinada yenidən yığılmağa vermişəm. Fevralda fəlsəfə doktoru olacağam.

-Nümunəvi oğlansan! - Ona qarşı acıqlı olmadığımı göstərmək üçün əlimi çiyninə şappıldatdım. - Dərinliyə baş vur. Təhsildən yaxşı şey yoxdur. Dediklərimi unut, nə istəsən edəcəyəm. Labirintdən başqa.

- Nemur səni Rorşahda yoxlamağı xahiş edib.

-Ruhumun ən dərin nöqtəsinə baxmaq istəyir? Görəsən, oradan nə tapmaq istəyir?

Yəqin ki, kədərli görünürdüm, odur ki, Bart geri çəkildi:

- İstəmirsənsə, lazım deyil. Səni məcbur edən yoxdur...

- Yaxşı, getdik. Ancaq nəticəsini mənə deməzsən.

Deməyə lüzum da qalmadı.

Mən bu testdən tez-tez keçirdim və bilirdim ki, təcrübə aparanı sənin şəkillərdə nə gördüyün deyil, onları necə qavradığın maraqlandınr: bütöv bir tam olaraq, ya da tərkib hissələrinin cəmi kimi, hərəkətdə, yaxud sükunətdə, sən rəng
ləkələrinə diqqət edirsən, yoxsa əhəmiyyət vermirsən, cavabların müxtəlifdir, yoxsa bir neçə stereotipə əsaslanır.

-Məndən çox şey öyrənə bilməyəcəksən, çünki səndə müəyyən təsəvvür yaratmaq üçün necə cavab verməli



downloaded from KitabYurdu.org

olduğumu bilirəm. Qalır ancaq...

Bart lal-dinməz mənə baxırdı.

- Mənə qalır ancaq...

Birdən məni sanki gürzlə vurdular, nə etməli olduğumu xatırlamırdım. Elə bil qarşımda məktəb yazı taxtasına yazılmış mətn görürdüm, ancaq üzümü bir saniyə çöndərən kimi bəzi sözlər silinir, qalanları isə onlarsız heç bir məna vermirdi.

Əvvəlcə öz-özümə inanmadım. Təlaşlanaraq şəkillərə tez bir-bir baxdım, onları cırıb içlərində nə olduğuna baxmaq istəyirdim. Bu mürəkkəb ləkələrinin harasındasa mənim elə indicə bildiyim cavablar gizlənirdi... Yox, ləkələrdə yox, beynimin onlara forma verən hissəsində, onları vərəqlərdə yenidən göstərən də elə mənalarıdır.

Mən bunu edə bilmədim. Nə demək lazım olduğunu yadıma sala bilmədim. Hər şey silinmişdi. Mızıldandım:

-Bu, qadındır... O, diz üstə dayanıb döşəmə yuyur... Yox, bu, kişidir, əlində bıçaq var... - Bu yerdə hara getdiyimi anlayıb ayıldım: - İki fiqur var... Onlar nəyisə dartırlar... Hərəsi özünə tərəf... gəlinciyə oxşayır... İndi onu parçalayıb ikiyə böləcəklər... Yox! Demək istəyirdim ki, bu iki şəxs... Onlar bir-birinə şüşədən baxırlar... və...

- Şəkilləri itələyib stolun üstündən saldım və qalxdım.

- Heç bir test lazım deyil. Daha heç bir test olmayacaq.

- Oldu, Çarli. Gəl saxlayaq.

-Sən məni anlamadın. Mən bir daha bura gəlmək



downloaded from KitabYurdu.org

istəmirəm. Sənə lazım olanları mənim hesabatlanmdan götürməli olacaqsan. Heç bir labirint-filan olmayacaq və mən hind donuzu deyiləm. Artıq yetərincə çalışmışam, istəyirəm məni rahat buraxsınlar.

- Əlbəttə, Çarli, başa düşürəm.

-Heç nə başa düşmürsən, çünki bunlar sənin üzərində aparılmır. Bunu təkcə mən özüm anlaya bilərəm. Ancaq sənin heç bir günahın yoxdur. Sənin işin budur, elmi dərəcə almalısan... Ancaq mənə heç nə demək lazım deyil, mən sənin
bu işi bunsuz da yalnız bəşəriyyətə olan sevginə görə etdiyini bilirəm. Sənin bütün həyatın irəlidədir. Elə alınıb ki, biz səninlə fərqli mərtəbələrdə yaşayırıq. Mən yuxarı qalxarkən sənin mərtəbənə baş çəkdim, indisə aşağı düşərkən onun yanından keçirəm. Mənə nədənsə elə gəlir ki, bu liftdən bir daha istifadə etməyəcəyəm. Ona görə də gəl həmişəlik vidalaşaq.

- Bəlkə, doktorla danışasan...

-Mənim adımdan hamıya "sağ ol" söylə, danışdıq? Mən daha heç kəsi görmək istəmirəm.

Barta mənə nəsə söyləməyə və ya məni saxlamağa imkan vermədən laboratoriyadan çıxdım, aşağı enən lifti saxladım və Bekman universitetindən son dəfə çıxdım.

7 oktyabr

Bu gün səhər yanıma Ştraus gəlmişdi, ancaq onu içəri buraxmadım. Tək qalmaq istəyirəm.


downloaded from KitabYurdu.org

Cəmi bir neçə ay bundan qabaq ləzzət aldığım kitabı əlimə götürürəm, ancaq ondan heç nə yadıma düşmür. Qəribə duyğudur. Miltona necə heyran olduğumu xatırlayıram, ancaq

rəfdən "İtirilmiş cənnət"i götürəndə təkcə Adəmlə Həvva, bir də idrak ağacı yadıma düşdü.

Gözlərimi yumdum və Çarlini - özümü gördüm. Onun altı- yeddi yaşı var, qabağında dərs kitabı stol arxasında oturub. O oxumağı öyrənir, anam isə onun, mənim yanımda oturub...

- Təkrar elə!
- Bax Cek bax Cek qaçır. Bax Cek bax.

-Yox! "Bax Cek bax" yox, "bax Cek qaçır!" - və paltar yumaqdan kobudlaşmış barmağını sözün üzərinə qoyaraq tıqqıldadır.

- Bax Cek. Bax Cek qaçır. Qaç Cek bax...

-Yox! Sən çalışmırsan! Təkrar elə! Təkrar elə... təkrar elə... təkrar elə...

- Uşaqdan əl çək. O səndən qorxur.
- Ona oxumaq lazımdır. Çox tənbəldir!

...qaç Cek qaç... qaç Cek qaç... qaç Cek qaç...

-O, sadəcə, başqa uşaqlardan ləng qavrayır. Onu tələsdirmə.

- O, tamamilə normaldır. Ancaq tənbəldir! Mən lazım olan hər şeyi onun beyninə yeridəcəyəm!

...qaç Cek qaç... qaç Cek qaç... qaç Cek qaç...


downloaded from KitabYurdu.org

Sonra isə başımı stolun üzərindən qaldırıb, özümü əlində “İtirilmiş cənnət”i tutan Çarlinin baxışlanyla gördüm və başa düşdüm ki, kitabın cildini cırmaq istəyirəm. Onun yarısını cırdım, bir neçə vərəq qopartdım və hamısını qırıq valların olduğu küncə tulladım. Onlar oradan mənə baxır, nə demək istədiklərini anlamadığıma görə səhifələrin ağ dilləri mənə gülürdü.

Kaş ki hələ də bildiklərimin bir hissəsini saxlaya biləydim! İlahi, məndən hər şeyi alma!

10 oktyabr

Axşamlar, adətən, şəhərə gəzməyə çıxıram. Məqsədsiz- filansız. Sadəcə, yad üzlərə baxıram. Dünən axşam harada yaşadığımı xatırlaya bilmədim. Məni evə polis gətirdi və deyəsən, bu lap çoxdan da bir dəfə olmuşdu. Mən bunu yazmaq istəmirdim, ancaq dünyada bu durumu təsvir edə bilən yeganə adam olduğumu öz-özümə xatırlatmaq istədim.

Mən sanki yerimir, uçuram, ancaq parlaq, aydın, hər şeyi udan bozluğa bürünmüş məkanda uçuram. Bunu dərk edirəm, ancaq özümlə bacara bilmirəm. Mən addımlayıram, ancaq bəzən, sadəcə, səkidə dayanıb keçənlərin üzünə baxıram. Onlardan bəziləri altdan-altdan mənə baxır, bəziləri yox, ancaq bir tipi saymasaq, heç birisi mənimlə danışmadı, o da mənə qız lazım olub-olmadığmı soruşdu. Məni bir yerə apardı və on dollar beh istədi. Verdim, amma o, izsiz-soraqsız yoxa çıxdı.


downloaded from KitabYurdu.org

Necə axmaq olduğumu yalnız bundan sonra anladım.

11 oktyabr

Tezdən evə qayıdanda Alisanı divanda yatmış gördüm. Hər tərəf təmizlik qoxuyurdu və əvvəlcə mənə elə gəldi ki, öz mənzilimdə deyiləm. Sonra onun küncdə üst-üstə qalaqlanmış vallara, cırıq kitablara və notlara toxunmadığını gördüm. Döşəmə cırıldadı. Alisa oyandı və məni gördü.

- Salam, bayquş!

-Mən bayquş deyiləm, dodoyam.* (Hind okeanı adalarında yaşayan göyərçinə bənzərlər fəsiləsindən nəsli kəsilmiş quş, XVII-XVIII əsrlərdə ora aparılmış donuzlar tərəfindən nəsli kəsilmişdir). Səfeh dodo. Sən bura necə girmisən?

-Feyin mənzilindən yanğın nərdivanıyla. Ona zəng vurub səni soruşdum, dedi ki, özünü qəribə aparırsan və hamıyla dalaşırsan. Düşündüm ki, sənə baş çəkim... Buralan bir az yığışdırdım. Ümid edirəm ki, buna etiraz etməzsən.

-Edirəm və lap çox. Kiminsə mənə acımasına nifrət edirəm!

Alisa güzgüyə yaxınlaşıb saçlarını daramağa başladı.

-Mən bura sənə acıdığım üçün gəlməmişəm. Mənim özümə yazığım gəlir.

- Bununla nə demək istəyirsən?

- Demək istəyirəm ki... - O, fikirli halda çiyinlərini



downloaded from KitabYurdu.org

çəkdi.
- Bu... bu lap poemadakı kimidir. Mən səni görmək istədim.
- Onda bəs niyə zooparka getmədin?

-Lazım deyil, Çarli, xahiş edirəm... Mən səni çox gözlədim və... özüm gəlməyə qərar verdim.
- Niyə?
- Hələ vaxt var və mən onu səninlə keçirmək istəyirəm.
- Mahnıdakı kimi?
- Mənə gülmə, Çarli.

-Mən gülmürəm. Sadəcə, başqalanna vaxt sərf etmək istəmirəm. O heç mənim özümə çatmır.
- Mən sənin tənhalığı belə çox istədiyinə inanmıram.
- Mənim ən çox istədiyim elə budur.

-Biz bir yerdə elə az olmuşuq ki... Bizim danışmağa sözümüz, görməyə işimiz olub. Uzun sürməsə də, bizim dövranımız olub! Axı biz bunun baş verə biləcəyini bilirdik, bu heç birimiz üçün sirr deyildi. Çarli, mən səni rədd etmirdim, mən, sadəcə, gözləyirdim. Biz heç olmasa indi eyni səviyyədəyik?
Mən mənzildə var-gəl edirdim.

-Bu ki dəlilikdir! Bizim heç bir gələcəyimiz yoxdur! Mən gələcəyi görə bilmirəm, ancaq keçmişi xatırlayıram! Kim bilir, mən neçə aydan, həftədən, gündən sonra Uorrenə yollanacağam. Sən ki mənimlə ora gedən


downloaded from KitabYurdu.org

deyilsən, elə deyil?

- Yox, - Alisa razılaşdı. - Yəqin ki, sənə heç baş da çəkməyəcəyəm. Mən səni unutmağa çalışacağam və yalandan başqa cür edəcəyimi söyləmək istəmirəm. Ancaq nə qədər ki buradasan, təkliyə dözməyə gərək yoxdur.

O, ağzımı açmağa imkan verməyib məni öpdü. Biz divanda yanaşı oturduq. Mən gözləyirdim, ancaq təlaşlanmırdım. Bəli, Alisa qadındır, ancaq Çarli, görəsən, axır ki, onun anası və bacısı olmadığını anladımı?

Mən ağır xəstəlikdən sağalan xəstə kimi rahat nəfəs aldım, çünki daha heç bir şey məni saxlaya bilməzdi. Qorxu və riyakarlıq zamanı deyildi, artıq məndə dünyada heç kəslə belə alına bilməzdi. Bütün maneələr dağılmışdı. Alisanm mənə verdiyi ipi açmış, labirintdən çıxmışdım, o məni girişdə gözləyirdi. Mən onu sevirəm.

Özümü guya məhəbbətin nə demək olduğunu bilirmiş kimi göstərməyəcəyəm, ancaq baş verənlər seksdən ötə bir şey idi. Ayağım yerdən üzüldü, sanki bütün qorxulardan və işgəncələrdən yüksəyə qalxdım, özümdən daha böyük bir şeyin parçasına çevrildim. Məni ağlımın məhbəsindən çıxartdılar və
başqa bir varlığın parçası oldum. Beynimi bürümüş boz örtüyü işıq şüası dəlib keçdi. İşığın kor edə biləcəyi necə də qəribədir...


downloaded from KitabYurdu.org

Biz bir-birimizi sevirdik. Gecə sakit gündüzü tədricən əvəzlədi. Mən Alisayla yanaşı uzanıb fiziki sevginin necə mühüm olması, bir-birimizi qucaqlamağımızın, qarşılıqlı nəvazişlərin necə zəruri olduğu haqda düşünürdüm. Kainat genişlənir, onun hər bir hissəciyi digərindən uzaqlaşaraq, bizi fəzanın qaranlıq və sərhədsiz tənhalığına ataraq, uşağı anadan, dostu dostdan ayıraraq, hər kəsi öz cığınyla vahid hədəfə - ölümə və tənhalığa yönəldir.

Sevgi bu dəhşətə ziddir, sevgi bütövləşmə və qorunma aktıdır. İnsanlar fırtına zamanı dənizə düşməmək üçün əl-ələ tutduqları kimi, bədənlərimizin birləşməsi də bizi boşluğa yuvarlanmaqdan saxlayan zəncirin bir halqasıdır.

Yuxuya getməzdən qabaq Feylə kiçik intriqamızı xatırlayıb gülümsədim. Hər şey necə də sadəydi! Həm də qəribəydi...

Dirsəklənib Alisanın qapalı gözlərindən öpdüm.

Artıq o mənim haqqımda hər şeyi bilir, həm də uzun müddət birlikdə olmayacağımızı da. O mənim istədiyim anda getməyə razıdır. Bu haqda düşünmək ağırdır, ancaq bizim əldə etdiklərimiz insanların əksəriyyətinin bütün ömürləri boyu əldə etdiklərindən çoxdur.

14 oktyabr

Səhərlər oyananda uzun müddət harada olduğumu, nə etdiyimi dərk etmirəm, sonra Alisanı görüb xatırlayıram. O məndə hər şeyin qaydasında olmadığını hiss edir və



downloaded from KitabYurdu.org

mümkün qədər az səs salmağa çalışaraq, adi işlərlə məşğul olur: səhər yeməyi hazırlayır, yatağı yığışdırır. Bəzən məni tək qoyaraq çıxıb gedir.

Axşam biz konsertə getdik, ancaq mənə darıxdırıcı olduğundan sonacan qalmayıb çıxdıq. Musiqiyə qulaq asa bilmirəm.

Ümumiyyətlə, bir zamanlar Stravinskidən xoşum gəldiyinə görə getmişdim, ancaq bu dəfə nədənsə hövsələm çatmadı.

İndi Alisa yanımda olanda hiss edirəm ki, bununla mübarizə aparmağa, sadəcə, borcluyam. Mən zamanı saxlamaq,
özümü dondurmaq istəyirəm və sevgilimi heç yerə buraxmaq istəmirəm.

17 oktyabr

Niyə heç nə xatırlamıram? Alisa deyir ki, bütün günü yatağımda uzanıram və ona elə gəlir ki, kim olduğumu anlamıram. Sonra şüurum qayıdır, onu tanıyıram və nə baş verdiyini xatırlayıram. Total amneziyanın ilkin əlamətləri.
İkinci uşaqlığın simptomları - ona nə deyirlər? Marazm? O irəliləməkdədir.

Bunda çox qəddar, amansız bir məntiq var. Beyində gedən proseslərin süni tezləşdirilməsinin nəticəsi. Mən çox sürətlə çox şeyə nail oldum və sürətlə də tənəzzül edirəm. Bəs təslim olmasam, necə olacaq? Əgər özüm


downloaded from KitabYurdu.org

uğranda mübarizə aparsam? Yadıma Uorren xəstəxanasındakı pasiyentlər düşür - mənasız gülüşlər, sönük gözlər...

Balaca Çarli Qordon pəncərədən mənə baxır. O gözləyir. İlahi, özün qoru!

18 oktyabr

Bu yaxınlaradək bildiyim şeyləri unutmağa başlamışam. Klassik örnək: yaxında olanlar daha tez yaddan çıxır.

"Elcernon - Qordon effekti" məqaləsini yenidən oxudum. Onu özüm yazdığımı bilirəm, ancaq elə bilirəm başqası yazıb. Mən ondan, demək olar ki, heç nə başa düşmədim.

Bəs niyə belə əsəbi olmuşam? Xüsusilə də Alisa yanımda olanda. O, mənzili təmiz və səliqəli saxlayır, daim mənim şeylərimi, qab-qaşığımı yığışdırır, döşəməni yuyur. Səhər tezdən onun üstünə çığırmamalıydım. O ağladı, mənsə bunu qətiyyən istəmirəm. Onun qırıq plastinkaları, notları və kitabları yığışdırmağa, səliqəylə qutulara yığmağa haqqı yoxdur. Mən həqiqətən hirsləndim. Onlara kimsənin toxunmasını istəmirəm. Onların keçmişin xatirəsi kimi daim gözümün qabağında olmasını istəyirəm. Qutunu çevirib bütün qırıntıları döşəməyə səpələdim və Alisaya onlara toxunmağı qadağan etdim.

Axmaqlıq. Bununçün heç bir səbəb yoxdur. Yəqin,



downloaded from KitabYurdu.org

ona görə partladım ki, onun bu zir-zibili saxlamağın axmaqlıq hesab etdiyini və mənə heç bir söz demədiyini bilirdim. O, yalandan
özünü elə göstərir ki, guya hər şey qaydasındadır. O mənim könlümü alır. Həmin qutunu görəndə Uorrendəki oğlanı, onun düzəltdiyi yöndəmsiz lampa altlığını və hamımızın onu yalandan tərifləyib könlünü aldığımızı xatırladım.

O da mənə qarşı eyni şeyi edir. Ancaq mənim daha buna dözümüm yoxdur.

O, yataq otağına girib ağlayanda özümü tamamilə pis hiss etdim. Dedim ki, günahkar təkcə mənəm, ona layiq deyiləm. Niyə özümə Alisanı sevməyə davam edəcək qədər nəzarət edə bilmirəm. Heç olmasa bu qədər...

19 oktyabr

Hərəkət koordinasiyam bərbaddır. Daim büdrəyir, əşyalan aşırıram. Əvvəlcə mənə elə gəldi ki, bunda hər şeyin yerini dəyişən Alisa günahkardır. Ayağım gah zibil qutusuna ilişir, gah da kresloya...

Amma belə deyil, günah özümdədir... Getdikcə daha asta hərəkət edir, makinada çətinliklə yazıram. Alisada günah yoxdur, bəs niyə mənimlə mübahisə edir? Onun üzündəki rəhmdil ifadə məni daha da hirsləndirir. İndi yeganə əyləncə
televizordur. Sutkalarla onun qarşısında oturub köhnə vestemlərə, sabun operalarına, hətta multfilmlərə



downloaded from KitabYurdu.org

baxıram. Özümü, sadəcə, onu söndürməyə məcbur edə bilmirəm. Axşamdan keçmiş melodramlar başlayır, sonra qorxu filmləri, ondan sonra yatmayanlar və heç yatmayanlar üçün verilişlər. Gecə kanal ah çəkib bağlanmazdan qabaq kiçik moizə oxunur, sonra dalğalanan ulduzlu-zolaqlı bayrağın fonunda himn oxunur... Və nəhayət, tor-tor şəbəkə, mənə baxan balaca kvadrat pəncərə...

Niyə mən həyata daim pəncərə şüşəsindən baxıram?

Sonra öz-özümə hirslənməyə başlayıram, axı nəsə yazmağa, oxumağa, yaxud, sadəcə, düşünməyə çox az vaxtım qalıb. Niyə özümü içimdə oturan uşaq üçün nəzərdə tutulmuş bu cəfəngiyyatla gic edirəm? Xüsusilə də həmin uşaq onun ağlını qaytarmağımı tələb edirsə.

Bütün bunları çox gözəl anlayıram, ancaq Alisa boş yerə vaxt itirdiyimi deyəndə quduzlaşıram və bağıraraq məni rahat buraxmasını deyirəm.

Aydındır ki, televizora məhəbbət düşünmək, çörəkxananı, anamı, atamı, Normanı xatırlamaq istəməməyin nəticəsi olaraq meydana çıxmışdı. Mən artıq keçmişi xatırlamaq istəmirəm.

Bu gün dəhşətli gündür. Kryugerin nəticələrindən öz araşdırmalanmda uğurla istifadə etdiyim «Uber Psychische Ganzheit» əsərinə bir daha baxmaq istədim. Onun köməyi ilə öz məqaləmi anlamağa ümid edirdim. Əvvəlcə mənə elə gəldi ki, gözlərimdə nəsə qaydasında



downloaded from KitabYurdu.org

deyil. Sonra anladım ki, almanca oxuya bilmirəm. Başqa dilləri də yoxladım. Hamısını unutmuşdum.

21 oktyabr

Alisa getdi. Baxaq görək xatırlaya biləcəyəmmi... Hər şey onun daha bu donuz damında yaşaya bilmədiyini söyləməsiylə başladı.

-Yaxşısı budur, hər şeyi olduğu kimi saxla, - onu xəbərdar etdim.

- Yəni bu sənin xoşuna gəlir?

-Mən, sadəcə, hər şeyin olduğu, mənim qoyduğum kimi qalmasını istəyirəm, mənə bunlann hamısını birdən görmək

lazımdır. Sən bunun nə demək olduğunu, içində nəsə görünməz, nəzarət olunmayan bir şey baş verdiyini, hər şeyin barmaqlarının arasından axıb getdiyini təsəvvür və dərk edə bilmirsən.

-Sən haqlısan. Mən sənə nə olduğunu anlaya bildiyimi heç demirəm də, nə məndən qat-qat ağıllı olanda, nə də indi. Qulaq as, gör sənə nə deyirəm. Sən əməliyyata qədər belə deyildin. Zir- zibil içində eşələnmir, daim televizorun qarşısında oturmaqla beynini kirlətmir, adamlara bağırıb, onları acılamırdm. Səndə hörmət doğuran nəsə vardı, hə, hə, hörmət! Ağıldankəmlərdə mən əvvəllər belə şeylər görməmişəm.

- Mən baş verənlərə görə zərrə qədər də üzülmürəm.

-Mən də, ancaq sən çox şey itirdin. Sənin təbəssümün



downloaded from KitabYurdu.org

vardı...

- Boş və mənasız!

-Yox, əsl, isti təbəssüm! Axı sən insanlann xoşuna gəlmək istəyirdin.

-Əlbəttə, istəyirdim. Amma onlar mənimlə oynadılar, ələ saldılar...

-Sən onların niyə şənləndiyini anlamasan da, hiss edirdin ki, əgər gülürlərsə, deməli, xoşlanna gələ bilərsən. Sənin yeganə arzun insanlann xoşuna gəlmək idi! Sən özünü uşaq kimi aparır və onlarla birlikdə
şənlənirdin.

- İndi mənim belə bir arzum yoxdur.

Alisa hönkürməmək üçün var qüvvəsini sərf edirdi. Deyəsən, mənə də elə bu lazım idi.

-Ağıllanmaq mənə, bəlkə də, elə buna görə lazım idi. Elə bilirdim bu məni insanlara sevdirəcək, onlan mənə dost edəcək... Gülməlidir?

- Yüksək İQ həyatda başlıca şey deyil.

Mən hirsləndim. Yəqin, Alisanın nəyə eyham vurduğunu heç cür anlamadığımdan. Son günlər o, tez-tez müəmmalar, eyhamlarla danışır, ancaq qəlbinin dərinliyində xətrimə dəyəcəyindən qorxurdu.

- Sənin getmək vaxtın çatıb.

Alisa qızardı.

- Hələ tezdir, Çarli. Məni qovma.

-Sənin burada olmağın həyatımı dözülməz edir.



downloaded from KitabYurdu.org

Özünü yalandan elə aparırsan ki, guya mən çoxdan unutduğum şeyləri hələ də anlaya və edə bilərəm. Eynilə anam kimi...

- Doğru deyil!

-Bu hər şeydən görünür. Mənim tökdüklərimi tez silib- süpürməyindən, məni maraqlandıra biləcək kitabları görünən yerlərə qoymağından, məni müzakirəyə cəlb etmək ümidiylə yenilikləri danışmağından. Sən əwəlkitək müəllimə olaraq da qalmısan. Mən daha muzeylərə və konsertlərə getmək istəmirəm, məni mübarizə aparmağa və düşünməyə məcbur edən heç nə etmək istəmirəm!

- Çarli!

-Sadəcə, çıx get. Məni tək burax. Mən artıq mən deyiləm. Mən parça-parça olmuşam və sən mənə lazım deyilsən.

Bu yerdə Alisa dözməyib hönkürdü. Gündüz əşyalarını yığıb getdi. Mənzil boşaldı və sakitləşdi.

25 oktyabr

İşlər getdikcə daha da pisləşir. Yazı makinasından imtina etmişəm, koordinasiyam bərbaddır. Bundan sonra hesabatları

əllə yazmalı olacağam. Alisanın dedikləri barədə xeyli düşündüm və birdən başa düşdüm ki, əgər yeni nəsə oxuyub, yadda saxlamağa davam etsəm, hətta köhnələrin unudulduğu indiki şəraitdə belə ağlımı qismən qoruyub



downloaded from KitabYurdu.org

saxlaya bilərəm. Eskalator aşağı doğru gedir. Əgər bir pillədə dayansam, yəqin ki, lap dibə düşəcəyəm. Əgər yuxan qaçsam, onda yerimdə qala bilərəm. Deməli, nəyin bahasına olursa olsun, yuxarı.

Kitabxanaya gedib bir qucaq kitab yığdım. Onların çoxu mənimçün anlaşılmaz idi, ancaq fərqi yoxdur. Onlan oxuduqca, ən azı, oxumağı yadırğamayacağam. Ən başlıcası budur. Oxu, Çarli, bəlkə də, xilas oldun...

Alisa getdikdən bir gün sonra doktor Ştraus gəldi, deməli, Alisa ona mənim haqqımda danışmışdı. Özünü elə apardı ki, guya hesabatlar üçün gəlib, dedim ki, göndərərəm. Onun yanıma gəlməsini istəmirəm. Mənə görə narahat olmamasını xahiş etdim və əlavə etdim ki, nə vaxt öz qayğıma qala bilməsəm, qatara minib Uorrenə yollanacağam.

Fey ilə danışmaq istədim, ancaq o məndən qorxur. Yəqin, elə bilir ki, dəli olmuşam. Dünən gecə özüylə kimisə gətirmişdi,

ancaq o mənə çox gənc göründü. Səhər tezdən ev sahibəsi miss Muni isti şorba gətirdi. Dedi ki, guya hər şeyin qaydasında olduğunu öyrənmək üçün gəlib. Şorba çox dadlıydı. Miss Muni özünü elə apardı ki, guya mənə baş çəkməyə özü qərar verib, ancaq mən hələ belə şeylərə inanacaq qədər səfehləşməmişəm. Bunu ondan ya Alisa, ya da Ştraus xahiş etmişdi. Qoy olsun. O, irlandiyalı ləhcəsində danışan xoşxasiyyət yaşlı qadındır, kirayəçilər



downloaded from KitabYurdu.org

haqqında danışmağı xoşlayır. O, mənzili zibilliyə döndərdiyimi gördü, ancaq heç nə demədi.

ı noyabr

Bir həftə özümü yazmağa məcbur edə bilmədim. Vaxtımın hara getdiyini bilmirəm. Bu gün bazardır, bilirəm, çünki adamların yolla kilsəyə getdiklərini görürəm. Mənə elə gəlir ki, bütün həftəni yataqda uzanmışam, ancaq miss Muninin bir neçə dəfə yemək gətirdiyi və xəstələnib-xəstələnmədiyimi soruşması yadımdadır.

Nə edəcəyimi bilmirəm. Bütün günü burada oturub pəncərəyə baxa bilmərəm axı. Gərək özümü ələ alam. Nəsə etmək lazım olduğunu dönə-dönə təkrarlayıram, ancaq sonra

unuduram, ya da, ola bilsin ki, nəsə etmək lazım olduğunu öz- özümə deyəndə heç nə etməmək, sadəcə, asandır.

Məndə kitabxana kitabları hələ çox idi, ancaq onlardan, demək olar ki, heç nə anlamıram. İndi çoxlu detektiv, qədim dövrün kralları və kraliçaları haqda oxuyuram. Mən ntsar olduğunu düşünən və dostuyla qoca atda gedən adam haqqında kitab oxudum. O nə edirdisə etsin, yenə də məğlub olurdu.

Hətta dəyirmanların əjdaha olduğunu düşünəndə də. Əvvəlcə mənə elə gəldi ki, bu, səfeh bir kitabdır, çünki adam axmaq olmasaydı, dəyirmanlara əjdaha deməz,



downloaded from KitabYurdu.org

sehrbazlann və tilsimlənmiş qəsrlərin mövcudluğuna inanmazdı, lakin sonra yadıma düşdü ki, bütün bunlann nəsə bir anlamı olmalıdır - belə şeylər kitablarda açıq yazılmır, onlara yalnız eyham vurulur. Oxumağa davam edir, hər gün yeni şeylər öyrənirəm və bunların mənə kömək edəcəyini bilirəm.

Hesabatlar yazmaq lazımdır ki, laboratoriyada başıma nələr gəldiyini bilsinlər. Ancaq yazmaq getdikcə çətinləşir.
Hətta sadə sözləri belə lüğətdə axtarmalı oluram və buna əsəbiləşirəm.

2 noyabr

Dünən qarşı tərəfdəki evin birinci mərtəbəsində yaşıyan qadın hakkında yazmağı unutdum. Keçən həftə onu mətbəxin pəncərəsinnən görmüşdüm. Mən onun adının və hətta yuxarı hissəsinin necə olduğunu bilmirəm ancaq hər axşam on birə qalmış vanna otağına girib duşun altında yuunur. O heş vaxt pərdəni çəkmir və mən işığı söndürəndə pəncərədən o məhrəbayla qurulananda boynunnan aşağı hissəsini görürəm.

Mənə maraqlıdır ancaq xanım işığı söndürəndə darıxıram və özümü tənha hiss edirəm. Mən onun üzünün gözəl olub olmadığını görmək istiyirəm. Bilirəm ki qadınnara xəlvəti baxmaq yaxşı deyil amma özümlə bacara bilmirəm. Əgər mənim baxmağımnan xəbəri yoxdusa nə fərqi var.



downloaded from KitabYurdu.org

Artıq on birə qalıb. Vaxtdır. Gedim baxım.

5 noyab

Misis Muni mənə görə narahatdı. O dedi ki bütün günü çarpayıda uzanıb heş nə etməməklə onun oğlunu xatırladıram o da özünü pəncərədən atmamışdan qabaq belə edirmiş. O dedi tənbəllərdən xoşu gəlmir. Əgər xəstələnmişəmsə bu başqa
məsələ ancaq avaralıq edirəmsə ona lazım deyiləm. Mən dedim ki mənə elə gəlir ki xəstələnmişəm.

Mən çalışıram ancaq hekayələri oxuya bilmirəm bəzən dəfələrcə oxusam da nə hakda olduğun başa düşmürəm. Yazmaq da çətindi. Bilirəm ki lüğətdə sözdərə baxmalıyam ancaq daim yorğun oluram.

Ağlıma gəldi ki uzun yox qısa sözdərdən istifadə edim. Bu vaxta qənaət olacaq. Bayırda hava soyuyub amma mən yenə də Elcernonun qəbrinə gül qoyuram. Misis Muni siçooulun qəbrinə gül qoymağı səfehlik hesab edir ancaq mən ona dedim ki Elcernon xüsusi siçool idi.

Mən Feyin yanma getmək istədim ancaq o dedi ki get bir də bura gəlmə. O qapısına yeni kilid qoyub.

9 noyab

Yenə bazardı. Heş bi işim yoxdu çünkü tilivizir xarab olub mənsə usta çağırmağı unutmışam. Diyəsən kolecin sonuncu qəbzini də itirmişəm. Yadımda deyil.

Başım dəhşətdi ağnyır və asperin qətiyən köməy



downloaded from KitabYurdu.org

etmir. Misis Muni indi doğurdan düşünür ki xəstəyəm və mənə yazığı gəlir. Kimsə xəstələnəndə o əla qadın olur. Bayırda çox soyuqdu və mən iki svitir geyməyə məcbur oluram.

Qarşı binadakı xanım pərdəni çəkməyə başdayıb və mən heş nə görmürəm. Bəxtim yoxdu.

10 noyab

Misis Muni yanıma əla bir doktor gətirdi. O qorxur ki birdən ölərəm. Ona dedim ki elə də xəstə deyiləm sadəcə dalğınam. O soruşdu ki dostdanm və qohumlarım var mənsə dedim ki yox heş kəsim yoxdu. O mənə elə baxdı ki elə bil tamam başdan xarabam.

Mən ona dedim ki dahi olmuşam o isə mənnən uşaq kimi danışdı və misis Muniyə göz vurdı. Mən hirsdəndim çünkü məni doluyurdı onu qovdum və qapını bağladım.

Mənə elə gəlir ki bəxtimin niyə gətirmədiyin bilirəm. Ona görə ki dooşan pəncəsin və nalımı itirmişəm. Təzəsin tapmaq lazımdı.

11 noyab

Bugün dok Ştraus gəlmişdi Alisa da ancaq mən onları içəri bıraxmadım. Onlara dedim ki heş kimi görmək istəmirəm. Mən tək olmaq istiyirəm. Sonra misis Muni yemək gətirmişdi və mənə dedi ki olar kirayə pulunu ödədilər və yemək mənə lazım olannarı almaq üçün pul verdilər. Mən ona dedim ki daha olann pulundan istifadə etmək istəmirəm. O dedi ki pul puldu və kimsə onu



downloaded from KitabYurdu.org

ödəməlidi yoxsa səni burdan çıxarmalı olaram. Sonra o dedi ki işsiz gücsüz avaralanmaqdansa özünə iş tap.

Mən çörəkxanada etdiyimnən başka iş bilmirəm. Mən ora qayıtmaq istəmirəm çünkü onlar mənim ağıllandığımı bilirlər və mənə güləcəklər. Mən bilmirəm pul qazanmaq üçün başka nə edə bilərəm ancaq hər şeyin pulunu özüm ödəmək istiyirəm. Mən güclüyəm və işliyə bilərəm. Əgər öz qayğıma qala bilməsəm onda Uorrenə gedəcəm. Heş kəsin xeyir xahlığın istəmirəm.

15 noyab

İstədim köhnə hesabatdarımı oxuyum və qəribədi ki öz yazdıqlanmı oxuyammıram. Bəzi sözdəri ayırd edə bilirəm ancaq heş bir məna çıxardammıram. Aptekdən aldığım
kitapları oxumağa başdayan kimi yoruluram. Təkcə içində gözəl qızdann şəkilləri olannardan başka. Olara baxmaq mənim xoşuma gəlir gözəl yuxular görürəm. Bu yaxşı deyil. Daha olan almıyacam. Mən oxumuşam ki sehirli toz düzəldiblər onu içən adam gücdü və ağıllı olur çox şey bacarır. Ola bilər ki bəzi şeylərimi satım və onnan özümə bir az alım.

16 noyab

Alisa yenə gəlmişdi ancaq mən dedim ki çıx get səni görməy istəmirəm. O ağladı və mən də ağladım mən onu ona görə buraxmadım ki istəmədim mənə gülsün. Mən ona dedim ki daha mənim xoşuma gəlmir və təzədən



downloaded from KitabYurdu.org

ağıllı olmaq istəmirəm. Bu doğru deyil. Mən onu hələ də sevirəm və hələ də ağıllanmaq istiyirəm ancaq elə dedim ki çıxıb getsin. Misis Muni dedi ki Alisa mənim qayğıma qalmaq və kirayə üçün pul gətirmişdi. Mən bunu istəmirəm. İş tapmağ lazımdı.

Xaiş edirəm... lütfən... qoy mən oxumağı və yazmağı unutmuyum...

18 noyab

Mister Donner məni görəndə və köhnə işimə qayıtmağ istədiyimi eşidəndə çox təcübləndi. Əvvəlcə şüphələndi amma sora mən ona başıma gələnnəri danışdım və o kədərrəndi əlini çiynimə qoydu və dedi ki Çarli afərin sənə.

Hamı mənə baxdı və mən aşağı düşüb əvvəlki kimi ayaqyolun yumağa başdadım. Mən öz özümə dedim ki Çarli əgər olar sənə gülsələr fikir vermə çünkü olar sənin əvvəllər düşündüyün kimi ağıllı deyillər. Həmdə olar əvvəllər sənin dostdann idi və əgər sənə gülürdülərsə deməli olann xoşuna gəlirsənmiş.

Mən gedənnən sora bura gələnnərdən birinin adı Mayer dir. Klaus mənə pis şey elədi. Mən un kisələrini yükliyəndə yuxarı yanıma qalxıb dedi ki ey Çarli eşitmişəm ki sən kəlləli oğlansan lap dahisən. Ağıllı bir şey söylə. Mən bunnan incidim çünkü bildim ki mənə gülür. Ona görə də işimə davam elədim. Sonra o yaxma gəldi və qolumnan bərk yapışıb üstümə kışqırdı. Sənnən



downloaded from KitabYurdu.org

danışanda küçük mənə qulaq as. Yoxsa qolunu qıraram. O qolumu burdu və məni çox ağrıtdı qorxdum ki dediyi kimi qolumu qırar. O isə güldü və qolumu daha çox burdu mənsə bilmədim neyniyim. Mən bərk qoxdum elə bildim ağlıyacam amma ağlamadım və tualetə getmək istədim çünkü qarnım bərk sancılandı və elə bildim indi partlıyacam çünkü özümü saxlaya bilmirdim.

Mən ona dedim ki xaiş edirəm buraxsın çünki tualetə getmək istiyirəm o isə güldü mənsə bilmədim neyniyim. Mən ağladım. Buraxın məni. Sora isə mən şalvarımı batırdım və iylənə-iylənə ağladım. O məni buraxdı onun sifəti əyildi və dediki ilahi Çarli mən istəmirdim belə olsun.

Co Karp gəlib Klausun yaxasınnan yapışdı və onnan əl çək dedi yoxsa sənin boynunu qıraram yaramaz dəyyus. Çarli əla oğlandı və kim ona sataşsa cəzalanacaq. Mən utandım və özümü təmizləməyə paltarımı dəyişməyə qaşdım.

Mən qayıdıb gələndə Frenk və Cimpi də gəldilər və Co olara danışdı olar dedilər Klausu burdan qolamaq lazımdı. Olar mister Donnerə xəbər vermək istədilər ki onu qolasm. Mən olara dedim ki qolamaq lazım deyil çünkü onun arvadı və uşağları var. Mən dedim ki Klausa şans vermək lazımdı çünkü o daha mənə heş bi pislik etmiyəcək.

Sonra Cimpi taxta ayağıyla axsıyıb mənə yaxınnaşdı



downloaded from KitabYurdu.org

və dedi ki Çarli əgər sənə kimsə sataşsa mənə Coya və Frenkə de biz onun dərsini verərik. Biz istiyirik ki sən dost darın olduğun biləsən və heş vaxt bunu unutmıyasan. Mən dedim sağ ol Cimpi. Mən yaxşıyam.

Adamın dostdan olması necə də yaxşıdı.

21 noyab

Bugün mən axmaq bir şey elədim mis Kinnianın yanma böyüklər mərkəzinə əvvəlki kimi getmədiyimi unutdum. Gəlib əvvəlki köhnə yerimdə oturdum və o mənə maraqla baxıb soruşdu ki Çarli sən hardaydm. Mən dedim salam mis Kinnian mən oxumağa hazıram amma kitabımı itirmişəm.

O ağladı və qaçıb sinifdən çıxdı və hamı mənə baxmağa başdadı və mən gördüm ki olar demək olar ki hamsı mənim sinif yoldaşdarımdı.

Bu zaman dərhal əməlyat və necə ağıllı olmağım hakda bəzi şeylər xatırladım və dedim ki məsələ belədi ki mən Çarli Qordonu öldürdüm. O qayıdıb gəlməmiş mən çıxıb getdim.

Ona görə də mən həmişəlik Uorrenə gedirəm. Təzədən axmaq olmaq istəmirəm. İstəmirəm ki mis Kinnianın mənə yazığı gəlsin. Bilirəm ki çörəkxanada da hamının mənə yazığı gəlir və mən elə bi yerə gedirəm ki orda mənim kimilər çoxdur və heş kəsi maraqlandırmır ki Çarli Qordon əvvəl dahi olub amma indi kitap oxuya bilmir.


downloaded from KitabYurdu.org

Mən özümlə iki kitap götürəcəm oxuya bilməsəm də çalışacam bəlkə əməlyata qədər olduğumnan əməlyatsız bir az ağıllı oldum. Məndə təzə dooşan pəncəsi və xoşbaxt penni var hətta sehirli tozdan da bir az qalıb və bəlkə də onların mənə köməyi dəydi.

Mis Kinnian əyər bunları oxusaz mənə yazığınız gəlməsin. Mən şadam ki ikinci şansım olub sizin dediyiniz kimi mən ağıllı olmuşam və siz mənə çox şey öyrətmisiz mən dünyadakı çox şeydən xəbərsiz idim və mən şadam ki nəsə gördüm. Yaxşı ki atamı anamı Normanı və özümü xatırladım. Axı onları yada - salmıyanacan görmiyənəcən elə bil heş ailəm yox idi amma indi bilirəm ki doğmalarım olub və mən hamı kimi adam olmuşam.

Mən bilmirəm niyə təzədən axmaq oldum ya da nəyisə lazım olduğu kimi eləmədim. Bəlkə bu ona görə oldu ki mən çox çalışdım ya da kiminsə mənə gözü dəydi. Ancaq mən necə lazımdır çalışsam ağıllanacam və bütün sözdərin mənasın anlıyacam. Mən cildi cırıq olan mavi kitabı oxumağın necə gözəl olduğun xatırlıyıram. Gözdərimi yumub kitabın üzünü cıran adamı xatırlıyanda görürəm ki mənə oxşuyur ancaq başka cür baxır və danışır və mənə elə gəlir ki o mən deyiləm çünkü mən onu sanki pəncərədən görürəm.

Söz verirəm ki ağıllı olmağa çalışacam ki özümü yenidən yaxşı his edim. Bilmək və ağıllı olmaq necə də



downloaded from KitabYurdu.org

yaxşıdı və dünyada hər şeyi bilmək istiyirəm. Mən dərhal ağıllanmaq istiyirəm. Əyər imkanım olsaydı oturub daim oxuyardım. Mərc gəlirəm ki mən dünyada ilk ağıldankəməm ki elm üçün mühüm nəsə etmişəm. Mən nəsə eləmişəm amma yadımnan çıxıb nə. Mənə elə gəlir ki bunu hamı üçün eləmişəm özüm kimi insannar üçün.

Əlvida mis Kinnian və dok Ştraus və hamı hamı.

P.S. Zəhmət olmasa prof Nemura deyin ki adamlar ona güləndə inciməsin və onda onun çoxlu çoxlu dostdan olacaq. Əyər sənə gülməyə icazə verirsənsə çoxlu dosdun olacaq. Harda ki mən yaşıyacam orda çoxlu dostdanm olacaq.

P.S. Zəhmət olmasa əyər mümkündüsə Elcernonun qəbrinə çiçəklər qoyun. Arxa həyətdədi.



downloaded from KitabYurdu.org